# AZƏRBAYCAN AŞIQ ŞERİNDƏN SEÇMƏLƏR

**İKİ CİLDDƏ**

**I CİLD**

"ŞƏRQ-QƏRB"
BAKI–2005

*Bu kitab "**Azərbaycan aşıqları və el şairləri.** İki cilddə. I cild"*
*(Bakı, Elm, 1983) nəşri əsasında təkmilləşdirilərək*
*təkrar nəşrə hazırlanmışdır*

Tərtib edənlər: **Əhliman Axundov**
**İsrafil Abbaslı**
**Hüseyn İsmayılov**

**894.3611 - dc21**
**AZE**
**Azərbaycan aşıq şerindən seçmələr.** İki cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 376 səh.

Azərbaycan aşıq sənətinin ən başlıca xüsusiyyəti onun milli özünəməxsusluğudur. Elimizin tarixən yaratdığı solmaz bədii düşüncə sərvətləri içərisində tükənməz gözəllik xəzinəsi təşkil edən aşıq poeziyasında neçə-neçə nəsillərin, dövrlərin mənəvi təcrübəsi durulub. Dərin məzmunlu zəngin sənət növü kimi aşıq yaradıcılığının qaynağı insan, onun dünyada yeri, təbiətlə münasibətidir.

Orta əsr və XIX yüzilliyin tanınmış el sənətkarlarının seçmə əsərlərini əhatə edən bu kitabda dövrün, zamanın keşməkeşlərindən keçərək, misilsiz poetik irsə çevrilmiş, xalqın mənəvi aləminin, bədii təfəkkürünün, estetik zövqünün zənginləşməsində müstəsna rol oynamış lirik incilər toplanmışdır. Bu el çələngi – qaynar söz-saz çeşməsi yüzilliklər boyu ideya-bədii dəyərini qoruyaraq sonra yaranan aşıq şerinin inkişafında, yetkinləşməsində xüsusi əhəmiyyət qazanmış, tərbiyəvi, didaktik siqlətini, poetik təravətini bu gün də saxlamışdır.

**ISBN 9952-418-41-5**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# AŞIQ YARADICILIĞI

Aşıq yaradıcılığı Azərbaycan ədəbiyyatının mühüm bir sahəsini təşkil edir. Tarixin çox qədim dövrlərindən başlayaraq inkişaf edib gələn bu zəngin yaradıcılıq bu gün də davam və inkişaf etməkdədir.

Aşıq, hələ qədim dövrlərdə ozan, bəlkə də daha əvvəllər daha ayrı adlarla adlanıb sənətin üç növünü: musiqi, rəqs və oxumağı birləşdirən bir sənətkar olmuşdur.

Aşıqlıq sənəti əsl mənada şairlikdən fərqli olaraq saz çalmaq, rəqs etmək, oxumaq, şifahi xalq ədəbiyyatının nağıl, dastan və başqa növlərini toylarda, məclislərdə ifa edərək yaymaq deməkdir. Lakin bu ifaçı aşıqlar sırasında elə sənətkarlar da olmuşdur ki, onlar eyni zamanda öz qoşduqları qoşmaları, düzəltdikləri nağılları da icra etmiş, başqa peşəkar sənətkarlardan fərqlənmişlər.

Aşıq xalqın sevimlisi, onun qəlbinə, ürəyinə daha yaxın sənətkardır. Geniş xalq kütlələrinin içərisində böyük hörmət və məhəbbətlə qarşılanır, xalqın şad və qəmgin günlərində onlarla birlikdə sevinib kədərlənir. Məhz buna görə də aşıq ədəbiyyatı və aşıqlıq sənəti xalq içərisində hörmətlə qarşılanaraq yaşamış və bu gün də yaşamaqdadır.

Təsadüfi deyildir ki, keçən əsrin böyük mütəfəkkirlərindən olan Həsənbəy Zərdabi aşıq şerinə böyük qiymət verib onun xalq içərisindəki hörmət və nüfuzunu dəfələrlə qeyd etmişdir:

"Bir baxın bizim aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara! Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki, bə istilahi-türk ətin kəssən də xəbəri olmaz. Elə ki, sonra toy qurtardı, aşıqlar evlərinə getdi, beş-on gün uşaqlar gecə-gündüz küçələrdə gəzəndə aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzirlər və bir-birinin qələtlərini düzəldirlər".

Azərbaycan aşığı və onun zəngin yaradıcılığı təkcə Azərbaycan şəraitində deyil, Zaqafqaziya xalqlarının içərisində dərin məhəbbət və hörmətlə qarşılanmışdır.

Matinadaranda və Gürcüstan Dövlət Muzeyində orta əsrlərdən qalmış bir sıra əlyazmaları saxlanılır ki, bu yazmalarda Azərbaycan aşıqlarının əsərləri gürcü və erməni əlifbaları ilə yazıya alınmışdır. Bu fakt gürcü və erməni aşıqlarının toylarda, məclislərdə Azərbaycan dilində yaranmış aşıq şeirlərini ifa etdiklərini aydınlaşdırır.

Azərbaycan aşıqlarının özlərinin xüsusi adət-ənənələri, qayda və qanunları vardır. Ustad aşıqları öz əsərlərində aşıqların yüksək ənənəvi qanun-qaydalarından dəfələrlə danışaraq, cavan aşıqlara, aşıqlıqla maraqlananlara bu peşənin o qədər də asan olmadığını, el atası adlanan bu sənətkarların bilik,

bacarıq, yüksək əxlaq və mənəvi məziyyətlərlə başqalarından fərqləndiyini bildirmişlər.

Aşıq Abbas, Aşıq Ələsgər, Növrəs İman, Aşıq Hüseyn Bozalqanlı öz əsərlərində dəfələrlə bu mövzudan bəhs edib, aşıqlığın mənəvi keyfiyyətlərini aydınlaşdırmışlar. Onların təsvirinə görə aşıq hər şeydən əvvəl xalqın dərdi ilə, kədəri ilə, onun sevinc və fərəhi ilə bağlı şəxsiyyət olmalıdır. Öz dərin biliyi, ağlı, kamalı, doğru məsləhətləri ilə xalqa kömək edən, onun dərdlərini yüngülləşdirməyə çalışan bu sənətkarlar öz şəxsi rəftar və davranışları ilə də xalqa nümunə olmalıdırlar. Təsadüfi deyildir ki, aşıq şerinin gözəl nümunələrini yaradan Ələsgər öz ustadnamələrinin birisində aşıqlıq sənətini belə qiymətləndirmişdir:

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pürkəmalı gərəkdir.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdir.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdir.

Bu misralardan aydın olduğu kimi, xalq aşığının qarşısında çox mühüm vəzifələr, xalqa həqiqətdən mətləb qandırmaq, kamallı olub, ədəb-rəftar qanunlarını xalqa öyrətmək, onu mənəvi cəhətdən təkmilləşdirmək vəzifələri durur. Hələ “Dədə Qorqud” dastanlarının müqəddiməsində ozanların da qarşısında belə vəzifələr durduğunu görürük. Eldən-elə gəzib, qolça qopuz götürüb ər comərdin, el nakəsin yaxşı bilən ozanlar da xalqın müşkülünü həll edən, onun şadlıq günündə çalıb-oxuyan hörmətli şəxsiyyətlərdir.

Azərbaycan aşıqlarının keçmiş əsrlərdəki nümayəndələri əsasən xalq yaradıcılığını ifa edən şəxsiyyətlər olmaqla bərabər, xalq şifahi şeri üslubunda yazan sənətkarların yaradıcılığını da geniş təbliğ edirdilər. Aşıq şerinin gözəl nümunələrini yaradan qədim sənətkarlar xalq içərisində “dədə” adlanır, onlara kəramət sahibi kimi baxılırdı. Öz əsərlərini xalq ruhunda yazan Qurbani, Tufarqanlı Abbas və Xəstə Qasım kimi yaradıcı sənətkarların müəyyən hissəsi saz çalmaq, məclis keçirmək peşəsindən kənar olsalar da onların yaradıcılığı aşıq şerinin bütün xüsusiyyətlərinə uyğun olduğu üçün ustad, dədə aşıq kimi şöhrətlənə bilmişdilər. Bu hal əsrimizə qədər davam etmişdir. Biz sonralar Saleh Şirvani, Vidadi, Vaqif, nəhayət, Molla Cuma kimi xalq ruhunda yazıb-yaradan savadlı şairlərin aşıq kimi tanındıqlarını, onların əsərlərinin aşıq repertuarına keçib icra olunduqlarını görürük.

Elə sənətkarlar da vardır ki, onlar yalnız aşıq musiqisi, aşıq havaları yaratmaqla məşğuldurlar. Gözəl saz havalarını məharətlə ifa edən, lakin səsləri olmadıqlarından məclisdə oxumayan bu sənətkarlar cavan aşıqlara saz çalmaq öyrətdikləri kimi onlar özləri də yeni-yeni havalar düzəldib, klassik və müasir aşıqların yaratmaş olduğu əsərlərin bu havalarda oxunması üçün aşıqlara kömək edirlər. Lakin elə aşıqlar vardır ki, onlar yalnız aşıq tərzində yazan sənətkarların və ustad aşıqların yaratdığı qoşmaları, dastanları icra etməklə kifayətlənir, özləri yazıb-yaratmır, musiqi havaları düzəltmirlər. Belə sənətkarlar öz səslərinin məlahəti, aşıqlıq sənətinə vaqif olmaq bacarıqları ilə şöhrətlənirlər. Gözəl səsə və məharətli məclis keçirmək qabiliyyətinə malik olan belə aşıqlar aşıq yaradıcılığının mühafizə edilməsində mühüm rol oynayırlar.

Lakin xalq yaradıcılığının inkişafında sənətin üç növünü birləşdirməyi bacardığı kimi keçmiş aşıqların əsərlərini ifa etməklə bərabər özləri də yeni-yeni əsərlər yaradan qoşma, gəraylı və dastanları ilə aşıq yaradıcılığını zənginləşdirən sənətkarlar mühüm yer tutur.

* * *

Orta əsrlərdə yaşayıb-yaradan aşıqların, xalq şairlərinin yaradıcılığında mühüm yeri məhəbbət mövzusu tuturdu. Bu hər şeydən əvvəl, məhəbbət mövzusunun əbədiliyi, məhəbbətin yüksək insan mənəviyyatının, yüksək insan hissinin ifadəsi olması ilə bağlıdır.

Mənəvi azadlıq tələbi, könül aləmində, sevgi aləmində bərabərlik arzusu məhəbbət mövzusunda əbədiləşdirilirdi.

Məhz buna görədir ki, klassik aşıqlarımızın əsərlərində məhəbbət mövzusu əsas yer tutur, bu yüksək insani hissin həyəcanları, iztirabları tərənnüm olunurdu.

Klassik şerimizdə qəzəl və qoşma janrlarında əsasən məhəbbətdən bəhs edilir, məhəbbət mövzusu qələmə alınırdı.

Təsadüfi deyildir ki, böyük Füzuli öz qəzəllərində aşiq olması ilə fəxr edir, eşqdə min bir məna axtarırdı. Özünün aşiq sənətkar olduğunu qeyd edir və göstərirdi:

Məndən, Füzuli, istəmə əşari-mədhü zəm,
Mən aşiqəm, həmişə sözüm aşiqanədir.

Lakin aşıq şerində məhəbbət daha real, daha həyati, bəzən də daha açıq-saçıq şəkildə ifadə edilmişdir:

Axşam-səhər, çeşmə, sənin başında,
Bilirsənmi, necə canlar dolanır;

Büllur buxaq, alma yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır.

– misralarını deyən Aşıq Ələsgərin bu təbii, aydın və sadə təşbihlərlə verilmiş təsviri klassik aşıq şeri üçün səciyyəvi sayıla bilər.

Məhəbbət mövzusunda yazılmış şeirlərdə könül iztirabları ilə birlikdə insan gözəlliyinə yüksək bir qiymət verildiyini, gözəlliyin mühüm incəliklərinin, qəlb döyüntülərinin sənət dililə məharətlə ifadə olunduğunu görürük. Qurbaninin, Abbasın, Sarı Aşıqın, Valehin, Vaqifin, Vidadinin əsərlərində tərənnüm edilən motivlər Ələsgərlər, Aşıq Hüseynlər və başqa sənətkarlar tərəfindən zənginləşdirilərək əsrimizə qədər yaşamışdır. Bu gün müasir aşıqların yaradıcılığında yeni məna alan bu motiv, bu mövzu bütün aşıq ədəbiyyatımız üçün səciyyəvi sayılacaq bir xüsusiyyətdir. Məhəbbət mövzusu bu gün də davam edir, lakin o, indi yeni məna və əhəmiyyət kəsb etmişdir.

Ancaq Azərbaycan aşıq şerinin yalnız məhəbbət mövzusuna həsr edildiyini iddia etmək yanlış olardı. Biz yuxarıda qeyd etdik ki, el atası adlanan aşıq xalqın bütün kədər və fərəhinə şərik olmuşdur. Məhz buna görə də aşıq şerində başqa ictimai motivlər də qüvvətlidir.

Aşıq şeirləri içərisində xalqın etirazlarını onun ictimai ədalətsizliklərdən, zülmdən şikayətlərini əks etdirən, xalqı birliyə, mübarizəyə çağıran xarici istilalara qarşı etiraz motivləri, doğma vətənə, ana dilinə, doğma adət və ənənələrə hörmət, el adəti, namus, vicdan, ədalət və haqq tələbləri geniş yer tutur.

Hələ XVI əsrdə yaşamış olan Qurbaninin əsərlərində dövrün ictimai haqsızlıqlarına qarşı dərin bir etiraz diqqəti cəlb edir. Onun birinci Şah İsmayıla yazmış olduğu mənzum ərizə dövrün ictimai haqsızlıqlarını başqa yazıçıların əsərlərindən daha çox ifşa edir. Tufarqanlı Abbasın zəngin yaradıcılığında xarici istilalara qarşı etiraz motivləri az yer tutmur. Xüsusən onun zülmə, zalıma qarşı etiraz edərək xalqı mübarizəyə çağırıb söz birliyindən, güc birliyindən danışması böyük əhəmiyyətə malikdir.

Abbasın şeirləri içərisində zəmanəyə qarşı yazılmışları çoxdur. O, belə şeirlərindən birisində dövrünü aşağıdakı misralarla xarakterizə edir:

Ay ağalar, bir zəmanə gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qayınananı bəyənməz.

Bu bənd ilə başlayan şeirdə şair zəmanəsində olan ictimai bərabərsizlikləri göstərməyə çalışır:

Adam var geyməyə tapammaz bezi,
Adam var al geyər, şalı bəyənməz.
Adam var ki, çörək tapmaz dünyada
Adam var yağ yeyər, balı bəyənməz.

Şair dövründəki ictimai bərabərsizliyi çox aydın göstərir. Bu şeirdə eyni zamanda Abbasın dini etiqadlara şübhə ilə yanaşan müasirlərinə qarşı pis münasibəti də öz ifadəsini tapmışdır. Şair belələrini yol ərkanı bəyənməyən, Allahı tanımayanlar adlandıraraq məzəmmət edir, bunu zəmanənin dəyişilməsi ilə xeyir-şərin öz yerində olmaması ilə izah edir:

Adam var çölləri gəzər kəllahı,
Adam var tanımaz gözəl Allahı.
Adam var ki, bilməz o, bismillahı,
Adam var ki, yol-ərkanı bəyənməz.

Abbasın şeirləri içərisində istilaya qarşı çevrilmiş, xalqı birliyə, mübarizəyə dəvət edən şeirlər də az deyildir. Belə şeirlərdə yazıçı çox zəngin obrazlı ifadələrlə öz vətənini bürümüş olan işğalçılara qarşı xalqın nifrətini ifadə edir.

Abbas xüsusən el gücünü qiymətləndirdiyi şeirlərində dövrün təvəkkülə, ətalətə çağıran yazıçılarının əksinə olaraq, mübarizəni alqışlayır, daha aktual məsələlərə toxunur:

Abbas bu sözləri deyər sərindən,
Arxı vurdur, suyu gəlsin dərindən,
El bir olsa, dağ oynadar yerindən,
Söz bir olsa zəri kərən sındırar.

Şair xalq gücünə, xalq birliyinə inanır və oxucuları da buna inandırır.

Abbasın şeirlərində nəsihətçilik xüsusi yer tutur, onda həyata, mərdliyə, mübarizəyə dəvət edən didaktiki parçalar olduğu kimi, bunların içərisində dini motivlər də qüvvətlidir. O, yaşadığı cəmiyyətdə ədalətli divan, dərdə dərman axtarsa da bütün bunların dinlə, müqəddəs qüvvələrlə düzələcəyini də bildirir. Onun nəsihətli şeirləri içərisində "Olmaz" rədifli qoşması daha maraqlıdır. Burada cəmiyyətdə necə hərəkət etmək, kiçik-böyüklə rəftar kimi məsələlərdən danışılır.

Öz ocağını söndürüb, yad ocağı yandıranları, ulğun kimi köpüklənib, söyüd kimi bar gətirməyənləri tənqid edən aşıq, şəhər həyatının inkişafı, ticarətin irəliləməsilə bağlı olaraq, ilqarı, arı, dostluğu pula satan yeni tacir, sövdəgər silkinin bəzi həris nümayəndələrinə qarşı da öz münasibətini bildirib onların

acgözlüyünü, hərisliyini tənqid edir. Dünya malı üçün belə çalışanlara dünyanın faniliyini, beş arşın ağdan başqa heç bir şey aparmayacaqlarını da xatırladır.

Abbas öz dövrünün ən qüvvətli sənətkarı olduğundan onun xalq ruhunda yazdığı, xüsusən şah Abbası zülm və ədalətsizliyini ifşa edən şeirləri o zaman peşəkar aşıqlar tərəfindən toylarda, məclislərdə, xalq yığıncaqlarında oxunurdu. Nəhayət, onun vətən qızlarının şah hərəmxanalarına zorla aparılmasına qarşı dediyi şeirlər əsasında "Abbas və Gülgəz" adlı bir dastan yaradılmışdır. Aşığın əsərləri bu gün də ustadnamə kimi müasir aşıqlar tərəfindən icra olunur.

XVIII əsrdən etibarən aşıq yaradıcılığı daha da genişlənir, eyni zamanda aşıq şeri tərzində yaranan ədəbiyyat daha çox qüvvətlənib, əsrin istiqamətverici ədəbi cərəyanına çevrilir.

Bu zaman şöhrətlənən aşıqlar içərisində Əmrah, Hüseyn, Saili, Bürhani, Zabit, Xurşid və Səyyad təxəllüslərilə yaradan sənətkarlar çox məşhurdurlar. Əsasən məhəbbət mövzusunda əsərlər yaradan bu aşıqlardan Həmrahın, Səyyadın, Xurşidin və Zabitin adı ilə əlaqədar kiçik dastanlar da yaradılmışdır. Bu aşıqlar öz deyişmələri, qıfılbəndləri, dodaqdəyməz, diltərpənməz və cığalı qoşmaları ilə aşıq şerinin repertuarlarını zənginləşdirirdilər. Bu aşıqların çoxu yalnız Azərbaycan mühitində deyil, bütün Qafqazda tanınırdı. Biz bunların şerlərinə Azərbaycanda yazılmış cünglərdən başqa da yazılmış əlyazmalarında təsadüf edirik. Həmin aşıqların yaratdıqları qoşmalar müəyyən dərəcədə dəyişdirilərək əsrimizə qədər gəlib çatmışdır. Bu cəhətdən Saili təxəllüslü aşığın gəraylısı daha səciyyəvidir:

Səhər çağı ötən bülbül,
Sən ağlama, mən ağlaram.
Dərdin dərdə qatan bülbül,
Sən ağlama, mən ağlaram.

Xalq kədərini, xalq məhəbbətini səmimi, aydın və oynaq ifadələrlə müqayisədə verən bu qoşma həmin əsrdə Sayat-Nova tərəfindən erməni dilinə də tərcümə edilmişdir.

Sailin müasiri olan Ürfani təxəllüslü sənətkar isə eyni zamanda əsrin görkəmli saz havası ustalarından biri olmuşdur. Ürfaninin öz adı ilə əlaqədar olaraq yaratmış olduğu havalar indi də aşıqlar tərəfindən icra edilməkdədir. O, eyni zamanda düzəltdiyi hava ilə oxunmaq üçün gözəl qoşma və gəraylılar da yaradırdı.

XVIII əsrdə xüsusən aşıq qoşmaları tərzində yazdığı şeirləri sazda çaldığı havalarda oxuyan aşıq şair Tikmədaşlı Xəstə Qasımın əsərləri daha çox şöhrətlənir.

Xəstə Qasım aşıq şeri tərzində daha gözəl qoşmalar yaratdığından onun əsərləri dildən-dilə düşərək hafizələrdə yaşamış, xalq aşıqları bu istedadlı sənətkarı ustad aşıq – dədə aşıq adlandıraraq əsərlərini məclislərdə ifa etmiş və edirlər. Şairin XVIII-XIX əsrlərdə yazılmış əlyazmalarında saxlanılan şeirləri əsasında onun Azərbaycanın Tikmədaş qəryəsində doğulub mükəmməl mədrəsə təhsili aldığını, gözəl saz çaldığını, aşıqlarla deyişdiyini müəyyənləşdirmək olur.

Xəstə Qasımın şeirləri əsasında müəyyən etmək olur ki, o da müasirləri kimi qəzəl və müxəmməslərlə yanaşı qoşma, gəraylı, bayatı yazmış, xüsusən gözəl təcnislər yaratmışdır.

Xəstə Qasımın yaradıcılığında əxlaqi-tərbiyəvi fikirlər, nəsihətlər mühüm yer tutur. Məhz buna görə də onun əsərləri daha geniş yayılmış, orta əsr görüşlərini ifadə edən bu əsərlərdə mərdlik, mala, pula güvənməmək və bu kimi nəsihətlər çox olduğundan uzun müddət məclislərdə oxunmuşdur. Bu şeirlərdə dünyaya bağlanmamaq meyilləri də diqqəti cəlb edir:

Dəli könül, məndən sənə əmanət,
Demə, bu dünyada qalım yaxşıdır.
Məhşər günü qohum-qardaş tapılmaz,
Demə, var qüvvətim, əlim yaxşıdır.

Xəstə Qasım həmin şeirdə təvazökarlıq, xalqa hörmət, mərd, mübariz olmaq kimi sifətləri tərifləyir, oxucuları yaxşı ad qazanmağa çağırır, yaman ad etməkdən ölüm yaxşıdır – deyir. O, başqa bir şerində qorxaq, namərd və yalançı adamları tənqid edir, düzlüyə, mərdliyə səsləyir.

Xəstə Qasımın məhəbbət mövzusunda yazılmış şirin, bu günə qədər aşıqlar tərəfindən sevilə-sevilə oxunan qoşmaları da vardır:

Gümüş kəmər bağlayıbdır belinə,
Danışdıqca mail oldum dilinə,
Gül uzatdım nazlı yarın əlinə,
Canım aldı gülü məndən alınca.

Bu bənddə gördüyümüz incəlik, zəriflik və aydınlıq Xəstə Qasımın heca vəznində yazılmış bütün şeirləri üçün səciyyəvidir.

Xəstə Qasımın şeirlərində mühüm yer tutan nəsihətçiliklə əlaqədar olaraq dini mistik görüşlərə yer verilir. Lakin, şairin yaradıcılığında nikbinlik, gələcəyə inam diqqəti daha çox cəlb edir.

XIX əsrdən etibarən aşıq şeri yeni bir istiqamətdə inkişaf edib klassik sənətkarlar yetirmişdir. Biz bu əsrdə Aşıq Alı, Aşıq Musa, Məhəmməd Hüseyn, Aşıq Ələsgər, Əziz, Əhməd, Aydın, Bəylər və s. görgəmli aşıqların yaşayıb-

yaratdıqlarını bilirik. Bu əsrin sonlarında Şəmkirli Aşıq Hüseyn, Bozalqanlı və daha başqa məşhur aşıqlar yetişir. Lakin bu aşıqlar içərisində Ələsgər daha çox məşhur olur.

Aşıq Ələsgər özündən sonra yetişən onlarca Azərbaycan aşıqlarının yaradıcılıqlarına qüvvətli təsir göstərən sənətkarlardandır. O, təxminən 1821-ci ildə Basarkeçər rayonunun Ağkilsə kəndində anadan olmuşdur. Kiçik yaşlarından saz çalmağa həvəsi olan Ələsgər məşhur Göyçə aşığı Aşıq Alının şagirdi olub, xalq yaradıcılığını öyrənməyə və saz çalmağa başlamışdır. Hələ kiçik yaşlarından o özü də aşıqlar kimi gözəl, təsirli qoşmalar yaradırmış. Çox keçmədən o şöhrətlənir, məclislərdə bir çox aşıqlara üstün gəlir. Bundan sonra aşıqlıq öyrənmək istəyən bir çox cavanlar onun yanına gedib Aşıq Ələsgərin şagirdi olurlar. Aşıq Əsəd, Aşıq Cavan kimi bir sıra tanınmış aşıqlar onun şagirdi olmuşlar.

Təxminən 105 il ömür sürən Ələsgər zəngin bir irs qoyub getmişdir. O, uzun ömründə şahidi olduğu bir sıra hadisələrlə əlaqədar gözəl qoşmalar yaratmışdır ki, bu qoşmalarda dövrün haqsızlıqları, ayrı-ayrı adamların çirkin simalarının ifşası müəyyən yer tutur.

Aşıq Ələsgərin yaratdığı şeirlər içərisində gözəlləmələr, aşiqanə qoşmalar daha çoxdur. Məhəbbət mövzusunda yazılmış bu şeirlər çox geniş yayılmışdır. Bu qoşmalarda, hər şeydən əvvəl, böyük bir sənətkarlıq diqqəti cəlb edir.

Aşığın ictimai hadisələrə həsr olunmuş şeirlərində də bu sənətkarlıq və təsir öz qüvvəsini saxlayır. "Ay həzərat, gəlin sizə söyləyim" misrası ilə başlayan qoşmasında Aşıq Ələsgər Azərbaycan xalqının ağır həyatından danışır. Xalqı soyan bir sıra fırıldaqçıların azğınlıqlarını bir-bir sayır, ölkədə olan haqsızlıqları nifrətlə ifşa edir. "Olmaz" rədifli qoşmasında Aşıq Ələsgər yazır:

Ələsgər, mətləbi xudadan istə,
Kərəm olmaz müxənnəsdə, nakəsdə,
Bəylik, göylük, səglik olan məclisdə
Qaç ki, orda xeyir-bərəkət olmaz.

Onun həcvləri əsasən insafsız bəylər, zəmanəsindəki yalançı din xadimləri və ayrı-ayrı müftəxorlar, istismarçılar əleyhinə çevrilmişdi.

"Görmədim" qoşmasında Aşıq Ələsgər namərd adlandırdığı qədirbilməz, dostluqda sədaqətli olmayanların şerə, sənətə, sənətkara qiymət vermədiklərini göstərməklə onların mənəvi boşluqlarını aydınlaşdırır.

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın qələt,
Şahiddə insaf yox, bəydə ədalət,
Qazıların düz bazarın görmədim.

Həmin qoşmada Aşıq Ələsgər həyati ifadələrlə, bənzətmə və bədii məcazlarla fikrini çox aydın və təsirli tərzdə ifadə edir.

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim,
Söyüddən bağ saldım peyvəst eylədim
Almasın, heyvasın, narın görmədim.

Başqa bir şerində Aşıq Ələsgər yenə də sənətə, sənətkara qiymət verməyən adamları tənqid edərək deyir:

Ələsgər, üsyanın çıxıbdır sandan,
Öldürsən zənburu, əl çəkməz şandan,
Hərcayidən, müxənnəsdən, nadandan
Nə söz qaldı sənətkara dəyməmiş.

...Aşıq Ələsgərin qoşmaları bədii ifadə baxımından çox zəngindir. Bu əsərlərdə bir tərəfdən aşıq şerinin oynaq, sadə, səmimi ifadə və sözləri, digər tərəfdən isə klassik Azərbaycan şerinin bədii təsvir vasitələri işlədilmişdir. Aşıq mərd insanları tərənnüm etdiyi kimi namərdləri, nakəsləri də söyüd, ulğun ağaclarına bənzədərək, onların bar vermədiyini, qeyrətsiz və arsız olduqlarını söyləyir.

Azərbaycan aşıqları qəhrəmanlığa, xalqın istilaçılara, yerli feodallara və çar məmurlarına qarşı inadla mübarizə aparan mərd oğullarına da əsərlər həsr etmişlər. Qəhrəmanlıq motivləri şifahi xalq ədəbiyyatında daha canlı, daha bariz və daha inandırıcıdır. Bu qəhrəmanlar əfsanəvi nağıllarda olduğu kimi xariqüladə qüvvələrin köməyi ilə deyil, öz şəxsi qoçaqlıqları, cəsarət və igidlikləri ilə düşmənə qələbə çalır, həyati obrazlarla təsvir edilirlər. Məhz buna görə də qəhrəmanlıq mövzusu aşıq şerində son dərəcə təsirli və əzəmətli nəzərə çarpır.

Azərbaycan aşıqlarının qəhrəmanlığa həsr etdikləri şeirləri, aşıq yaradıcılığının ən mühüm yadigarı, “Koroğlu” dastanının yaranması üçün əsas təşkil etmişdir. Xarici istilaçılara və yerli feodallara qarşı xalq mübarizəsinin təsviri verilən bu nəğmələr təkcə şifahi xalq ədəbiyyatına, aşıq şeirlərinə deyil, yazılı ədəbiyyata da qüvvətli təsir göstərib şerimizdə qəhrəmanlıq motivlərinin canlanmasına səbəb olmuşdur. Mərd Koroğlu və onun qorxmaz silahdaşlarının dilindən deyilmiş olan bu qoşmalar xalqın qəhrəmanlığını, əyilməzliyini təcəssüm etdirir:

Nərə çəkib düşmən üstə gedəndə
Meydanda göstərər hünər Koroğlu.
Qulac qolun gərib şeşpər atanda
Vurar dağı-daşı dələr Koroğlu.

Bu və bunun kimi qəhrəmanlıq nəğmələri sonrakı aşıq şerinin də sevimli mövzularından olmuşdur. Azərbayxan aşıqları Koroğluları, Dəli Alıları, Qaçaq Kərəmləri, Qaçaq Nəbiləri alqışlayıb onların qəhrəmanlıqlarını, Vətən və xalq uğrunda göstərdikləri fədakarlıq və igidlikləri yüksək məhəbbətlə tərənnüm etmişlər.

Qəhrəmanlıq motivləri aşıq poeziyasının bədii ifadə xüsusiyyətlərini də zənginləşdirmiş, mərdlik, qorxmazlıq, hünər və cəsarət obrazları bir dil ilə tərənnüm edilmişdir.

Aşıq şerində Azərbaycanın zəngin təbiəti, onun başı dumanlarla qucaqlaşan uca dağları, durna gözü kimi duru çeşmələri, yaşıl düzləri, ceyranlı-cüyürlü çəmənləri, aranı, dağı bütün əzəməti ilə təsvir edilir:

Bir ay yarım novbahardan keçəndə
Sinəndən atlanır sellərin, dağlar!
Çalxanır dəryalar, çığrışır qazlar,
Zəm-zəm zümzüməli göllərin, dağlar!

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı,
Aşıq eldən ayrı niyə yaşadı,
Ölsün Ələsgərtək qulların, dağlar!

Aşıq Ələsgərin ilk və son bəndlərini verdiyimiz bu "Dağlar" qoşmasında vətənin təbii gözəllikləri necə real və dərin bir məhəbbətlə tərənnüm edilir.

Azərbaycan aşıqları təbiət gözəlliklərini ən xırda incəliklərinə qədər ustalıqla canlandırır. Onlar qartalın uçuşuna, ceyranın qaçışına, güllərin, çiçəklərin zərifliyinə, qızılgülün al yanağına, bənövşənin bükülmüş boynuna gözəl sənət əsərləri həsr etdikləri kimi yazın, yayın, payız və qış fəsillərinin Azərbaycan şəraitindəki özünəməxsus məziyyətlərini təsvir etmişlər.

Aşıq şerində feodal zülmünün ifşası da nəzəri cəlb edir. Dövrün haqsızlıqlarını, ictimai ədalətsizliyi, çar məmurlarının rüşvətxorluğunu qəzəblə qarşılayan bu sənətkarlar hakim dairələr tərəfindən həmişə təqib edilmişlər. XIX əsrin əvvəllərində yaşamış Aşıq Musanın onu təqib edənlərə qarşı çıxıb öz sazının günahsızlığından bəhs etdiyini aşağıdakı misralarda çox aydın görmək olur:

Məclisləri abad eylər,
Nə günahı var telli sazın
Məlul könüllər şad edər,
Nə günahı var telli sazın.

Yoldan çıxıb yolun azmır,
Şeytan kimi ara pozmur,
Molla kimi cadu yazmır,
Nə günahı var telli sazın.

Klassik Azərbaycan aşıq şeri öz şəkli xüsusiyyətləri etibarilə də son dərəcə rəngarəngdir. Xalq sənətkarları heca vəzninin müxtəlif formalarından istifadə edib qoşma, gəraylı, dübeyt, təcnis, dodaqdəyməz, yedəkləmə, müxəmməs və s. şəkillərdə əsərlər yaratmışlar ki, bunların mühüm hissəsi yazılı şeir şəkilləri ilə qarşılıqlı əlaqədə təkmilləşmiş, yazılı şerin şəkli xüsusiyyətlərinin inkişafında mühüm rol oynadığı kimi özü də klassik şerin müxtəlif xüsusiyyətlərindən istifadə edərək zənginləşmişdir.

Aşıq şerinin özünə görə ifadə xüsusiyyətləri vardır. Canlı xalq dilinin bütün zənginliklərini klassik şerin özünəməxsus incəlikləri ilə məharətlə uyuşduran el şairləri son dərəcə zəngin leksikona malik sənətkarlar olmuşlar. Bu sənətkarların mühüm hissəsi yazılı ədəbiyyatın bütün xüsusiyyətlərinə yaxından bələd olduqları üçün canlı danışıq dilinin ifadə zənginliklərinə poeziya dilimizin gözəlliklərinin birləşməsi onların şeirinə daha artıq vüsət vermişdir.

***Həmid Araslı***

# Azərbaycan aşıq şerindən seçmələr

## OZAN HEYDƏR
(XV əsr)

### YETƏR

Haqqa varan haqqı bular,
Haqq ilə imana yetər.
Ələstdən ruhu şad olan,
Yetəndə sübhana yetər.

Üzündə doğru bulmayan,
Könlünə işıq salmayan,
Məddahi-mövla olmayan,
Mətləbdə şeytana yetər.

Heydərdi məhşərə gedən,
Sidqi ibadətə yetən,
Məhəmmədə biət edən,
Zikr edib Qurana yetər.

### GƏLMƏZ

Dərd əhlidi mənim pərim,
Sirrin bildirməyə gəlməz.
Gözlərimdən yaşlar axar,
Nədən sildirməyə gəlməz?

Hər nə olub, mənə olub,
Gül başımı xoryad alıb.
Mənim könlüm ağlar qalıb,
Pərim güldürməyə gəlməz.

Heydər deyər olmadım şad,
Dilədim Xudadan imdad.
Haqqı görək qanlı cəllad,
Bir yol öldürməyə gəlməz.

# OZAN İBRAHİM

(XV əsr)

***GƏRAYLILAR***

## ÜSTÜNDƏ

Sübh ikən sübhanə düşdüm,
Baş qoydum ocaq üstündə.
Dəryayi-ümmana düşdüm,
Şam gördüm çıraq üstündə.

Bulundum dağda, aranda,
Qibleyi-ərzim Turanda.
İmanım, dinim Quranda,
Haqq yolum torpaq üstündə.

Qəmli ozan, üzüm gülməz,
Gələn – gedər, gedən gəlməz.
Sar yuvama qona bilməz,
Ayağım torpaq üstündə.

## YETMƏZ

Barilahim bu nə işdi,
Haqq işim divana yetməz.
Öz-özünü adil bilən,
Günahsız qurbana yetməz.

Şübhəm yoxdu doğru sözdə,
Astarım görükər üzdə,
Gözüm qalar yolda, izdə,
Dildarım peymana yetməz.

Namərd, dosta olmaz həyan,
Haram sevda etmə bəyan.

Bu mədarla ötər dövran,
Xoş günün dövrana yetməz.

Hər pay xudadan qismətdir,
Payım başıma minnətdir.
Yaxşılıq elə, nemətdir,
Qeydimə qalana yetməz.

Vaxtında tədbir qılmasa,
Söz tapıb inci bulmasa,
Dərsini pirdən almasa,
İbrahim ozana yetməz.

## *QOŞMALAR*

### DEYƏRLƏR

Mənim yığvalıma talib olanlar,
Kövsər şərbətini içdi, deyərlər.
Baxdı bu dünyaya sərraf gözüylə,
Gövhəri axtardı, seçdi, deyərlər.

Xaqan köntöy baxar taxtdan aşağa,
Bilirik düşməndi bayquş işığa.
Bimürvət zamana neçə aşığa,
Yaxasız köynəklər biçdi, deyərlər.

Dövranım piyada, yolda yorular,
Yazar məlakələr, əməl sorular.
Haqq-hesab çəkilər, divan qurular,
Çoxları canından keçdi, deyərlər.

Yetişsin dadıma püşti pənahım,
Əfv etsin çoxdursa cürmi-günahım.
Çalışdı, vuruşdu Ozan İbrahim,
Dünyadan əliboş köçdü, deyərlər.

## GƏLMƏZMİ?

Necoldu sultanım, necoldu şahım,
Kərəm gözlədiyim kara gəlməzmi?
Yolu üstə şahın – şonqar, sar qonsa,
Eyləyib birtəhər çara gəlməzmi?

Misli pərvanəyəm yoxdu qərarım,
Çıxıbdı əlimdən dövlətim, varım.
O şəhdi-şəkərim, şahbaz şikarım,
Bizə tərəf bəxti qara gəlməzmi?

Pünhan dərdim pünhan edib ağlaram,
Bu zülümü sinəm üstə saxlaram.
Zəngi çaya dönə-dönə qarğaram,
Ah-naləmdən Zəngi zara gəlməzmi?

Səbri-qərarımı əlimdən alan,
Məni Məcnun edib çöllərə salan,
Miskin vücudumda daim var olan,
Sevgidən qurduğum tora gəlməzmi?

Müştağam o yarın haqqı-sayına,
Sürahi boylumun gül camalına.
İbrahim döşəkcə xaki-payına,
Dönüb Ozanlardan Zara gəlməzmi?

# MİSKİN ABDAL
(XV əsrin sonu – XVI əsrin əvvəli)

## *GƏRAYLILAR*

### NƏDİ?

Tərs düşür fələyin işi,
Lil basan axdımı, nədi?
Fani dünyanın gərdişi,
Dolanan çarxdımı, nədi?

Qalanıb küfrün kürəsi,
Yanırsan gözüm görəsi.
Tutulub yolun yörəsi,
Bir bilən yoxdumu, nədi?

Miskin Abdal, işin xata,
Üzün gedib ərşə çata.
On iki ay müdam yata,
Görgünən baxtdımı, nədi?

### DÖNƏR

Vətən deyib ağlayanın,
Göz yaşları selə dönər.
Axıb gedər gecə-gündüz,
Bir məkanda gölə dönər.

Yolu yorğun dağ aşanın,
Axırı yox şöhrət-şanın.
Qürbət eldə yaşayanın,
Bir həftəsi ilə dönər.

Bir yandadı hay-haraylar,
Bir yandadı sonsuz vaylar.
Çilçıraqlı çox saraylar,
Yanıb-yanıb külə dönər.

Mayasıdı haqdan halal,
Hər kəlməsi sirli sual.
Qərib olan Miskin Abdal,
Bəlkə bir gün elə dönər.

## BAŞIN

Namərd ilə yoldaş olma,
Uzun ağrı çəkər başın.
Halalınan ərsəyə çat,
Daş qalalar sökər başın.

Xayin çıxma Yaradana,
Qıbləgahdı ata-ana.
Arxalanma bəyə, xana,
Qoy sağ olsun nökər başın.

Haxdan istə baxtı-yığval,
Yaradanı yadına sal,
Söz gövhərdi, Miskin Abdal,
Saxla, dürdü, tökər başın.

## DÜŞƏRSƏN

Adamsansa, tələ qurma,
Tələyə, fəndə düşərsən.
Üzə durma, ara vurma,
Zülmündən anda düşərsən.

Hər yetənlə olma tanış,
Yazın olar boranlı qış,
Fikir eylə, sonra danış,
Qəfil kəməndə düşərsən.

Miskin Abdal, vəfadar ol,
İlqarında düz ilqar ol.
Çətin günə şükürdar ol,
Dönüb asanda düşərsən.

## FƏLƏK

Yıxdın könlüm şəhrini,
Dad fələk, aman fələk!
İçdim hicran zəhrini,
Zülm etdin yaman, fələk!

Qara geyibdi sazım,
Nə oxuyum, nə yazım,
Nakam qaldı murazım,
Vermədin aman, fələk!

Zülm olmaz beyləsindən,
Qoru şər hiyləsindən.
Abdalın naləsindən,
Bir diksin, oyan, fələk!

## ALLAH, ÖLÜMÜM HAQDI!

Bu dünya, o dünya var,
Allah, ölümüm haqdı!
Bir dirilik suyu var,
Allah, ölümüm haqdı!

Axırın puşdu, dünya,
Var ikən heçdi dünya.
Hey gəldi, keçdi dünya,
Allah, ölümüm haqdı!

Abdal, yastıq daş olar,
Üst torpağın yaş olar.
Mələklər yoldaş olar,
Allah, ölümüm haqdı!

## GEDİN DEYİN LƏLƏ BƏYƏ

Gedin deyin Lələ bəyə,
Bu naleyi-əfğanımı.
Qanlı fələk zülm elədi,
Ayırdı candan canımı.

Mən bu bağa girərəmmi?
Gül dəstəsin hörərəmmi?
Ya rəbb, bir də görərəmmi,
Öz mürşüdü-sultanımı?

Miskin Abdal bu nə kələk?
Dövran qoymaz bizi gülək.
Yerə vurdu məni fələk,
Ucaltdıqca düşmanımı.

## YARIM

Dodaqları gül qönçəsi,
Yanaqları lala yarım.
Kölgən gələndə gün qaçar,
Sən bəlasan, bəla, yarım.

Tanrı səni var edibdi,
Aşiqini xar edibdi.
Fələkləri kar edibdi,
Çəkdiyim ah-nala, yarım.

Miskinin söhbəti, sözüsən,
Cümlə gözəllər gözüsən.
Bu dağların nərgizisən,
Bürünmüsən şala, yarım.

## *QOŞMALAR*

### YA ƏLİ

Ələstü-Rəbbi cəm xitab olanda,
Xub qailəm o adına, ya Əli.
Sənin pənahına iman gətirdim,
Bərqəraram o sevdana, ya Əli.

O “zey”, “fey” adına o nuri səfa,
Yetişsin şəninə hər quli-kəfa,
Varlığın mənası dini-Mustafa,
Sərxeyli-karvanın Cüda, ya Əli.

Fəthi şəhri – Zərrin, qatili – Salsal,
Mürşüdü-Cəbrayıl, şahi-beyzaval,
Qəşəmşəm, Qəzənfər, Şiri-Zülcəlal,
Müsəmmasan bir Minada, ya Əli.

Əzrayıl çəmgəlin cana çalanda,
Ruhlar pərvaz olub cəsəd qalanda,
Üz xakə döşənib zəlil olanda,
Özün yetiş o fəryada, ya Əli.

Məhşər günü özün tutarsan camı,
Tutmuş ətəyindən nikü-bad, hamı,
Seçmə muxsullardan Miskin Qulamı,
Kərəm et kövsərdən badə, ya Əli.

### UNUTMA

Aşıq, gəşt eləyib ağır elləri,
El içində namus, arı unutma.
Yaxşı dolan, təmiz saxla adını,
Dost yanında etibarı unutma.

Halal mala haram qatmaq nə lazım?
Hədər yerə kaman atmaq nə lazım?
Yar-yoldaşa yalan satmaq nə lazım?
Əhdi-peyman, düz ilqarı unutma.

Miskin Abdal, bir qonaqsan dünyada,
Könlün bir dəryadı, ürəyin ada,
İstəsən ki, yetişəsən murada,
Yaş torpağı, dar məzarı unutma.

## DAĞLAR

Məğribdən məşriqə səf çəkib durub,
Qüdrətdən çəkilib baş-başa, dağlar.
İtaət boynuna həmayıl vurub,
Misli-pəsənd, xotkar, xan, paşa, dağlar.

Baxıb hökmü yey, dal dürey dükafa,
Gah kükrüyüb, gah gəlirsən insafa,
Dey peykarə çəkib, bəyazıl əffafə,
Pərvərdin geydirir qumaşa, dağlar.

Ağ çeşmən sərindən car eylər seli,
Yaşıl tirmə qurşar alaca beli,
Zabitə kölgəsi, Dağıstan yeli,
Sədrin səfasıdı həmişə, dağlar.

Nəhs illərdən satın aldın nəhs günü,
Çağırdın dumanı, tökdün çiskini,
Gözü yaşlı qoydun Cüda Miskini,
Eylə gülə-gülə tamaşa, dağlar.

## A DAĞLAR

“Xudahafiz” deyək, gəl halallaşaq,
Daha ayrılıqdı, köçdü, a dağlar.
Soldu gül, nərgizin, döndü xəzələ,
Pozuldu işrətin, keçdi, a dağlar.

Zənbur sızıldaşır şan üstə bala,
Alladıb çoxların qoyubsan dala,
Bənd olma dünyada dövlətə, mala,
Axır aqibətin puçdu, a dağlar.

Keçdi novbaharın, yazın qış oldu,
Çərx hərləndi, ömür qəmə tuş oldu,
Miskin Abdal, xəyalların puç oldu,
Dolanıb güzarım düşdü, a dağlar.

## DAĞLARIN

Adəmdən cavandı, Nurdan qocadı,
Bir sirdi, bilinməz yaşı dağların.
Tufana əyilməz, yada basılmaz,
Həmişə qar olar başı dağların.

"Əhvalı necədi? – bir səyyaddan sor,
Quşa cələ olur, ahulara tor,
"Can" desən, "can" deyər, "çor" söyləsən, "çor",
Səs alar, səs verər quşu dağların.

Qüdrətdən yetibdi uca barata,
Sinəsi açıqdı elə, elata,
Mən Cüda Miskinəm, başımda xata,
Kəsib yollarımı qışı dağların.

## A YAZ AYLARI

Başladı novbahar, çəmən seyrinə,
Çıxıbdı gözəllər, ay yaz ayları.
Ətrin qarışıbdı çəmən ətrinə,
Dolanıb gözəllər, a yaz ayları.

Səndə olar dağ, dərələr, göy çəmən,
Baş verər qərənfil, nərgiz, yasəmən.
Gəzərəm həvəsnən, alsam əsa mən,
Könül cuşa gələr, a yaz ayları.

Miskin Abdal, ömür keçdi heyinən,
Bu mətləbi "Qocadağ"a deyinən,
Öləndə məzarım gül-çiçəyinən,
Üstümü bəzərlər, a yaz ayları.

## GEDƏR

Guşə-guşə yanıb nara yaxıldım,
Cismim od atəşə qalanıb gedər.
İmtahan eylərlər könlüm şəhrini,
Eşqi haqdan qeyri talanıb gedər.

Dərviş olan getməz fitnə-feyliynən,
Yandırar şamını o öz əliynən.
Yalan reymanıynan, haça diliynən,
Könül yar yolunda allanıb gedər.

Qiylü-qaldı səhər-axşam əhvalım,
Tor görür gözlərim, qarışır halım,
Qanlı çeşmi yazıq Miskin Abdalın,
Coşqun çaya nisbət sellənib gedər.

## MƏNİ

Gecə yuxum yoxdu, gündüz qərarım,
Rüzgarım qoyubdu adada məni.
Tərəqqi dağından uçubdu tarım,
Fələk niyə saldı bu dada məni?!

Doğru söz deməyə çox utanıram,
Çünki zəmanəni bir az qanıram,
Elə alovlanıb, elə yanıram,
Söndürə bilməzlər suda da məni.

Mən Miskin Abdalam – dustaği-dərdəm,
Görmədim baharı, ömrümdə bir dəm.
Ədalət yolunda elə bir mərdəm,
Qorxmaram əjdaha uda da məni.

## QALDI

İnsan oğlu, qeybət yoldaşdan,
Kəsdin haqq-salamı, harası qaldı?
Söz yetişdi sahibinə utandın,
Axır sənə üzün qarası qaldı.

Pislikdən nə çıxar, söylə, ay insan,
Çıxmaz yaddan, yüz il keçsə aradan.
Tutaq ki, bir insan çıxdı sıradan,
Kimə zər-zibası, xarası qaldı?

## PİRİYDİ

Asta gedən bu gözəllər sultanı,
Yerişindən məlum olur Hürüdü.
Deyin bəsdi, mənim xəstə canımı,
Siyah zülfün zəncirində sürüdü.

Şah hüsnünün sütunundan asıldım,
Çıldır-çıldır dörd məqama yazıldım,
Hicran ləşkərinə endim, basıldım,
Yan-yörəmi qurdlar-quşlar bürüdü.

Seyraquba yıxıldımı görən nər?
Aşıq sınsa sin axtarar gör enər,
Belə dedi bu çağımı görənlər:
"Miskin Abdal bir zamanlar piriydi".

## BUNDAN SƏNƏ NƏ?

Aləmi palçıqdan yaradıb, yapdın,
Yapıb da neylərsən, bundan sənə nə?
Xəlq edib insanı cahana saldın,
Salıb da neylərsən, bundan sənə nə?

Baqqalmısan, tərəzini neylərsən?
İşin, gücün yoxdu, könül teylərsən,
Qulun günahını kitab eylərsən,
Lap çıxdın sonuna, bundan sənə nə?

Bu Miskin Abdalın haqdı sözləri,
Soldu gözəllərin gül bənizləri,
Od-alova düçar etdin bizləri,
Yıxdın qullarını, bundan sənə nə?

## AĞLARAM

Dostu-mehribanım, yetiş imdada,
Səndən qeyri yox imdadım, ağlaram.
Ah çəkib dağlara salaram səda,
Qohum gəlməz, gülər yadım, ağlaram.

Dəstində zülfüqar, Düldülə süvar,
Məhsərli-əcaib, bir adı Kərrar,
Müşkülə düşmüşəm, könlüm intizar,
Sən gəlməsən, ey ustadım, ağlaram.

Salma nəzərindən, salma ilahim,
Dar gündə köməyim, püştü-pənahım,
Ərşə bülənd olub fəryadı-ahım,
Abdallı Miskindi adım, ağlaram.

## ƏLİF-LAM

Təmiz əkilmişəm, pak doğulmuşam,
Atadan-anadan lütfi-halalam.
Dərsimi haqq verib, ağdan almışam,
Dilimdə əzbərdi doxsan min kəlam.

Qafdan qərar tapmış, kafdan kainat,
İsti feylü-hərfi olmuş əsli-zat,
Veydən bəna tutub, kaf-nunnan nicat,
Yeydən bişərikdi, bişərikdi lam.

Əlifdən əladı, alidən ali,
Cimdən dücahandı, böyük cəlalı,
Mimdən mehribandı məddi-məalı,
Nun–hər vaxt zəmini xəlq edib tamam.

Şin şükrü sənalar, vav vahid ismə,
Hey həlim, rey rəhmi acı yel əsmə,
Zey zəlil bəndədən, sin nəzər kəsmə,
Sat sahib ixtiyar, mən həqir qulam.

Ocaqzadə bir təb əhli nökərəm,
Küyində qələndər, sinə dəftərəm,
Mimnən Məhəmmədəm, cimnən Cəfərəm,
Ləqəbi çox olan Miskin Abdalam.

## DÖNƏRMİ

Qadir Allah, əlim əldən uzaqdı,
Yazıq könlüm görən indi dinərmi?
Vaxt yetişib ömürdə qış-sazaqdı,
Şahin könlüm yuvasına enərmi?

Elim qalıb neçə dağlar dalında,
Qismətim var yazılıbsa alında,
Gedəcəyəm ayaq qalsa yalın da,
Pir igidin çırağı da sönərmi?

Miskin Abdal hanı zərdən libasın?
İnsan olan unudarmı obasın?
Yada salıb ulu-ulu babasın,
Axır günü Göyçənin heç dönərmi?

## QOCALDIM

Yaman yerdə yoxlayıb məni,
Hey desəm də qocalmaram, qocaldım,
Yüzü keçib silkələyir baxt məni,
Nə olsun ki, mən pirəm, nuram qocaldım.

Seyid mənəm, pay paylayan dərvişəm,
Namərdlərin xatasını görmüşəm,
Çox könüldə mən qalalar hörmüşəm,
Sızıldayır qanlı yaram, qocaldım.

Miskin Abdal yolu haqqın yoludu,
Bir seyiddi şahi-mərdan quludu,
Əsli, zatı ululardan uludu,
Bilməmişəm nədi haram, qocaldım.

## NÖKƏRƏM

Qadir Allah qismət etdi cəfanı,
Gecə-gündüz qəm kotanı çəkərəm,
Elə bildim qopdu Nuhun tufanı,
Bəxt şumuna dərd-sərimi əkərəm.

Kəsilməzdi əllərimin yaxası,
Sınaqlıdı abidlərin çuxası,
Başım ilə daş qalalar sökərəm.

Qürbət eldə yanar ömür sürənlər,
Yasa batdı bu halımı görənlər,
Yada düşüb igid ərlər, ərənlər,
Gecə-gündüz göz yaşımı tökərəm.

Həsrət qaldım Göyçə kimi elimə,
Əl uzatdım, əl çatmadı əlimə,
Əməllərim bəlli olub aləmə,
Ev yıxmaram, müdam evlər tikərəm.

Miskin Abdal, çox ağlayıb sıtqama,
Başa vurdum nə düşübsə baxtıma,
Ömür keçib, nə qalıb ki, vaxtıma,
Haqq yolunda mən bir qulam, nökərəm.

## AĞLARAM

İki sultan əyləşdi nərgiz taxtında,
Aralığa şəmşir endi, ağlaram.
Məkas fəğan etdi dərya üzündə,
Yelkənim tərsinə döndü, ağlaram.

Nökər olan qulluq edər xanına,
Məşuqlar susadı aşiq qanına,
Cəbrayıl yetişdi haqq məqamına,
Alışdı şahpəri, yandı, ağlaram.

Ya Rəb, görən kimlər yetər dadıma,
Həsrət qaldım ocağıma, oduma,
Miskinəm, ərənlər düşdü yadıma,
Didəm yaşı selə döndü, ağlaram.

## AYAQ ÜSTƏDİ

Bu gün bir bağçanın seyrinə vardım,
Bu bağın bağbanı ayaq üstədi.
Könül pərvazlandı şahı görməyə,
Seyraqub yatmayıb ayaq üstədi.

Salam verdim, əleyk aldım dərdindən,
Səda gəldi dəryalardan, dərindən,
Əlim üzməm ərənlərin əlindən,
Ağam Şahi-mərdan ayaq üstədi.

Miskinəm, qılginən inayət mana,
Dəruləl məqamnan şəfayət mana,
İnşallah yetişər bəraət mana,
Haqq özü yatmayıb, ayaq üstədi.

## OLMAZ

Sultanım fərmanı, paşa qəzəbi...
Paşam, mürvət eylə, belə kar olmaz.
Üzdü məni bu yolların əzabı,
Paşam, mürvət eylə, belə kar olmaz.

Canım qoydum mürşüdümün yolunda,
Sərdakərdan qalmışam Urum elində,
İslam bada gəlir cəllad əlində,
Paşam, mürvət eylə, belə kar olmaz.

Cüda Miskin çəkər qəmi-möhnəti,
On iki imamdı Peyğəmbərin züryəti,
Sünnü, şiə Məhəmmədin hümməti,
Paşam, mürvət eylə, belə kar olmaz.

# *TƏCNİSLƏR*

## EL ATA

Yaz olanda büsatıdı dağların,
Ətəyində yer eliyər elata.
Qarı düşmən qovğa salsa üstünə,
Bata bilməz süvar olsa el ata.

Bir Allahdı ərşü-gürşü yaradan,
Adı çoxdur, bir adı da Yaradan,
Nə yaratsan Yaradanı yarat, an,
Qorx ki, sana qara daşı el ata.

Miskin Abdal, şeytan anma, nər div an,
Müxənnəsə tutacaqdı nə divan,
Haqqa doğru sən qoyubsan nərdivan,
Ona görə deyir sənə el: "Ata".

## MƏNİ

Əhədən, səmədən, həyyi-layəmud,
Tut dəstimnən yetir dür üstə məni.
Görsən nadürüstəm, vermə dürüstə,
Dürüstəmsə, yetir dürüstə məni.

Səmimizə yetişməyir haqq səda,
Bir gün olar bükdürəllər ağ səda,
Günbəz əl xizrədə, məscid-əqsada,
Onlar da tanıyır dür usta məni.

Əbsəd hesabilə dərs aldım ağdan,
Baxmadım qarayə, dər saldım ağdan,
Heyvatək soyuldum, dərs aldım ağdan,
Yetirdim dərsimi-dürüst aməni.

Mən Miskinə haqdan gəldi "sin" ayə,
Xətm olundu İrəsulə Sinayə.
Gör necə çulğaşıb sinə-sinayə,
Tiflin tək görmədim dürüst əməni.

# ***DİVANİLƏR***

## YA ƏLİ

Bey bismillah əzbərimdi, hey xudadan, ya Əli
Ən ibtida gəldi səda ərş-əladan, ya Əli.
Babi sər-sər, lohu qələm oldu dünya olmamış,
Bir Cəbrayıl qalxdı göyə tək dəryadan, ya Əli.

Səlli-aləm, mahi-aşkar, zülsətdən var pərdəsi,
Sey-Sirrdən səda gəldi, Cəbrayıl çəkdi bəhsi,
Həqiqəti düz bilmədi, tərsə döndü kəlməsi,
Alışıb yandı şahpəri, oldun fərman, ya Əli.

Yandı sahpər, endi suya, nəhər gəldi yadına,
Xaki-kəlam verdi salam, yetişdi muradına,
Haqq-taala özü dedi irəhmət ustadına,
Hər tərəfdən səda gəldi "Əhsən! Əhsən!", ya Əli.

Hər kəlmədə tərif edir, Quranda ayət səni,
Cəmi aləm övliyadır, yazır əsli zat səni,
Həbib özü tərif edir külli vilayət səni,
Zahirdə təvəllüdsən, Sirri-Sübhan, ya Əli.

Göyçəlidi Miskin Abdal, yoxdu heç bir günahım,
Hər kəlmədə, hər ayədə sən ol mənim pənahım,
Puli-sirat, haqq divandı, ol xudadan köməyim,
Vəli sənsən, vəkil sənsən, şiri yəzdan, ya Əli.

## QOYMARAM

Şeşpərlərə əgər nişan olsa yaxan, qoymaram,
Cəng olarsa bu meydanda könül yıxan qoymaram.
Yaxşılıqda payım vardır, qismətimdi halallıq,
Bica yerə sitəmlərə qəlbi yaxan qoymaram.

Pak olmasa ulu Tanrı verər ağır cəzanı,
Qır qazanda qaynadar düz yolundan azanı,
Sitəmlərə düçar edər mərdə quyu qazanı,
Mərdimazar deyiləni səmtə yaxın qoymaram.

Miskin Abdal göstərməyib heç zaman sərt üzünü,
Dərviş olub əridərəm ürəklərin buzunu,
Yol gedərəm diyar-diyar neçə illər uzunu,
Düz ərkanı əyri gedə ya bəy, ya xan qoymaram.

## MƏNİ

Çərxi-fələk yarıtmadı dövlətdən, vardan məni,
Min bir dərdi əzab verib, ayırdı yardan məni.
Səkrəqibin fitnə-feli çəkdi məni çarxıma,
Yazıq Həzrət İsa kimi asdı divardan məni.

Türk əcəmə, əcəm türkə zülm eyləsə günahdı,
Hər ikisi bir kökdəndi, yaradan da Allahdı,
Öz elinə düşmən kəsin axır günü kütahdı,
Qadir mövlam, uzaq eylə bayquşdan, sardan məni.

“Qırxlar piri” özü verib dərsimi ümman mənim,
Çətin girə ürəyimə ləini-şeytan mənim,
Seyyid Miskin Abdal mənəm, söz mənim, meydan mənim,
Qoruyanım, özün qoru, xain dostlardan məni.

## YOL VERMƏDİM

Xoşbəyanlıq virdim oldu, böhtana yol vermədim,
Şirin süxən əndəlibəm, hədyana yol vermədim.
Nifrin edib, lənət dedim xainə, iblislərə,
Qəlbimi ayna saxladım, nadana yol vermədim.

Bir bəşəri incitmədim, özümü şah saymadım,
Dostum sirrini söyləyib, dildən-dilə yaymadım,
Ömür qısa, dünya əzəl, çox yaşadım, doymadım,
Dür mətaha meydan açdım, tək cana yol vermədim.

Aşıq olub dərs alanlar söz desin sözüm kimi,
Miskin Abdal, məğrur istə hamını özün kimi,
Arifi, mətləb qananı bilirəm gözüm kimi,
Sinəm üstən mərd yeridi, şeytana yol vermədim.

## NARIN ÜZƏ BİLMƏRƏM

Ey dost, sənin bağın cənnət, narın üzə bilmərəm,
Ha silkinsəm, dəryan dərin, narın üzə bilmərəm.
“Qırxlar piri” özü düzüb ayağıma atəşi,
Alışaram Səməndər tək, narın üzə bilmərəm.

Dərviş gərək bu meydanda qurban olsun baş-başa
Mürşüdümnən üzüm dönməz, dünya gəlsə baş-başa,
Ayaq olan uzaq olsun, yetsin gərək baş-başa,
Fələk nə vaxt sökər üzüm, narın üzə bilmərəm.

## ZAY OLMUSAN

Yazıq könlüm, nə sızlarsan, bülbülə tay olmusan,
Haçan yardan yarımısan, sevilib bay olmusan.
Sər dərvişsən haqq yolunda, haqqı istə, haqqı sev,
Nə olsun ki, bel bükülüb kamana tay olmusan.

Yar olsan da incimə, gəl, ulu Tanrı bağışlar,
Dərgahında apaydındı bu cizgilər, naxışlar,
Qoy didəndən sel-sel olub axsın qara yağışlar,
Axır məhşər görərsən ki, köpüklü çay olmusan.

Çay olmağın paklığında, durma, yuyun, paka çıx,
Doğru-düzə yol açıqdı, nə qar-boran, nə palçıq,
Miskin Abdal, dolansan da ayaqyalın, başaçıq,
Zər qədrini zərgər bilər, zaylara tay olmusan.

# QURBANİ
(XVI əsrin əvvəlləri)

## *GƏRAYLILAR*

### DOLANA-DOLANA

Alçaq yerdən duman qalxar,
Dağı dolana-dolana.
Göy üzünü bulud alar,
Mahı[1] dolana-dolana.

Kimi ağa, kimi nökər,
Nökər olan cəfa çəkər,
Bülbül ağlar, qan-yaş tökər.
Bağı dolana-dolana.

Qurbani murada yetdi,
Canan gəldi burdan ötdü,
Nobat gəldi, mana yetdi,
Saqi dolana-dolana.

### GÜLƏ, GÜLƏ

Girdim yarın bağçasına,
Dedim dərdim gülə, gülə.
Mən ona elə müştağam,
Necə bülbül gülə, gülə.

Naşı bağban, satma gülü,
Haramdı axçası, pulu,
Küsdürdün şeyda bülbülü,
Daha gəlməz gülə, gülə.

[1] Ay

Qurbaniyəm, erməmişəm[1],
Yar qəsrinə girməmişəm,
Belə cəllad görməmişəm,
Aldı canım gülə-gülə.

## TEZ-TEZ

Canım təbib, gözə loğman,
Mənim dərdim ara tez-tez.
Bu dərd məni çox incidir,
Sızıldayır yara tez-tez.

Sevdim gözəllər muyunu,
Heç kəsə verməz oyunu,
Tülək-tərlanın oyunu[2]
Qismət etmə sara tez-tez!

Qurbani ağlar eldən ötrü,
Bülbül ağlar güldən ötrü,
Bircə nazik beldən ötrü,
Günüm keçdi qara, tez-tez.

## OLMAZ

Fənd eləmə, felli dərviş,
Belə kar eyləmək, olmaz!
Yıxıbsan könlüm evini,
Mürğü zar eyləmək olmaz!

Söylə dərdin bilənlərə,
Dərd başına gələnlərə,
Hər üzünə gülənlərə,
Etibar eyləmək olmaz!

---

[1] Çatmamışam
[2] Ov

Qurbaniyə gətirir məzə,
Dərd üstündə dərdim təzə,
Dərd biləni dərdbilməzə,
Giriftar eyləmək olmaz!

## ALDATDI MƏNİ

Ay ağalar, ay qazılar,
Yar yaman aldatdı məni.
Əl atdım yarın dəstinə,
Yar kənara atdı məni.

Tor qurdum çeşmim gölünə,
İlişdi sonam telinə,
Düşdüm dilbilməz əlinə,
Aldı, ucuz satdı məni.

Qurbanidi mənim adım,
Adəm atadı bünyadım,
Şeş atdım, çahar oynadım,
Axır fələk uddu məni.

## GƏLDİM

Yar, səni ədalət bildim,
Mən qapına dada gəldim.
Çox cəfa çəkdim yolunda,
Ömür verim bada, gəldim!

Ləbin içib çeşmim qanı,
Olmuşam cəllad qurbanı,
Qoynundu əttar dükanı,
Nə əcəb bu, dada gəldim!

Qurbanidi mənim adım,
Mövlamdan aldım muradım,
Sinəndi çarşım, bazarım,
Şəkərə, nabata gəldim!

## ALDIĞIM

Səhərin dan yeli kimi,
Əsmə, qadasın aldığım!
Mənim səbrü qərarımı,
Kəsmə, qadasın aldığım!

Bizim bağda gül dərginən,
Sıx könlünə, tel hörgünən,
Ağ üzdən busə verginən,
Əsmə[1], qadasın aldığım!

Qurbani aşiq üzünə,
Qurbandı ala gözünə,
Baxma yadların sözünə,
Küsmə, qadasın aldığım!

## GƏLİRƏM MƏN

Heç gəlmirsən bulaq üstə,
Gündə üç yol gəlirəm mən.
Üzümə soyuq baxırsan,
Ürəyini bilirəm mən.

Kaş ki gözəl olmayaydın,
Saralıban solmayaydın,
Mənnən aşna olmayaydın,
Ayrılanda ölürəm mən.

Gül dibini xara qoydun,
Bülbülü ah-zara qoydun,
Qurbanini biçara qoydun,
Gedirsən get, gəlirəm mən.

---
[1] Əsirgəmə

## PƏRİM GƏLSİN

Nə əcəb sevdaya düşdüm,
Deyin bundan Pərim gəlsin!
Əcəl şərbətini içdim,
Deyin bundan Pərim gəlsin!

Dağların başı dumandı,
Didəmin yaşı ümmandı,
Bu gələn Şahi-xubandı,
Deyin bundan Pərim gəlsin!

Yolunda qoymuşam canı,
Kirpikləri tökər qanı,
Bu gələndi Şəhrəbanı,
Deyin bundan Pərim gəlsin!

Əyninə geyib qırmızı,
Yalav[1] kimi yanır üzü,
Bu gələn vəzirin qızı,
Deyin bundan Pərim gəlsin!

Mən ağlaram zarı-zarı,
Bu zülmü götürməz tarı,
Bu gələn Qurbani yarı,
Əcəb gəlsin, Pərim gəlsin!

## YETİRMƏSİN

Vəzir, sana qarğayıram,
Haqq diləyin yetirməsin!
Göydən min bir bəla ensə,
Birin səndən ötürməsin!

Evində düşəsən naçaq,
Sağ gözünə batsın bıçaq,

[1] Alov

Oğul-uşaq düşsün qaçaq,
İstədiyin gətirməsin!

Oturubsan ağ otaqda,
Qan qusasan laxta-laxta,
Səni görüm ölən vaxtda
Dilin kəlmə gətirməsin!

Qurbani qaldı burada,
Çağır xudan yetsin dada,
Meyitin qalsın arada,
El yığılıb götürməsin!

## DİLBƏR!

Durum dolanım başına,
Aşiqindən küsən dilbər!
Gözlərini dik gözümə,
Nə mən dinim, nə sən dilbər!

Mina qəddin zəbərcəddi,
Nə desən cana minnətdi,
El köçüb, otaq xəlvətdi,
Gəlsin alam busən, dilbər!

İtirmişəm maralımı,
Bir sinəsi yaralımı,
Gündüz səbri qəralımı,
Gecə yuxum kəsən dilbər!

Qurbani özünə bəydi,
Yar həsrəti qəddim əydi,
Nə dedim xətrinə dəydi,
Bu mən dilbər, bu sən dilbər!

### *QOŞMALAR*

## KƏNARINDA

Bu gün bir gözəlin seyrinə vardım,
Əlində şanası tel kənarında.
Halqa-halqa, qıvrım-qıvrım, çinbəçin,
On dörd hörük gördüm bel kənarında.

Qapına gəlmişəm, sayılam, sayıl,
Haqq verən paylara olmuşam qayıl,
Pərimin boynunda heykəl-həmayıl,
Ləl bazubənd düzüb qol kənarında.

Qurbani der: mənim sözüm düzgündü,
Yar əlindən yazıq canım üzgündü,
Baxdım, yarın gözü mənə süzgündü,
Bir cüt öpüş aldım yol kənarında.

## DÖRDÜNƏ

On altı gözəlin seyrinə varım,
Gözüm düşdü gözəllərin dördünə.
Altısı bəd xəsyət, dindirmək olmaz,
İkisi mehriban, de, bəs dördü nə?

Ay ağalar, dərdim yaman artıbdı,
Çərxi-fələk eldən daşım atıbdı,
Səkkiz şeydi, bu dünyanı tutubdu,
Abü atəş, xakü baddı, dördü nə?

Qurbani sözlərin eylədi tamam,
Gözümün evini alıbdı duman,
Səkkiz şey insana olubdu ənam,
Ağıl, mərifət, həvəs, kamal, dördü nə?

## ÜRƏYİMDƏ

Bümürvətin, biinsafın balası,
Mən səni sevmişəm sağ ürəyimdə.
Qıya baxdın, ortalığa qan tökdün,
Qara nöqtə qoydun ağ ürəyimdə.

Məhəbbət bir dərya keçə bilmirəm,
Ayrılıq şərbətin içə bilmirəm,
Sirr sözüm yadlara aça bilmirəm,
Gedər qiyamətə dağ ürəyimdə.

Qurbani çıxmayıb qəm libasından,
Göz doymaz gözlərin təmənnasından,
Cəhənnəm xofundan, eşq havasından,
Əridi, qalmadı yağ ürəyimdə.

## BU İŞƏ

Qadir Allah, səndən budu diləyim,
Pənahdarım, imdad eylə bu işə!
Səndən başqa yoxdur mənim köməyim,
Aman Allah, imdad eylə bu işə!

Bismillah elədim, girdim meydana,
Ümidim bağladım Şahi-mərdana,
Məcnun kimi məni qoyma divana,
Aman Allah, imdad eylə bu işə!

Qurbani der: əslim qaradağlıdı,
Yar üzündən ürək düyün-dağlıdı,
Zülm eləyən vəzir, namərd oğludu,
Aman Allah, imdad eylə bu işə!

## PƏRİNƏ

Görüm ömrü uzun olsun Pərimin,
Heç dəymədi könlümüzün pərinə.
Gözəllikdə bərabəri tapılmaz,
Mahruyluqda[1] huri nədi, pəri nə?

Əvvəlcədən oxuduğum yazardım,
Gəzməmişdən qədəmimi azardım,
Bir dəryanın kənarında gəzərdim,
Yarın şövqü məni atdı dərinə.

Gözəllərdə nazü-qəmzə, şux olu,
Seyrağıblar bu aradan yox olu,
Qurbani der: gözəl deyən çox olu,
Mahın yerdə yetmək olmaz sirinə.

## DƏRƏR SƏNƏ

Sallana-sallana gedən salatın,
Gəl belə sallanma, göz dəyər sənə,
Al-yaşıl geyinib qarşıda durma,
Yayın bəd nəzərdən, söz dəyər sənə.

Getmə, getmə görüm, kimin yarısan,
Hansı bəxtəvərin vəfadarısan?
Kölgədə bəslənmiş quzey qarısan,
Səhərin yelləri tez dəyər sənə.

Qurbani der: heç kəs yarın öyməsin,
Düymələ yaxanın çarpaz düyməsin,
Dəstələ zülflərin, yerə dəyməsin,
Yollar qubarlanar, toz dəyər sənə.

[1] Ayüzlü

## OLMAZ

Ey Salatın, aşiqlərin sərində,
Sənin zülfün kimi bişitab olmaz!
Camalinə Pəri, müştaq olalı,
Bidar olan, gözlərimdə xab olmaz.

Misir şəhri derlər, ona varmışam,
Yusif, Kənan sevdasına girmişəm,
Mən fələk ayını göydə görmüşəm
Yerdə sənin kimi mahi-tab olmaz.

Qurbani der: budu səndə nəzərim,
Mən səni sevmişəm gülüzlü yarım,
Ta sən sağ ol, şirindilli nigarım,
Mən ölsəm bu aləm, heç xarab olmaz.

## MƏNİ

Başına döndüyüm, ay pirü qoca,
Bir pəri salıbdı çöllərə məni,
Nə günüm gündüzdü, nə gecəm gecə,
Bir pəri salıbdı çöllərə məni.

Xəbər alsan, budu sözümün düzü,
Sızıldayır yaram, səpmə gəl duzu,
Cavad xan bacısı, Ziyad xan qızı,
O pəri salıbdı çöllərə məni.

Qurbaninin dərdi olub ziyada,
Allahı çağırram, yetişər dada,
Bir gözəl seçmişəm işıq dünyada,
O pəri salıbdı çöllərə məni.

## SELLƏNİ

Gecə-gündüz, vaxtı-bivaxt ağlaram,
Çeşmim yaşı Ceyhun olu, selləni.
Yaz mövsümü bülbül dil-dil ötəndə,
Bağ-bağçalar nərgizləni, gülləni.

Qayıtmaq istəməz gözüm gözəldən,
Qayğımı artırar dərdim təzəldən,
Ellərdə qaydadı rui-əzəldən,
Gözəllərin şamaması əlləni.

Mərd odu ki, işin tuta mərdilən,
Ər istəsən, keç namərddən, ər dilən,
Rəmz anlayan, söz düşünən, dərd bilən,
Aləmlərdə şöhrətləni, bəlləni.

Könlüm tələb edib, axtara yarın,
Xalq içrə hifz elər namusun, arın,
Yar yarına gündə olsa məqarun,
Könülü şən olu, ruhu telləni.

Qurbaniyəm, dərd çəkmişəm nahanlar,
Xəyalım sevməkdi sən tək cananlar,
Yanaşsa üzünə müştaq dəhanlar,
Nəfəs dəyər, cığaları yelləni.

## QAL İNDİ

Ayrı düşdüm vətənimdən, elimdən,
Başı çənli, qarlı dağlar, qal indi!
İçən ölməz dərdə dərman suyundan,
Axar sular, tər bulaqlar, qal indi!

Bivəfasan, mən görmədim vəfanı,
Çox çəkmişəm sənin cövrü cəfanı,
Məndən sonra rəqib sürər səfanı,
Fərş döşəli ağ otaqlar, qal indi!

İlqarsızsan, vəfan yoxdu dünyada,
Dostunun sirrini verirsən yada,
Şamamanı dərdirirsən xoryada,
Səbzə bostan, sarı tağlar, qal indi!

Qurbaniyəm, yəqin oldu sözlərim,
Eşq əlindən kabab istər gözlərim,
Qan tökürsən qürbət eldə, gözlərim,
Ağla, canan deyib ağla, qal indi!

## İNDİ

Sən tərif etdiyin ol səmənd atın,
Kəlləmənqo[1] tutub yamandı indi.
Nalı, mıxı düşüb, çox pis gündədi,
Ayğıran bir ölü siçandı indi.

Arıx çıxıb qışdan, ayrılması yox,
Noxtalanıb yerə çəkilməsi yox,
Çoxdankı ölüdü, dirilməsi yox,
Bir dəri, bir sümük, palandı indi.

Qarğa, quzğun edib cəmdəyin para,
Üç mildən qalıbdı dişlər ağara,
Umsuq etdin məni, qoydun avara,
Dedim: yəqin bir şir, aslandı indi.

Yaş gönün duzlayıb satmışam pula,
Əvvəlki qaydada düşmüşəm yola,
Dedim ki, dostluqda etibar ola,
Qoymusan könlümü bicandı indi.

Nə bilim, belə də nəfs olur məgər,
Düş yola, gəzginən hər şamü-səhər,
Qurbani, sevdiyin atdısa əgər,
Söylə, at yerişli qurbandı indi!

[1] At xəstəliyi

## EYLƏDİ

Bir pəri sevmişəm sizin ellərdə,
Məni camalına heyran eylədi.
Bunca bir gözəli bulmadı könül,
Gəzdi bu cahanı seyran eylədi.

Əsli şahzadədi, ismidi Pəri,
Yolunda qoymuşam can ilə səri,
Bir təklif eylədi, getdim içəri,
Dindirdikcə könlüm xəndan eylədi.

Gümüş piyaləlim, altun ayaqlım,
Sürahi gərdənli, qaymaq dodaqlım,
O ceyran yerişlim, ayna qabaqlım,
Qurbani der: məni candan eylədi.

## BƏNÖVŞƏNİ

Başına döndüyüm, ay qəşəng pəri,
Adətdi, dərərlər yaz bənövşəni.
Ağ, nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altında düz bənövşəni!

Tanrı səni xoş camala yetirmiş,
Səni görən aşiq ağlın itirmiş,
Mələklərmi dərmiş, göydən gətirmiş?
Heyif ki, dəriblər az bənövşəni.

Başına döndüyüm, bağa gəl, bağa,
O gözəl hüsnündən bağa nur yağa,
Dəstə-dəstə dərib taxar buxağa,
Bənövşə qız iylər, qız bənövşəni.

Qurbani der: könlüm bundan sayrıdı,
Nə etmişəm yarım məndən ayrıdı,
Ayrılıqmı çəkib boynu əyridi,
Heç yerdə görmədim düz bənövşəni.

## PƏRİ

Bir almaz göndərdim yara yadigar,
Almadı almazı, bağrı daş pəri.
Könül tələb elər məndən nəyim var,
Od tutub cismimi al-ataş, pəri!

Bülbül ayrılığı simətdi gülə,
Güləbətin naxış süsən-sünbülə,
Altından nimtənə, üstdən silsilə,
Sərəndazdan töküb başabaş, pəri!

Bir gözəlin ələyindən ələndim,
Bəli dedim, bəlasına bələndim,
Yön çevirdim, hər bir yana diləndim,
Qurbaniylə görüş, halallaş, pəri!

## SƏNİ

Başına döndüyüm ay pərizada,
Can içində cana verməræm səni.
Neylərəm bostanı, neylərəm bağı,
Yüz bağu-bostana verməræm səni!

Dağlarda maralsan, çöllərdə ceyran,
Ordubad, Naxçıvan boyuna heyran,
Tamaşaya gələr cəmi Gülüstan,
Güllü Dağıstana verməræm səni.

Qurbani der: can içində can gələ,
Yaş yerinə gözlərimdən qan gələ,
Camalın görməyə Süleyman gələ,
Taxti-Süleymana verməræm səni!

## NƏDƏNDİ?

Ey nazənin, bu gen, geniş dünyada,
Namusu əğyara satmaq nədəndi?
Gər adına deyilmişsə şahibaz,
Söylə görüm, onu atmaq nədəndi?

Eylərəm hər yerdə sənin sorağın,
Gündən-günə artar bil, iştiyağım,
Öz əlinlə yandırdığın çırağın,
Şöləyi-fəraqla yaxmaq nədəndi?

Hifz eyləsin Tanrı səni bəladan,
Tapsın canın səhhət, ey gül, şəfadan,
Hər ikimiz vəslə yetək duadan,
Hicranın oduna yanmaq nədəndi?

Nə gözəldi sənin şirin sözlərin,
Zail etdi məni ala gözlərin,
Ey sevdiyim, qaydasıdı qızların,
Gahi-gahi bu söz atmaq nədəndi?

Sənə əyanmı, ey dilbər, sevdiyim,
Qurbanidi, bir şey istər, sevdiyim,
Ay üzünü görmək istər sevdiyim,
Söylə görüm, bəs bu yaşmaq nədəndi?

## GƏTİRİ

Başına döndüyüm vəfalı dilbər,
İrəngin dağlardan lala gətiri.
Qaşların ləl olsa, yoxdu qiyməti,
Gözlərin başına bala[1] gətiri.

[1] Bəla

Məclisində şirin-şirin danışı,
O tərlan duruşu, qıya baxışı,
O sərxoş yerişi, o sallanışı,
Kafir olsa, yenə yola gətiri.

Mən qurbanam ala gözün məstinə,
Nə qıyıbsan şirin canın qəsdinə,
Sallana-sallana gəlsən üstünə,
Yazıq Qurbanini hala gətiri.

## YERİDİ

Ey ariflər, eynim yaş ilə doldu,
Sel-sel oldu, üzüm üstə yeridi.
Aləmi-röyada gördüm camalın,
Elə bildim mələklərin biridi.

Qızıl gülü dəstə-dəstə dərəm mən,
Dərib-dərib pünhan yerə sərəm mən,
Əhdim budu, bir də yarı görəm mən,
Gözüm gözlərinin intizarıdı.

Əzəl başdan belə yazıldı yazı,
Şirindi söhbəti, şirindi sazı,
Gəncə şəhərində Ziyad xan qızı,
Qurbanini oda salan Pəridi.

## NAMİDARIDI

Bir pərzad görmüşəm sizin ellərdə,
Çün cismü canımın namidarıdı,
Günəş nişanəli, qəmər misallı,
O cahan xubinin cilvadarıdı.

Dost bilsə yarının gəldiyin, neylər?
Yar yolunda qara bağrını teylər.
Nəsihət qəmzənə ver ki, qan eylər,
Gözəllər şuxinin sitəmkarıdı.

Mənim dərsim əlifdədi, beydədi,
Bir gözəl sevmişəm, cana faydadı.
Desələr, Qurbani, bu nə sevdadı,
De ki: bir pərinin yadigarıdı!

## AYRI

Səhər bülbülləri nə fəğan eylər,
Düşərsə güzarı çəməndən ayrı.
Səhər-səhər qönçəsindən ayrılan,
Şəqayiqlər[1] gülməz səməndən ayrı.

Yanında dayanan yoldaşların var,
Sirrini saxlayan sirdaşların var,
Sənin elin, günün, qardaşların var,
Mənim kimsəm yoxdu, yar, səndən ayrı.

Dedim, pəri, nə elərsən mehpara,
Mənim həsrət gözüm heç uymaz xara,
Bir qətrə yaş tökdün, bir də dübara,
Əqiqdən, yaqutdan, yəməndən ayrı.

Qurbani der: məgər axır zamandı?
Sevgi sevgisindən ayrı yamandı,
Bağrım dəlik-dəlik, sinəm peykandı,
Mənim üzüm gülməz vətəndən ayrı.

## GƏNCƏ HEY

Könül qalxıb Bərdə sarı yeridi,
Orda bir ölkə var, adı Gəncə hey!..
Gözəlləri, məhbubları, xubları,
Olar batıb malü-mülkə, gencə hey!..

Geymək üçün yaşılı var, alı var,
Əmmək üçün ləblərinin balı var,
Xublarının bir özgə cür halı var,
Hər yetənə vurmaq olmaz pəncə hey!

Qurbani der, vüsalına ermədim,
Əl uzadıb qönçə gülün dərmədim,
İran gəzdim, Turan gəzdim görmədim,
Gözəllikdə, məhbubluqda səncə hey!

## YARI GÖRMÜŞƏM

Ay ata, can gedib, qalıbdı nəfəs,
Bu nişanda belə yarı görmüşəm.
Bunca ki gözəli tapmadım könül,
Ah çəkibən intizarı görmüşəm.

Gözəllikdə kimsə yoxdu təhrində,
Onunçün çəkərəm yarın qəhrin də
Nə İran, nə Turan, Gəncə şəhrində,
Canlar alan o nigarı görmüşəm.

Ay ata, sən məni etmə günahkar,
Bəsdi, bunca nə elərsən ahü-zar?
Qurbani der: əldən gedib ixtiyar,
Xublar şahı o sərdarı görmüşəm.

## YETİŞDİM

Laməkan şəhrindən gəldim cana mən,
Canlar əhli bir canana yetişdim.
Əldən-ələ, qabdan-qaba süzüldüm,
Qətrə idim, bir ümmana yetişdim.

Bir gözəlin ələyindən ələndim,
Bəli dedim, bəlasına bələndim,
Yeri, göyü yaradandan diləndim,
Gövhəri axtardım, kana yetişdim.

Qurbani der: göz gözlədim, göz aldım,
Səmağ oldum, ağılmənddən söz aldım,
Düz tərpəndim, mərufumu tez aldım,
Ədəb gördüm, yol-ərkana yetişdim.

## İSTƏRƏM

Çoxdu cahan içrə nazənin dilbər,
Özümə münasib yarı istərəm.
Ola tərlan gözlü, həm yaşda uşaq,
Mənə ola etibarı istərəm!

Gözəllərin gərək incə belləri,
Şəkərdən, nabatdan şirin dilləri,
Qoynunda isinə nazik əlləri,
Məhəbbətin mənə sarı istərəm!

Evlər yıxan ola daneyi-xalı,
Bir dəm kəm olmaya məndən xəyalı,
Aya, günə bənzər ola camalı,
Həm də ola bənzi arı[1] istərəm!

Ey sevdiyim, gəl kəs bu qalmaqalı,
Zail oldu aşığının kamalı,
Vargəl elə düzəltginən sən halı,
Qurbani der: şux nigarı istərəm!

## PƏRİM

Özü xoşsifətli, adı xoşnişan,
Yeriyir qabaqca Mikayıl, Pərim!
Firiştə zülfləri tarimar olmuş,
Asılıb gərdəndən həmayıl, Pərim!

Qapına gəlmişəm, sayılam, sayıl,
Haqq verən paylara mən oldum qayıl,
Qızıl qıtmığından tökdür həmayıl,
Dünya olsun sana naqail, Pərim!

Qurbani qurbandı şahın dərinə,
Dərviş bilər, xirqə nədi, dəri nə?
Ağam qıya baxdı, atdı dərinə,
Yetmiş il bənd etdi Cəbrayıl, Pərim!

[1] Təmiz

## GƏLMİŞƏM

Gəncə dağlarından, uzaq ellərdən,
Əlbəttə ki, bir murada gəlmişəm.
Eşqin sitəmindən, çərxin əlindən,
Bir şahım var, ona dada gəlmişəm.

Fərağat evimdə otduğum yerdə,
Oxuyub elmimə çatdığım yerdə,
Bir şirin yuxuda yatdığım yerdə,
İçiriblər mana bada[1], gəlmişəm.

Bülbül idim, ayrı düşdüm gülümdən.
Fələk vurdu, cida saldı elimdən,
Qurbaniyəm, Qara Vəzir əlindən,
Şah oğluna şikayətə gəlmişəm.

## MƏNİM

Mürşüdi-kamilim, şeyx oğlu şahım,
Bir ərzim var qulluğuna şah, mənim,
Əziz başın üçün oxu yazğumu,
Agah ol halımnan, gahbagah mənim!

Yığılıban bir araya gəldilər,
Şirin canım eşq oduna saldılar,
Döydülər, söydülər, yarım aldılar,
Axıtdılar göz yaşım, billah mənim!

Dərin-dərin dəryalara boyladı,
Xəncər alıb qara bağrım teylədi,
Oğlu ölmüş vəzir qəza eylədi,
Getməz damağımdan dudi-ah mənim!

Talib olan dərsin alar pirindən,
Qəvvas olan dürr götürər dərindən,

[1] Badə

Gözü yaşlı keçdim Xudafərindən,
Yüküm oldu qəmü hicran, ah mənim!

Oxuyur bülbüllər, budu gəldi yaz,
Qurbaninin canı yolunda niyaz,
Sərim sadağadı, üzüm payəndaz,
Candan qeyri yoxdu bir matəh mənim!

## EYLƏDİM

Dost yolunda yaxa yırtdım, baş açdım,
Gecə-gündüz dadü bidad eylədim.
Öz əlimlə yıxdım özüm evimi,
Müddəilər evin abad eylədim.

Töxmi-həsrət sinəm üstə əkdirdim,
Gözümün yaşıyla bəhrə yetirdim,
Cəfa çəkdim, dərd xırmanı gətirdim,
Onun adın töhmətabad eylədim.

Dost yolunda üz qoyuban baş kəsdim,
Ağlamaqdan bu didəmdən yaş kəsdim,
Şirin üçün Bisitundan daş kəsdim,
Münasib adımı Fərhad eylədim.

Şahin, şonqar bəy oğlunun qolunda,
Seyrəğıblar həm sağında solunda,
Qurbani der: bir namərdin yolunda,
Cavan ömrüm heyif, bərbad eylədim.

## GEDİRƏM

Nə müddətdi cəlay-vətən olmuşam,
Baş götürüb Gəncə deyib gedirəm.
Qəvvas kimi dəryalara dalmışam,
Eşqə düşüb onca deyib gedirəm.

Sevgili sevgini könülnən tuta,
Sidqini bağlaya eynəlyaquta,
Şahlar şahı özü veribdi buta,
Baş götürüb onca deyib gedirəm.

Qurbani tab etsin bu dərdə necə?
Qərarım kəsilib gündüz, həm gecə,
Bir gözəl sevmişəm hamıdan incə,
Baş götürüb İncə deyib gedirəm.

## DEYİLƏM

İxtiyar sənindi, vəfalı dilbər,
Mən sənin xətrinə dəyən deyiləm.
Səbəb nədi məndən kənar gəzirsən?
Sir sözün yadlara deyən deyiləm.

Hər gecə vayğamda[1] görürəm səni,
Sən allah, sən tanrı, sən də gör məni,
Çıxsın ilqarından dönənin canı,
Mən ki ilqarımdan dönən deyiləm.

Qurbani der: gülü tutasan dəstə,
Dəribən verəsən vəfalı dosta,
Üzümü qoysam da üzünün üstə,
Öpübən dişlərəm, yeyən deyiləm.

## ALMAĞA GƏLMİŞƏM

Ellər köçdü yaylasına, dayandı,
Sizin dağdan qar almağa gəlmişəm.
Könül quşu dövr eyləyir bu dağda,
Zənbur mənəm, bar almağa gəlmişəm.

Sevgilimin qaşı Kəbə küncüdü,
Mən öləndə kimlər ona yöncüdü?

[1] Yuxumda

Ağız süddü, diş dürr, dahan incidi,
Sərraf mənəm, zər almağa gəlmişəm.

Başına döndüyüm, şahların şahı,
Səni gördü gözüm, çəkmərəm ahı,
Qurbani der: budu sözün kütahı,
Müxtəsəri, yar almağa gəlmişəm.

## GƏLMİŞƏM

Başına döndüyüm Gəncənin xanı,
Mətləbimdi, pəri üçün gəlmişəm.
Buyur cəlladlara töksünlər qanı,
Mətləbimdi, pəri üçün gəlmişəm!

Böyüklərdən əta, kiçikdən xəta,
Mərd igid odu ki, dediyin tuta,
Şahlar şahı mənə veribdi buta,
Mətləbimdi, pəri üçün gəlmişəm!

Heç çıxmadım nazlı yarın köşkünə,
Bulanmadım ənbərinə, müşkünə,
Tərəhhüm eylə mən qərib miskinə,
Mətləbimdi, pəri üçün gəlmişəm!

Qurbani der: diriliyəm, mən diri,
Yolunda qoymuşam can ilə səri,
Axtardığım yardı, şikarım pəri,
Mətləbimdi, pəri üçün gəlmişəm!

## RAST GƏLDİM

Pərinin bağında seyran eylədim,
Almalı, alçalı yaza rast gəldim.
Almasın, heyvasın dərdim, düşürdüm,
Könül istədiyi naza rast gəldim.

Gözəllər gözəli, gözəllər xası,
Silindi, qalmadı könlümün pası,
Sinəni bənzətdim şonqor yuvası,
Oğlan libasında qıza rast gəldim.

Qurbaniyəm, görcək həzər eylədim,
Gözəlləri gördüm, nəzər eylədim,
Yeddisilə bağda güzar eylədim,
Hesabım yanıldı, yüzə rast gəldim.

## GÜL ÜZƏ

Məni görcək ürbənd çəkdi gül üzə,
Dara zülfün, qoy tökülsün gül üzə,
Qorxum budu xoryat bağdan gül üzə,
Kəsilə güllüyün mədarı, xanım!

Çox işlərə o, eyləyər iradə,
Fələk qoymaz mən yetişəm muradə,
Seyrəqib görməsin heç gün dünyadə,
Heç nəcat tapmasın əğyarı, xanım!

Maral xanım naqis işlər eyləyər,
Xəncər alıb ciyərimi teyləyər,
Qurbani bu yarsız bağı neyləyər?
Pozular ömrünün pərgarı, xanım!

## GÖRMƏSİN

Xandı gələn, vəzirlər də yanınca,
Çək pərdəni, naməhrəmlər görməsin!
Kaş öləydim bu günlərə qalınca,
Çək pərdəni, naməhrəmlər görməsin!

Səs yayılar, sirrimizi bildirər,
Dost-düşməni axır bizə güldürər,
Müxənnətin sözü adam öldürər,
Çək pərdəni, naməhrəmlər görməsin!

Qurbani, başına yağar yağış, qar,
Ah, necə vətəndən oldum dərbədər,
Bu sevdaya düşən çəkər ahü-zar,
Çək pərdəni, naməhrəmlər görməsin!

## DEYƏRSƏN

Şahi-xuban, mənim ərzi-halımı,
Əlbət, əlbət nazlı yara deyərsən!
Xəstə düşdüm, qaldım onun kuyində
Üzü dönmüş sitəmkara deyərsən!

Səni o, görcəyin əlbət, dindiri,
Aşiq məşuqunu oda yandırı,
Dərdim anbar-anbar, dərmanım Pəri,
Mən qalmışam nə avara, deyərsən!

Qazanmadıq bu dünyanın malını,
Geyinmədik yaşılını, alını,
Dirli Qurbaninin ərzi-halını,
Yalvara-yalvara yara deyərsən!

## SAQİNİN

Varmı mənim kimi bir qanı dolmuş,
Eyşin qurmuş otağında saqinin.
Çahar zülfü bir-birinə vurulu
Qanlar oynar buxarında saqinin.

Ay ilə gün bir-birinə çatılı,
Sevdiciyim yağnan bala qatılı,
Doğram-doğram olub gözə tutulu,
Qara bağrım bıçağında saqinin.

Humay kimi dövr elərəm havada,
Babam öldü, yetim qaldım yuvada,

Bir əli əllərdə, ağzı duada,
Bir əli də ayağında[1] saqinin.

Qurbani der: bu dərd mənə qalınca,
Canım çıxıb yar xətrini alınca,
Payız gecələri sabah olunca,
Çeşmim yağı çırağında saqinin.

## MƏNDƏN

Dağlar, sənin ilə həmdəm olmada,
Əsirgərsən indi qarı da məndən.
Seyraqıbın o tənəli sözləri,
Axır ayrı salar yarı da məndən.

Bu ilməyin, bu köynəyin, bu ağın,
Əzəl başdan bağbanıydım bu bağın,
Sinəm üstə çarpaz düyün bu dağın,
Bağban əsirgəyər narı da məndən.

Bu dünya dediyin bir boş ələkdi,
Haqqın min bir adı onda gərəkdi,
Qurbani der: bu nə çərxi-fələkdi,
Zülümlə ayrarlar yarı da məndən.

## GƏZƏ-GƏZƏ MƏN

Altı yol gəlmişdim, bununla yeddi,
Öldüm bu bağçanı gəzə-gəzə mən.
Dedim, bir yar sevdim, unudub getdi,
Öldüm bu bağçanı gəzə-gəzə mən!

Gözüm doymaz sənin kimi canandan,
Cananın itirən tez olar candan,
İnanmırsan soruş şahi-xubandan,
Öldüm bu bağçanı gəzə-gəzə mən!

[1] Qədəh

Pəri, sənə qurban dirili Qurban!
Yolunda qoyubdu o baş ilə can,
Bir əlində fanus[1], yanında xuban,
Öldüm bu bağçanı gəzə-gəzə mən!

## XOŞ GƏLDİN

Bu gün nə xoş gündü, nə xoş saatdı,
Qədəm basdın, Pəri xanım, xoş gəldin!
Mətləbim almışam abi-həyatdan,
Təzələndi ruh-rəvanım, xoş gəldin!

Gözlərin nərgizdi, hüsnün mahtaban,
Açılıb, gül, süsən, sünbül, ərğəvan,
Zanbağü-yasəmən, bərgi-ireyhan,
Fəsli-bahar gülüstanım, xoş gəldin!

Şad elədin Qurbaninin didarın,
Həsrətin çəkirdim sən kimi yarın,
Saldın bağa küllü cəmi dostların,
Gözəllər şahvarı[2] canım, xoş gəldin!

## BİLMƏDİNMİ SƏN?

Şəbnişin eyləyib yola düşmüşəm,
Yar, mənim gəldiyim bilmədinmi sən?
Dərdini çəkməkdən dəli olmuşam,
Yar, mənim gəldiyim bilmədinmi sən?

Mən qurbanam sənin kimi canana,
Olmuşam dərdindən dəli-divana,
Dağılsın otağım, ev ilə xana,
Yar, mənim gəldiyim bilmədinmi sən?

---
[1] Fənər
[2] Şahlara layiq

Qurbani deyir ki: sonasan, sona,
Bir zaman görməsəm yanaram, yana,
Qarabaş göndərdim əhdə, peymana,
Yar, mənim gəldiyim bilmədinmi sən?

## QIZLARIN

Axşamdan yağan qar çıxıbdı dizə,
Kəsilib bulaqdan yolu qızların.
Sənəyin doldurub qoyanda düzə,
Üşüdü barmağı, əli qızların.

Gözəllər yığılıb hamısı kəndə,
Sənəyin doldurub burdan ötəndə,
Şamaxı şəddəli gərdənbənd təndə,
Əyrimcədən keçər beli qızların.

Qurbani der: bu dərdləri biləsiz,
Qohum-qardaş yığılıban gələsiz,
Adna axşamında bəlgə qoyasız,
Kəsilə qovğası, qalı qızların.

## BAĞLASIN

Yaralandım ürəyimin başından,
Yara deynən yaralarım bağlasın!
Oxlanmışam kirpiyindən, qaşından,
Mən ölürəm, onu Allah saxlasın!

Naşı təbib dərdə dərman etmədi,
Canan gəlib göz önündən ötmədi,
Həsrət öldüm, əlim yara yetmədi,
Vəzir də mənim tək kamın almasın!

Qurbaninin dərdi həddən ziyada,
Çağırsam ağamı, yetişər dada,
Desələr necoldu, o binəva da:
Mən al geydim, o qaralar bağlasın!

## SEVİNSİN

Ay ariflər, bu dünyanın üzündə
Təzəcə açılan güllər sevinsin!
Bir əyri çalmalı, xumar gözünün,
Zülfünü dağıdan yellər sevinsin!

Gəlsin bahar fəsli, açılsın yazlar,
Göllərə tökülsün ağ quba qazlar,
Bəyzadə oğlanlar, xanzada qızlar,
Yar ilə danışan dillər sevinsin!

Qurbaniyəm, mən sevərəm Narıncı,
Yar-yar deyib oldum axır zarıncı,
Almanı, heyvanı, narı, turuncu,
Bu dördünü dərən əllər sevinsin!

Yolunu salıbsan çeşmə başından,
Qorxuram gələsən nəzərə, gəlin!
Əgər qəbul etsən bu şirin, canı,
Verrəm qurban sən tək gözələ, gəlin!

Qızılgülü dəstə tutub dərgilən,
Dəribəni pünhan yerdə sərgilən,
Ağ üzündən bir cüt busə vergilən,
Qəribəm, könlümü təzələ, gəlin!

Yazıq Qurbanini dərdli yazgilən,
Hər cür cəfasına, cəbrə dözgilən,
Öz əlinlə məzarını qazgilən,
Qoy məzara, özün dəfn elə, gəlin!

## SƏNƏ QURBAN

Dindirirəm niyə dinmirsən, ay qız?
Bir zaman lal olur dil, sənə qurban!
Gülüb neştər ilə tökdün qanımı,
Nazik əllərinlə sil, sənə qurban!

Maral gedər otlar dağın içində,
Piltə şölə verər yağın içində,
Bağbanı dindirdim bağın içində,
Açılan lalələr, gül sənə qurban!

Yazıq Qurbaniyəm, ay güli-xəndan,
Bir cüt ay baş verib çıxıb yaxandan,
Bir busə istədim ağ üzdə xaldan,
Acıqlandı dedi: al, sənə qurban!

## LƏBLƏRİN

Ey gözəl, tellərin yıxdı evimi,
Bürünmüşdü al duvağa, ləblərin!
Rahat qoymur bir dəm xumar gözlərin,
Salmış məni daşa, dağa ləblərin!

Şeri-gözəl mən söylərəm şanına,
Olsun varım qurban sənin canına,
Mən yetiməm, bir al məni yanına,
Gəlsin onda kef, damağa ləblərin!

Şipşirindi dilin, məmən yeməli,
Sana Leyli, Əsli, Şirin deməli,
Ağ bədəndə incə bel, gül məməli,
İşıq alır al yanağa ləblərin!

Tər qönçəsən, axır xarın olmasa,
Bir laçınsan, sarı sarın olmasa,
Mənim kimi can-nisarın olmasa,
Düşər ol dəm çox sorağa ləblərin!

Olsun fəda mülkü-malın zülfünə,
Çəkər məni dərd, xəyalım zülfünə,
Heyran oldum mən, a zalım, zülfünə,
Qoymur ancaq danışmağa ləblərin!

Qurbani der: bəsdi məni puç etdin,
Aldın ağlım əldən, dəli, gic etdin,
Zəhmətimi, həm səyimi heç etdin,
Axır saldı qara dağa, ləblərin!

## ONDAN ÖLDÜR!

Başına döndüyüm, xanların xanı,
Könlümün mətləbin bil, ondan öldür!
Sən ol tanrı, mənə qəzəbnak olma,
Lütf elə, üzümə gül, ondan öldür!

Qəm əhliyəm, dindirməsən dinmərəm,
Eşq oduna alışmışam, sönmərəm,
Ta ölüncə dediyimdən dönmərəm,
Apar yar qoynuna sal, ondan öldür!

Qurbaniyəm, eşq əlindən büryanam,
Ta ölüncə mən o qıza qurbanam,
Qulluğunda gözü bağlı tərlanam,
Çalış, şikar bəndin al, ondan öldür!

## QAL OLUR

Dedim: könül, sevmə xublar xubunu,
Onun hər muyunda yüz min qal olur.
Nagah səni dərdə giriftar eylər,
Qaşı fitnə, qəmzəsində al olur.

Ulu divanlarda çəkilir adım,
Ərşə bülənd oldu dadü-fəryadım,
Başım üstə qanım içən cəlladım,
Sağ əlində əlif qəddim dal olur.

Camalı Yusifin-İbn Yaqubun,
Aləmə şəms olan hüsnü həbibin,
Ala gözlü, şirin sözlü məhbubun,
Zənəxdanı dürr şöləli xal olur.

Qəmər nə yandırıb, günəş nə yaxar,
Könlüm nə titrəşib ümmana axar,
Qurbani der: hər kim şaha kəc baxar,
Onun kəmalında tez zaval olur.

## BƏHANƏDİ BU!

Dedim: Dilbər, getmə, bir də danışaq,
Dedi: Sözüm yoxdu, bəhanədi bu!
Dedim: Bir nəzər qıl aşıq halına
Dedi: Əcəb dəli-divanədi bu!

Dedim: Ey vay, halım yaman olubdu,
Dedi: Qəmdən belin kaman olubdu,
Dedim: Vallah, sinəm meydan olubdu,
Dedi: Mən bilmənəm, xəzanədi bu!

Dedim: Qoy gözümə qıvrım tellərin,
Dedi: Lazım deyil, vəhşi güllərin,
Dedim: Sən bizimsən, biz də ellərin,
Dedi: Aldanmayın, biganədi bu!

Dedim: Sənə aşiq olan can budu,
Dedi: Sənin eşqin axar bu sudu,
Dedim: Cavan ömrüm çürüyüb budu,
Dedi: Əbəs sözdü, əfsanədi bu!

Dedim: Qurbaniyəm yarın adına,
Dedi: Elə sənsən düşən yadına,
Dedim: Mən ha yandım eşqin oduna,
Dedi: Şama yanan pərvanədi bu!

## ELLƏRƏ DOĞRU

Nə ola bir şadlıq xəbəri gələ,
Yüklənə barxanam ellərə doğru.
Naşı ovçu bərə bəklər, əylənər,
Marallar sayrışar yollara doğru.

Səhərdən yüklənər nazlımın köçü,
Cənnətül məvadır qoynunun içi,
Əbrişim telləri, mürəssə saçı[1],
Hərdəm şitab elər bellərə doğru.

Sevdiyimin gürcü imiş atası,
Əskik olmaz qoç igidin xatası,
Qaşın kaman, sinəm onun butası[2],
Qatı yay çəkilir qollara doğru.

Tağçalarda qurudular barama,
Naşı təbib məlhəm eylər yarama,
Dedim pərim, zülflərini darama,
Könül gəştə çıxar tellərə doğru.

Qurbani der: naləm yandırır daşı,
Üstümə gəlməsin təbibi-naşı,
Ümmana dönəndə gözümün yaşı,
Axanda tökülür sellərə doğru.

## DÖNÜBDÜ

Hicran gecələri qayğı çəkməkdən,
Əlif qəddim əyri yaya dönübdü.
Bədəsilin eşidəntək sözlərin,
Yəqin etdim, ömrüm zaya dönübdü.

Uçuşur durnalar, səkir teyhular,
Namərd adam qalibliyin arzular,
Bulandı dəryalar, həm daşdı sular,
Qaynaqsız bulaqlar çaya dönübdü.

Biz də qonaq olduq qarslı Osmana,
Yunis tək mat qaldıq bəhrü-ümmana,
Qurbani der: dönsün belə zamana,
Göydəki ulduzlar Aya dönübdü.

---

[1] Xoş qoxulu tellərin, cavahirat ilə zinətlənmiş saçın
[2] Nişanə, hədəf

## GÜLƏRMİŞ

Baxgilən fələyin ruzigarına,
Əyyam xoş keçəndə dövran gülərmiş.
Bəhrəli çağlarda, məhsul ayında,
Bağı bar verəndə bağban gülərmiş.

Bir baxtın yatıban bir ucalanda,
Tülək-tərlan olub, sar ov çalanda,
Məsəldi deyərlər: qurd qocalanda,
Tülkü meydan açıb, dovşan gülərmiş.

Qurbani, qəmlənmə, kərəm-kanı var,
Ədalət hakimin haqq divanı var,
Bu çərxi-fələyin nərdibanı var,
Yenən ağlayarmış, qalxan gülərmiş.

## AÇILMIŞ

Pərimin bağında seyran eylədim,
Sanasan bağçada güllər açılmış.
Çıxardım könüldən dərdi, qubarı,
Xoş göftarlı şirin dillər açılmış.

Sifətdə Züleyxa – yarı Yusifin,
Xubların xubusan eylərəm vəsfin,
Boyu uzun, beli incə məhbubun,
Buxağında gözəl xallar açılmış.

Hasil oldu Qurbaninin diləyi,
Tanımaram nə sultanı, nə bəyi,
Mirvari qolbağı, bəyaz biləyi,
Dal gərdəndə siyah tellər açılmış.

## BİR DALA

Əlif qəddin, bey qamətin, sey saçın,
Necə bənzər hərf içində bir dala[1].
Hər muyuva min gövhərdi tay saçın,
Qəvvas olan yek dəryada bir dala[2].

Qəvvas olan dəryalara dalıbdı,
Sərraf ləli qiymətində alıbdı,
Çün bülbüllər ara yerdə qalıbdı,
Zağı görüb dolanıbdı bir dala[3].

Süsənmisən, sünbülmüsən yara san,
Tiği alıb bağrım başın yarasan.
Qurbani der: canı verdim yara san,
Haçaq olur biz də verək bir dala[4].

## YETİNCƏ

İstəyirsən gəlib mənə yetəsən,
Ayaq götür ta ki, yara yetincə.
Ömrüm bağçasının gülün dərərlər.
Dost bağından az kənara yetincə.

Hər igidin sığındığı başına.
Əl aparmaq olmaz haqqın işinə,
Suyu gəlib çatıb novun başına,
Həsrət çəkir ta ki pərə yetincə.

Qurbani, sözlərin yarasta[5] söylə!
Sızıldaşır yaram, yar, asta söylə!
Bir ac qarın doydur, yar, az tas eylə,
Nagah-nagah könüllərə yetincə.

---

[1] Əlifbanın “D” hərfi ərəb əlifbasında “dal” adlanır
[2] Cuma
[3] Budağa
[4] Daldaya
[5] Yara asta

## BİR DƏ YAZ

Gecə-gündüz bulud keçər havalar,
Belə getməz, əlbət gəli bir də yaz...
Oxuyur bülbüllər muğam, havalar,
Sızıldaşır yaram, aman bir də yaz![1]

Bulud olan qalxar havada gəzər,
Aşiq olan yarın bağrını əzər,
Qəvvəs[2] olan girər dərində gəzər,
Bir dərin var, bir dərgə var, bir dayaz!

Qurbani güldəstə bağlar oxuna,
Sinəm buta, yarım müjgan oxuna,
Bir namə yaz hər divanda oxuna,
Görən deyə, var əllərin, bir də yaz.

## YARA ÜZ

Gözəl adam, gəl Allahı sevərsən,
Daldalanma, bir də görgəz yara üz!
Astana gör yarın astanasında,
Qulluq eylə, xidmət eylə, yara üz!

Sağdan vurdu, soldan çıxdı sağa lam,
Sağ qoşundu, sol ləşkərdi, sağ ələm,
Nagümanam mən bu dərddən sağalam,
Təbib birdi, dərd minbirdi, yara yüz!

Qurbani der: bura gəldim yar üçün,
Kəs ciyərim, doğra bağrım yar üçün,
Yar odu ki, yardan sonra yar üçün,
Zülf dağıda, yaxa yırta, yara üz!

---
[1] Kəs
[2] Dalğıc, suya başvuran

## TAPILMAZ

Deyim bir-bir dərdim sənə yaz, qələm,
Bilinməz hesabı, sanı tapılmaz.
Bağla dəftər, çox eləmə naz, qələm,
Ələ düşməz bu dastanı tapılmaz.

Şərik ol dərdimə sən də buy ara,
Yüz min olub bu sinəmdə bu yara,
Yolçusuyam, yalvarıram bu yara,
Şirin dildə bir nöqsanı tapılmaz.

Arif özü bilər, mətləbi qanan
Yoxdu mənim kimi eşqində yanan,
Könlüm istəklisi sən kimi canan,
Yüz il gəzsəm bu dünyanı, tapılmaz.

Qurbanı olduğum, gəl bir insafa,
Nə bilər qədrini, çəkməyən cəfa,
Seçər dürr versən xoca sərrafa,
Belə əhmər gövhərkanı tapılmaz.

Kəsmə nəzərini bu xətti çaldan,
Xəstəyəm, ölürəm, düşmüşəm haldan,
Baş alıb gedirəm sizin mahaldan,
Axtarsan da bu Qurbani tapılmaz.

## İNDİ

Ayın lam içində, sin arasında,
Yar mana göndərdi bir cəviz indi,
Aylar, illər həsrətini çəkdiyim,
Lütf eylə ləbimə bircə üz indi.

Gözəllər yığılıb qıya baxanda,
Zülfü dal gərdəndə qıya baxanda,
Nigar pəncərədən qıya baxanda,
Ömrümün rişəsin bircə üz indi.

Gözəllər oturmuş göz bulağında,
Sürmə tək qovruldum göz bulağında,
Qudrət çeşməsində, göz bulağında,
Qurbani, çalxanıb bircə üz indi.

## ƏSƏR İNDİ!

Səhər-səhər bir gözələ uğradım,
Ondan dəydi mənə ay əsər indi.
Ağlım zail oldu, halım digərcun[1],
Nə ki var əndamım ay əsər indi!

Bahar olcaq dağlar aylalalandı,
Bulud zülf üzünə ağ lalalandı,
Biznən mey içənlər ay lal alandı,
Tökülüb sərinə ay əsər indi!

Örtübdü başına şal qəza işin,
Qoymayun danlaya el qaza işin,
Qurbani der: get-gör ol qəza işin,
Tərlan avın almış, ayə sar indi!

## OYADA MƏNİ

Xəstə düşüb qürbət eldə yataram,
Bir kimsənəm yoxdu oyada məni.
O siyah telləri, şirin dilləri,
Salıbdı sönməyən, oy, oda məni.

Evinin dalında çeşmədə su var,
Gözüm gördü, könlüm eylədi qubar,
Məndən qeyri bəlkə bir sevgisi var,
Ol səbəbdən salmır o yada məni.

[1] Başqa cür

Sənsən Qurbaninin gül üzlü yarı,
Qalsa qürbət eldə artar azarı,
Hərdən oğrun baxır o mənə sarı,
Baxışı yandırar ay o da məni.

## CANIM HEY!

Köç-köç oldu, köçdü ellər, obalar.
Bayqudan viranda qalan canım hey!
Çaylar coşdu, yollar işləməz oldu,
Gəmisi girdabda qalan canım hey!

Əzəl başdan söz ustadı gələndə,
Qaşı cəllad, gözü yağı gələndə,
Hərdəm gözəlimin adı gələndə,
Saralıb gül kimi solan canım hey!

Qurbaniyəm, fikrim gəzir asmanda,
Canan harda olsa, can alar anda,
Yəqub kimi qan ağlaram Kənanda,
Yusif tək zindanda qalan canım hey!

# LƏLƏ

(XVI əsr)

## *BAYATILAR*

Aman ahı Lələnin,
Qibləgahı Lələnin.
Ya gec tutar, ya da tez
Bir gün ahı Lələnin.

Aman fələk sis günə,
Pərdə çəkib sis günə.
Yaxşı öldü qurtardı,
Lələ qaldı pis günə.

Aşıq hardan gələsi,
Belində var şələsi.
Gedin xəbər söyləyin
Gəlir Yaxşı Lələsi.

Başqa bir bəxşişi yox,
Hər yetənlə işi yox.
Gözündə dünya heçdi
Lələnin Yaxşısı yox.

Başa geymiş ya məndil,
Səni elər yaman dil,
Lələ, fəna dünyada,
Ya zərbəft gey, ya məndil.

Bu dağlar kömürdəndi,
Keçən gün ömürdəndi.
Lələ bir qovun dərdi
Tağları dəmirdəndi.

Bu Lələ handa mələr,
Urumda, Şamda mələr,
Yaxasız köynək geymiş
Bacasız lamda mələr.

Qapının yanı Lələ,
Sözümün canı Lələ,
Qarnı doyandan sonra
Deyərlər hanı Lələ?

Qarşımızda laləzar,
Nədən çəkdin nalə, zar?
Bu gələn canan oldu,
Dəxi çəkmə Lələ, zar.

Qarşımızda yay damı,
Lələ tikdi yay damı
Payız cənnət, qış qurci
Yaz sultandı, yay damı.

Dağlarda qar, qış oldu,
Ömrümə dar qış oldu.
Lələnin şirin sözü
Fələyə qarğış oldu.

Dağlarda Lələ gəzər,
Belində şələ gəzər.
Çiynində dərd-qəm yükü
Belədən-belə gəzər.

Dəyirmanın püsgünə,
Çaxçaxına, püsgünə,
Ay Lələ, Yaxşı öldü
Səni qoydu pis günə.

Əzizim vurma dağı,
Lələyə vurma dağı.
Ağlama bacı Zeynəb
Sinəmə vurma dağı.

Əzizim Lələ məni,
Sinənə bələ məni.
Məmən neştərə dönə
Köksümdən lələ məni.

Eləmi Babı haray,
Arqalı, Babı haray.
Haram çox aşdı-daşdı,
Boş qaldı qabı haray.

Eləmi Babı haray,
Arqalı, Babı haray
Yoruldum yolda qaldım
Qalmamış tabım, haray.

Eləmi bağrı qara
Bir quş var bağrı qara,
Dərd əlindən Lələnin
Sinəsi, bağrı qara...

Eləmi, dalda nacağı
Lələnin daldanacağı
Bax, a Yaxşı, Yaman gəlir,
Tutubdu dalda nacağı.

Eləmi daşı ilə,
Dağların daşı ilə.
Lələ sənə toy tutar
Gözünün yaşı ilə.

Eləmi kömürdəndi,
Keçən gün ömürdəndi.
Lələnin canı divək,
Dizləri dəmirdəndi.

Eləmi Lələ dağı,
Dəyişdi lələ dağı.
Dağların sinəsindən
Çəkilməz Lələ dağı.

Eləmi Lələ dağı
Dəyişməz Lələ dağı.
Nə dağ onu unudar,
Nə də ki, Lələ dağı.

Eləmi Lələ dərdim,
Hər yerdən nalə dərdim.
Bir kimim, kimsənəm yox
Ağzımnan ala dərdim.

Eləmi Lələ məndən,
Qiymət ver lələ məndən
Sən getdin qəm Hicranın
Əl çəkmir hələ məndən.

Eləmi naləsiylə,
Dağların laləsiylə
Razıdı Lələ ölə,
Qalmaya beləsiylə.

Eləmi hər Arqalı,
Parababı, Arqalı,
Sərasər meydanında
Namərd qaçar, ər qalı.

Eləmi ha bitər gün.
Qarı yeyər, dilər gün.
Yamanın tənəsindən
Lələ oldu didərgin.

Eləmi ha Qarqarmar
Ovsunçuya qarqar mar.
Lələnin yollarını
Utanmazmı qar qarmar.

Eləmi ha gəl, Lələ,
Kəsməz yolun şəl, Lələ.
Lələ ləl ola bilər
Ola bilməz ləl Lələ.

Eləmi ha tur dağlar,
Gəl boynunu bur dağlar.
Gəlmişdim Lələ üçün
Lələ köçüb yurd ağlar.

Eləmi ha xana var,
Sultana var, xana var.
Lələnin sinəsində
Böyük bir qəmxana var.

Yarəhməd oğlu Lələ,
Müngərə qurub tələ.
Oturub yol ağzında
Gözləyir Mehdi gələ.

Geymisən pərsəngini,
Gey, sallan pərsəngini.
Lələ, dağlar götürməz
Dərdinin pərsəngini.

Lələ ay kimi batmaz,
Gecə sübhədək yatmaz.
Onun kimi adamı
Fələk bir də yaratmaz.

Lələ bir gümə tikdi,
Ağzını günə tikdi.
İçinin sahibi yox
Kim bilsin kimə tikdi.

Lələ dağdan belə gəl,
Dolan dağdan belə gəl.
Yaman ova çıxıbsan
Səni vurar belə gəl.

Lələ der: ağı damlar,
İtirib ağı damlar.
Yoxsulun ömrü boyu
Gözündən ağı damlar.

Lələ der: aylar məni,
Ulduzlar haylar məni.
Yükümdü möhnət yükü
Yordu bu taylar məni.

Lələ der vətənsizəm,
Qolundan tutansızam.
Qürbətdə can verirəm
Ölürəm, kəfənsizəm.

Lələ der: el ayağı,
Pis olmaz el ayağı.
El görməz, oba görməz
İt yesin elə yağı.

Lələ der: itil burdan,
Uzaqdı İtil burdan.
Yerini bil hər görən
Deməsin itil, burdan.

Lələ der: yanım ağrır,
Duraram canım ağrır.
Fələyin qırmağından
Tamam əndamım ağrır.

Lələ der divana könlüm,
Düşmüş divana könlüm,
Kimi görsə vurulur
Dəli, divana könlüm.

Lələ deyir sən yara,
Gəl dərdimə sən yara,
Malım, dövlətim yoxdu
Nə verəyim sən yara.

Lələ deyir al malı,
Yaxşı tanı al malı,
Neçin bağa gəlmirsən?
Yanaqları almalı.

Lələ deyir nə sən yar,
Bağrım başın kəsən yar,
Ləzzətindən doymaram
Şəkərmisən, nəsən yar?!

Lələ der: yanana yan,
Düşmə bir yanana yan,
Nə yanırsan boş yerə
Səninçün yanana yan.

Lələ deyir yoldadı,
Gör dünya nə haldadı,
Kimi axirət evinə
Kiminin gözü maldadı.

Lələ der: lələləndim,
Dərd-qəmlə silələndim.
Bir somya tikmək üçün
Qarğını şələləndim.

Lələ der: mən çəkərəm,
Nə mədəd var, nə kərəm.
Öyrənmişəm qoy üstə
Dərdini mən çəkərəm.

Lələ der: od adamı,
O cənnət, o da damı.
Sən ki, məni yandırdın
Yandırmaz od adamı.

Lələ der: saxla məni,
Ox götü oxla məni.
Nə atam var, nə anam
Hərdən gəl yoxla məni.

Lələ der: sezən mənəm,
Hər dərdə dözən mənəm.
Göz yaşlı, ürək qəmli
Sərgərdən gəzən mənəm.

Lələ der: sinəsi var,
Tutubdu sinəsi var.
Olmuşam dərd dəlisi
Deyirlər cinisi var.

Lələ der: sicim gördüm,
Sicimin ucun gördüm.
Mən belə bilmirdim heç
Fələyin gücün gördüm.

Lələ deyir: tağ ayır,
Sən zülfünü tağ ayır.
İrəli dur, a Yaxşı,
Gir bostana tağ ayır.

Lələ der: çoxdu, çoxdu,
Fələyim toxdu, toxdu
Ürəkdə bir dərdim var
Çarəsi yoxdu, yoxdu.

Lələ, incə dur burdan
Min atını sür burdan.
Getdin, yerini tanı,
Deməsinlər dur, burdan.

Lələ də öldü getdi.
Qəlbləri böldü getdi.
Qoy Lələ də bilsin ki,
Gözəl şah gəldi, getdi.

Lələ, yemə yad aşı,
Ya ağı ye, ya daşı.
Qəm yükü taya-taya
Ya uzaq ol, ya daşı.

Lələ, yerin Arqalı,
Mələməz ay arqalı,
Kəsakəs meydanında
Namərd qaçar, ər qalı.

Lələ yetərgin oldu,
Sözü bitərgin oldu.
Bir tənəli söz ilə
İtdi, didərgin oldu.

Lələ gəzdi obanı,
Ağrımadı dabanı
Fələk vurub eylədi
Gözəl şahın çobanı.

Lələ gəzir mahalı
Sözlə bəzir mahalı
Çox gəzib, çox dolanıb
Olub hər işdən halı.

Lələ, gəz Ləngəbəzi,
Qəşəti, Ləngəbəzi.
Bir yamanın birisi
Salıbdı ləngə bizi.

Lələ öldü bez gəti
Arşın apar, tez gəti.
Nə qonşudan söz apar,
Nə qonşuya söz gəti.

Lələ, şaha dolan var,
Tökülən var, dolan var,
İlqarının ucundan
İmanından dönən var.

Lələ şah lələsidi,
Əcəl-can tələsidi.
Lələnin qəbri üstə
Gözəl şah gələsidi.

Lələ haqq lələsidi
Düzlüyün Lələsidi
Lələnin başı üstə
Şah quşu gələsidi.

Lələ el ağsaqqalı
Darar tel, ağ saqqalı
Zülm çox ömür sürsə
Şahım, el ağsaq qalı.

Lələ, gəl keç bu taya,
Bu xırmandı, bu taya.
Yüklənib qəm karvanı
Sən də yapış bu taya.

Lələ mənəm, arsızam
Söyüd kimi barsızam.
Möhlət əydi yıxıldım
Dedilər ki, karsızam.

Lələ hara Lələsi
Belindədi şələsi,
Dərd-qəm yeyib içini
İmkanı yox güləsi.

Lələ mənəm, Lələ mən,
Yük altdayam hələ mən.
Fələk çəkdiyi dağı
Gəzdirirəm hələ mən.

Lələ mənəm, Lələ mən.
Yük altdayam hələ mən.
Dərddən, qəmdən, hicrandan
Bağlamışam şələ mən.

Lələ der: mən yaralı,
Nizə deyən saralı.
Zarı-zarı səs gəlir
O da mənəm yaralı.

Lələyəm, atam yoxdu,
Tanrıdan butam yoxdu.
Düşdüm qəm dəryasına,
Qolumdan tutan yoxdu.

Lələyəm ağrır başım,
Qürbətə düşdü daşım.
Arqalıdan Babıya
Piyada necə aşım?!

Lələyəm ah, üzüldüm,
Qayıqlara düzüldüm.
Bircə ağ gün görmədim
Dərd-qəm altda üzüldüm.

Lələyəm bu başdan mən,
Yemərəm hər aşdan mən.
Nə atam var, nə anam
Yaranmışam daşdan mən.

Lələyəm vətənsizəm,
Qolundan tutansızam.
Qürbətdə can verirəm
Ölürəm, kəfənsizəm.

Lələyəm dərdə kərəm,
Bağlanıb dərdə Kərəm.
Qoşaram qəm kotanın
Sürərəm dərd əkərəm.

Lələyəm – od adamı,
O cənnət, bu da damı,
Sən ki məni yandırdın
Yandırmaz od adamı.

Lələyəm lələləndim,
Beşiyə mən bələndim
Əkdim, biçdim, sovurdum
Arxama şələləndim.

Lələyəm mən arsızam.
Söyüd kimi barsızam.
Möhnət əydi yıxıldım
Dedilər ki, karsızam.

Lələyəm, yaxşı Liqa,
Xub liqa, yaxşı Liqa.
Yaxşı elə yaxşıdı
Hamıdan yaxşı Liqa.

Lələyəm həyanım yox,
Al-yaşıl geyənim yox.

Yüz il bir yana getsəm,
Gəlmədi deyənim yox.

Lələyəm şah lələsi,
Kəsilər şah kəlləsi.
Öləndə qəbrim üstə
Şah oğlu şah gələsi.

Lələnin hər ayından
El yatmaz harayından
Gündə bir kərpic düşür
Ömrünün sarayından.

Lələni kim oyada,
Heç deməyin o yada.
Sözün ötmür, söyləmə,
Ürəyini oya da.

Lələnin çardağı var,
Gümüşdən bardağı var.
El bilməz, oba bilməz
Dağdan böyük dağı var.

Lələnin çardağı var,
Gümüşdən bardağı var.
Lələ gedib gəlməsə
Bil ki yolda yağı var.

Lələnin çayları var,
İlləri, ayları var.
Necə qaçsın bəladan
Qəm yüklü tayları var.

Mən Lələyəm ah mənə,
İmkan vermir ah mənə.
Görəsən bu qoyunu
Bağışlarmı şah mənə.

Mən Lələ der nə mən dad,
Ağ yüzündən nə mən dad,
Sən ol ədalətli şah
Nə sən dad et, nə mən dad.

Mən Lələ der o yar da,
Beyğu gəldi o yar da,
Çox yar gördüm, ötürdüm
Gözüm qaldı o yarda.

Mən Lələ der düşərab,
Harda yağmur düşər, ab?!
Nazlım saqi olanda
Verməz, bahadı şərab.

Mən Lələ der gözəl kəs,
Gəl bu bağrım gözəl kəs,
Heç qalmayıb cahanda
Səntək şəbih, gözəl kəs.

Mən Lələ der mərd ana,
Doğmuş səni mərd ana,
İkimiz də üz-üzə
Gəl görüşək mərdana.

Mən Lələ der güləndə,
Di gəl ağla güləndə,
Gül açılır sevdiyim
Lisan ilə güləndə.

Mən Lələ der qanar yar,
Eşq atəşim qanar yar,
Çox axtardım cahanda
Tapmadım bir qanar yar.

Mən Lələ der gülmüsən,
Süsənmisən, gülmüsən?!
Nolmuş bu gün de görüm
Baharmısan, gülmüsən.

Mən Lələ der yüzlə var,
Yüz qoynunda, yüz davar,
Bərəkallah söylərəm
Belə gözəl yüzdə var.

## BAYAT ABBAS
(XVI əsr)

***GƏRAYLI***

SÖYLƏ

Dedim: dilbər bir sözüm var
Dedi: durma, rəvan söylə.
Dedim: gəl başına dönüm
Dedi: eldən nihan söylə.

Dedim: al geymiş əcəbdir
Dedi: nişanı əzabdır.
Dedim: qaşların mehrabdır
Dedi: əbrü kaman söylə.

Dedim: nə qəddi-qamətdir?
Dedi: billəm, qiyamətdir.
Dedim: ləblərin şərbətdir
Dedi: abi-həyat söylə.

Dedim: kakilin mişgandır
Dedi: küfr demə, dindir.
Dedim: camalın günmüdür?
Dedi: mahi-təban söylə.

Dedim: könlümdə nə səsdir,
Dedi: dildara həvəsdir.
Dedim ki, Bayat Abbasdır,
Dedi ki, açıban söylə.

## *QOŞMA*

### GƏLİR

Hüsnün tək acılmaz çəməndə hər gül,
Necə can verrmədi vəslinə bülbül,
Camalın şəminə yandı mürği-dil,
Necə kim şöləyə pərvanə gəlir.

Badi-səba müjdə vermiş güllərə,
Bağça barın tökmüş sağa-sollara,
Nərgiz gözətçi durmuş baxar yollara,
Eşitmiş ki, canan seyrana gəlir.

Kimin vardır sən tək gülüzlü yarı
Mən tək şikəstədir aşiqi-zarı,
Sən İsmayıl guyunun mina bazarı
Bayat Abbas ona qurbana gəlir.

## DƏRDLİ NƏSİB
(XVII əsrin sonu – XVIII əsrin əvvəli)

### GERİYƏ

Kirpiyin sinəmə batıb –
Oxlarını çək geriyə.
Ay özünü daldeyliyən
Tellərini tök geriyə.

Gözün əğyar arayımı?
Meylin yada yarayımı?
Tikdiyin eşq sarayımı?
Ay biinsaf, sök geriyə!

Dərdli Nəsib – taleyi kəy,
Yarı gendən gəzər-ürkəy.
Mövlam özü səni görgəy,
Züleyxaya şəkk eləyər.

### HAQQ DİVANI

Mən Əyyubdan dərdliykən,
Gözüm yaşı qurumuş!
Xəyalım Tur dağında,
Mövlam məni sorumuş.

Mələklər süd toplanıb,
Halalım hesablanıb.
Haramım – əzablanıb,
Məzar necə dar imiş.

Dərd Nəsibə tuş gəlib,
Şəmim mənə xoş gəlib.
Göydən min alxış gəlib,
Xudam belə qorumuş!

## OBASI ÇİÇƏKLİ, ELİ GÖYÇƏDİ

Səkə-səkə suda üzən sonalar,
Soraq verin, nazlı sonan necədi?
Dayan durna, qatarına pəl düşər,
Mənim durnam durnalarda öncədi!
Obası Çiçəkli, eli Göyçədi.

Nazik bədənində coşqun halı var,
Büllur buxağında həbəş xalı var.
Mahalı götürən qeylü-qalı var,
Təzətərdi, şirincədi, incədi.
Obası Çiçəkli, eli Göyçədi.

Merac işığına bənzər camalı,
Daş-qayalar camalından kam alı.
O qumroy gülüşlü, mələk simalı,
Tumurcuqdu, düyməçədi, qönçədi.
Obası Çiçəkli, eli Göyçədi.

Onsuz solub çəmən, gül həşəm-həşəm,
Ədası möhtəşəm, ərki möhtəşəm.
Dərdindən dərbədər, dərdəcər düşən,
Dərdli Nəsib yalqız qalıb təkcədi.
Obası Çiçəkli, eli Göyçədi.

## ÇATIB-ÇATMAYIB?!

Gözəl Kəbətüllah, gələn qurbanın,
Bu qara dəryanda batıb, batmayıb?
Hər iki cavandan murad gözlərəm,
Nəfsimi eşqinə qatıb, qatmıyıb?!

Zikrində eşqimdi – Eşqimdə Allah,
Bir Rəhmanir-rəhim, salavatullah.
Ərəfatı çıxan sahibi-sabah,
Nuri-təcəllaya yetib-yetməyib?!

Baqiyə, ölməzəm! – Aşıq ölərmi?
Gülümdən qorxanlar haqqa gələrmi?
Qalü-bəla! Xudam özü bilərmi,
Dərdli Nəsib, günün çatıb-çatmayıb?!

## AŞIQ ABBAS TUFARQANLI
(XVII əsr)

### *GƏRAYLILAR*

### GƏZ BURALARDA

Yarım mənə vədə verdi,
Dedi, gəl gəz buralarda.
Qara bağrım şan-şan oldu,
Sızıldaşır yaralar da.

Siyah zülfün beldən aşır,
Süsən sünbülə dolaşır,
Gözəllik sənə yaraşır,
Dur, dolanaq aralarda.

Abbas ilə xoş danışan,
Ay üzündə danə nişan,
Kəklik kimi qaqqıldaşan,
Qaqqıldaşar haralarda?

### OLMAZ

Bir gözəl oxladı məni,
Belə əbru-kaman olmaz.
Göydən huri mələk ensə,
Onun kimi qılman olmaz.

Kabab yanar közü ilə,
Danış yarın özü ilə,
Müxənnəslər sözü ilə,
Yar ha yardan, yaman olmaz.

Aşıq Abbas yana-yana,
Yandı bağrım döndü qana,
Bir namə yaz Tufarqana,
Daha səndən aman olmaz.

## ƏYLƏNMƏZ

Duman, gəl get bu dağlardan,
Bahar gəldi, qar əylənməz.
Bu dünya bir bivəfadı,
Gözəldə ilqar, əylənməz.

Gözəlin qaşı qaradı,
Bayqunun meyli haradı?
Bu dünya karvansaradı,
Hər gələn qonar, əylənməz.

Abbas deyər hac olanda,
Kəbəyə merac olanda,
Doğru yolda kəc olanda,
Namus gedər ar əylənməz.

## MƏNİ

Bar ilahim, qismət eylə
Yara yoldaş elə məni.
Mən ona can qıyar olsam,
O sevsin baş ilə məni.

Ağladırsan, güldürürsən,
Çeşmim yaşın sildirirsən,
Cəllad kimi öldürürsən,
O göz, o qaş ilə məni.

Abbas deyər: səni tarı,
Çıxart könlündən qubarı,
Sevər olsan özgə yarı,
Yandır atəş ilə məni.

## GETDİ

Gecə-gündüz qan ağlaram,
Göz yaşım ümmana getdi.
Şirin canım yar yolunda
Olmağa qurbana getdi.

Doymadım yarın dilindən,
Qucmadım incə belindən,
Aldılar yarı əlimdən,
Qarğana-qarğana getdi.

Hər nə oldu mənə oldu,
Qaynadı peymanam doldu,
Desələr, Abbas necoldu?
Deyin, Tufarqana getdi.

## YAR GƏLDİ!

Dərdli könlün məlul çağı,
Budu, yar gəldi, yar gəldi!
Aşığın çeşmi çırağı,
Budu, yar gəldi, yar gəldi!

Seyrağıblar başım qatdı,
Sözüm dərəcəyə çatdı,
Üzündən niqabı atdı,
Budu, yar gəldi, yar gəldi!

Mən Abbasam çəkməm ahı,
Gördü gözüm gözəl mahı[1],
Olmuşam yarın məddahı,
Budu, yar gəldi, yar gəldi!

[1] Ayı

## AH-ZARINANDI

Gecə-gündüz qan ağlaram,
Mənimki ah-zarınandı.
Mən yarı bivəfa gördüm,
Qol-boyun əğyarınandı.

Sallanıb gəl bizə, gəlin,
Ağ üzündə siyah telin,
Bülbül çox istəyir gülün,
Gülün meyli xarınandı.

Boynuna salmısan bağı,
Sinəmə çəkmisən dağı,
Abbasın şəfa tapmağı
Qoynundakı narındandı.

## MƏZƏ DAĞI

Yenə gəlib bahar fəsli,
Süsən, sünbül, Məzə dağı,
Açılıb güllər, nərgizlər,
Bənövşələr, bizə dağı.

Siyah zülfləri hörünsün,
Dal gərdəninə bürünsün,
Alçaq olsun yar görünsün,
Bir görünsün gözə dağı.

Bülbüllər uçdu gülümdən,
Oldum ulusu-elimdən,
Abbas qara qul əlindən,
Qan ağlayıb gəzə, dağı.

## NATAVANI

Gecə-gündüz fəğandayam,
Mənəm eşqin natavanı.
Taladaram mahalları,
Boş qoyaram bu meydanı.

Bilmirsənmi haralıyam?
Ağlı, göylü, qaralıyam.
Yüz yerimdən yaralıyam,
Sinəmdə zənbur nişanı.

Hökmünlə yazdım fərmanı,
Kim eylər dərdə dərmanı,
Pəriyəm, şahın qurbanı,
Abbassız istəməm canı.

## VAXTIDI

Budu gəldi bahar fəsli,
Dağların lala vaxtıdı.
Açılıbdı qızılgüllər,
Bülbülün bala vaxtıdı.

Bülbüllər dolanır bağı,
Bir xəlvət eylə otağı,
Sənə qurban olum, sağı[1],
Mey ver, piyala vaxtıdı.

Mən Abbasam, boyu bəstə,
Dərdindən olmuşam xəstə,
Al başımı dizin üstə,
Çək yataq, layla vaxtıdı.

[1] Saqi

## ÇAĞLADI

Xəbər aldım təbrizlidən,
Məni hərcayı çağladı,
Viran bağlar xəzəl oldu,
Didələrim qan ağladı.

Bülbüləm, dala qonaram,
Zərgərəm, gümüş yonaram,
Elə bu dərdə yanaram,
Xoryat söz məni dağladı.

Abbasam, yoxdu məkanım,
Sənə qurban şirin canım,
Ölkəmizdə Pəri xanım,
Sidqimi mövla bağladı.

## MƏNİM

Gecə-gündüz qan ağlaram,
Artıbdı fərağım mənim.
Başımı alıb gedərəm,
Tutduqca ayağım mənim.

Fələk salıb işim ləngə,
Düşmüşəm qovğaya, cöngə,
Aşaram Hində, Firəngə,
Alınmaz sorağım mənim.

Abbas qürbət elə varsa,
Namərd olar dala qalsa,
Deyilənlər gerçək olsa,
Sönübdü çırağım mənim.

## GEDİRƏM

Durum dolanım başına,
Ala gözlü yar, gedirəm.
Ölsəm, boynuna sadağa,
Qalsam, intizar gedirəm.

Mərd il eylə ülfəti,
Çəkmə namərddən minnəti,
Bülbül qızılgül həsrəti,
Qışı, yazı zar, gedirəm.

Abbas deyər, gül bəhsidi,
Bundan artıq dərd hansıdı?
Ayrılığın vədəsidi,
Gəl könlümü al, gedirəm.

## BİLMƏRƏM

Başına döndüyüm pərim,
Get pərim, gələ bilmərəm.
Sənə kömək olsun Tanrım,
Get pərim, gələ bilmərəm.

Peymanələr dolmayınca,
Gülgəz rəngim solmayınca,
Şahdan izin olmayınca,
Get pərim, gələ bilmərəm.

Usta ol, ustanı tanı,
Üstümüzdə durub qanı,
Qul Abbasın din, imanı,
Get pərim, gələ bilmərəm.

## KÖNLÜM!

Nə ağlarsan, nə sızlarsan,
Bir dərdi beş olan könlüm!
Axırda zünnar[1] bağlarsan,
Qəmə yoldaş olan könlüm!

Bir yar gəlir obasından,
Alım dərdü-bəlasından,
Çərxi-fələk badasından
İçib sərxoş olan könlüm!

Abbas ağlar arsız-arsız,
Dünya olub etibarsız,
Deyirdin dözərəm yarsız,
Döz, bağrı daş olan könlüm!

## EYLƏSİN

Duman, gəl get bu dağlardan,
Dağlar taza bar eyləsin.
Nə gözlərim səni görsün,
Nə könlüm qubar eyləsin.

Haşa, sevdiciyim haşa,
Deyilənlər gəldi başa,
Bir yandan özün tut daşa,
Bir yandan el car eyləsin.

Abbas ağlar zarı-zarı,
Getməz könlünün qubarı,
İlqarından dönən yarı
Tanrı tezbazar eyləsin.

---
[1] Burada "qurşaq" mənasında işlənmişdir

## NEYLƏR?

Leyli yarın qəmər hüsnü,
Bu boyu, tələti[1] neylər?
Yar ləbindən şəkər əmən,
Şəkəri, şərbəti neylər?

Siyah zülfü kəmənd olan,
Dahani dolu qənd olan,
Əzəl ilqara bənd olan
Sənədi, sərxətti[2] neylər?

Abbas ağlar-gülər olsa,
Göz yaşını silər olsa,
Bir yar ki, dərd bilər olsa,
Göz, qaş işarəti neylər?

## DİLBƏR

Uca dağların başına,
Qorxuram qar yağa, dilbər!
Aldın ağlımı başımdan,
Saldın dağdan-dağa, dilbər!

Güllərin içində güləm,
Oxuyan şeyda bülbüləm,
Mən bu qolu bağlı qulam,
Sən olmusan ağa, dilbər!

Güllərin içində xaram,
Gül üzünə intizaram,
Mən əvvəlki köhnə yaram,
Dolan soldan-sağa, dilbər!

---
[1] "İşıq" mənasındadır
[2] Xətbaşı

Sən arısan, mən də şana,
Dərdindən oldum divana,
Saldırmısan bəndərxana,
Dolan gəl otağa, dilbər!

Qul Abbasın gözü səndə,
Olmuşam divana mən də,
Bir cüt şamama sinəndə,
Endir tağdan-tağa, dilbər!

### YAR GƏLMİR

Oğrun yollara baxmaqdan,
Bağrım qan oldu, yar gəlmir.
Ağlamaqdan eynim yaşı,
Sel ümman oldu, yar gəlmir.

Mənim yarım boyu bəstə,
Dərdindən olmuşam xəstə,
Yəqin çıxıbdı taxt üstə,
Yoxsa xan oldu, yar gəlmir.

Dağların qarı söküldü,
Axdı, çaylara töküldü,
Abbas deyər, bel büküldü,
Qədd kaman oldu, yar gəlmir.

## *QOŞMALAR*

### AYAĞINA

Qırxlar piri, özün yetiş dadıma,
Bir də məni yetir yar ayağına.
Üzün görüm, könül alsın təsəlli,
Xınatək yaxılım əl-ayağına.

Səmada ulduzlar sana gəlibdi,
Yüz ilin xəstəsi cana gəlibdi,
Ay həzərat, bir zamana gəlibdi,
Yoxsul üzün sürtür mal ayağına.

Abbas bu sözləri deyər özündən,
Doymamışam yarın o gül üzündən,
Ağlamaqdan bir pərinin gözündən,
Düşübdü Gülgəzin xal ayağına.

## GÖZ ALA

Bir gözəlsən şövqün düşüb cahana,
Yoxdur sənin kimi gözəl, göz ala.
Mən aşiqəm Cahana,
Canım qurban Cahana,
Haqqın əziz bəndəsi,
Xoş gəlmisən cahana.

Yaradan yaradıb salmış cahana,
Yoxdu sənin kimi gözəl, göz ala.
Bağbansan bağa bax, işini gör
Bağ bəslə, bağ becər, bağ işini gör,
Aşıq, bax, işini gör,
Bağa bax, işini gör,
Nə yatdın kamil ovçu,
Maralın baxşını gör.
Hələ sən tərlanın baxışını gör,
İstəyir canımı gözəl göz ala.

Abbas deyər: mən qurbanam sənə yar,
Uzun boylu, tuti dilli sənə yar.
Mən aşiqəm sənə yar,
Sənə verdim sənə yar,
Qərib aşıq, qürbət el
Canım aldın sən ayar.

Dolandım dünyanı neçə sənə yar,
Görmədim sən kimi gözəl, göz ala.

## BAB OLA

Hilal qaşlarına yüz bərəkallah,
Ayın nə həddi var, ona bab ola.
Canı yanar sənə aşiq olanın,
Yata bilməz gözlərində xab ola.

Qızıl güllər açılıbdı həmayin
Yarın gəlməsini eylərəm təyin,
Dedim gözəl, olaq gəl bir qol-boyun,
Neylərəm dünyanı, qoy xarab ola[1].

Abbas deyər: yar yarına varınca,
Saraldı gül rəngi döndü narınca,
Sən gözəli mən toruma salınca,
Azca qaldı ömrüm bir turab[2] ola!

## YÜZ İLƏ

Qədir mövlam, budur səndən diləyim,
Görüm yarın ömrü yetsin yüz ilə,
Artıq ola malı, mülkü, dövləti,
Altmış nəri bir qatara düzülə.

Sədəf incə, dodaq incə, dil incə,
Canım çıxdı yar könlünü alınca
Ölüm yeydi bu dünyada qalınca,
Bir igid ki qatarından üzülə.

Qaşlarına çəkilibdi, bil, qələm,
Ağız davat, göz mürəkkəb, dil qələm,
Yalan desəm çək gözümə mil, qələm,
Sənəd verrəm, qulun ollam yüz ilə.

---
[1] Bu bənd pozulmuşdur
[2] Torpaq

Abbas deyər: dildəki hərf neçədir
Neçə gövhər, neçə ləl, neçə dür,
Sanamadım zülfün muyu neçədir,
Qorxuram ki, şana dəyə, üzülə.

## ZÜLÜMDÜ MƏNƏ

Bircə insaf eylə, a zalım Becan,
Ayırma Abbasdan, zülümdü mənə.
Sənsən bu ölkəyə ədalət, divan,
Ayırma Abbasdan, zülümdü mənə.

Becan, sən eyləmə qəddimi kaman,
Aşiqəm məşuqə, çəkdirmə aman,
Sən olasan o duz-çörək, nəmək-nan,
Ayırma Abbasdan, zülümdü mənə.

Pəri dərd əlindən yetişdi cana,
Oldum yar eşqindən dəli-divana,
Qəflə-qatır işlər o Tufarqana,
Ayırma Abbasdan, zülümdü mənə.

## OLMAZ

Özündən kiçiyi işə buyurma,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə ki kar görsən, öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz.

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını,
Əmanat, əmanat qonşu malını,
Qonşu yox istəyən, özü var olmaz.

Soruşun, qul Abbas, halın necədi?
Gündüzlərin ay qaranlıq gecədi,
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

## BƏYƏNMƏZ

Ay həzərat, bir zəmanə gəlibdi,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz.

Adam var ki, getməyəsən işinə,
Adam var, geyinər pustinən dəri,
Adam var ki, ayran tapmaz aşına,
Dindirərsən, yağlı nanı bəyənməz.

Adam var, dağları gəzir sərsəri,
Adam var, geyinər pustinən dəri,
Adam var, mərfətdən yoxdu xəbəri,
Adam var, soltanı, xanı bəyənməz.

Adam var, dolanar səhranı, düzü,
Adam var, döşürər gülü, nərgizi,
Adam var, geyməyə tapammaz bezi,
Adam var, al geyər, şalı bəyənməz.

Adam var, çox işlər eylər irada,
Adam var ki, yetə bilməz murada,
Adam var ki, çörək tapmaz dünyada,
Adam var, yağ yeyər, balı bəyənməz.

Adam var ki, adamların naxşıdı,
Adam var ki, anlamazdı, naşıdı,
Adam var ki, heyvan ondan yaxşıdı,
Dindirərsən, heç insanı bəyənməz.

Adam var, dəstinə verəsən güllər,
Adam var, gözünə çəkəsən millər,
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan, qarı bəyənməz.

## YARA YÜZ

Ağlaya-ağlaya düşdüm yollara,
Yar ayrısı dərdü-möhnət, yara yüz.
Dərdim oldu əvvəlkindən beşbetər,
Şan-şan oldu qara bağrım, yara yüz.

Tutdum yar əlindən bəlkə sağalam,
Saqi məstü, saqi sərxoş, saqi lam,
Çətin, çətin bu yaradan sağalam,
Dərd bir oldu, dərman doxsan, yara yüz.

Mən Abbasam, yara qurban yar üçün,
Doğra bağrım, kəs ciyərim yar üçün,
Yar odur ki, bu dünyada yar üçün,
Yaxa yırta, zülf dağıda, yara yüz[1].

## GÜLGƏZ![2]

Qurban olum səni çəkən nəqqaşa,
Yetirdin dəstimi damana[3], Gülgəz!
Qüdrət qələm çalmış o qələm qaşa,
Bənzər əbruların[4] kamana, Gülgəz!

Gəl verək əl-ələ, çıxaq bu bağa!
Gül gülə sarmaşır, budaq budağa,
Üz-üzə dayanaq, dodaq-dodağa,
Ağ sinən sinəmə dayana, Gülgəz!

Üzəngini basım, Gülgəzim, atdan!
Sən məni qurtardın alovdan, oddan,
Abbasın sevdiyi, xabi-qəflətdən,
Silkinib çıxasan bu yana, Gülgəz!

---

[1] Üz
[2] Bu şerin başqa variantı da vardır
[3] Ətəyə
[4] Qaşların

## İNDİ

Mən olmuşam dərdü-qəmin barkeşi[1],
Qəmdən tikdirmişəm, nə qalam, indi,
İstədim ki, yara bir namə yazam,
Nə kağız tapılır, nə qalam[2] indi.

Bir ərzim var, mən də deyim şahanə,
İlahiyə şükr eylərəm, şahə nə?
Qorxuram ki, nazlı yarı şah ana,
Yarsız bu dünyada nə qalam indi?

Katiblər oxurlar Cuma da getdi,
Ərənlər meraca cumada getdi,
Abbas ağlar, Gülgəz cumada getdi,
Nə qovğayam indi, nə qalam indi.

## YADA SAL MƏNİ

Başına döndüyüm, alagöz Pəri,
Gahdan ağla, gahdan yada sal məni.
Qara bağrım şan-şan oldu, dəlindi,
Gahdan ağla, gahdan yada sal məni.

Bağban idim, bağım təğayir[3] oldu,
Gözüm gördü, ağlım təğayir oldu,
Xoryat əli dəydi, təğayir oldu,
Gahdan ağla, gahdan yada sal məni.

Mən sənə can dedim, sən də mənə can,
Alış eşq oduna, mənim kimi yan,
Adım Aşıq Abbas, yerim Tufarqan,
Gahdan ağla, gahdan yada sal məni.

---

[1] Daşıyan
[2] Qələm
[3] Pozuldu

## VAR MƏNİM

İsfahan mülkündən gələn xocalar,
Bu canımda intizarım var mənim.
Biri hicran, biri möhnət, biri qəm,
Qəm evliyəm, xiridarım var mənim.

Ala gözün xumarlayıb süzməsin,
Ay qabağa qızıl, inci düzməsin,
Deyin yara, əl duadan üzməsin,
Ürəyimdə ahu-zarım var mənim.

Mən Abbasam, gəlsin könlüm aradan,
Oxudum dərsimi, çıxdım qaradan,
Sən bilirsən, yeri-göyü yaradan,
Gülgəz Pəri kimi yarım var mənim.

## AYRILDIM

Ay ariflər, qanlı fələk cəbrindən,
Qohumdan, qardaşdan, eldən ayrıldım.
Fərhad kimi çəkdim Şirin qəhrini,
Cığa pərvaz etdi, teldən ayrıldım.

Bir canım var, yar yolunda sadağa,
Bal bülənib dilə, dişə, dodağa,
Nə müddətdi bağban idim bu bağa,
Dərmədim qönçəsin, güldən ayrıldım.

Abbas deyər: yar ayrısı yamandı,
Heç kəsə göstərmə, Allah amandı!
Qınamayın, əlif qəddim kamandı.
Dodaq qaymaq, dili baldan ayrıldım.

## BELƏ GEDƏRƏM

Ağa Becan, sultan Becan, xan Becan,
Ayrılmam Pərimdən, belə gedərəm.
Alış Becan, tutmuş Becan, yan Becan,
Ayrılmam Pərimdən, belə gedərəm.

Gözümlə görmüşəm öz məkanımı,
Yara qurban dedim şirin canımı,
Öldürsən də halal etdim qanımı,
Ayrılmam Pərimdən, belə gedərəm.

Nə müddətdi dərin dəryaya daldım,
O dəryadan dürr götürdüm, dürr aldım,
Şikəstə Abbasam, binəva qaldım,
Ayrılmam Pərimdən, belə gedərəm.

## DEYİLƏM!

Nə baxırsan gözü qanlı haramı?
Sən deyən günahkar ha mən deyiləm!
Hər şəhərin bir adı, bir sanı var,
Mən Misir şəhriyəm, Yəmən deyiləm!

Yarın qapısında yüz qan eylədim,
Əl uzatdım, çəkdim, üz qan eylədim,
Bir könülə dəydim, yüz qan eylədim,
Daha bir kəsinən yaman deyiləm.

Abbas ağlar, libasını soydular,
Zülm eyləyib qönçə gülün dərdilər,
Hərcayılar qaş oynadıb güldülər,
Eylə deyil yarım, həmən deyiləm!

## GƏLSİN

Bizdən salam olsun arif olana,
Hər kəsin mənimlə varisə gəlsin.
Cəhənnəmi indi ona göstərrəm.
Hansı bəndə günahkar isə gəlsin.

Zalım bəndə, uyma bunca qeybətə,
Qeybət edən tez düşəcək zillətə,
İskəndəri kim göndərdi zülmətə?
Hər kim ondan xəbərdar isə gəlsin.

Qızılgül bəslənir xəndan içində,
Ənnabi ləblərin dəhan içində,
Abbasam, durmuşam meydan içində,
Kimə bu gen dünya dar isə gəlsin.

## DƏRBƏNDİN

Ay camaat, gəlin tərif eləyim,
Nə əcəb düşübdü yeri Dərbəndin.
İskəndər əlilə olub bərqərar,
Çəkilibdi bürcə, barı Dərbəndin.

Mən gəlmişdim bu Dərbənddə qalmağa,
Bir tülək tərlanı ələ salmağa[1],
Düşmən öldürməyə, qisas almağa,
Qoçaq olur igidləri Dərdəndin.

Dərbənd dedikləri bağçadı, bağdı,
Alt yanı dəryadı, üst yanı dağdı,
Abbas deyər: əcəb meyvəsi çağdı,
Xəstəyə şəfadı narı Dərbəndin.

---
[1] Ələ keçirtmək

## QAŞLARIN

Dərs almamış açdım kitab oxudum,
Möhtac deyil heç ustaya qaşların.
Təzə çıxıb kamandarın əlindən,
Bənzər üç gecəlik Aya qaşların.

Ovçu olan durar dağ damanında
Dərdi olan durar dərdli yanında,
Nə durubsan seyrağıbın dalında,
Veribdi ömrümü zaya qaşların.

Bir xalın bəzirgan, bir xalın xoca,
Hüsnün zəkatını ver mən möhtaca,
Mən Abbasam, eyləməzdim iltica[1],
Məni gətdi ilticaya qaşların.

## DƏRD AYAĞINDAN

Başına döndüyüm, ay Gülgəz Pəri,
Çəkərəm hicranı dərd ayağından.
Elin töhmətindən, fələk cəbrindən,
Düşmüşəm çöllərə dərd ayağından.

Pərim, sənin üzün görən tər salar,
Öldürsələr meyli dönməz tərsalar,
Hicrandan məşq alar, qəmdən dərs alar,
Sən mənə dərs verdin dərd ayağından.

Qabaq Aydır, zülf buluddur, üz gündür,
Sənsiz mənim bir saatım yüz gündür,
Heç demirsən, qul Abbasım üzgündür,
Qəm başından tutar, dərd ayağından.

[1] Pənah

## GƏLMƏDİ

Başına döndüyüm, qurban olduğum,
Hara getdi baxtı qara, gəlmədi?
Bülbül uçdu, soldu gülün yarpağı,
Qismət oldu qönçə xara, gəlmədi.

Şah hökmüylə xan üstünə xan getdi,
Ağlar didəm, yaş yerinə qan getdi,
Qol boşaldı, dil dolaşdı, can getdi,
Axır apardılar dara, gəlmədi.

Abbas deyər: bu ad yaman ad oldu,
Cismim atəş, qoynum dolu od oldu.
Mən can dedim canan məndən yad oldu,
İndi uzaq düşdü ara, gəlmədi.

## KƏRİMDİ

Başına döndüyüm gülüzlü ana,
Gəlməsin Abbasım, Allah kərimdi.
Dərdindən olmuşam dəli-divana,
Gəlməsin Abbasım, Allah kərimdi.

Fələk məni şad eləyib güldürü,
Ağladıban çeşmim yaşın sildiri,
Becan kəmfürsətdi, gəlsə öldürü,
Gəlməsin Abbasım, Allah kərimdi.

Gülgəz Pəri saralıban solunca,
Qaynayıban peymanələr dolunca,
Qoy gəlməsin Məhəmməd xan gəlincə,
Gəlməsin Abbasım, Allah kərimdi.

## NEÇƏDİ?

Şikəstə könlümün məqsudu usta,
Bu Təbrizin sonaları neçədi?
Tikilibdi çarşıları yanaşı,
Sarayları, binaları neçədi?

Ərənlər üstümdə oldu nümayan,
Bir camal göstərdi, bəyan və bəyan,
Bir səf mələk gördüm, bir səf də qılman,
Dal gərdəndə siyahları neçədi?

Müştaq oldum bir Pərimin tağına,
Canım qurban olsun xoş yığnağına,
Mən Abbasam, girsəm xublar bağına,
Eyvan, otaq, xanaları neçədi?

## BİLMƏDİM

Yeridim, yeridim, yetə bilmədim,
Dərdü-qəm əlindən yata bilmədim.
Bir yorğun ovçuydum, tuta bilmədim,
Ovum qarlı dağlar aşdı da getdi.

Yaxşı olar el içində qul adı,
Çeşmim yaşı yar qapısın suladı.
Könül quşu göydə qanad buladı,
Qırdı şikar bəndin, uşdu da getdi.

Mən Abbasam, yalan gəlməz dilimə,
Qeyri bülbül qona bilməz gülümə,
Tərlan düşdü mən nadanın əlinə,
Ovlaya bilmədim, qaşdı da getdi.

## PƏRİ!

Nə gülürsən mənim kimi gülüncə,
Sən mənə gülüncə, dərdə gül, Pəri!
Alişan otaqda, gülşən bağçada,
Süsəni, sünbülü dər də gül, Pəri!

Səninlə gəzirdik Təbrizdə bağı,
Sinəmə çəkirsən dağ üstdən dağı,
Bəndə saldın mənim kimi dustağı,
Çox məni qoyubsan darda, gül, Pəri!

Abbas gətirildi dar ayağına,
Xınatək yaxıldım yar ayağına,
Yoxsulu çəkərlər var ayağına,
İndi mənim kimi mərdə gül Pəri!

## BURADAN SƏNİ

Başına döndüyüm, ay qəşəng Əsmər,
İstəməm gedəsən buradan səni.
Mənim meylim elə sənlə xoş olub,
Nə xoş xəlq eləyib yaradan səni.

Gəlmə xoyrat, gəlmə, yolda qalasan,
Seyrağıb əlində zəlil olasan,
İki dostu bir-birindən eyləsən,
Görüm haqq götürsün aradan səni.

Gözəllər içində bəsli bəllisən,
Tərlan cilvəlisən, yüz xəyallısan,
Ağ sinəsi bir cüt qoşa xallısan,
Görcəyin tanıdım oradan səni.

Gözəllikdə sənin əvəzin hanı?
Hüsnünü bəxş edib kəramin kanı,
Dağların maralı, çəmən ceyranı,
Ovçular keçirməz bərədən səni.

Aləm bilir, Adəm ata zatıyam,
Göyü bilməm, yerin yeddi qatıyam,
Şikəstə Abbasam, xərabatıyam,
Könül, heç görmədim abadan səni.

## BU SABAHLARI

Bir səda eşitdim canan elindən,
Oyandım yuxudan bu sabahları.
Bir cavab almadım yarın dilindən,
Görüm açılmasın bu sabahları.

Ay qalxıbdı günortanın yerinə,
Talıb olan qulluq eylər pirinə,
İki sevgi yetsə biri-birinə,
Tanrıya xoş gələr bu sabahları.

Abbas deyər: müsəllaya varmadım,
Əl uzadıb yar zülfünü hörmədim,
Bir bağ saldım, güllərini dərmədim,
Dərdilər, tökdülər bu sabahları.

## YARIM APARDI!

Başına döndüyüm, qurban olduğum,
Qoyma, dəli Becan yarım apardı!
Alışıb oduna büryan olduğum,
Qoyma, dəli Becan yarım apardı!

Şah Abbas hökmüylə naməni yazır,
Qurub kecavəni olubdu hazır,
İsfahandan gəldi bu zalım vəzir,
Qoyma, dəli Becan yarım apardı!

Mən Abbasam, heç vaxt söyləməm yalan,
Elimə, ölkəmə saldılar talan,
Xoca, dəli Becan, Allahverdi xan,
Qoyma, dəli Becan yarım apardı!

## BU YANDADI

Gedər ikən bu ümmana tuş oldum,
Bəhrlər çalxanır, göl bu yandadı.
Boy gedər bir yana, buxaq min yana,
Cığa pərvaz eylər, tel bu yandadı.

Gülgəz dəli olub yoxsa divana?
Üz çevirib gedir çöl-biyabana,
Burdan bir yol gedir ol Tufarqana,
Tamam qohum-qardaş, el bu yandadı.

Hökmün Malik Əjdər, ismindi Ədhəm,
Didələrim qan-yaş tökər dəmadəm,
Lütf eylə Abbasa, qibleyi-aləm,
Qadasın aldığım, yol bu yandadı.

## SARI GƏL, SARI

Başına döndüyüm, alagöz Pəri!
İnsaf eylə bizə sarı gəl, sarı.
Leyli-nahar[1] həsrətini çəkməkdən,
Gül rəngim olubdu sarı, gəl, sarı.

Səninlə gedərdim Təbrizdə bağa,
Qışda ağ otağa, yayda yaylağa,
İndi mən öləndə özün bük ağa,
Zülfünə tabutum sarı, gəl, sarı.

Canım qurban olsun həmişə mərdə,
Ay yaradan, fürsət vermə namərdə!
Abbası salıbsan bulunmaz dərdə,
Dərmanı özündə sarı, gəl, sarı.

---

[1] Gecə-gündüz

## AYRIL![1]

Başına döndüyüm gülüzlü cavan!
Halal himmət eylə, gəl ondan ayrıl!
Bilməz idim belə hicran dərdini,
Lütf elə, üzümə gül, ondan ayrıl!

Qasid gəldi, qəsdən xəbər gətirdi,
Əlif olan qəddim dala yetirdi,
Axdı çeşmim yaşı üzüm götürdü,
Eynim, adaların sil, ondan ayrıl!

Eşqin atəşidi sinəmdə dəftər,
Gecə-gündüz sənsən dilimdə əzbər,
Sən ol bu Pəriyə buta verənlər,
Qolunu boynuma sal, ondan ayrıl!

## ƏZİZİM!

Gəzdim İsfahanı, nisfi-cahanı,
Sənin kimi gözəl hanı, əzizim?!
Dodağın şəkərdi, şəhdi mat eylər,
Ağzın içi gövhər kanı, əzizim!

Siyah zülfün dal gərdəni döydümü?
Onun dərdi mənim qəddim əydimi?
Zalım şahın ali sənə dəydimi?
Dağıdaram xanimanı, əzizim!

Qəmzəsi bəllidi qaşü-gözündən,
Mən öpmədim yanağından, üzündən,
Əyləmə qapında, çuğul sözündən,
Abbas kimi növcavanı, əzizim!

[1] Ehtimal ki, qoşma Abbasın sevgilisi Pərinin dilindən söylənilmişdir.

## GÖRMÜŞƏM

Aradım Osmanı, gəzdim Əcəmi,
Misri, İstanbulu, Şamı görmüşəm,
Harda adı bəlli gözəl varsa da,
Arayıb, axtarıb hamı görmüşəm.

Fironü Firdövsi, Həmrudü Şəddad,
Onlar da dünyada qoydular bir ad,
Yüsiflə Züleyxa, Şirinlə Fərhad,
Bəhram ilə Güləndamı görmüşəm.

Mənə yarın hər sitəmi gözəldi,
Ürəyimdə dərdi, qəmi gözəldi,
Pərim qəşəng, gözəl, nami gözəldi,
Çarü naçar o pərnamı[1] görmüşəm.

Abbasam, sözlərim dilimdə əzbər,
Həkk olub sinəmdə dərdim bir dəftər,
Şahım, sizin olsun məscidü-mənbər,
Mən gözümlə müsəllamı görmüşəm.

## PƏRİM!

Səhər-səhər sərçeşmələr başında,
Gün kimi dağlara yayılan Pərim!
Hər kəs məndən sənə yaman qandırsa,
Ya əqrəb dişləsin, ya ilan, Pərim!

Qovma dərgahından şirin nökəri,
Geymərəm hər şalı, hər qələmkəri,
Hicran xəstəsiyəm, yeməm şəkəri,
Qoynundakı nara qayılam, Pərim!

[1] Pəri adlı

Götür sürməni çək qaşına gəlsin.
Çal əyri çalmanı başına gəlsin,
Abbasın sözləri xoşuna gəlsin,
Hurilər qızından sayılan Pərim!

## AYRI SALMASIN

Başına döndüyüm alagöz Pəri,
Tanrı səni məndən ayrı salmasın.
Haqq götürsün bu qarını aradan,
Nişanəsi bu dünyada qalmasın.

Gedəni gəlməsin, yatanı ölsün,
Göz-göz olsun, qabıq qoysun, soyulsun,
Hər yanına yetmiş piltə qoyulsun,
Nə yığıb yerini salan olmasın.

Ciyərin doğrasın bir alagöz bıçaq,
Yeddi il yan yerdə uzansın naçaq,
Qohumu-qardaşı düşsünlər qaçaq,
Əhvalını xəbər alan olmasın.

Sən pozmusan yazıq Abbas halımı,
Mən sənə neylədim, Tanrı zalımı.
Çəkim ciyərinə mən çəngalımı,
Cənazənə yaxın gələn olmasın.

## XOŞ GƏLDİN

Başına döndüyüm ay Əsmər xanım,
Təşrif qılıb sən bu bağa xoş gəldin.
Süsəndən, sünbüldən dərib dəstinə,
Mərhəmət eylədin, saya xoş gəldin.

Hicran keçdi, könlüm natavan oldu,
Qara bağrım laxta-laxta qan oldu,
Dağıldı gözəllər, pərişan oldu,
Əlif qəddim döndü yaya, xoş gəldin.

Gözəllər içində bəsli, bəllisən,
Şirin ixtilatlı, ləbi ballısan,
Zənəxdanı bir cüt qoşa xallısan,
Qatardan ayrılmış maya, xoş gəldin.

Abbas deyər: halay-halay, a dağlar,
Təbib görsə, yaralarım qan ağlar,
Əsmər burdan getsə, boş qalar bağlar,
Sən vermə ömrünü zaya, xoş gəldin.

## AYDIN OLSUN!

Gözəlliyi elə car olan Pəri,
Gərdənə həmayil tax, aydın olsun!
Sevdası sərimdə var olan Pəri,
Sinəmi odlara yax, aydın olsun!

Bir zamanlar dövran sürdüm sizinlə,
Aşiq etdin söhbətinlə, sözünlə,
Əzəl başdan mənə baxan gözünlə,
İndi özgələrə bax, aydın olsun!

Qul Abbası nə kənara atmısan,
Hərcayilə ülfətini qatmısan,
Deyəsən ki, taza aşna tapmısan,
Sevdiyim, gözlərin çox aydın olsun!

## İNCİMƏSİN!

Qədəm qoyub yar yanına gələndə,
Elə gəl, elə get, yol inciməsin.
Şəkər ləblərindən mənə busə ver,
Dodaq tərpənməsin, dil inciməsin!

Dərildi bostanlar, boş qaldı tağlar,
Könül istədiyin verməsən ağlar,
Ağ sinən üstündən darayı bağlar,
Heykəl arasından sal, inciməsin!

Bulbül fəğan eylər gül həvəsindən,
Qoşa nar asılıb yar sinəsindən,
Elə gəl, elə get bağ bərəsindən,
Bülbüllər hürküşüb, gül inciməsin!

Gözəllər içində sən qızıl güllər,
Dolansın başına şeyda bülbüllər,
Əsmə səba yeli, titrəmə çöllər,
Cığalar tərpənib tel inciməsin!

Abbas deyər: ağlayanlar güləndə,
Nazlı yar soruşub halım biləndə,
Mərhəmət eyləyib bizə gələndə,
Dola gərdəninə, qol inciməsin!

## SƏNƏ QURBAN!

Qadasın aldığım, nədən məlulsan?
Əgər lal isənsə, dil sənə qurban!
Gümüş neştər ilə tökdün qanımı,
Nazik əllərinlə sil, sənə qurban!

Mal gedər otlayar dağın içində,
Piltə şölə verər yağın içində,
Bağbanı dindirdim bağın içində,
Dedi: süsən, sünbül, gül sənə qurban!

Başına döndüyüm, gözləri xəndan,
Turunclar baş verib çıxıb yaxandan,
Dedim: gözəl, bir busə ver o xaldan,
Acıqlandı dedi: al, sənə qurban!

## GƏLİN!

Sən ki, bu qaydada belə gözəlsən,
Yoxdu gözəllikdə sənə tay, gəlin!
Qaşların kamandı, kirpiklərin ox,
Ağ üzündə qoşa xallar, ay gəlin!

Haqq götürsün aralıqdan yamanı,
Artsın seyrağıbın dərdi, amanı,
Hər kim vursa sənlə mənim aramı,
Düşsün evlərinə görüm vay, gəlin!

Abbas deyər: qızılgülü dərginən,
Dərib-dərib sinəm üstə sərginən,
Ağ üzündən bir cüt busə verginən,
Hesab eylə qonşuluqda pay, gəlin!

## ÖP!

Könül, Məcnun kimi yayın dağlara,
Əyil, bu lalənin budağından öp!
Pərvanə tək dolan yarın başına,
Arala tellərin, qabağından[1] öp!

Almaq olmaz nanəcibin qızını,
Çəkmək olmaz bədəsilin nazını,
O üzünü, bu üzünü, gözünü,
Dilindən, dişindən, dodağından öp!

Kitabda oxunan sina yaxşıdı,
Seyrağıb gərdəni sına yaxşıdı
Mən dedim: öpməyə sinə yaxşıdı,
Könül ha yalvarır, buxağından öp!

Bağçalar titrəşir bardan ötəri,
Almadan, heyvadan, nardan ötəri,
Abbas, ağlayırdın yardan ötəri,
Dur, şahimərdanın ayağından öp!

[1] Alın

## YANDIRAR

Bəd övladı əzəl başdan tanıram,
Çör-çöp yığar, yad ocağın yandırar.
Səhər durar ar-namusun gözləməz,
Suyu tökər, öz ocağın söndürər.

Ulğun cuşa gəlsə, köpük yağ olmaz,
Söyüd bar gətirsə, bağça, bağ olmaz,
Zibil təpə olsa, küllük dağ olmaz,
Yel əsəndə alçaqlara yendirər.

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun, suyu gəlsin dərindən,
Söz bir olsa, dağ oynadar yerindən,
El bir olsa, zərbi kərən sındırar.

## AY BU YANDA DUR!

Başına döndüyüm alagöz Pərim,
Apardın ağlımı, ay bu yanda dur!
Ağıl başda deyil, ruh da bədəndə,
Eylədin tarımar, ay bu yanda dur!

Halaldandır mayam, bulunmaz haram,
Qırxlar məclisində mən orda varam,
Seyrağıb adamla heç olmaz aram,
Şeytandı, felindən, ay bu yanda dur!

Abbasam, dövranım, ay belə keçdi,
Dolandı ruzigar, ay belə keçdi,
Sallandı bir Pərim, ay belə keçdi,
O səbəbdən dedim, ay bu yanda dur!

## YAR

Könül qəmgin, səhraları gəzirəm,
Nə insafdı, mən də sənsiz qalım yar.
Gözüm görür, yarlı yarın dindirir,
İstərəm ki, səndən kamım alım, yar.

Gizlin-gizlin sənlə etdiyim ilqar,
İndi bildim sənə yoxmuş etibar,
Hər kim versə yardan mənə bir xabar,
Şirin canım ona müjdə qılım, yar.

Ayrı düşdüm vətənimdən, elimdən,
Bülbülümdən, gülşənimdən, gülümdən,
Mən nə dedim, sən incidin dilimdən,
Həsrət qaldım, mən dərmədim gülüm yar.

Abbas deyər: tərk eylədim elimi,
Bir dərmədim ağ sinəndən gülümü,
Arada var çərxi-fələk ölümü,
Qoy camalın görüm, ondan ölüm yar.

## YETİŞƏR

Gözəl Pəri, mənlə yaman başlama,
Mənim ərzim gedər, xana yetişər,
Qaşların ləl olsa, yoxdu qiyməti,
Min tüməndi, bəzirgana yetişər.

Məclisinə sürahilər düzülər,
Ala gözlər xumarlanıb süzülər,
Bir muyun üzülsə, canım üzülər.
Zəlzələsi al-Osmana yetişər.

Abbas deyər: Pərim niqabı atdı,
Camalın göstərdi, günü yubatdı.
Ağ üzdə xalların Misri-nabatdı,
Səkkiz cənnəti-rizvana yetişər.

## BAR GƏLİ

Payız olcaq bağlar tökər xəzəli,
Bahar olcaq bağçalara bar gəli.
Bir igidin olsa baxtı, iqbalı,
Cənnət bağçasından ona nar gəli.

Ölkənizdə nə aşnayam, nə yadam,
Dost yanında nə qəmginəm, nə şadam,
Ay camaat, nə bəlalı səyyadam,
Tor qururam tərlan üçün, sar gəli.

Abbas deyər: gəncin üstü bədəndi,
Qara bağrım dəlik, zədən-zədəndi,
Ay həzarat, heç bilmirəm nədəndi,
Aləmə gen dünya, mənə dar gəli.

## SUDAN GƏLİR

Başına döndüyüm alagöz Pəri,
Elə bildim sonam bu sudan gəlir.
Müjgan atdı, dəydi, keçdi sinəmdən,
O cadı qəmzələr, busudan gəlir.

Başına örtübdü kalağay, gəzər,
Əyri tel üstündən qızıl düymələr,
Belinə yaraşıb zərbafdan kəmər,
Çəpkənli, çarğatlı ağ bədən gəlir.

Abbasam, yetirdim aman-amana,
Nə ola bir əlim çata canana.
Qoynu içi dönüb taza bostana,
O sərxoş sevdiyim hamamdan gəlir.

## OYNAR

Başına döndüyüm alagöz Pəri,
Öz-özünə qeyri halınan oynar.
Cəvahir mətahı, dür xiridarı,
Tutubdu dəstində, ləlinən oynar.

Sənsiz görüm xarab qalsın bu bağı,
Şeyda bülbül nə zövq eylər, nə zağı,
Zülfü dal gərdəndə açıb məzağı,
Ağ üzü münəvvər, xalınan oynar.

Ay Abbas, Pərinin bəzi işləri,
Yorğun maral kimi xoş baxışları,
İncidən, sədəfdən, dürdən dişləri,
Ağzı süd, dodağı balınan oynar.

## MƏNİ GÖR!

Dolannam başına misli-pərvanə,
Həsrət gözü yolda qalan, məni gör!
Eşqin sitəmindən, çarxın əlindən,
Saralıb gül kimi solan, məni gör!

Sər qoydum payəndaz, etdim üz yara,
Bayqu kimi meydan vermə üz yara,
Zülf pərişan, yaxa yırtıq, üz yara,
Könlümü şikəstə bulan, məni gör!

Şikəstə Abbasam, çəkərəm qəmi,
Neylər mənə seyrağıbın sitəmi,
Kərəmli soltanın budu kərəmi,
Kərəmsiz, qəzəbnak olan, məni gör!

## GETDİLƏR

Qasid gəldi yardan xəbər gətirdi,
Necə çəkim ol fərağı, getdilər.
Aşiq məşuqini qəhrə yetirdi,
Çəkdilər sinəmə dağı, getdilər.

Malü-mülkü verib axça aldılar,
İlqarı verdilər, buxça aldılar,
Barı tərk etdilər, bağça aldılar,
Pərişan qoydular bağı, getdilər.

Abbas, cavan ömrün sən verdin bada,
Günü-gündən dərdin oldu ziyada,
Yedilər, içdilər fani dünyada,
Aldılar beş arşın ağı, getdilər.

## MAHİ-ƏNVƏRDİ

Könül bir cananın sevdasındadı,
Cismdə insandı, mahi-ənvərdi[1],
Buyunu[2] arzular bağçada bülbül,
Bilmirəm, süsəndi, ya sənubərdi?

Sevdiyimin hüsnü Qureyşin nuri,
Yusifi-Kənandı, Çinin fəqfuri[3],
Deyirlər, behiştdə çox olur huri,
Onlar da köhnəlib, yar təzə-tərdi.

Çoxu aşıqlığı asan şey sandı,
Cəfasını gördü, çox tez usandı,
Canım bir Pərinin oduna yandı,
Qoy desinlər, Abbas üçün bir ardı.

---

[1] İşıqlı ay
[2] Ətir, qoxu, rayihə
[3] İmperator titulu

## NƏ GÖZƏL İMİŞ

Bir gün bir nazənin gəldi güzara,
Gülgəz simaları nə gözəl imiş.
Qanovuz köynəyi, atlaz qoftası,
Yaşıl basmaları, nə gözəl imiş.

Yoxdu bərabərin sənin dəhirdə,
Nə insanda, nə zərbafda, nə zərdə,
Yaşılbaş sonatək titrəşir sərdə,
Cığalı telləri, nə gözəl imiş.

Söylədiyim sözlər layiqdi dosta,
Dostu görməyəndə qalıram yasda,
Saatı xoş vaxtda yaradan usta,
Çəkibdi xalları, nə gözəl imiş.

Aç hüsnün kitabın oxuyum baş-baş,
Nəqqaşlar çəkmişlər nə gözəl qaş-daş,
Qucubdu zər kəmər qabağından qaş,
O qəddi dalları, nə gözəl imiş.

Qurbanam cananın qələm qaşına,
Abbası salıbdı eşq ataşına,
Nişana alıbdı bağrım başına,
Sancıbdı milləri, nə gözəl imiş.

## SARI AŞIQ
(XVII əsr)

***QOŞMALAR***

### YETİŞDİ

Bir namə yazmışdı gözəllər şahi,
Gəldi məni-mübtəlaya yetişdi.
Guşeyi-külahım fəxri-namədən,
Çərxə dəyib, Məsihaya yetişdi.

Şəhbazi-aləmdən istərəm səni,
Xudanı sevərsən unutma məni,
Guya ki, Yusifin gül pirəhəni,
Gəldi Yəqub binəvaya yetişdi.

Sən qərib aşiqin qibləgahısan,
Məlamət mülkünün padişahısan,
Aşiqi-sadiqin sən pənahısan,
Səadətin Sürəyyaya yetişdi.

### A YAXŞI!

Şikar edib tutdum bir şahı tərlan,
Sən etdin ağlımı zail, a Yaxşı!
Səni sevən keçər cahü-sərindən,
Olar camalına mail, a Yaxşı!

Məhəbbəti olan istər sazını,
Mən çəkərəm hər dəm sənin nazını.
Şəmsü-Qəmər kimi görkəz üzünü,
Gün təki aləmə yayıl, a Yaxşı!

Qaşların bir oxdu, kirpiyin almaz,
Haramdan oxlasan oram sağalmaz.
Gedər bu gözəllik sənə də qalmaz,
Əgərçi sərxoşsan ayıl, a Yaxşı!

Məni sənə aşiq etdi yaradan,
Səyrağıbı haqq götürsün aradan,
İstəyirsən xəbər tutgil Saradan,
Yollarında mənəm sail, a Yaxşı!

## GÖRSƏYDİM

Gedərdi sinəmdən bu daği-həsrət,
Əgər sənin camalını görsəydim.
Əyilibən qəddim dönməzdi yaya,
İki əbrü hilalını görsəydim.

Dolanım başına, qibleyi-hacət[1],
Qurban olum sana, ey sərvqamət,
Qumru kimi bağlayardım itaət,
Sənin nazik nihalını görsəydim.

Hicranın əlindən yetmişəm cana,
Nə deyim dərdimi, gəlməz bəyana,
Baxmaram cənnətdə huri, qılmana,
Bircə ləhzə vüsalını görsəydim.

Kəbəyi-kuyindi Aşiqə merac,
Dərgahi-vəslinə tapılmaz əlac,
Səhrayi-xütəndən alardım, xərac,
Süzgün çeşmi-qəzalını[2] görsəydim.

[1] Ümid yeri
[2] Nəvazişini

## GÖZLƏRİN

Əyibdi qəddimi qaşların tağı,
Qəsd eləyib şirin cana gözlərin.
Bu qədər şux baxıb aşiq öldürmə,
Heyifdi batmasın qana gözlərin.

Camalın şöləsi günəşdən əla,
Səni görən necə olmaz mübtəla?
Qəmzəyi-cəlladın, xədəngin[1] bəla,
Rəhm eləməz heç insana gözlərin.

Gözəllikdə sənsən bu gün yeganə,
Canım qurban olsun səntək canana,
Yıxar Aşiq evin, evlər viranə,
Dolananda hər bir yana gözlərin.

## GƏLMƏDİN

Vədə verib mənə gəlləm demişdin,
Gözüm qaldı intizarda, gəlmədin.
Sənsiz mənim ağlamaqdı munisim,
Mənsur kimi qaldım darda, gəlmədin.

Əlif qəddim əydi hicran məlalı,
Necə xəm eyləmiş[2] qaşın hilalı,
Saldı məni qəmə zülfün xəyalı,
Məni qoydun əşkbarda[3], gəlmədin.

Mən elə Aşiqəm, ey vədəxilaf,
Nizeyi-ahımdan çərx olar şikar[4],
Belə olar, ay bimürvət, nainsaf?!
Getdi əldən ixtiyar da, gəlmədin.

---

[1] Oxun
[2] Əyilmiş, burulmuş
[3] Gözüyaşlı
[4] Çəkdiyim ahdan dövran parçalanar

## VAR

Gəldi qasid dedi mən biqərara,
Şuxi-dilrübanın iztirabı var.
Şöleyi-ah Sürəyyadan keçibdi,
Gündüz nə arami, nə şəb xabı var.

Bu xəbər ki, yetdi mən dili-zara,
Xalqdan mən özümü çəkdim kənara,
Ağlayıb yalvardım pərvərdigara,
Dərdimin nə həddi, nə hesabı var.

Nə xoş çəkib səni nəqqaşi-əzəl,
Qəza şövqətinə vermisən xələl,
Gözəllikdə sənsən şəxsi-bibədəl,
Hərçəndi-fələkin afitabı var.

Xəm qılıb qamətin fələk aşikar,
Ruyəti camalın çəkər intizar,
Dolanır başına hər leylü nahar,
Əlində təsəddüq[1] mahi-tabi var.

Aşıq, sirrin oldu xalqa dasitan,
Günbəgün əhvalın oldu pərişan,
Sağlığına içdiklərim oldu qan,
Nə qədər saqinin meyi-nabı[2] var.

[1] Sədəqə
[2] Təmiz şərab

## *BAYATILAR*

Aşıq Qaramannıdı,
Xalın qara mannıdı.
Yaxşının tənəsindən
Dağda qar amannıdı.

* * *

Aşıq yaxşı Yamannan,
Xalın yaxşı yamannan
Gedirsən salam-dua
Apar Yaxşıya mənnən.

* * *

Aşıq da ayin dilər,
Bədr oldu ay indilər.
Yaxşıynan keçən günlər
Olaydı ay indilər!

* * *

Gecələr ay ilişi,
Yaxşının ay, il işi,
Aşığı candan eylər
Yuxudan ayılışı.

* * *

Aşıq yaxşı dan gözlər,
Mürgün yaxşı dən gözlər.
Baxdıqca şirin düşər,
Doymaz Yaxşıdan gözlər.

Aşıq Qaramannıdı,
Xalın qara mannıdı.
Yarın soyuq üzünnən
Genə qar amannıdı.

* * *

Aşıq Qaraman çəkər.
Xalın qara man çəkər.
Yaxşının tənəsindən
Dağda qar aman çəkər.

Mən Aşıq yaxşılığa,
Düşməsin Yaxşılığa,
Güldə gül camalı var,
Yaxşıda yaxşı liqa.

* * *

Aşığa oda dağlar,
Düşməsin oda dağlar.
Yaxşı yar fərağında
Eyləyər o dad, ağlar.

* * *

Mən Aşıq bu dəm ahda,
Dərd məni budamaqda.
Öləydim, görməyəydim
Yaxşını bu damaqda.

* * *

Yaz yerə xalı saldı,
Butası xalis aldı.
Aşığı qara günə
Yaxşının xalı saldı.

* * *

Mən Aşığam ya xaqan,
Ya sultansan, ya xaqan.
Yaxşının hənəyindən
Əl qan, üz qan, yaxa qan.

* * *

Mən Aşıq o güneylər,
Yaxşı yar ögü neylər.
Yar yarına qovuşsa,
Bayramın o gün eylər.

* * *

Atdanmışam, düşmənəm,
Yamanlığa düşmənəm.
Aşığam, Yaxşı yarın
Heç yadına düşmənəm.

* * *

Qazanda qaşıq aşı,
Bişirir qaşıq aşı.
Aşığı yoldan eylər
Yaxşının qaşı, qaşı.

* * *

Alışdı dəm qamışı,
Xoş söhbət, dəm qamışı,
Yaxşının quluyam mən,
Bir qalıb damğam işi.

* * *

Aşığın yüzdür işi,
Sarrafın yüz dür işi.
Ayın bulud yarası,
Yaxşının üz duruşu.

* * *

Su gəlir bəndə yaxşı,
Tanrıya bəndə yaxşı.
İmran dilli Aşığı
Salıbdı bəndə Yaxşı.

* * *

Həmdəmi yaxşı sına,
Qıyma ki, yaxşı sına.
Min bir yaxşı tay olmaz
Aşığın Yaxşısına.

* * *

Xalın yaxşı dur, yaxşı,
Mənsiz yaxşı dur, Yaxşı!
Sərraf könlüm ha deyər:
Aşıq, yaxşıdır Yaxşı.

* * *

Tutmusan bu sadağı,
Ovçular busa dağı.
Getməz Aşıq könlündən
Yaxşının busə dağı.

* * *

Aşıq, aşın bişdi gəl,
Bişdi yerə düşdü, gəl!
Yaxşı günün həmdəmi
Yaman günə düşdü, gəl!

* * *

Gəldi bu yaxşı suvar,
Gir bağa, yaxşı suvar.
Aləmin malı, mülkü,
Aşığın Yaxşısı var.

* * *

Yaz gəldi, gəl bu dağa,
Bülbülüm, gəl budağa!
Qovar yorğun Aşığı
Yaxşının kəlbi dağa.

* * *

Dağda qar alar məni,
Xalın qaralar məni.
Aşığam, Yaxşı yarsız
Basar qaralar məni.

* * *

Sənin süzgün gözlərin,
Qəmdən üzgün gözlərin.
Yaxşıdan doymaz, Aşıq,
Baxsa yüz gün gözlərin.

* * *

Gəl qaşqa, kəlbin ala.
İyirmi kəlbin ala.
Aşıq, naşıdı nalbənd,
Dayanmır gəl bu nala.

* * *

Mən Aşıq qəmə suvar,
Qanımnan qəmə suvar.
Yaxşının kəlbi qanıq,
Ağzında qəməsi var.

* * *

Bağçanız günəvərdi,
Gülümsər günə vərdi.
Sərviniz üryan Aşıq,
Özünü günə verdi.

* * *

Aşığın günü qara,
Qış saldı günü qara.
Yaxşıya günüdür qəm,
Yaxşı ağ, günü qara.

* * *

Mən Aşıq Yaxşı yara,
Yaxşıya yaxşı yara.
Yaxşı qəmzəsi vurmuş
Sinəmə yaxşı yara.

* * *

Aşığam yaxşı yara,
Yar vurar yaxşı yara.
Zəncir salın boynuma,
Aparın Yaxşı yara.

* * *

Qannısan, yaxşı dağlar,
Yaman da, yaxşı da ağlar.
Hər kəsin bir dağı var,
Aşığı Yaxşı dağlar.

* * *

Qarşıda, ha İrandı,
Ha Rumdu, ha İrandı.
Yamana baxmaz Aşıq,
Yaxşıdan ayırandı.

* * *

Aşıq, gedər atdı gün,
Dağdan dağa çatdı gün.
Yaxşının ay üzünü
Görən kimi batdı gün.

* * *

Aşıq deyər şah Araz,
Yaxan tutub şeh, Araz.
Yaxşı kimi yaxşı yar.
Könlüm kimi şəhər az.

* * *

Ağ yazı dağ aranı,
Kəsibdi dağ aranı.
Yaxşıdan ötrü Aşıq
Ha gəzər dağ-aranı.

* * *

Aşıq, yarın Yaxşı yar,
Cərrah, yaram yaxşı yar.
Tanrım ürcah eyləsin
Yaxşı yara yaxşı yar.

* * *

Dolandım dağı, gəldim,
Dilimdə ağı gəldim.
Yaxşı, Yaman əlindən
Dad qılan çağı gəldim.

* * *

Mən Aşıq bu dar gündə,
Qəm məni budar gündə.
Könlüm istər Yaxşını,
Gələydi bu dar gündə.

* * *

Açılıb bağçada gül,
Bağda gül, bağçada gül.
Aşığa gülən Yaxşı,
Əlində bax cada, gül.

* * *

Bu qala yaman qala,
Düşmüşəm yaman qala.
Rəvamı Yaxşı ölə,
Yerində yaman qala?!

* * *

Aşığa Bayat yaxşı,
Kölgədə ha yat, Yaxşı!
Canım oxuna qurban,
Oyanıb hey at, Yaxşı!

* * *

Mən Aşıq ayaq açar,
Buluddan ay ha qaçar.
Yaxşının sorağında
Xəyalım aya qaçar.

* * *

Mən Aşıq yüz sənəmi,
Səfyanın yüz sənəmi.
Yaxşıynan keçən günə
Verərəm yüz sənəmi.

* * *

Nal tökdürər dağ ata,
Hökmrandı dağ ata.
Aşıq, Yaxşı yolundan
Dırnağıynan dağ ata.

* * *

Gilənar yaxşı gilə,
Kök atıb yaxşı gilə.
Aşıq gözübağlı da
Tuş gedər Yaxşıgilə.

* * *

Aşığı el saxladı,
Sazını tel saxladı.
Gördü Yaxşı camalın,
Qanlılar əl saxladı.

* * *

Aşığın dağ gücü var,
Körpünün tağ gücü var.
Yaxşı dərdi çəkirəm,
Dizimdə haqq gücü var.

* * *

Aşığa busə bir də,
Xeyir var bu səbirdə.
Qorxuram Yaman gələ,
Yaxşını busə bir də.

* * *

Xan dağlar, paşa dağlar,
Tək dağlar, qoşa dağlar.
Yaxşı, Aşıq bağrını
Qızdırar maşa, dağlar.

* * *

Mən Aşıq Günaşanda,
Ay gülər gün aşanda.
İncimə, Yaxşı yarım.
Sən handa, Günəş handa.

* * *

Bu nədir, aman Allah,
Qandırmı daman, Allah?!
Yaxşıya yaxşı yazar,
Yamana yaman Allah.

* * *

Mən Aşıq zində deyil,
Ağlı özündə deyil.
Kim deyir haqq camalı
Yaxşı üzündə deyil!

* * *

Qarşımızda ya dağlar,
Ya düyünlər, ya dağlar.
Aşıq, Yaxşı ölübdü,
Dost inildər, yad ağlar.

* * *

Geyinibdi yar sarı,
Bayqu meyli yar sarı.
Kəbədə ölsə Aşıq,
Yönün qoyun yar sarı.

* * *

Tər təni tər sinə qoy,
Qüsl eylə, tərsinə qoy.
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoy.

* * *

Mən Aşıq bu dağ haray,
Dumandı bu dağ hər ay.
Bülbül yuva qurunca
Qurudu budaq, haray!

* * *

Aşıq deyər odu yar,
Yara məskən o diyar.
Ağlasa yanğın eylər
Canımdakı odu yar.

Dağların vay qarıdır,
Fərhada vay qarıdır.
Aşıq tez qarımazdı,
Onu bu vay qarıdır.

* * *

Aşığam dərdiməndə,
Aləmin dərdi məndə.
Göstərdim eşq odunu,
Ağlatdım dərdi mən də.

* * *

Aşıqda qiyam dağı,
Qarğışa qıyam dağı.
Bir maral itirmişəm,
Tutubdu qiyyam dağı.

* * *

Mən Aşıq düşdü gözüm,
Gördüyün duşdu, gözüm!
Baxdı yarı görmədi,
Gözümdən düşdü gözüm.

* * *

Aşığam, nə sin deyim,
Nə əlif, nə sin deyim.
Qomalamış dərd məni,
Halımın nəsin deyim?!

* * *

Gəl, Aşıq, yaxa suvar,
Ya qəlpi, ya xası var.
Fələk, əlin dəyməmiş
Gör kimin yaxası var?!

* * *

Atdandıq düşəndə nal,
At büdrər düşəndə nal.
Aşıq, dərdinə dərman
Var, dərdə düşəndən al.

* * *

Bağların aramı su,
Aşığa haramı su.
Yamandan betər kəsib
Yaxşıynan aramı su.

* * *

Bu dağlar qanlı dağlar.
Sinəmi qanlı dağlar.
Yıxılıb Aşıq üstə
El ağlar, qanlı dağlar.

* * *

Qərib el deyib ağlar,
Bülbül gül deyib ağlar.
Yaxşısı ölən Aşıq
Hər gün dil deyib ağlar.

* * *

Mən Aşığam baxtı kəm
Yar zülfünə bağ tikəm.
Fələyə neyləmişdim,
Fələk mənə baxdı kəm.

* * *

Aşıq ha yara qanar,
Səg rəqib yaraq anar.
Əl vurma, naşı təbib,
Sinəmdə yara qanar.

* * *

Buxaq altı qənd ağı,
Hicran günü qənd ağı.
Səndən ayrı Aşığa
Zəhrimardı qənd axı.

* * *

Mən Aşıq belə bağlar,
Kəmərin belə bağlar.
Göz yaşım selə döndü,
Möhtacdı belə bağlar.

* * *

O Xoydu, o da Salmas,
Canımdan od azalmaz.
Heç pərvanə Aşıqtək
Özünü oda salmaz.

* * *

Günümüz nə qaralı,
Hay salar nağaralı.
Aşıq bir oda düşüb,
Nə yanı, nə qaralı.

* * *

Aşığın yar xəyalı,
Bayqunun yar xəyalı.
Nə bu dağdan qar gedər,
Nə məndən yar xəyalı.

* * *

Aşıq deyər o yan gül,
Oyan bülbül, oyan gül.
Ayrılıq tikanıynan
Qara bağrım oyan gül.

* * *

Aşıq deyər yüz yal var.
Bir gədik var, yüz yal var.
Fələk bildiyin eylər,
Yüz ətəklə, yüz yalvar.

* * *

Aşıq deyər Ay dursun,
Ülkər yatsın, Ay dursun.
Qəbrim üstən keçəndə
Gün əylənsin, Ay dursun.

* * *

Mən Aşıq Gülalanda,
Gül bitər Gülalanda.
Yarım yadıma düşər
Əlimə gül alanda.

* * *

Aşıqda qəm qalağı,
Doğra tök qamqalağı.
Dağdan uca könlümü
Tutubdu qəm qalağı.

* * *

Bir Tərtər, bir İncə var,
Karvan çək, birincə var.
Aşığın gizli dərdi
Dağların birincə var.

* * *

Bu dağlar ozan yeri,
Aşığın azan yeri.
İlan ollam, öpərəm
Ayağın gəzən yeri.

* * *

Aşığam, az arım var,
Dərdim var, azarım var.
Səni görsəm sağallam,
Görməsəm ha zarım var.

* * *

Aşıq dərdi varaqlar,
Sızlar, dər-divar ağlar.
Ağlamaz bica yerə,
Hicran dərdi var, ağlar.

* * *

Ha sarıyam, ha sarı,
Təbib, yaram ha sarı.
Aşıq dərddən ev tikmiş,
Qəmdən çəkmiş hasarı.

* * *

Ev tikən dayaq alar,
Tifilə dayə qalar.
Yaxşısız ölər Aşıq,
Bir uçuq dəyə qalar.

* * *

Qara qış, qara çilə,
Yaz gələ qar açıla.
İstəsən yol açılsın
Göz yaşım qara çilə.

* * *

Piyalə dolu xubdu,
İçməyə dolu xubdu.
Aşıq yar gəzən yeri
Görübdü, doluxubdu.

* * *

Bayquş mənəm, bayquş mən
Hər bir quşdan say quş mən.
Aşığın həmdərdiyəm,
Sızıldaram yay-qış mən.

* * *

Aşıq az binə bağlar,
Meylin Qəzvinə bağlar.
Gözüm yaşı göl olar,
Ördək, qaz binə bağlar.

* * *

Aşıq, hanı şahadın,
Şahlar alar şah adın.
Dəyirmandır bu dünya,
Fələk yığar şahadın.

* * *

Yamansan, yaman, a qış
Qaraynan yaman, a qış!
Kəsdin Aşıq yolunu,
Açmısan yaman ağuş.

* * *

Mən Aşıq əsir gəmə,
Səməndim əsir gəmə.
Qapına qəma gəldim,
Sayiləm, əsirgəmə.

Bostanı gündə ləklə,
Gün çıxsın, gündə ləklə.
Aşıq, hicran yoxuşun
Çıxdıqca gündə ləhlə.

Aşıq, tut Yaxşı yaşın,
Oxunar yaxşı yasin.
Dırnaq çalıb sinəmdə
Qazaram Yaxşıya sin.

* * *

Dərdli qəm çəkər Aşıq.
Eşqinə çəkər Aşıq.
Tanrı baxdı, bəyəndi:
– Var – dedi, – çək, ər Aşıq!

* * *

Yolundan azan aşıq,
Sızıldar əzan, aşıq!
Dünya Kəbədir eşqə,
Çıx bir, çək azan, Aşıq!

* * *

Bu gələn arx hasıdı,
Dağ dağın arxasıdı.
Yar bağı yanır, Aşıq,
Göz yaşın arxa sudu.

* * *

Şirvanda Qəbələ var,
Şəkil var, Qəbələ var.
Hicran düşkünü Aşıq,
Əlində qəbalə var.

# XƏSTƏ QASIM
(XVII əsrin sonu, XVIII əsrin əvvəli)

## *GƏRAYLILAR*

### DÜNYA

Gəl bir səndən xəbər alım,
Süleymandan qalan dünya.
Əzəli gül kimi açıb,
Axırında solan dünya.

De görüm nəyə talıbsan,
Dərsini kimdən alıbsan?
Neçə min yol boşalıbsan.
Neçə min yol dolan dünya.

Xəstə Qasım qalıb naçar,
Bu sirri bəs kimlər açar?
Gələn qonar, qonan köçər,
Hey salarsan talan dünya.

### KİMİ

Nə baxırsan oğrun-oğrun,
Mənə biganələr kimi.
Durum dolanım başına,
Şama pərvanələr kimi.

Bağbanlar bəslər meyini,
Dönsün seyrağıb löyünü,
Yıxıbsan könlüm öyünü,
Top dəymiş qalalar kimi.

Gəl gedək Çinə, Maçına,
Qurbanam zülfün ucuna,
Al məni qoynun içinə,
İstəkli balalar kimi.

Dost qapısında dustağam,
Tellərinə çox müştağam,
Yar əlindən düyün-dağam,
Dağdakı lalalar kimi.

Xəstə Qasım Tikmədaşlı,
Könlü qəmli, gözü yaşlı,
Göldən uçdu yaşılbaşlı,
Silkindi sonalar kimi.

## GÖRDÜM

Məqabirdən güzar etdim,
Əcaib mərdüman gördüm.
Qaranqu torpaq altında,
Yatar cismilə can gördüm.

Yoluxdum bir günahkara,
Günahından üzü qara,
Mətahından ziyan vara,
Bəqayət peşiman gördüm.

Sınıx saxsı kimi başlar,
Çürümüş ol qələm qaşlar,
Tökülmüş inci tək dişlər,
Yanar pirü-cavan gördüm.

Yumulmuş ol ala gözlər,
Qiyamət yolunu gözlər,
Hanı şirin, şəkər sözlər,
Dəhani-bizəban gördüm.

Çürümüş ol gül əndamı,
Tanımaz sübh ilə şamı,
Alıbdı çöhrəsin hamı,
İlan gördüm, çayan gördüm.

Kimi eyş ilə işrətdə,
Kimi zövq ilə söhbətdə,
Kimi rənc ilə möhnətdə,
Qatı halın yaman gördüm.

Qübur əhli sifatini,
Bəyan etdin sən, ey Qasım,
Oturma yol qırağında,
Dəxi sındır haman, gördüm.

## BAŞINA DOLANDIĞIM

Yaxşı olar qohum, qardaş,
El, başına dolandığım,
Harda görsən, yara yalvar,
Dil, başına dolandığım.

Budu gəldi bahar vaxtı,
Sinəm oldu yarın taxtı,
Soyuldu bülbülün rəxti[1]
Gül, başına dolandığım.

Qaşların qurar divanı,
Taxtdan salar Süleymanı,
Xəstə Qasımın cananı,
Al, başına dolandığım.

## YOLDAN EYLƏRSƏN

Gözəl, səndə nə qaydadı,
Gedəni yoldan eylərsən.
Salarsan eşqin oduna,
Ulusdan, eldən eylərsən.

[1] Paltarı

Mən ha billəm sən əttarsan,
Qənd ilə noğul satarsan,
Dəryalara top atarsan,
Sonanı göldən eylərsən.

Gözəl, nə bildin halımı,
Əyibsən qəddi-dalımı,
Mən Qasıma bu zülümü,
Kim eylərdi, sən eylərsən.

## YOXDU?

Ay qəsrdə duran gözəl,
Niyə təksən, elin yoxdu?
Niyə pozğundu tellərin,
Əl şanada, telin yoxdu?

Mən gəlirdim dağdan-daşdan,
Sinəm yanır qəm-ataşdan,
Ayrılmısan yaşılbaşdan,
Tək sonasan, gölün yoxdu?

Gəl dərdin Qasıma söylə,
Bağrımın başını teylə,
Qonağa xoş gəldin eylə,
Yoxsa lalsan, dilin yoxdu?

## ÇIXARIR

İsfahanda bir dəllək var,
Baş qırxanda zol çıxarır.
Ətindən az-az götürür,
Dərisini bol çıxarır.

Ayağını qoyur qoşa,
Ülgücünü çəkir daşa,
Zərbi elə gəlir başa,
Tikmədaşa yol çıxarır.

Bir fətəsi vardır bezdən,
Durub gəlir səhər tezdən,
Yarı haqqın alıb bizdən,
Yenə acı dil çıxarır.

Ülgücünü çapışdırır,
Suyu tasdan qapışdırır.
Kəsir, pambıq yapışdırır,
Başımızdan kol çıxarır.

Bu usta necə ustadı,
Həmişə gözü tasdadı.
Xəstə Qasım can üstədi,
Elə bilir pul çıxarır.

## EYLƏRLƏR

Bu zamanda ilqar handa,
Aşnaları yad eylərlər.
Yeyərlər nanü-nəməki,
Beş gündə bərbad eylərlər.

Yaram sızlar, təbib naşı,
Didəmdən axıdır yaşı.
Yar yolunda verrəm başı,
Bilsəm ki, imdad eylərlər.

Mənim yarım fitnə qaşlı,
Cigərim tüğyan ataşlı,
Dostu qoyub gözü yaşlı,
Düşmənləri şad eylərlər.

Məcnun kimi divanəni,
Şam yandırır pərvanəni.
Xəstə Qasım biçarəni,
Öldürübən ad eylərlər.

## DÜŞDÜ, QAR DÜŞDÜ

Ay həzərat, ay camaat,
Dağa qar düşdü, qar düşdü.
Özüm qaldım qürbət eldə,
Yada yar düşdü, yar düşdü.

Gedin deyin anasına,
Sığal versin sonasına,
Yar, sinənin arasına,
Bir cüt nar düşdü, nar düşdü.

Xəstə Qasımı qəm basdı,
Yar bizi zülfündən asdı,
Şeyda bülbül güldən küsdü,
Gülə xar düşdü, xar düşdü.

# *QOŞMALAR*

## NECOLA?

Ay ağalar, nakam getdim dünyadan,
Yarəb, mənim xanımanım necola?
Gövhərtək sözlərim, bayatılarım,
Ləbi şirin süxəndanım necola?

Anam yoxdu gözlərindən yaş tökə,
Halalım yox, sinəm üstə saç tökə,
Qardaşım yox, qəbrim üstə daş tökə,
Yarəb, mənim ağlayanım necola?

Hayıf ola, ağ biləklər, bazılar,
Ahum otlar ceyran ilə yazılar[1].
Qohumum yox, qardaşım yox, qazılar!
Yarəb, mənim hal-əhvalım necola?

---
[1] Çöl, çəmən

Bu gen dünya üstümüzə dar ola,
Biz köçərik, yurdumuzda kim qala?
Əhmədimin gül əndamı sarala,
Mənim sərvi-xuramanım necola?

Mən Qasımam, daha qalmadı tabım,
Qızılgüldən çəkilibdi gülabım,
Cədvəlkeş Quranım, qırx cüz kitabım,
Üstü zərli qələmdanım necola?

## ALINCA

Ay ariflər, bir tərlanım uçubdu,
Sağ əlimdən sol əlimə alınca.
Onu tutan xeyrü-bəhrin görməsin,
Mən yazığın naləsi var dalınca.

Gümüş kəmər bağlayıbdı belinə,
Danışdıqca mail oldum dilinə,
Gül uzatdım nazlı yarın əlinə,
Canım aldı, gülü məndən alınca.

Alimdən dərs aldım əlif-bey üçün,
Sürahilər düzülübdü mey üçün,
Dəli könül, qəm çəkirsən nə üçün?
Qəmli günün şad günü var yanınca.

Xəstə Qasım vədə verdi yüz ilə,
Yaşılbaşlar göldən-gölə düzülə.
Bir igid ki, qatarından üzülə,
Ölüm yeydi, bu dünyada qalınca.

## OLA

Bir gözəl sevəsən boyu tamaşa,
Görən kimi könül ona bənd ola.
Gözəlliyi, gül camalı bir yana,
Dil-dodağı şəkər ola, qənd ola.

Bir gözəl sevəsən qaməti bəstə,
Görəndə aşiqi eyləyə xəstə,
Çoxdan axtarıram bir elə kəsdə,
İşarə anlaya, dərdimənd ola.

Mən Qasımam, əl götürməm canandan,
Canan qarşı gəlsə keçərəm candan,
Rəngi artıq ola güldən, reyhandan,
Zülfləri boynuma bir kəmənd ola.

## SAZ OLA!

Usta, məni gözlərinə fəda qıl,
Səndən saz istərəm, amma saz ola!
Dindirəndə imran dillə danışa,
Şeyda bülbüllər tək xoşavaz ola!

Yamanı yamana, yaxşını mərdə,
Tərifini edim hər düşən yerdə,
Dolaşmaya simlər, vurmaya pərdə,
Gözəllər tək onda işvə, naz ola!

Xəstə Qasım, sözüm söylərəm əyan,
Elə car eylərəm, bəyanbəbəyan.
Qiymətin soruşsan, tamam on tümən,
Nə ondan çox ola, nə də az ola!

## GÖRÜNCƏ

Gözəllər gözəli, şahi-gülbədən,
Didəm ağlar mən camalın görüncə.
Aşıq deyər: görüncə,
Siyah telin görüncə,
Get bir mərdə qul ol sən,
Namərd üzün görüncə.

Mina gərdən, büllur buxaq, diş inci,
Çəkilibdi hilal qaşlar gör incə.

Kim yetikdi həqiqətin evinə,
Həqiqətin, mərifətin evi nə?
Aşıq deyər: evinə,
Xanəsinə, evinə,
Yağıb qəmlər yağışı,
Viran könlüm evinə.
Dolanmayın heç namərdin evinə,
Gözü çıxar bir qonağı görüncə.

Kim cahanda aşıq oldu avara,
Dolandı dünyanı qaldı avara,
Aşıq deyər: avara,
Məcnun gəzər avara,
Uyma namərd felinə,
Səni qoyar avara.
Xəstə Qasım, nə gəzirsən avara,
Ölüm yeydi bu günləri görüncə.

## ƏLİMDƏ

Üç gündü çıxmışam o Tikmədaşdan,
Qapına gəlmişəm canım əlimdə,
Ayağın torpağı qovma qapından,
Sızıldaram, giribanım əlimdə.

Şeyda bülbül kimi yaman ağlaram,
Sinəm başın düyünlərəm, dağlaram,
Ləzgi kimi yüz aşığı bağlaram,
Əgər olsa süxəndanım əlimdə.

Xəstə Qasım, kəsilibdi xitabım,
Qızılgıl tək çəkilibdi gülabım,
Büllur qaşlı, qızıl üzlü kitabım,
Yoxdur zərli qələmdanım əlimdə.

## OLMAZ

Adam oğlu, mərifəti dürüst bil,
Yol ərkan bilənin yeri dar olmaz.
Sirrini söyləmə hər yetən yada,
Bivəfa dilbərdə etibar olmaz.

Atırsan oxunu, səhraya atma,
Gecələr yatanda duasız yatma,
Halal dövlətinə sən haram qatma,
Bu dünya malından sənə var olmaz.

İgid gərək mürvətini atmaya,
Qəflət yuxusunda qafil yatmaya,
Bir oğul ki, böyük sözün tutmaya,
O kimsədə namus, qeyrət, ar olmaz.

## YAR OLMAZ

Dəli könül, nə divanə gəzirsən,
Bivəfa dilbərdən sənə yar olmaz.
Düz çıxmaz ilqarı, əhdi-peymanı,
Hərcayıda namus, qeyrət, ar olmaz.

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə,
Ot bitər kök üstə, əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz.

Vəfalıya əmək çəksən itirməz,
Bədəsil nəsihət, öyüd götürməz,
Qabaq tağı tər şamama bitirməz,
Göy söyüddə heyva olmaz, nar olmaz.

Təklif olunmamış bir yerə varma,
Nər olmaz meydanda hər bığıburma,
Seyrağıb adama sən yaxın durma,
Xain çıxar, onda düz ilqar olmaz.

Xəstə Qasım günü keçmiş qocadı,
Gələn bəzirgandı, gedən xocadı,
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

## ÜZHAÜZ

Həqiqət bəhrində qəvvasam deyən,
Qəvvas isən, gir dəryaya üzhaüz.
Aşıq deyər: üzhaüz,
Sonam göldə üzhaüz,
Qarı düşmən dost olmaz.
Yalvararsan üzhaüz.
Bir mərd ilə ilqarını vur başa,
Namərd ilə kəs ülfəti üzhaüz.

Parçalandı gəmim, qaldı dərində,
Qərq oldu ümmana, qaldı dərində.
Aşıq deyər: dərində,
Dayazında, dərində,
Sidqi, qəlbi düz olan,
Hərgiz qalmaz dərində.

Qismət olsa o mövlanım dərində,
Üz döşəyək, səcdə qılaq üzhaüz.

Xəstə Qasım cananına can deyə.
Can danışa, can eşidə, can deyə.
Aşıq deyər: can deyə.
Vəfalıya can deyə,
Görmədim hərcayılar,
Cananına can deyə.

Yox vəfalım, can deyənə can deyə,
Bivəfasan, çək əlini üzhaüz.

## GETDİ

Necə qəhrəmanlar gəldi dünyaya,
Köç vaxtı yetişdi, tez oldu getdi.
Rüstəmin zərbindən titrədi dağlar,
Düşdü dastanlara söz oldu getdi.

Hakimlik eylədi çox uzun vaxtı,
Bütün kainata Süleyman baxdı.
Tərsinə döndü şah Cəmşid taxtı,
Firudinin dərdi yüz oldu getdi.

Necoldu Keykavus, hanı Keyqubad,
Hansı bu dünyadan almışdı murad?
Allahlıq eylədi Fironla Şəddad,
Nəmrudun qalası düz oldu, getdi.

İskəndər Daranı taxtından saldı,
Cahana şah gəldi, sonu nə aldı?
Yarı yolda öldü, Misirdə qaldı,
Qasım kimi yandı, köz oldu getdi.

## AHULAR MƏNİ

Gecə-gündüz ağlaram mən dərində,
Qocaltdı nalalar, ahular[1] məni,
Yarəbim, bu dərdü-nalam eşidib,
Gəlibdi qapında, ahular[2] məni.

Həkkak istər həkk etməyə qaimdi,
Həqiqətin qapısında qaimdi,
Çox yaxşıdı öz dinində qaimdi,
Cahil müsəlmanlar ahular[3] məni.

---

[1] "Ah-uflar" mənasındadır
[2] Çağırar
[3] A huylar, lağa qoyar

Xəstə Qasım, kim yaraşır əğyara,
Bayqunu gör, məskən salmış ağ yara,
Bilmənəm ki, neyləmişdim əğyara,
Yatar, durar, hər dəm ahular[1] məni.

## NAMƏNİ

Qəriblikdə qəmxarımsan, əzizim,
Yetirərsən bir də dosta naməni.
İkidilli yardan həzər eylərəm,
Salır dildən-dilə, dastana məni.

Qarşı durdum Leyli dağı göründü,
Boyun tək sürahi, sağı göründü,
Qoynunda şamama tağı göründü,
Bəs niyə qoymursan bostana məni?

Ağzını oxşatdım zənbura, şana,
Naşı bülbül uçub qonar gülşana,
Yar, qəmzənə sinəm tutdum nişana,
Bəs niyə vurmursan, qəsdən, a məni?

Mən Qasımam, uzaq atdım daşımı,
Didəmdən axıtdım qanlı yaşımı,
Dost yolunda mən qoyaram başımı,
Doğru qəbul etsə astana, məni.

## AL İNDİ

Nə müddətdi həsrətini çəkirdim,
Zənəxdanı etdin mənə al indi.
Talan salmış Hində, Bəlxə, Həbəşə,
O qaş indi, o göz indi, xal indi.

[1] Qarğış tökər

Məclisində al şərablar içilir,
Buxağından ətri-güllər saçılır,
Dindirəndə dəhanından açılır,
Şəkər indi, nabat indi, bal indi.

Qurban olum ənisinə, elinə,
Zərnişan şəddəsin çalmış belinə,
Payəndazdı nazlı yarın yoluna,
Bu baş indi, bu can indi, mal indi.

Yar getdiyi atlas ilə xaradı,
Məni qoyub özgələrə varadı,
Ay ağalar, mənim baxtım qaradı,
Kitab açdım, belə gəldi fal indi.

Xəstə Qasım, dost kuyinə varanlar,
Namus anlar, qeyrət anlar, ar anlar,
Hərf içində əlif idim, yaranlar!
Fələk əydi qəddim, oldum dal indi.

## İNDİ

Qəm əlindən şikəstəyəm, ovrağam[1],
Dilim eylər nalə indi, zar indi.
Xeyli vaxtdı camalına müştağam.
Soruş indi, danış indi, yar, indi.

Bizim yerdə naz çəkməyə tab olmaz,
Vallah, hüsnün kimi mahitab olmaz,
Şuxluğuyla məmələrə bab olmaz,
Narınc indi, turunc indi, nar indi.

Mənim yarım illərətən sağ ola.
Dörd çövrəsi behişt ola, bağ ola,
Nə həddi var sədrin[2] kimi ağ ola,
Kağız indi, bəyaz indi, qar indi.

[1] Parça-parça
[2] Sinə

Bülbül olan hərgiz dönməz gülündən,
Dindirərsən bal tökülər dilindən.
Yeddi yerdən sarmaşıbdı belindən,
Xəbərdar ol, səni çalar mar indi.

Mən Qasımam, miskin-miskin baxaram,
Ümman olub dəryalara axaram,
Ah çəkəndə yandırıban yaxaram.
Dolanmasın gül yanına xar indi.

## QAL İNDİ

Obalarmız səf-səf olub yüklənir,
Başı ala qarlı dağlar, qal indi.
Biz içmədik abi-kövsər suyundan,
Soyuq sular, tər bulaqlar, qal indi.

Bivəfasan, heç görmədim vəfan, yar!
Tifil ikən çox çəkmişəm cəfan, yar!
Mən öləndə kimlər sürər səfan, yar?!
Fərş döşənmiş ağ otaqlar, qal indi.

Bivəfasan, vəfan yoxdu dünyada,
Aşnanın sirrini verərsən yada.
Şamamanı dərdirərsən xoyada,
Səbzə-bostan, sarı tağlar, qal indi.

Bivəfasan, vəfan yoxdu dünyada,
Aşnanın sirrini verərsən yada.
Şamamanı dərdirərsən xoryada,
Səbzə-bostan, sarı tağlar, qal indi.

Xəstə Qasım, tamam oldu sözlərim,
Eşq ucundan kabab oldu közlərim,
Qərib yerdə, yad ölkədə gözlərim,
Vətən deyib ağla, ağlar qal indi.

## YAXŞIDI

Dəli könül, məndən sənə əmanət,
Demə bu dünyada qalım yaxşıdı.
Bir gün olar, qohum-qardaş yad olar,
Demə ulusum var, elim yaxşıdı.

Bir məclisə varsan, özünü öymə,
Şeytana bac verib, kimsəyə söymə,
Qüvvətli olsan da, yoxsulu döymə,
Demə ki, zorluyam, qolum yaxşıdı.

Qoçaqdan olubsan, qoçaq olgunan,
Qadadan, baladan qaçaq olgunan,
Aşıq ol, comərd ol, alçaq[1] olgunan,
Demə varım çoxdu, pulum yaxşıdı.

Xəstə Qasım kimə qılsın dadını,
Canı çıxsın, özü çəksin odunu,
Yaxşı igid yaman etməz adını,
Çünki yaman addan ölüm yaxşıdı.

## DİVANƏSİDİ

Gecə-gündüz həsrətini çəkdiyim,
Xəyalım xəyalın divanəsidi.
Məni səndən uzaq salan seyrağıb,
Bu çərxi-gərdişin zəmanəsidi.

Mina boylu, siyah telli sevdiyim,
Uzaq durub yaxın sözüm dediyim,
Acı sözün şəkər kimi yediyim,
Yarım gözəllərin bivəfasıdı.

İnsaf eylə a bimürvət, a zalım,
Dolanıb başına dərdini alım,
Ala gözlü, şux baxışlı tərlanım,
Bu Qasım gözlərin sadağasıdı.

---
[1] Sadə təbiətli

## QURBANI!

Qəriblikdə mənə həmdəm olan yar,
Bir bəri gəl, ayaqların qurbanı!
Şikəstə könlümə məlhəm olan yar,
Dilin, dişin, dodaqların qurbanı!

Könlüm istər yara qurban olmağa,
Dolanıb başına, heyran olmağa,
Ala gözlü yara mehman olmağa,
Fərş döşənmiş otaqların qurbanı!

Xəstə Qasım, sən yolundan azarsan,
Məcnun kimi səhraları gəzərsən,
Ala gözlü yara namə yazarsan,
Qələmdanın, barmaqların qurbanı!

## AŞNALIĞI

Ay ağalar, gəlin sizə söyləyim,
Əzəl yaxşı olar, yar aşnalığı.
Sən sevəsən, yarın səni sevməyə,
Olar bülbül ilə xar aşnalığı.

Bağban odur zəhmət çəkə, əlləşə,
Saldığı bağ çiçəkləşə, gülləşə.
Əgər gücsüz güclü ilə güləşə,
Olar tərlan ilə sar aşnalığı.

Xəstə Qasım qəm əlindən məst ola,
Əhli-dərviş xırxasında pust ola,
Bir adam ki, loxma ilə dost ola,
Olar yağış ilə qar aşnalığı.

## QALIBDI

Köhnə Şamaxının seyrin eylədim,
Əl dəyməmiş təzə bağlar qalıbdı.
Elə köçüb gedib ulusu, eli,
İşlənməmiş ağ otaqlar qalıbdı.

Fələk, şad könlümdən alma həvəsi,
Ayırma yarımdan, tutaram yası,
Necə oldu bu seyvanın yiyəsi?
Dərd-qəmi var, tamam ağlar qalıbdı.

Xəstə Qasım adım, şaha deyili,
Çərxi-fələk, səndən mənəm gileyli,
Elə köçüb gedib bivəfa Leyli,
Bircə Məcnun, bir də dağlar qalıbdı.

## SƏNƏM, GƏL!

Tərifli gözəllər gəlhagəl oldu,
Yaşıllı, zərbaflı, allı Sənəm, gəl!
Ovçunu görəndə maral baxışlı,
Ay üzü birçəkli, xallı Sənəm, gəl!

Aşıq odur bir söz desin özündən,
Aləm bada gedər ala gözündən,
Danışanda şəkər damar sözündən,
Qaymaq dodaqları ballı Sənəm, gəl!

Xəstə Qasım deyər: hənək hənəkli,
Ağ üzündə qoşa xallar bənəkli,
Ətlas nimtənəli, ipək köynəkli,
Üstü-başı tirmə şallı Sənəm, gəl!

## SEVDİYİM!

Qədəm basdın didələrim üstünə,
Sən xoş gəldin, səfa gəldin, sevdiyim!
Qurban olum siyah çeşmin məsdinə,
Nə əcəb insafa gəldin, sevdiyim!

Sabahadək didələrim uymazdı,
Seyrağıblar qanımızdan doymazdı,
O zalımlar səni mənə qıymazdı,
Sən elədin vəfa, gəldin, sevdiyim!

Əndəlib[1] tək ayırdılar gülümdən,
Ah çəkərəm ürəyimdən, dilimdən,
Əğyar tənəsindən, mənim elimdən,
Çəkdin cevri-cəfa, gəldin, sevdiyim!

Yar yanında yaslanaram mən yüz il,
Sən təzə qönçəsən, mən şeyda bülbül,
Bu dərd məni öldürərdi, yəqin bil,
Sən dərdimə şəfa gəldin, sevdiyim!

Mən Qasımam, sinəm haqqın kəlamı,
Şükür haqqa, yar eşidib nalamı,
Camalın şöləsi basmış alamı,
Düşmüş qafdan, qafa gəldin, sevdiyim!

## TƏR GÜLƏR SƏNƏM

Tər getdim tər yarın tər xanəsinə,
Tər mehman, tər eylər, tər gülər Sənəm,
Tər xubdur, tər şuxdur, tər nazənindir,
Tər deyər, tər söylər, tər gülər Sənəm.

[1] Bülbül

Tər zülfün tər burmuş tər buxağında,
Tər bəyaz, tər əhmər[1], tər yanağında,
Tər şəkər, tər damar, tər dodağında,
Tər tutub, tər dişlər, tər gülər Sənəm.

Tər qəmzən, tər xədəng, tər sinəsində,
Tər atmış tər peykan tər sinəsində,
Tər asmış, tər narın, tər sinəsində,
Tər dəyməz, tər saxlar, tər gülər Sənəm.

Tər çeşmi, tər cadu, tər fitnəlidir,
Tər lalə tər dərib tər tutmalıdır,
Tər miyan, tər gərdən, tər sonalıdır,
Tər durub, tər gəzər, tər gülər Sənəm.

Tər bülbül tər qonar tər budağında,
Tər Məcnun tər gəzər, tər budağında,
Tər lalə tər bitər tər budağında,
Tər Qasım tər dərər, tər gülər, Sənəm!

## İNSAN!

Yaxşı fikir elə, qafil dolanma,
Qəlbini şeytandan yad elə, insan!
Halal yaşa, bir kimsədən utanma,
Yıxma könülləri, şad elə, insan!

Dünya dediyin bir fanidir, fani,
Əzəl Nuh gəlmişdi, görünmür, hanı?
Yola saldın İskəndər tək xaqanı,
Bizə də əsəcək bad elə, insan!

Xəstə Qasım, düşünməyin bihuşdu,
Bənadam dediyin yuvasız quşdu.
Səxasız dövlətin axırı puçdu,
Ye malın, dəhanda dad elə, insan!

---
[1] Qırmızı

## OLSUN

Yeri, gözəl, yeri, sənə qarğaram.
Ölənədək işin ahü-zar olsun.
Siyah zülfün dal gərdəndə sərasər,
Halqa-halqa, çinbəçindən mar olsun.

Gözəllər içində giryan olasan,
Yanasan odlara, büryan olasan,
Vəfalı yarlara qurban olasan,
Onlara baxanda sənə ar olsun.

Mən qurbanam yaxşıların muyuna,
Hündür qamətinə, gözəl boyuna,
Sənin soyun dönsün sonsuz soyuna,
Gül açmasın bağçanızda, xar olsun.

Ay qız, bir kəs bilməz sənin sirrini,
Qiyamətdə yandırsınlar dərini,
Yatan vaxtda şahmar vursun ərini,
Naləsindən qulaqların kar olsun.

Xəstə Qasım dost yolunda qalanda,
Əl uzadıb qol boynuna salanda,
Kefin durulanda, könlün olanda,
Bizə gələn ayaqların var olsun.

## ÇAPHAÇAP

Bir gün iki sultan bir taxta çıxmış,
Ox atarlar bir-birinə çaphaçap.
Nazlı dilbər mənə sitəm eylədi,
Könlümün şəhrinə saldı çaphaçap.

Ağlaram, didəmdən yaş, irin gələr,
Əmərəm, ləbindən ya şirin gələr,
Deyərlər qəsrindən ya Şirin gələr,
Fərhad kimi vur, dağları çaphaçap.

Xəstə Qasım deyər: yar, dada[1] gəlsin,
Eşqin atəşindən yar dada[2] gəlsin.
Bir namə göndərim yar dada[3] gəlsin,
Qurban ollam sənə qasid, çaphaçap.

## DEYƏRLƏR

Ay ağalar, gəlin sizə söyləyim,
Yalqız daşdan olmaz divar deyərlər.
Bəzirgansan, aç mətahın, xırd eylə,
Ararlar yükündə nə var? – deyərlər.

Ovçu olan bəslər alıcı quşu,
Sərraflar tanıyar qiymətli daşı,
Bir oğul atadan artırsa işi,
El içində ona tavar deyərlər.

Qızılgülü dəstə-dəstə dərginən,
Dəribən də yaylıq üstə sərginən,
Hər nə versən öz əlinlə verginən,
Yüz qadanı başdan sövar deyərlər.

Neynirəm bir bağı, barı olmasa,
Alması, heyvası, narı olmasa,
Bir igidin dövlət-varı olmasa,
Yeləksiz ox kimi çovar deyərlər.

İskəndər atlandı, çıxdı zülmatdan,
Qasım, Xızr içdi abi-həyatdan,
Bəhs düşsə igiddən, qılıncdan, atdan,
Süfrəni hamsınnan kübar deyərlər.

---

[1] Zara gəlsin
[2] Həzz almağa gəlsin
[3] Köməyə gəlsin

## EYLƏR-EYLƏR

Bir elə kişinin tut ətəyindən,
Bil sənə imdadı ol eylər-eylər.
Zərrəcə üstündə olsa nəzəri,
Yerdən daş götürsən, ləl eylər-eylər.

Böhtan demə, böhtan tutar adamı,
Qul eylər, bazarda satar adamı.
Cəhənnəm odundan betər adamı,
Yoxsulluq yandırar kül eylər-eylər.

Aqil insan deməz hər gördüyünü,
Daldalar düşməndən vay dərdiyini,
Görməzsən nakəsin pay verdiyini,
Versə də, töhmətin bol eylər-eylər.

Xəstə Qasım deyər sözün bu başdan,
Pay umma qohumdan, yaddan, qardaşdan,
Özün əmək çəksən, su çıxar daşdan,
Əridər dağları yol eylər-eylər.

## YAYINUR

Bir gözəlin camalına mayılam,
Nə müddətdir gözəl məndən yayınur,
Mən qurbanam ağ üzündə o xala,
Zənəxdanın şöləgahı yayı nur.

Xəstə könlüm yar bəsləmiş, həmdərdi,
Dərdbilməzə demək olmaz həm dərdi,
Bir igidin yaxşı olsa həmdərdi,
Qışı nurdur, yazı nurdur, yayı nur.

Xəstə Qasım bu ləzgini yaratar,
Çətin gündə çətin səni yar atar,
Üz çevirsə, müjgan oxun yar atar,
Əli nurdur, oxu nurdur, yayı nur.

## DAĞA

O necə quşdu ki, yaz gələr bağa,
Sinəmi çəkiblər düyünə, dağa,
Bir şana, bir bafta, bir də bir cığa,
Bu üçü bir olsa teldə gizlənər.

O necə quşdu ki, qayada səkər,
Qaynağı neştərdir, qanımı tökər,
Bir noğul, bir nabat, bir də bir şəkər,
Bu üçü bir olsa dildə gizlənər.

O necə quşdu ki, anasın əmər,
Havada dövr edər, şəms ilə qəmər,
Bir qılınc, bir xəncər, bir də bir kəmər,
Bu üçü bir olsa beldə gizlənər.

Aladır gözləri, şəhlayi-nərgiz,
Sənintək bir gözəl bulunmaz hərgiz,
Bir bulaq, bir hovuz, bir də ki, kəhriz,
Bu üçü bir olsa yerdə gizlənər.

Yar ki yara şirin verər salamı,
Təbibimsən, özün bağla yaramı,
Bir oğru, bir əyri, bir də haramı,
Bu üçü bir olsa kolda gizlənər.

Xəstə Qasım deyər: ləbi ballı qız,
Bir şirin göftarlı, üzü xallı qız,
Bir qələm, bir davat, bir də bir kağız,
Bu üçü bir olsa əldə gizlənər.

## KƏKLİKLƏR

Mən gedirəm, sizi kimə tapşırım,
Dam üstündə duran sona kəkliklər.
Al-yaşıl geyinib, tirmə bağlarsız,
Nə girmisiz dondan-dona, kəkliklər.

Fərə kəklik daş başında səs eylər,
Qaqqıldaşıb bir-biriylə bəhs eylər,
Heç bilmirəm toymu eylər, yas eylər,
Əllər batıb qızıl qana, kəkliklər.

Kəkliyin ovlağı qayalar başı,
Qaqqıldaşıb tapar yoldaş yoldaşı,
Bərəsi bərk olsa, ovçusu naşı,
Uçub gedər ol asmana, kəkliklər.

Gözəl kəklik dam üstündə durubdu,
Gərdən çəkib, necə boynun burubdu.
Heç bilmirəm ovçusunmu görübdü,
Üz tutdular biyabana, kəkliklər.

Hər ikiniz yaşılbaşlı sonasız,
Mənim gizli dərdim pünhan qanasız,
Ayrılırıq, sağlığınan qalasız,
Qasım gedir, Dağıstana, kəkliklər.

## HA MAYIL OLDU

Yatmışdım, üstümə gəldi bir pəri,
Yenə yar sevdası ha mayıl oldu.
Dərdi-qəmim cana əsər elədi,
Qolların boynuma həmayil oldu.

Təbib görsün yaralarım, sinəm aç,
Öz əlinlə bu düyünüm, sənəm, aç.
Demiş idin, hər gün verrəm sənə maç,
Günüm aya döndü, həm ay il oldu.

Vardım dost kuyinə, sək sana durdu,
Dərdim tək bir ikən, səksənə durdu.
Qasımı görəntək səksənə durdu,
Gözəllər qəflətən həm ayıl oldu.

## OXURDU

Bir nazənin sevdim məktəbxanada,
Haqq kəlamın diləzbərdən oxurdu.
Əlinə almışdı, eşqin kitabın,
Mənim dərsim, bil, əzbərdən oxurdu.

Mən tanıram öz yarımı nəfəsdən,
Ol səbəbdən könül düşməz həvəsdən,
Tavus kimi səda verər qəfəsdən,
Bülbül kimi xoş dəftərdən oxurdu.

Xəstə Qasım kömək dilər mövladan,
Naz-qəmzəsi aşıqları aldadan,
Həya ilə, hicab ilə molladan,
Gah yavaşdan, gah hündürdən oxurdu.

## AY HAYIF-HAYIF

Səhər tezdən əzmi-gülşən elədim,
Qəm məni çulğadı, ay hayıf-hayıf!
Aşıq deyər: ay hayıf;
Kimlər oldu ay hayıf,
Sən ilə mən sevişdim,
Ayrı düşdüm, ay hayıf!
Bağban oldum, bağ bəslədim, çifayda,
Dərmədim gülünü, ay hayıf-hayıf!

Sərrafın dəstində nə danə gördüm,
Mürğü[1] dəhanında nə danə gördüm.
Aşıq, nə danə gördüm,
Xalın nə danə gördüm,
Tülək tərlan tuş oldu,
Axır nadanə gördüm.
Gövhəri verdilər nadanə gördüm,
Bilmədi qiymətin, ay hayıf-hayıf!

[1] Quşun

Oxudum dərsimi, çıxdım yasinə,
İgid olan ixlas[1] bağlar yasına.
Aşıq deyər: yasına,
Namərd boynu yasına,
Nanəcibə söz demə,
Ya inciyə, ya sına.
Qasım ölər, dostlar gələr yasına,
Eşidənlər deyər: ay hayıf-hayıf!

[1] Sədaqət

## QUL MAHMUD

(XVII əsrin sonu, XVIII əsrin əvvəli)

### *QOŞMALAR*

### YETİR

Xudam, məni bu qəzadan xilas et,
Gözü yaşlı qalan canana yetir.
Məni əli qanlı haramdan qoru,
Hər çarəm ondadı, loğmana yetir.

Mən qulunam, köməyinə güvənnəm,
Ətəyindən tutub hər gün dilənnəm,
Tut əlimdən rahin ilə gələnəm,
Sən məni yaquti-yəmənə yetir.

Mahmudam, səfərdən dala gəlməsəm,
Eynim yaşım yar əliylə silməsəm.
Qisasımı əgər ala bilməsəm,
Bu dərdi sən Şahı-Mərdana yetir.

### AĞLARAM

Qəza-qədər məni saldı dərbədər,
Lif qəddim yaya dönüb ağlaram.
Naməm görən gedib şaha çatdımı?
Eynim yaşı çaya dönüb ağlaram.

Eşq əhliyəm, şahmar zülflər çalıbdı,
Mən yazığa namərd, kəzzab gülübdü.
Bu bivəfa məni narə salıbdı,
Hər saatım aya dönüb ağlaram.

Zalım düşman şərmi-həya qanmayır,
Tülək-tərlan yuvasına qonmayır.
Mən Mahmudam, baxtım mana dönməyir,
Hər əməyim zaya dönüb ağlaram.

## MƏNİM

Dost həmdəmim, yetən kimi vətənə,
Gör bir gözləyirmi yolum yar mənim?
Söylə o canana qoy inciməsin,
Yolumu alıbdı boran-qar mənim.

Yetim pünhan, yurdum pünhan, qərib mən,
Didərgin düşmüşəm nə vaxtdır eldən.
Dərdimi yumağa göz yaşım seldən,
Sinəmi dağlayıb yağılar mənim.

Hicran dəryasında üz, aşıq Mahmud,
Bu da bir dövrandı gəz, aşıq Mahmud.
Fələyin qəhrinə döz, aşıq Mahmud,
Vaxt olar möhnətim dağılar mənim.

## QOVUŞDU

Addadı zimistan, gəldi növbahar,
Dağda qar oynadı, selə qovuşdu.
Dənizin sinəsi buzdan açıldı,
Yaşılbaş sonalar gölə qovuşdu.

Ya Rəbb, məni salma bir də möhnətə,
Canımda hal yoxdu, dözəm zillətə.
Hicranın əliylə düşdüm qürbətə,
Həftələr dolandı ilə qovuşdu.

Canım qurban olsun Novruz ayına,
Uşaqlar batıbdı bayram payına.
Şükr olsun Xudanın haqqı sayına,
Aşıq Mahmud gəlib elə qovuşdu.

## TAPMADIM

Məğribdən-məşriqə bəyan eylədim,
Na axtardım sitəmkarı tapmadım.
Yüz zülümlə bir gecənin birində,
Apardılar, nazlı yarı tapmadım.

Sinəsi mərmərdi, boyu sürahı,
Məniydim dəhridə onun pənahı.
Neyləsin, nə idi suçu, günahı?
Necə deyim biilqarı tapmadım?

Zalım yağı heç gəlmədi insafa,
Biçarə Mahmudam, düşmüşəm aha.
Bir namə yazdırıb göndərdim şaha,
Şahdan gələn ixtiyarı tapmadım.

## GECƏLƏR

Cavab ver sözümə, cavab ver görüm,
O hansı ağacdı yanar gecələr?
O hansı canıdı gündüz istəməz?
O hansı ocaqdı sönər gecələr?

O kimdi bir ildə yüz dəfə ölər?
Payız susar, qış ağlayar, yaz gülər.
O kimdi gündüzlər peymana gələr?
Əhdini-andını danar gecələr.

Mahmud aman deməz düşman görəndə,
Dönüb ümman olar tufan görəndə.
O nədir sevilər duman görəndə?
Çətin ki, mənzilə dönər gecələr.

## GƏLMİŞƏM

Bir tərlanın sorağına düşmüşəm,
Bu dağlara mən bir ova gəlmişəm.
Yar yolunda səri qoyub sadağa,
Doğru əhdə, düz ilqara gəlmişəm.

Müştaq oldum yarın şirin dilinə,
Nazik bədəninə incə belinə.
Gümanım var əlim yetsin əlinə,
Bu yolda çəkmişəm cəfa, gəlmişəm.

Hardan namə gəldi mənim adıma?
Xəbər oldu yaxınıma, yadıma.
Söz anlayıb gəlib yetsin dadıma,
Mürvət umub, mən insafa gəlmişəm.

Mahmudum yolunu oba-el gözlər,
Günlər keçər, aylar ötər, il gözlər.
Qohum-qardaş gecə-gündüz yol gözlər,
Hər xətanı qova-qova gəlmişəm.

### *GƏRAYLI*

## GÖRMÜŞƏM

Ay ağalar, qış gecəsi,
Röyada yarı görmüşəm.
Yığvalım yaman gətirib,
Sinəsi darı görmüşəm.

Kim yoluma çəkib çəpər,
Tanrı ona etsin qədər.
Yuxumdan açılıb səhər,
Düşdüyüm toru görmüşəm.

Belə dərdə necə dözüm?
Tutulaydı iki gözüm.
Alışıb-yanıram özüm,
Sinəmdə narı görmüşəm.

Qaldım çal-çarpaz dağında,
Düşmənlərin danlağında.
Bayquşun gülşən bağında,
Dolaşan sarı görmüşəm.

Mən Mahmudam, oldum nalan,
Könlüm qəmli, gözüm giryan.
Yarı məndən gücnən alan,
Divansız zoru görmüşəm.

## ŞIMPIRLI SEVGİLİ
(XVII əsrin sonu – XVIII əsrin əvvəli)

### YARI MƏN

Quzey-qarı döşlərim,
İnci – mərcan dişlərim,
On doqquzdu yaşlarım,
Sən igidin yarı mən.

Al canımı nazlıca,
Gəl qucuma gizlicə,
Sərxoş, ala gözlücə,
Sən igidin yarı mən.

Yerim daracıxdı, gəl,
Yorğanım açıxdı, gəl,
Ahım göyə çıxdı, gəl,
Sən igidin yarı mən.

Sevgilicə səslərəm,
Qiyamətə gözlərəm.
Sən Qula mən müztərəm,
Sən igidin yarı mən!

### MAHMUDUM

Kəfən qara, canım bəyaz,
Dolan belimə, Mahmudum.
Əcəl öldürməz məni,
Ağla halıma, Mahmudum.

İlqarın buza dönübdü,
Gülün yarpıza dönübdü.
İlin payıza dönübdü,
Qayıt elinə, Mahmudum.

Haqq didarın görməzsənmi?
Sevgiliyə varmazsanmı?!
Qönçə-qönçə dərməzsənmi?!
Solan gülünü, Mahmudum?

## EYLƏDİ

Yarın naməsi yetişdi,
Ürəyimi şad eylədi.
Darda qalan ufacığı,
Qəfəsdən azad eylədi.

Dilbilməzdim – tutulaşdım,
Eşqə dolub qatılaşdım.
Belə niyyət tutmamışdım,
Görklü Məhəmməd eylədi.

Haqqım mənə əta verdi,
Ağlım alan badə verdi,
Sevgiliyə buta verdi,
Adını Mahmud eylədi!

## YOLLAR, HEY!

Ərş ahımdan zinhar oldu,
Yollar, qədəmli olsan, hey!
Çək canımı – irahlanım,
Məzar, udumlu olsan, hey!

Kövsər gölləri içirsən,
Tuba bağlara uçursan.
Həm gətirən, həm göçürən,
Dada yetimli olsan, hey!

Dəli dərya axıb-coşub,
Baxıb mana – rahatlaşıb.
Sevgilidən ibrət qoşub,
Dərdə yatımlı olsan, hey!

## MƏNİM

Ayrılmışam halalımdan,
Pərişandı halım mənim.
Yarım çıxmır xəyalımdan,
Yatıbdı yığvalım mənim.

İtirmişəm Mahmudumu,
Fələk verən dərd budumu?
Kəsməmişəm umudumu,
Artıb qeylü-qalım mənim.

Sevgiliyəm, qəm çəkərəm,
Gözlərimdən yaş tökərəm.
Yar yoluna göz dikərəm,
Bükülübdür belim mənim.

## OĞLAN

Məni xəcalətdə qoyub gedibsən,
Sidq ilə yolunu gözlərəm, oğlan.
Cənnəti-Rizvanı, huri-qılmanı,
Sən olmayan yerdə neylərəm, oğlan?

Xəstə əhvalımla qaldım zarıncı,
Dost-qohum danlağı, düşman gülüncü.
Sinəmin üstündə narı, turuncu,
Bir səndən ötəri bəslərəm, oğlan.

Sevgiliyəm, dərdə çara gəl, gətir,
Xar olan çəməndə gül-çiçək bitir.
Əgər gələsisən, bir xəbər yetir,
Çatan əcəlimi əylərəm, oğlan.

## XƏSTƏ HƏSƏN
(XVIII əsrin sonu – XIX əsrin I yarısı)

### ÜSTÜNDƏDİR

Bu dünya belə qurulmuş
Dövlət-var üstündədi.
Ərül-qərül mal qazanır
Tarımar üstündədi.
Adəm ata, Həvva ana
Atdılar ol cənnətə,
Qorxuram ki, aldanalar
Şeytan şər üstündədi.

* * *

Bir anadan törəmişik,
Başqa-başqa dilimiz.
Yarın, haqqın divanında
Həp bir olur halımız.
Göz görəmməz, ayaq tutmaz,
Nə çətindi yolumuz.
Üstü körpü, altı qazan,
O da nar üstündədi.

* * *

Xəstə Həsən, sözlərimi
Dinləyənə nəsihət.
Yatanda eylə salavat,
Qalxanda et vəsiyyət.
Göydən yağmadı rəhəmət,
Yerdən qalxdı bərəkət,
Keçdi günüm, doldu sinnim,
İxtiyar üstündədi.

## GÖZƏLLƏR

Gözəllərin dərgahına uğradım,
Birər-birər bəri varın, gözəllər.
Bəriyə varanda can təzələnər
Haqq yetirib bu güzarı, gözəllər.

* * *

Kiminiz xınalar əzmişsiz üzə,
Kiminiz şəkərlər qatmışsız sözə,
Üz tutub nəzərlər çevirin bizə,
Sevindirin dostu-yarı, gözəllər.

* * *

Xəstə Həsən deyər, dürdü sözümüz,
Gözəllərdə qaldı iki gözümüz,
Baxa-baxa bir aşığa yüzünüz,
Yetirtməyin zəhrimarı, gözəllər.

## DIRQINADA[1]

Adına deyəllər Dikrən,
Üzündəki ətdən irkən,
Əlindəki dəmir dirkən
Çalhaçaldı Dırqınada.

* * *

Çayırları düz gördülər,
Özlərini yüz gördülər,
Xəstəni yalqız gördülər,
Qalmaqaldı Dırqınada.

[1] Dırqına aşığın anadan olduğu kənddir. Sonradan ora ermənilərin köçürülməsi ilə əlaqədar Xəstə Həsən Lebis kəndinə köçmüş, ömrünün sonuna qədər orada yaşamışdır.

## BİR GÜNƏŞ

Yetişdi hesablar, doldu mətləbə,
Şükür, üstümüzə çaldı bir günəş.
Çılpaqdı cəsədim, zəifdi atım,
Genə derlər min, dağları bir gün aş.

* * *

Nə oğuldu, nə uşaqdı, nə bala,
Nə xatadı, nə qəzadı, nə bəla.
Könlüm yoxdu nə şəkərə, nə bala,
İsidərlər, içirərlər bir gün aş.

* * *

Baxdı siyah taleyim də oldu gün,
Açammazlar bağladığım ol dügün,
Eşitsələr Xəstə Həsən öldügün,
Çağırarlar, gəl məzarı bir gün eş.

## MƏNİM

Ey ağalar, sizi tərif eyləyim,
Nədəndi çəkilməz bu nazım mənim?
Təmizdi əlfamız, pakdı sözümüz,
Hayıf ki, görməyir bu gözüm mənim.

* * *

Dəryada işləməz yelkənsiz gəmi,
Ürəkdə olmasın dərd ilə qəmi,
Ulu məclislərdə yapaydım dəmi,
Əlimdə olaydı bu sazım mənim.

* * *

Mən Xəstəyəm, oxuyardım, yazardım,
Qəvvas olub dəryalarda üzərdim,
Çarx misallı bu dünyanı gəzərdim,
Neyləyim, tutmayır bu dizim mənim!

## AŞIQ VALEH
(1729 – 1822)

### *GƏRAYLILAR*

### EYLƏ!

Alçaqlı, ucalı dağlar,
Halal eylə, hümmət eylə!
Qarşı-qarşı duran bağlar,
Halal eylə, hümmət eylə!

Köçüm gedir düzlərindən,
Dövran sürdüm sizlərinən,
Neçə gəlin, qızlarınan,
Halal eylə, hümmət eylə!

Valeh gedir bir murada,
Sığınıbdı minbir ada.
Ya gələ, ya gedə bada,
Halal eylə, hümmət eylə!..

### SƏRİ

Bu gələn bir cüt gözəlin
Yolunda qoymuşam səri.
Biri əcəb səfalıdı,
Birisinin adı Pəri.

Biri dağların qarıdı,
Biri bağçalar barıdı.
Külli dünyanın varıdı,
Lərzəyə salıb sərsəri.

Valeh sevdi Zərnigarı,
Olar onun xidmətkarı.
Atsa üzündən qubarı,
Mat eylər şəmsi, qəməri.

## KAĞIZI

Gözləriniz aydın olsun,
Gəlibdi yarın kağızı.
Bülbül uçar yuvasından,
Gəldi nigarın kağızı.

İncimәsin gülü xəndan.
Gələr günlər, keçər sandan,
Can ayrılıb cananından,
Gəldi qubarın kağızı.

Valeh ağlar yana-yana.
Səfər edər Dağıstana,
Çağırır cəngə-meydana,
O Zərnigarın kağızı.

## GƏLDİM

Qarabağdan səfər etdim,
Mülki Şirvana mən gəldim.
Məcnun tək düşdüm səhraya,
Dəli-divana mən gəldim.

Şamaxı şəhrinə yetdim,
Əcaib seyrilər etdim.
Daşkəsən gədiyin ötdüm,
Xaki rizvana mən gəldim.

Xoşdu Cəvanı yaylağı,
Soyuq sular, tər bulağı,
Bahar fəsli gəlin çağı,
Əcəb xəndana mən gəldim.

Mən Valehəm, Zərnigara,
Sığındım pərvərdigara,
Canımı saldı odlara,
Misli pərvanə mən gəldim.

## *QOŞMALAR*

### DÜNYA!

Haqdan fərman gəlib qərar tapanda,
Başlamısan cəngə, savaşa, dünya!
Qəsdinə girmisən yaranmışların,
Cümləsin vermisən talaşa, dünya!

Neçə nəbiləri keçirtdin yandan,
Nuh tufanı qopdu, doymadın qandan.
Zal oğlu Rüstəmi eylədin candan,
Bükdün Süleymanı farmaşa, dünya!

Neçələrin saldın çovğun, borana,
Neçələrin etdin dəli-divana,
Neçələri nakam getdi məkana,
Qoymadın onları yanaşa, dünya!

Valeh ağlar görüb belə divanı,
Kimsələrə gəlmir daha gümanı,
Kama çatıb şənlik edən zamanı,
Döndərdin şənliyi qan-yaşa, dünya!

### BƏYƏNMƏZ

Hərcayı bədəslə vermə əməyin,
Səni sayar cüvəllağı, bəyənməz.
Kasıblıqda tapmaz yavan çörəyi,
Eşitsə baylığı yağı bəyənməz.

Cüzi çeşmə nədən tən edər çaya,
Dəli könlüm, möhtac olma kimsaya,
Bir kəs ki alçaqdan çıxa ucaya,
Özündən qeyrini dahı bəyənməz.

Ha belə gəlibdi dövrü zamana,
Tülkü hücum edir kəbir aslana,
Yabı cövlan edib girər meydana,
Köhlən atı çapmaq çağı bəyənməz.

Məsəldi atlıya çatmaz piyada,
Xər-xiş gər gürg ilə girər inada[1],
Özünə çe qürrə verər səhrada,
Kiçik təpələr də dağı bəyənməz.

Gərənayin olmaz fəryadi cərəs,
Dəfi-lanə etməz xəzan xarü xəs[2],
Bəzirganlar gətri mətai əbəs,
Valeh Hinddən gələn ağı bəyənməz.

## GƏLMİSİZ

Toy-düyündən gələn qızlar, gəlinlər,
Toyunuzdan əcəb hallı gəlmisiz.
Aşıq öldürməkdə varmı qəsdiniz,
Nə fikirli, nə xəyallı gəlmisiz?

Biri birisini çağırır bacı,
Biri başqasına baxır qıyqacı,
Nə vaxtdı dahanım dadıyır acı,
Üçünüz də ləbi ballı gəlmisiz.

Eynini eynimdən eyləmə iraq,
Axıban didəmdən tökülər fəraq,
Bir sənəm, bir Valeh, bir xəlvət otaq,
Hayıf ola qalmaqallı gəlmisiz.

---

[1] Eşşək özü canavar ilə girir inada
[2] Payız çör-çöpü yuvadan dəf edə bilməz

## DEYİLMİ?

De, necə şad olum bu aləmdə mən,
Dünya fani, insan mehman deyilmi?
On səkkiz min böyük sirli dəryalar,
Başdan-başa dolu al qan deyilmi?

Tarixin cəryanı bizə yan verir,
Zalıma, cəllada qüvvət, qan verir,
Fağır-füqəralar vaxtsız can verir,
Zamana yoxsula düşman deyilmi?

Zalımı şah edir bimürvət fələk,
Zülmünü görəndə deyir: mübarək!
Qoymayır aləmdə biz də gün görək,
İnsana zülm edən insan deyilmi?

Valeh necə dözsün belə möhnətə,
Təriq[1] əhli düçar olub möhnətə.
Neçə piranələr gəlib minnətə,
Qamçı altda cismi üryan deyilmi?

## MƏNDƏDİ

Bir qız ilə bir gəlinin bəhsi var,
Gəlin deyər: bu gün meydan məndədi.
Qız da deyər: açılmamış qönçəyəm,
Fəsli-bahar, baği-reyhan məndədi.

Gəlin deyər: ördəyim var, qazım var,
Şirin-şirin söhbətim var, sazım var,
Sallananda yüz qız qədər nazım var,
Həya, iman, ədəb, ərkan məndədi.

[1] Yol, məslək

Qız deyər: mən oxşamışam anama,
Ləlü mərcan düzülübdür tanama,
Əl vursalar tağdan qopar şamama,
Əl dəyməmiş taği-bostan məndədi.

Gəlin deyər: gəl, qız, düşmə araya,
Gər mən ölsəm, aləm batar qaraya,
Bəzənərəm, sallam səni bəlaya,
Şövq salan, camalü-can məndədi.

Valeh deyər: ikinizə mən qurban,
Yolunuzda mən qoymuşam başla can,
Eyləməyin bu qəribi bağrı qan,
Sizdən ötrü çeşmi-giryan məndədi.

## NƏ DEDİ?

Başına döndüyüm yarın nökəri,
Dərdimi canana dedin, nə dedi?
Sən də mənim kimi şirin dil ilə,
Çəkdin bir pünhanə dedin, nə dedi?

Hatəm bağçasında oynar gülünən,
Gəlmədim yanında qalam ilinən,
Dediyim söhbəti, sözü sirinən,
Yalvardın, sən ona dedin, nə dedi?

Mən sevmişəm ağ üzündə xalını,
Yoxsa məndən gizlər mah camalını,
Divanə Valehin ərzi-halını,
Yüsifi Kənana dedin, nə dedi?

## YAXŞIDI

Yol keçibən ziyarətə gedənlər,
Bir yetimi sevindirmək yaxşıdı.
Nə lazımdı zəhmət çəkib yol getmək,
Ac, çılpağı geyindirmək yaxşıdı.

Mən bilirəm şöhrət üçün gedirlər,
Uzun yollarını gödək edirlər,
Axır gəlib füqəranı didirlər,
Düz insanın xeyrin desək yaxşıdı.

Valehəm mən, düzdü vəfam, ilqarım,
Bir kimsəyə yoxdu mənim azarım,
Qismət olsa mənə öz Zərnigarım,
Zər-zibaynan sevindirsəm yaxşıdı.

## HARDADI?

Molla Kərim, indi səndən soruşum,
Söylə, sənin din-imanın hardadı?
Cəhənnəm əhlisən, yoxsa ki cənnət?
Bilirsənmi öz məqamın hardadı?

Kədərin hansıdı, kinin hansıdı?
Məzhəbin hansıdı, dinin hansıdı?
Ahılsan, cahılsan, sinin hansıdı?
Mətləbin hardadı, kamın hardadı?

Etiqadın İsayadı, Musaya?
Meylin məscidədi, yoxsa kilsaya,
Qiblən müqərrərdi hansı binaya,
Vadiyi-bərutda damın hardadı?

Aşıq Valeh sənətindən dönərmi?
Yel əsməklə yanan günəş sönərmi?
Pəhləvan döyüşdə qaçıb sinərmi?
Meylin badə çəkir, camın hardadı?

## SEVDİYİM!

İllər ilə həsrətini çəkdiyim,
Döndü əlif qəddim yaya, sevdiyim!
Neçə hicrət, bəla, cövrü-cəfadan,
Heyif ömrüm getdi zaya, sevdiyim!

Aşkar deyil, mənim dərdim pünhandı,
Firqətindən əşki-çeşmim[1] rəvandı,
Malım, mülküm, cümlə canım qurbandı,
Sənin təki məhliqaya, sevdiyim!

Lütf elə aşiqə vəfa qıl, vəfa,
Ay qəmzəli yağı, gözləri şəhla,
Səni məndən hər kim qılarsa cida[2],
Görüm düşsün yüz bəlaya, sevdiyim!

Ağlamaqdan çeşmim qaldı ziyadan,
Bizə meyl et, kəs ülfətin riyadan,
Tanrı səni hifs eləsin bəladan,
Qail ol sən bu movlaya, sevdiyim!

Valehəm, eşqində ey şuxu Leyla,
Səni sevdim, oldum aləmə risva,
Aşiqəm, yolunda çəkmişəm cəfa,
Yarın qıyma bu cəfaya, sevdiyim!

## İSTƏRƏM

Abdulla xan, sarayına üz tutub,
Ərzimi məktubda demək istərəm.
Baxdım yatıb, işim düşüb müşkülə,
Gözümün yaşını silmək istərəm.

Dərd əlindən çəkilmişəm pünhana,
Az qalıb kədərdən ürəyim yana.
Salıbdılar məni şərə, böhtana,
Nə yaşamaq, nə də ölmək istərəm.

Binəva Valehəm, el harayında,
Min matəm oxunur can sarayında,
Ömrüm zülmətdir qəm diyarında,
Əhvalım yamandır, kömək istərəm.

[1] Göz yaşım
[2] Uzaq, ayrı

## DÜŞMÜŞƏM

Bilin, dostlar, çarəsizdir dərdlərim,
Qəm içində ahü-zara düşmüşəm.
Nə müddətdir pünhanlardı məkanım,
Bahar fəsli çovğun, qara düşmüşəm.

Baxtımın günəşi zülmətdə batıb,
Yer salıb torpağın qoynunda yatıb,
Məni nəzərindən irağa atıb,
Kömək yoxdur, yaman dara düşmüşəm.

Bir şeyda bülbüləm, yerim qəfəsdi,
Qəlbimin həmdəmi dərdli nəfəsdi,
Deməyin ki, bu ahü-zar əbəsdi,
Alovlu eşqimlə nara düşmüşəm.

Valeh kimdir, dərd əhlinin loğmanı,
Həsrətimi deyin ona pünhanı,
Söyləmə bu dərdin nədi dərmanı,
Fələk salıb başa qara, düşmüşəm.

## GÖRƏSƏN

Sallanıb çıxanda gül xiyabandan,
Od tutub alışan narı görəsən.
Baxasan qamətə, hüsnü-camala,
Məni dərdə salan yarı görəsən.

Xudadan pər alıb oldum pərvanə,
Yanıb qəm oduna oldum divana,
Bir haqq aşiqi ki, dərdi pünhana,
Kim göstərər mənə barı görəsən.

Girəydim bağına, görəydim barın,
Uzadıb əlimi dərəydim narın,
Bu xəstə Valehin nazənin yarın,
Nə yaxşı yaradıb tarı görəsən.

## OLSUN

Telli sazım, səni məndən eyləyən,
Ömür boyu bu aləmdə xar olsun.
Gəlməsin baharı, açmasın gülü,
Fəryad etsin, qəlbi ahü-zar olsun.

Kimsəsi olmasın qəlbin dindirə,
Yeddi yerdən başı keçsin kəndirə,
İstəkli balası düşsün təndirə,
Könül mülkü boran olsun, qar olsun.

Yüz il xəstə yatsın, cismi ölməsin,
Ürəyi şad olub, üzü gülməsin.
Həkimlər, loğmanlar dərdin bilməsin,
Gözləri kor, qulaqları kar olsun.

Aşıq Valeh nə bəlaya tuş oldu,
Bahar fəsli çovğun, boran, qış oldu,
Sərsəm etdi səri çaşqınhuş oldu,
Namərdə nifrəti eldə car olsun.

## VAR OLSUN

Sənət meydanında ismi xar olan,
Bir əlif de, onda cahan var olsun,
Yeddi kəlmə düzəlt səkkiz içində,
Tufan olsun, bahar olsun, qar olsun.

Bir hesab tap, çahar şeşdə yazılsın,
Təzələnsin, köhnə tarix pozulsun,
Hər birindən yeddi məna yozulsun,
Hökm olsun, divan olsun, dar olsun.

Aşıq Valeh bu hesabı cəm bilir,
Suda atəş, nar içində nəm bilir.
Anlamazdı hər kim desə, kəm bilir.
Matəm tutsun, günü ahü-zar olsun.

## MƏN

Nəzərdən salmayın, camaat, məni,
Həqiqət mülkündə bir baharam mən.
Nə alim dostuyam, nə də zəmanə,
Mərhəmət soltanlı bir diyaram mən.

Bilmək istəsəniz işin düzünü,
Məndə taparsınız haqqın sözünü,
Lənət yuyar mollaların izini,
Xilqət hesabında bir çaharam mən.

Hansı hökm gəlib – insan ağlasın,
Çahar fəsil başa qara bağlasın.
Fəryad etsin, sinəsini dağlasın,
Hər yuxu mənasın düz yozanam mən.

Aşıq Valeh sənətinin bazıdı,
Həqiqət mülkünün bahar-yazıdı,
Bilikdə molladı, həm də qazıdı,
Anlayış süfrəli bir naharam mən.

## BİR GÜN!

Könül, gəl əl götür bu qəm-qüssədən,
Sənin də yurdunda toy olar bir gün!
Vaxt olar ki, dəyişilər bu dövran,
Bahar fəsli gələr, yay olar bir gün!

Düşübdü həyatın tubu borana,
Laləzarlı yurdlar qalıb virana,
Fəsil çönər, dağlar dönər arana,
Bu buzlar əriyib çay olar bir gün!

Alıbdı namərdlər vaxtı araya,
Zülmkar şah olub çıxıb saraya,
Haqq-ədalət gəlib çatar haraya,
Zalımlar evində var olar bir gün!

Unutma, ey Valeh, gələr bir zaman,
Şənliyə bürünər bu çöl, bu orman,
Məzlumlar həyatı olar çıraqban,
Qüdrətdən bəxtinə hay olar bir gün!

## ÇƏKƏR

Sallana-sallana bağa çıxanda,
Sərv qamətindən xəcalət çəkər.
Lalə yanağından, nərgiz üzündən,
Qönçə gülüşündən nədamət[1] çəkər.

Nəstərən, bənövşə çalışa yüz il,
Çətindi ömrünə yetəndə müşkül,
Əgər zülflərinlə bəhs etsə sünbül,
Düşər ayaqlara qərabət[2] çəkər.

Valehin bağrını eylədin büryan,
Qurbanam yolunda ay əbrü-kaman,
Mən deyiləm təkcə hüsnünə heyran,
Həsrətini külli vilayət çəkər.

## ADI VAR

Feyruz, söylə İstanbul paşasına,
Qarabağın çox dəyərli adı var.
Dostlar üçün səfalıdır hər yanı,
Düşmən üçün min tufanı, badı var.

Bir yanı Gəncədi, bir yanı Şirvan,
Bir yanı Arazdı, bir yanı Muğan.
Dağları kəklikdi, düzləri ceyran,
Gözəl ləzzəti var, şəkər dadı var.

[1] Peşmanlıq
[2] Qəriblik

Bir torpağa kim əl atsa xar olar.
Geniş dünya gözlərinə dar olar.
Günü qara, işi ahü-zar olar,
Bu ellərin köməyi var, dadı var.

Ərdəbilli aşıq Mahmud zay oldu,
Məsum Əfəndinin yaşı[1] çay oldu.
Naxçıvanlı Süleymana tay oldu,
Bu mahalda şairlər övladı var.

Ustad Səməd sənətdə bir dağ idi,
Kələntərli Alı fəndli bağ idi.
On il qabaq Molla Pənah sağ idi,
Valeh kimi aşıqlar ustadı var.

## DARDADIR

Coşqun eşqim, gəl mənimlə həmdəm ol,
Qeydə qalaq, bir sirdaşım dardadır.
Qəvvaslıq et, sirri-xəlqət bəhrinə[2],
Candan əziz bir yoldaşım dardadır.

Aşıq Mahmud bir ustaddı dağ kimi,
Aşıq Soltan bir meyvəli bağ kimi,
Aşıq Əhməd bil saralıb yağ kimi,
Yol gözləyir, bir qardaşım dardadır.

Aşıq Valeh sənətində yanılmaz,
Zər olmasa, zərgər adı anılmaz,
Odda qızarmasa, polad yonulmaz,
Can ayrılıb candan, başım dardadır.

---
[1] Göz yaşı
[2] Dəniz

## KEÇİBDİR

Sambur çayı, qəmli-qəmli axırsan,
Üzərindən nə dövranlar keçibdir.
Külli Dağıstanın seyrangahısan,
Tufan qopub, nə boranlar keçibdir.

Nuh tufanı yatıb, sən yaranmısan,
Neçə qərinələr yola salmısan.
Süleymanlar görüb, hələ qalxmısan.
Dəyişilib nə əyyamlar keçibdir.

Həsrət qoyma, ay çay, bizi beş günə,
Barı kəmənd atma ömrüm köşkünə!
Adı bəlli, böyük haqqın eşqinə,
Valeh kimi neçə canlar keçibdir.

## SAMBUR!

Əsriyib-əsriyib, kükrəyib axan,
Ağzı ağ köpüklü divanə Sambur!
Atanın-ananın bircə oğluyam,
Qıymagilən sən bu mehmana, Sambur!

Qanlı-qanlı qayalardan çıxırsan,
Şaqqıldayıb dərələrdən axırsan,
Yerdən tərpənəndə evlər yıxırsan,
Baxmazsan heç yaxşı-yamana, Sambur!

Valeh deyir: – bulaqlardan gözün var,
Güclüsən sən, qüvvətli də sözün var.
Nə çox şaqqaların, nə çox izin var.
Neçəsin vermisən ziyana, Sambur!

## SÖHBƏT AÇ

Aşıq Feyruz, kamalına badə ver,
Üç altının diyarından söhbət aç.
Çahar, şeşin mənasını yozgilən,
Həfti pəncin bazarından söhbət aç.

Otuz altı hansı bağman bağıdı?
Yetmiş iki hansı bina tağıdı?
Eşqin bağı hansı məhsul yağıdı?
On dörd alim güzarından söhbət aç.

Aşıq Valeh yol açmadı dərinə,
Hansı hesab tapmamısan sərinə,
Qol bağla gəl, kamil ustad dərinə,
On beş aləm baharından söhbət aç.

## YAVAŞ-YAVAŞ

İsmimi söyləsən, sərsəm edərsən,
Başına gələni bil yavaş-yavaş.
Dinməyə taqətin qalmaz cəsəddə,
Quruyar ağzında dil yavaş-yavaş.

Düşmüsən cənginə bir natiq sərin,
Məhəbbət bəhrili, kalamı dərin,
Ərdəbilə çatdı qəmli xəbərin,
Yasını saxlayar, el yavaş-yavaş.

Dərdlərin müşküldür, dərmanın baha,
Şadlığına güman yoxdur bir daha.
Qucaqla möhnəti, can denən aha,
Çeşminin yaşını sil yavaş-yavaş.

Qəbrini qazarlar bir qəribyana,
Nə bacı ağlayar, nə də ki, ana.
Bil, Aşıq Valehdir girən meydana,
Qol bağla, minnətə gəl yavaş-yavaş.

## BÜKÜLMÜŞ

Bu yer gözəlinə nabələd oldum,
Söz dedim, qurumuş dilə bükülmüş.
Xətayını görcək eylədim xəta,
Dürrü-gövhər bir məndilə bükülmüş.

Səhər ikən mehman olduq bunlara,
Geyinib batıblar yaşıl, allara,
Qızıl bazubəndlər şümşad qollara,
Gümüş kəmər incə belə bükülmüş.

Qurban olum ala gözün məstinə,
Süzgün baxıb, girmə canım qəsdinə,
Əlim qoyum tər sinənin üstünə,
Darçına, mixəyə, hilə bükülmüş.

Nabələdəm ulusuna, soyuna,
Mina gərdəninə, uca boyuna,
Divanə Valehi sən al qoynuna,
Elə bil ki, bülbül gülə bükülmüş.

## *MÜXƏMMƏS*

## MOLLALAR

Sizi sahib kim edibdir,
Söylən[1], cahana mollalar?
Özünüzdən şübhələnib,
Düşmən[2] gümana, mollalar.
Bilin, zamana, mollalar.
Xeyir işi şərə çəkib,
Yozman ziyana, mollalar,
Cəhənnəm ki haram deyil,
Eşqə uyana, mollalar.

Günah, savab nə olduğun,
Artıq biz də anlayırıq.
Nə bircə qəlbə dəyirik,
Nə kimsəni danlayırıq.
Nə beçətək qaqqıldarıq,
Nə xoruztək banlayırıq,

---
[1] Söyləyin
[2] Düşməyin

Nə varlıya baş əyirik,
Nə kimsəni yanlayırıq.
İnsaf edin, əl atmayın,
Dinə, qurana, mollalar.

Kərbəlayı olmaq üçün,
Necə düşmən çıxım saza?
Sevdalı şeyda bülbüləm,
Könül müştaq olub yaza.
Ehtiyacım yoxdur mənim,
Nə oruca, nə namaza,
İki mələk müqərrərdi,
Hər əməli görə, yaza,
Kənd içində sərsəm edib,
Olan divana, mollalar.

Neçə hacı, kərbəlayı,
Saqqalına həna qoyur.
Girvənkədə bir çətvəri,
Oğurlayır, yana qoyur.
Bir yetimdən mal alanda,
İnək adın dana qoyur,
Yalan satır müştəriyə,
Kürək adın şana qoyur.
Qəpik üçün and içərlər,
Ayə qurana mollalar.

Aşıq Valeh bu sənətlə,
Məşhur olub ucalıbdı.
Hər ümmana qəvvas olub,
Təbiətdən tac alıbdı.
Neçə deyiş meydanında,
Ustadlardan bac alıbdı.
Könül eşqə gəl-gəl deyir.
Deməyin ki, qocalıbdı.
Bir də mənə, kafər demə.
Gəlin imana, mollalar.

# VARXİYANLI AŞIQ MƏHƏMMƏD
(XVIII əsrin II yarısı)

## *GƏRAYLILAR*

### YAVAŞ GET

Sallanıbsan gedən dilbər,
Kərəm elə, yar, yavaş get.
Məni dərdə salan dilbər,
Kərəm elə, yar, yavaş get.

Gül dibini almasın xar,
Könlümə gətirmə qubar,
Sinəm döşə tamah qılar,
Ağ buxağı qar, yavaş get.

Məhəmmədəm, yaş tökərəm,
Yollarına göz tikərəm,
Müdam[1] intizar çəkərəm,
Qəddi-qələmkar, yavaş get.

### TELLƏRİN

Xəbər almaq ayıb olmaz,
Nədəndi qısa tellərin?
Yoxsa aşiqin ölübdü?
Batıbdı yasa tellərin.

Uca dağlar ucası tək,
Şahmar ilan sucası tək,
Yaşılbaş əyricəsi tək,
Sənin də əsə tellərin.

[1] Həmişə

Məhəmmədəm, yana-yana,
Yandı bağrım döndü qana,
Çapar sala Gürcüstana,
Firəngi basa tellərin.

## YOXDU

Qürbət eldə düşdüm xəstə,
Yerim silkib salan yoxdu.
Hər tərəfə qəflə[1] işlər,
Bu bərbada gələn yoxdu.

Xalları var hindi-hindi,
Yar, başına dönüm indi,
Səni sevdim aləm bildi,
Bu sözümdə yalan yoxdu.

Gəl bir Məhəmmədi dindir,
Suçunu[2] boynuma mindir,
Öldürürsən, özün öldür,
Qanım səndən alan yoxdu.

## SALDIN?

Qulun ollam binalı yar,
Məni gözdən nədən saldın?
Dərdə dərman bilməz idin,
Məni gözdən nədən saldın?

Bağında gül bəyaz olmaz,
Olsa da yar rəngi solmaz,
Hərcayının andı olmaz,
Məni gözdən nədən saldın?

[1] Karvan
[2] Günah

Ağ üzündə xaldan ötrü,
Ləbindəki baldan ötrü,
Bu puç olan maldan ötrü,
Məni gözdən nədən saldın?

Məhəmməd der: dərdim çoxdu,
Sinəmə vurduğun oxdu,
Səndən qeyri yarım yoxdu,
Məni gözdən nədən saldın?

## QOYUN İÇİNDƏ

Narınc, turunc durur qoşa,
Qız, sənin qoynun içində.
Az qalır xəyalım çoşa,
Qız, sənin qoynun içində.

Ərisin dağların qarı,
Tökülsün çaylara sarı,
Gürcüstanın bir cüt narı,
Qız, sənin qoynun içində.

Qaşın cəllad qanım içdi,
Ömrüm zəmisini biçdi,
Bir zaman dövranım keçdi,
Qız, sənin qoynun içində.

Qəddin əlif, boyun bəstə,
Könül görcək düşür xəstə,
Dərdə dərman iki nəstə,
Qız, sənin qoynun içində.

Naz ilə getdin hamama,
Məhəmməd gəldi salama,
Bostançı bəslər şamama,
Qız, sənin qoynun içində.

## *QOŞMALAR*

### SÖZ SƏNDƏN

Nazlı dilbər, gəl ixtilat eyləyək,
Sazı məndən, simi məndən, söz səndən.
Ərzimizi hansı yana yetirək,
Davat[1] məndən, qələm məndən, yaz[2] səndən.

Dilbər, mayıl oldum sənin oynuna,
Bəslə şamamalar, doldur qoynuna,
İzn olsa qolum salım boynuna,
Öpmək məndən, qucmaq məndən, üz səndən.

Məhəmmədəm, bizim bağa gələsən,
Siyah zülfü dal gərdənə salasan,
Mən ovçuyam, sən bir ceyran balasan,
Çəmən məndən, çiçək məndən, göz səndən.

### İNCİMƏSİN

Sallana, boylana gedən Salatın,
Elə sallangilən yol inciməsin.
Qorxuram dünyanın yeli tərs əsə,
Tökülə gərdənə, tel inciməsin.

Qaşların cəlladdı, gözlərin xumar,
Səni görən səndən bir busə umar,
İncənə taxmısan gümüşdən kəmər,
Elə qurşangınan bel inciməsin.

Yazıq Məhəmmədi salmısan yasa,
Nə üçün durubsan mənimlə bəsə,
Könül istər ağ üzündən bir busə,
Dodaq zəhmət çəkib, dil inciməsin.

---
[1] Mürəkkəb
[2] Yazmaq

## BAŞINA DOLANDI

Xəbər gəldi, şah qoruğu talandı,
Xəstə cismim yar başına dolandı.
Ört üstünü, gizlət onu amandı,
Qəzəbnakdı, elər qan məmələrin.

Əsli olan kimsə özünü öyməz,
Arası meydandı, baş-başa dəyməz,
Şəstinə qərrahdı, şaha baş əyməz,
Baxar bir-birinə yan məmələrin.

Sinən dağdı, Savalanın qarıdı,
Məmən şuxdu, Gürcüstanın narıdı,
Aşıq Məhəmmədin yadigarıdı,
Amanat can sənin, can məmələrin.

## YAMANDI

Heç kimsə düşməsin yar sevdasına,
Kimsə dözməz belə dərdə, yamandı.
Bülbül də eşq eylər gül havasına.
Onun da könlündə bir xoş gümandı.

Gəl ikimiz duraq, bir misal edək,
Nə ki var ürəkdə xoş xəyal edək,
Üzbəüz oturub dərdi-hal edək,
Mən səni görmədim xeyli zamandı.
Məhəmmədəm, sənsən mənim Gülpərim,
Ölüm ayağında başa yalvarım,
Əl mənimdi, ətək sənin, dilbərim,
Ayırma özündən məni, amandı.

## NOVCAVAN

Şükür haqqa, yenə gördüm üzünü,
Bağ, çəmən seyrində gəzən novcavan.
Bir danış, eşidim xoş avazını,
Dahanına nabat əzən novcavan.

Sidq ilə çevirdim sənə yönümü,
Apardın ağlımı, din-imanımı,
Qıya baxıb aldın şirin canımı,
Məstinə gözlərin süzən, novcavan.

Sənsən Məhəmmədin canı, cananı,
Cənnəti-rizvanı, huri-qılmanı,
Yüz min möhnətinən sevmişəm səni.
Görüm nə yazıbdı, yazan, novcavan.

## GƏLİN!

Maral kimi bu dağları gəzirsən,
Ceyranın quzusu, sağısan gəlin!
Düşdüm məclisinə tarü-mar oldum,
Bəzəyirsən bu yığnağı sən, gəlin!

Səni görən olur xəstə, zarıncı,
Xalın kimi şölə verməz hər inci,
Sinən üstə yetir narı, turuncu,
Firdövsi-ələnın bağısan, gəlin!

Məhəmmədə qaldı bu daği-həsrət,
Gecəni, gündüzü saətbəsaət,
Öldürürsən öldür, vermə xəcalət,
Həmişə canıma yağısan, gəlin!

## DEDİN, NƏ DEDİ?

Mən səni göndərdim salam duayla,
Ərzi-halım yara dedin, nə dedi?
Ömrüm qara keçdi, yenə ah-vayla,
Çəkən intizara dedin, nə dedi?

Özü əl çəkmədi zövqü-səfadan,
Mən də qurtulmadım cövrü-cəfadan,
Bəs nə üçün döndü əhdi-vəfadan?
Sən o biilqara dedin, nə dedi?

Məhəmmədəm, dərdə çarə bilməsə,
Ağlar ikən didəm yaşın silməsə,
Mən də ölləm yardan dərman gəlməsə,
Bəs dərdimə çarə dedin, nə dedi?

## TÜKƏZBAN!

Bülbüllər ötüşüb naz ilə oynar,
Yanaqların oxşar gülə, Tükəzban!
Cığalar qıvrılıb üz ilə oynar,
Nə sığal veribsən telə, Tükəzban!

Şirin canım yar yolunun xərabı,
Xəstə cismim ayağının türabı[1],
Məst eylər aşığı ləbin şərabı,
Qənd əzibsən dişə, dilə, Tükəzban!

Məhəmmədəm, indi sənə uyaram,
Mən arifəm, işarədən duyaram,
Vəsf eyləyib ölkələrə yayaram,
Tərifin dağılar elə, Tükəzban!

---
[1] Torpaq

## YADA DÜŞƏN YAR

Yenə bu könlümə saldın bir talan,
Nihan[1] yerdə gəlib yada düşən yar.
Əzəl mənim ilə danışıb-gülən,
İndi yadlarınan bayramlaşan yar.

Doğrayıban ciyər-bağrım yargilən,
Xəzəl kimi saralıban solgilən,
Hara getsən, qayıdıban gəlgilən,
Ya bir ərin ölsün, ya da boşan yar.

Məhəmmədin könlün sən dəlməyəsən,
Bu dünyadan bir mətləb almayasan,
Günün qara keçsin, heç gülməyəsən,
Həmişə ağlamaq olsun peşən yar.

## OLMAĞINA

İndi yaydı, payız qışı daldadı,
Bülbül intizardı yaz olmağına.
Eşqindən ciyərim qara bağladı,
Heç şəkmi var yanıb köz olmağına?!

Sevdiciyim geymiş yaşıl, alları,
Yaşılbaşlar çəm-xəm eylər gölləri,
Ceyran da otlayar, gəzər çölləri,
İstər ki, qabağı düz olmağına.

Məhəmmədəm, eşqim mənim təxtimdi,
Qəddimi yay edən qara bəxtimdi,
Əlim işdə, çox darmacal vaxtımdı,
İncimə sözlərim az olmağına.

[1] Gizli

## TƏN EDƏR

Talada sevmişəm mən bir şahbazı,
Sərv boyu tuba boya tən edər.
Süzübən baxanda məstü-məstana,
Qaşları əyməsi yaya tən edər.

Qoynun içi mixək, darçın, hil kimi,
Boyu uzun, saçları sünbül kimi,
Ağı ağdı, qırmızısı gül kimi,
Yanağı günəşdi, aya tən edər.

Məhəmmədin könlünə saldın güman,
Məməsi fincandı, sinəsi meydan,
Ərşdəki mələk tək, behiştdə qılman,
Gözəllikdə Züleyxaya tən edər.

## YARA MƏN

Keçdi aylar, gəldi dolandı illər,
Heç bilmədim nə söylədim yara mən.
Sayil[1] olub küçə-küçə gəzmişəm,
Dərddən bağlamışam başa qara mən.

Piyalalar məclisində sağıdı[2],
Səbəb nədi hər kəs bizə yağıdı[3],
Beş barmağım bal eyləsəm ağıdı[4],
Gen dünyada düşdüm nə pis dara mən.

Məhəmmədəm, işim yoxdu hər işdə,
Çərxi-fələk verməz mənə səriştə,
Dilbər hər gün səfalarda, gülüşdə,
Yanar oldum bu dünyada nara[5] mən.

---

[1] Dilənçi
[2] "Saqidir" mənasındadır.
[3] Düşmən
[4] Zəhər
[5] "Oda" mənasındadır.

## HAY GƏLMƏZ

Gəlib gördüm yar burada yatıbdı,
Hey çağırdım, qulağıma hay gəlməz.
Məğribdən məşriqə kəmənd atılsa,
Heç ustadan qaşın kimi yay gəlməz.

Silsilə asılmış yarın tovqundan[1],
Bülbül fəğan eylər gülün zövqündən,
Zöhrə, sənin camalının şövqündən,
Gün tutular, göz qamaşar, ay gəlməz.

Müştağınam, könlüm düşdü azara,
Ağlamaqdan ellər gəlib bezara,
Məhəmmədi kimlər qoyar məzara,
Bu məşhurdu yoxsul üstə bay gəlməz.

## YARAŞIĞI

Bugünkü seyrimdə bir gözəl gördüm,
Nəzəri, ötəri yol yaraşığı.
Ağlım başdan getdi, bənd olub qaldım,
Baxışı ceyrandı, çöl yaraşığı.

Səhər sevdasında baxırsan mana,
Məni öldürübən düşərsən qana,
Yaxşıca rast gəldi tülək tərlana,
Bu necə sonadı, göl yaraşığı.

Yazıq Məhəmmədi salmısan dərdə,
Üzünə çəkmisən humayun pərdə,
Məclis, mərəkədə, xeyirdə, şərdə,
Əcaib gəzirsən, el yaraşığı.

---

[1] "Tovq" sözündəndir. Burada "boynundan" mənasında işlənmişdir. Tovq isə boyunbağı, gərdənlik, qumru quşunun boynundakı kimi halqa şəklində olan cizgi mənalarında işlənir.

## BU QIZ

Buraxsanız məni, çəkəcək dara,
Əl-aman əlindən bax bu qız, bu qız.
Qonumu, qonşunu gətirib zara,
Cümləsi deyərlər ax bu qız, bu qız.

Bilin, unudacaq o haqqı, sayı,
Yaxşını, yamanı, pisi, qolayı,
Götürüb əlinə bir çatma tayı,
Gör necə durubdu şax, bu qız, bu qız.

Məhəmmədəm, sizə eylərəm minnət,
Qoymayın qanımı tökə bu cəlləd[1],
Çıxsanız aradan, versəniz möhlət,
Məni doğrayacaq bax bu qız, bu qız.

## GÜNÜDÜ[2]

Qəm-qəsavət[3] bu gün başa vuruldu,
Ağlayalım, ayrılığın günüdü.
Qismətimiz qürbət eldə verildi,
Ağlayalım, ayrılığın günüdü.

Məni kül elədi elin dilləri,
Bundan sonra gözləməyin yolları,
Mən gəzərəm gedib qürbət elləri,
Ağlayalım, ayrılığın günüdü.

Canım ustad, təvəqqeyim sizədi.
Fələyin etdiyi mənə cəzadı,
Bəlkə qismətim var məni gözədi,
Ağla Məmməd, ayrılığın günüdü.

---

[1] Cəllad

[2] Eyni rədifli qoşmanın yaxın variantı "Əsli-Kərəm" dastanında da vardır.

[3] Qəmginlik, sıxıntı

## ARİFLƏR!

Eşqin şərabından bir qətrə içən,
Əlbəttə, od tutub yanar, ariflər!
Gizlin sirri hər cahidə car açan,
Düşər etibardan kənar, ariflər!

Əvvəl ustadından dərsini alan,
Dünyanın varını, yoxunu bilən,
Sərində bir zərrə kamalı olan,
Dediyindən necə dönər, ariflər?!

Məhəmməd də bilməz ömür yaşını,
Canıma salmısan eşq ataşını,
Heç kəs qanmaz bu dünyanın işini,
Biri köçər, biri qonar, ariflər!

## CANIM

Ay ariflər, nə kəmtale qul oldum,
El içində haqqı zay olan canım.
Qədirbilməzlərin qədrini aldım,
Əməyi itibən zay olan canım.

Bağban idim bağda bar səbəbinə,
Bülbül idim gülüzar səbəbinə,
Biilqar, bivəfa yar səbəbinə,
Divanə Məcnuna tay olan canım.

Məhəmmədəm, bir murada yetmədim,
Baş götürüb qalmaqaldan getmədim,
Öz oxumu bir mənzilə atmadım,
Özgələr oxuna yay olan canım.

## KÖNÜL!

Vaxt olar qalxarsan ərşə-asmana,
Vaxt olar havadan yönərsən, könül!
Vaxt olar düşərsən çiskin, dumana,
Vaxt olar hər işi qanarsan, könül!

Vaxt olar çıxarsan Məcnun dağına,
Vaxt olar düşərsən qəm yığnağına,
Vaxt olar yüz ataş kar etməz sana,
Vaxt olar alışıb yanarsan, könül!

Vaxt olar Məhəmməd tez gələr coşa,
Vaxt olar heç əlin getməz bir işə,
Vaxt olar dönərsən dəmirə, daşa,
Vaxt olar şüşə tək sınarsan könül!

## QƏRİBLİK

Ahü-vay çəkibən, qan ağlamaqdan,
Dönübdü ciyərim qana, qəriblik!
Hayana baxıram bir kimsənəm yox,
Düşübdü yadıma ana, qəriblik!

Azarım çox olub ağrıyır başım,
Didəmdən tökülür al qanlı yaşım,
Yaxamı çürütdü zalım göz yaşım,
Gətirdi canımı cana qəriblik.

Aləm bilir ki, mən necə sərxoşam,
Bir tuti dilliyə mədhuş, bihuşam,
Ağzından od tutmuş səməndər quşam,
Qoydu məni yana-yana qəriblik.

Anam yoxdu başın açıb ağlaya,
Bacım yoxdu ürəyini dağlaya,
Torpaq gərək Məhəmmədi saxlaya,
Bəlkə gəldi yar bu yana, qəriblik.

## AĞLARAM

Bir bəri bax, ay qadasın aldığım,
Xəbər gəlməz ellərindən, ağlaram.
Dedim abad olsun, bülbül oynasın,
Xar qovulsun güllərindən, ağlaram.

Hənalı barmağı, nazik əlləri,
Görməz olduq dəxi kəsik telləri,
Köçdü bizdən, iraq düşdü elləri,
Göz kəsildi yollarından, ağlaram.

Xəstə olub yar yanında qalmadım,
Canan, sənə neçin qurban olmadım,
Günahkaram, mən yolunda ölmədim,
İntizaram yollarından, ağlaram.

Məhəmmədəm, bu zülmətdə qalmışam,
Üz tutuban ayağına gəlmişəm,
Gör iqlabım, necə şikəst olmuşam,
Ayrı düşüb dillərindən, ağlaram.

## BİR CAM AZ

Yatmış idim, qafil gəldi üstümə,
Bir cam dolu, bir cam yarı, bir cam az.
Üç muradı onda tutdum dəstimə,
Bir cam kamal, bir cam söhbət, bir cam söz.

Dönübdü bir şaha, çıxıbdı taxta,
Cığaları qıvrılıbdı qabaxda,
Üç şey var, məzəsi dildə, dodaxda,
Bir cam peykan, bir cam müjgan, bir cam göz.

Cavan ömrüm eşq oduna odlandı,
Bu qisaslar qiyamətə qalandı,
Cananda üç şey var, canlar alandı,
Bir cam yanaq, bir cam buxaq, bir cam üz.

Eşq əhlilər içən kövsər abıdı,
Hər kəsin sevgisi mələk babıdı,
Üç şey də var, bir-birinə tabıdı,
Bir cam ceyran, bir cam çəmən, bir cam düz.

Məhəmmədəm, bu dərd məni sındırı,
İsmim bilməz, hər yetənlər dindiri,
Üç şey var, əbədi məni yandırı,
Bir cam eşq, bir cam atəş, bir cam köz.

## OLSUN

Qız alanda gözlərini açgilən,
Üzü şirin, rəngində də qan olsun.
Göyçəklərin boylusunu seçgilən,
Canlar alan sərvi-xuraman olsun.

Ləbləri qırmızı, yanağı xallı,
Qaşı, gözü qara, teli cığalı,
Şəkinin şahbazı, Gəncə maralı,
Ahu balası tək bir ceyran olsun.

Əsli, zatı olsun uslu, kamallı,
Boy-buxun sürahi, şəkilli, hallı,
Məclislərdə mələk, pəri misallı,
Otaqlarda ya xan, ya sultan olsun.

Üz dəyirmi olsun, gözləri iri,
Günün altda tər şamama növbəri,
Saçlar yasəməni, qəd sənubəri,
Şahin baxışları bir tərlan olsun.

Yanağı al olsun, buxağı ətli,
Firiştə şəkilli, pəri surətli,
İstərsən şəhərli, istərsən kəndli,
Ancaq nəcib olsun, qanı qan olsun.

İşvəli, çəmxəmli, şivəli, nazlı,
Qarəquş cilvəli, durna avazlı,
Acıqlı, mülayim, söhbətli, sazlı,
Nişanlı sənə də mehriban olsun.

Gözəllərdə çox-çox olur nişanlar,
Gahbir, gahbir, belə-belə cananlar.
Məhəmməd der: ey eşqili cavanlar,
Elə cananlara can qurban olsun.

## ***TƏCNİSLƏR***

### BAĞLARI

Bir gözəl görmüşəm bizim ellərdə,
Üzündə sezmişəm busə bağları.
Yaşılbaşlar cəm-xəm eylər göllərdə,
Tərlan şikarında busa bağları.

Nəzər saldım xanəsində a dərə,
Zəhmətimdən süzüləndə a dərə[1],
Könül istər güllərini a dərə,
Qorxum budu bağban busa bağları.

Məhəmmədəm, çəksəm gəlməz ayarım[2],
Dolu badəm indi oldu a yarım,
Nə səbəbdən pərişansan a yarım?!
Səni qəmgin gördüm bu sabağları.

### YA “DAL”A

İbtida əlifdən dərsim alanda,
“Əlif”dən oxuyub gəldim ya “dal”a.
Açılanda fəsli-bahar mövsümü,
Bülbül meylim uçub qonar ya dala.

---

[1] Tər
[2] Əyyar

Kamandarın oxu dər yaya düşdü,
Qışın çilləsində dər yaya düşdü,
Dəli könlüm yenə dəryaya düşdü,
İstəyir ki, qəvvas kimi ya dala.

Məhəmməd, yenə də ayyarı sevdin,
Bayğu tək yaslanıb ay yarı sevdin,
Eşqə cünun oldun, ay yarı sevdin,
Layiqdimi indi onu yad ala?

## *MÜXƏMMƏSLƏR*

### GƏLİR

Dilbərim aşığını sallanıb görməyə gəlir,
Tuti tək dili fəsih, danışıb gülməyə gəlir,
Həsrətindən dərdə düşdüm, dərdimi bilməyə gəlir,
Dərdindən qan ağlaram, yaşımı silməyə gəlir,
Bilmirəm nə var könlümdə, yar özü bilməyə gəlir.

Yaradan bu cavanı, gör necə candan eylədi,
Yanaqları lalə kimi qönçədən gülşan eylədi,
Kəkili sünbül cığalar, zülfü pərişan eylədi,
Qaşları ox atıban sinəmi şan-şan eylədi,
Şahi-kamandara dönüb, bağrımı dəlməyə gəlir.

Ağ ceyran quzusudu, çıxıb çölə düzdə durur,
Cığalar qıvrılıban, mahi-taban üzdə durur,
Qaşlara vəsmə yaxıb, sürmə ala gözdə durur,
Hurilər xidmətində, mələklər pişvazda durur,
Bir belə şahi-xuban, təvəcöh qılmağa gəlir.

Məclisi səf-səf edib, yığnağı əlvan bəzəyin,
Qızıl, gümüş şamdanları, çırağı əlvan bəzəyin,
Doldurub gətir qədəh, bir sağı əlvan bəzəyin,
Döşəyin xalı, gəbə, otağı əlvan bəzəyin,
Bəlkə də mehman olub, bir gecə qalmağa gəlir.

Məhəmmədəm, yara müştaq olmağımı siz də bilin,
Başıma gələcəyi bilməyimi siz də bilin,
Saralıb heyva kimi solmağımı siz də bilin,
Ey bidad, Allah aman, ölməyimi siz də bilin,
Cəlladi-xunxar olub, canımı almağa gəlir.

## QURBAN OLASAN

Bir belə ay gözəlin özünə qurban olasan,
Dindirib, danışdırıb, sözünə qurban olasan,
Camalı mahi-taban, üzünə qurban olasan,
Süzülüb nə xoş baxır, gözünə qurban olasan,
Nə əcəb, göftarı xoş, avazına qurban olasan.

Qız, sənin qoynun içi mixək, darçın, hil kimidi,
Tökülüb dal gərdənə saçların sünbül kimidi,
Dəhanın şəhdi-şəkər, dodaqların bal kimidi,
Çərxi sinə, bəyaz buxaq, yanaqların gül kimidi,
Bülbüli şeyda oluban yazına qurban olasan.

Bircə baxın bu gözələ, nə əcəb türfə çağıdı,
Məclisi məst eləyən, əlində gövsər sağıdı,
Sinəsi mərmər kimi, savalanın yaylağıdı,
Sonası pərvaz olub, şux tərlanın növrağıdı,
Çöllərində ördəyinə, qazına qurban olasan.

İstərəm ol xudadan bir gecə yanda qalası,
Könlünə sirdaş olub, həmişə dərdin alası,
Açılmış qönçə kimi şükufəli bağ lalası,
Dağında maral quzusu, yazında ceyran balası.
Səkə-səkə seyrə çıxıb, düzünə qurban olasan.

Məhəmmədəm, kəşt elədim, bu cümlə cahanı gəzib,
Gəncəni, Qarabağı, şəkini, Şirvanı gəzib,
Xoyu, Salmas, Marağa, Təbrizi, Tehranı gəzib,
Arayıb axtarıban, mülki-Süleymanı gəzib,
Bir belə şux gözəlin nazına qurban olasan.

## YARIDI BU

Sallanıban yüz naz ilə,
Gələn kimin yarıdı bu?
Qəddi-qamət, nə qiyamət,
Xırdaca dilbəridi bu.
Qabağı vəchi-qəmər,
Yanağı əhməridi bu.
Qaşı kaman, kirpiyi ox,
Gözləri xumarıdı bu.
Sinəmdə dəftər olub,
Dilimin əzbəridi bu.

Əzbərdi, bəstə,
Dəhanı püstə,
Ləbləri məstə,
Cənnət libasda,
Dal gərdən üstə.
Qıvrılmış siyah tellər,
Deyəsən şahmarıdı bu.

Heç tanınmaz bu misalda,
Gözəllər sultanı deyim.
Ərşdə mələk, yerdə qılman,
Ol uca bəndəni deyim.
Aşığı məşuq edən,
O güli-xəndanı deyim.
Ləlü-mərcan, cəvahirdi,
Dəhanı dəndanı deyim.
Vəsfi düşübdü aləmə,
Dillərdə dastanı deyim.

Dastan olmuş xalı var,
Ləblərinin balı var,
Ağ üzünün xalı var,
Nazik, incə beli var,
Əcəb şirin dili var.

Avazı xoş bülbül kimi,
Kəlməsi şəkəridi bu.
Mən ha mayıl olmuşam,
Dal gərdənin minasına.
Ağ əllər boyanıbdı,
Əlvan-əlvan xınasına.
Səd-afərin düzülübdü,
Əyrəmcələr şanasına.
Tərlan olub mən gəlmişəm,
Bu gözəllər sonasına.
Oylağında boylanıram,
Göz dikmişəm binasına.
Binası göyçək,
Çəməndə çiçək,
Sərində ləçək,
Üzündə birçək,
Mən deyim gerçək.
Siz də inanın ariflər,
Bir belə düxtəridi bu.

Bircə baxın bu cavanın,
Nə əcəb türfə çağı var.
Bəsləyib hər tərəfdən,
Bir cüt şamama tağı var.
Açılıbdı sinə meydan,
Mərmərə bənzər ağı var.
Müşkü-ənbər iyli,
Qoxusu, ətri, yağı var.
Bağına bağban oldum,
Cənnət misalı bağı var.
Bağında lala,
Həm sağü-sola,
Çıxanda yola,
Düşdüm xəyala,
Başıma bəla.
Tərif deyim, qulaq asın,
Gözəllər sərdarıdı bu.

Çıxanda ceyran balası,
Necə gəlir düzdə, baxın.
Bir belə yeriş yerimәz,
Ördək ilə qaz da baxın.
Geyinib əlvan-əlvan,
Örtübdü gülgəz də baxın.
Süsən, sünbül, tər bənövşə,
Açılıbdı yazda, baxın.
Mən bu qədər vəsf edirəm,
İnanmırsız, siz də baxın.
Baxın bu qaşı kamana,
Batıbdı qara, dumana,
Könül düşdü gümana,
Oylağında çəmənə,
Tez yetirin dərmana.
Məhəmmədi dərdə salan,
Belə sitəmkarıdı bu.

## ÖLÜRƏM

Ala gözlüm, bir bəri bax,
Dərdi-sərindən ölürəm.
Düşmüşəm hicran qəminə,
Ahü-fəğandan ölürəm.
Bil ki, sənin nigaranın,
Heç çıxmaz candan ölürəm.
Mən bir şeyda bülbüləm,
Ay gülü xəndan, ölürəm.
Kirpiyin siyah, müjgan,
Qaşı kamandan ölürəm.
Kamandı oxlar,
Güldən buxaxlar,
Cünundu çoxlar,
Kəlməsi şuxlar,
Əlvan otaxlar.
Nə ola bir danışaq,
O dil dahandan ölürəm.

Bəzənib seyran ilə,
Hər çıxanda yolları xoş.
Geyinib əlvan-əlvan,
Yaşıl üstdən alları xoş.
Taxgilan cüt bilərzik,
Tər xınalı əlləri xoş.
Qurşasan mina kəmər,
Eylə nazik belləri xoş.
Hər səhər çax şanəni,
Dara siyah telləri xoş.
Tərlan oylağını
Gözlə solu-sağını,
Candan götür dağını,
Dolan gəz otağını,
Aç sinənin bağını.
Narınclar aldı canımı,
Çıxar fincandan, ölürəm.

Ay məni dərdə salan,
Bir belə viran olumu?
Ha bu eşqin əsəri,
Bəs məndən bir yan olumu?
Göz görüb, qəlb sevməsə,
Heç aşıq heyran olumu?
İki dost arasında,
Afəti-dövran olumu?
Məni saldın atəşinə,
Bir belə niran[1] olumu?
Heyran oldum özünə,
Sallananda nazına,
Bir şirin avazına,
Mail oldum gözünə,
Tuş baxanda üzünə.
Yanaqları lalə kimi,
Xalları dən-dən, ölürəm.

[1] "Nar"ın cəmi, "odlar" mənasındadır.

Mən sənə gözəl deyim,
Cəfa ilə, minnət ilə.
Bayqu kimi sızıldaram,
Gecə-gündüz zillət ilə.
Ləblərin şərab süzür,
Şəkər ilə, şərbət ilə.
Hər kəsə qismət olsa,
Nuş eyliyər ləzzət ilə.
Geyibsən əlvan-əlvan,
Rəngbərəng xələt ilə.
Xələtini biçərəm,
Candan-başdan keçərəm,
Öz yurduma köçərəm,
Zəhər versən içərəm,
Gövhərlə dürr seçərəm.
Sərrafam, əl üzmərəm,
Cəvahir-kandan ölürəm.

Nə ola sən olasan,
Mən cavanın yarı əziz.
Cənnətin rizvanısan,
Qılman ilə huri əziz.
Bu gözəllik ki səndə var,
Başa versin tari əziz.
Tapmaram bu dünyada,
Sənə bərabəri əziz.
Məhəmmədin müxəmməsi,
Dostun yadigarı əziz.
Yadigardı sirdaş,
Sirrim etdim xalqa faş,
Aylayıb tökdüm qan-yaş,
Yaxşı saxla başabaş,
Bir mən ilə təmənnəş.
Bir gecənin mehmanıyam,
Ayrılsam səndən, ölürəm.

## ƏZİZ

Şükür, gördüm camalını, yanağı gülşən, əziz.
Zülfündən xəcalət çəkər sünbülü-reyhan, əziz.
Biz ki, eşqə mübtəlayıq, bir-birindən nigaran,
Ta ölüncə olsun bizim sirrimiz pünhan, əziz.

Səni sevən qan ağlasın, gözlərini yaş əysin.
Şad könlümün şüşəsini sındırıban daş əysin.
Camalına ikram edib, qaşlarına baş əysin.
Daim dursun xidmətində, əmrinə fərman, əziz.

Məhəmmədəm, sızıldaram, sərvi boyun görüncə.
Tər məmələr bənzəyir behiştdəki türüncə.
Dərdin məni incəldib, siyah telin bir incə.
Xəstəyəm, gəldim yanına, sən eylə dərman, əziz.

## NEYLƏYİM?

Könül, sevən dost bağına vara bilməm, neyləyim?
Açılıbdı taza güllər, dərə bilməm, neyləyim?
Bir cananın həsrətindən düşdüm əyyub dərdinə.
Dolanıram təbib deyib, çarə bilməm, neyləyim?

Bilən kəslər eşqə düşmək, çox sitəmdir can üçün.
Nə qədər ki, dərd-qəm vardı, yazılıbdı mən üçün.
Sevmişəm bir mehribanı, nigaranam on üçün.
Hərdən-hərdən düşər yada, görə bilməm, neyləyim?

Məhəmmədəm, ərzi-halım budur sizə, qazılar,
Xoş halına ol kimsənin könlünü pərvaz elər.
Yaradanın kərəmindən belə imiş yazılar.
Məskən salıb bu viranda dura bilməm, neyləyim?

## NALƏVÜ-ƏFĞAN EYLƏ

Dəli könül, qalx ayağa, məclisi alşan eylə.
Bülbül kimi gül eşqinə naləvü-əfğan eylə.
Ovçu isən, bərələrdə gözləgilən maralı.
Daldala sən seyrağıbdan sirrini pünhan eylə.

İstəyənlər, qulaq asın eşq əhlinin sözünə.
İstəməyən qoy kor olsun, mil çəkilsin gözünə.
Anlamazın canı çıxsın, xəcaləti özünə.
Ol anlayan ariflərə, söhbəti həryan eylə.

Məhəmmədəm, hər deyəndə sirrim vermərəm yara.
Cəsədimdən dərd alıban, canım düşdü azara.
Əsrəmiş nərə döndərib, qatgil onu qatara.
Qaynat eşqin kürəsini, bir hazır meydan eylə.

## DEYƏR

Namərd ilə işim yoxdu, mən həcətakram deyər.
Nə yükü yox, nə mətaı, şahü-xodkaram deyər.
Kamallıya nə lazımdı gizli sirri car edə.
Hər yetənə bildiribən, açıq-aşkarım deyər.

Öz zatımdan xəbərdaram, abu-atəş, badu-xak.
Qəlbim təsdiq, dilim idrak, inanmışam sidqi pak,
Bir sevdaya giriftaram, başımda var yüz kələk.
Hələ mən ustad xakpayam, o ustadkaram deyər.

Mənəm eşqin kamandarı, oxu, yayı neylərəm?
Güvənmərəm bu dünyaya, sultan, bayı neylərəm.
Kamalım ki var qumaşdı, don, darayı neylərəm.
Məhəmmədəm, bu arada bir müsafirəm deyər.

## YÜKÜM

Eşqidən kamil olan, xeyli iqbaldı yüküm.
Dürlü qumaş cəm etmişəm, yaşıldı, aldı yüküm.
Matahın matah olunca, bazarın bazar olsun.
Nə alınmaz, nə satılmaz, xeyli zavaldı yüküm.

Mərdanələr yığılıban, söhbəti xoş eyləsin.
Bir-birinə xoş deyibən, sərin peşkəş eyləsin.
Saqiyəm, mərd məclisində içənlər nuş eyləsin.
Ab-kövsərdən almışam, abi-zülaldı yüküm.

Məhəmmədəm, sərrafkarıdı, hər nə desən varıdı.
Bir sözü cəvahiratdı, biri kövhərkarıdı.
Qədirbilənlər, yaxın gəl, qədirbilməzlər, geri dur.
Göstərmərəm hər yetənə yaqutu ləldi yüküm.

## QADASIN ALDIĞIM

Bu bağlara bağban idim, bar, qadasın aldığım.
Bəslədibdi dal budaqda nar, qadasın aldığım.
Bahar fəsli, yaz məhsulu, bağların yaraşığı.
Yanaqların tazə güldü, zər, qadasın aldığım.

Bağda səhər qarşı gəlir, işvə-nazlı dilbərim.
Qələm qaşlı, ay qabaqlı, xumar gözlü dilbərim.
Ay buxaqlı, gül yanaqlı, günəş üzlü dilbərim.
Hər tərəfdən bircə busə ver, qadasın aldığım.

Məhəmmədəm, qorxum budu, bu iqrar yalan ola.
Naşı sərraf pozğun sala, seyrağıb talan ola.
Elə cana can qıygınan, qədrini bilən ola.
Hər naşıynan həmdəm olma, yar, qadasın aldığım.

## DƏLLƏK MURAD
(XVIII əsr)

### *GƏRAYLILAR*

### OLMAZ

Dərdü qəmin ərbabıyam,
Dərdlər məndən irad olmaz.
Gündə min-min xəyal eylər,
Mənim könlüm bir şad olmaz.

Göyə çəksə baş tayalar,
Fələk onu tez payalar,
Hər külüng çapmaz qayalar,
Hər igiddən Fərhad olmaz.

Dərviş olan baxmaz pusta,
Uslu olan olar usta,
Güvənmə bivəfa dosta,
Bivəfadan imdad olmaz.

Səhər bağın əsər badı,
Dostundan istə imdadı,
Mövlam yaradıb muradı,
Heç kəs Dəllək Murad olmaz.

### GEN GƏZ

Könül, sənə bir nəsihət,
Şər iblisdən sən gəl gen gəz.
Bir kəs nəsihət bilməsə,
Çəkil ondan sən gəl, gen gəz.

Dam üstündəki qırçıdan,
Malı çoxlu dəmirçidən,
Rəngi solmuş boyaqçıdan,
Bədnəzərdən sən gəl, gen gəz.

Tamahkarın niyyətindən,
Yay günü keçi ətindən,
Yoldaşın mazaratından,
Dəllək Murad, sən gəl, gen gəz.

## ***QOŞMALAR***

### EYLƏMƏ

Qadir Allah, budu səndən diləyim,
Sən mərdi namərdə möhtac eyləmə.
Qeybi xəzinəndən yetir ruzisin,
Sən mərdi namərdə möhtac eyləmə.

Ədalət kanısan, kərəmin çoxdu,
Tənəli söz xəncər, nizədi, oxdu,
Qardaşın qardaşa vəfası yoxdu,
Qardaşı qardaşa möhtac eyləmə.

Namərd körpüsündən, ölsəm, keçmərəm,
Karvan olsam, mənzilinə düşmərəm,
Əlindən camını alıb içmərəm,
Sağ əli sol ələ möhtac eyləmə.

Şair olan deyər sözün arısın[1],
Arısı olmasa olsun yarısın,
Qoy lap alsın gözlərimin birisin,
Bu gözü o gözə möhtac eyləmə.

Dəllək Murad deyər sözün zatını,
Əl əldən ötkündü işin çətini,
Qurda, quşa qismət elə ətini,
Atanı oğula möhtac eyləmə.

---
[1] Təmizin

## OLMAZ

Adəm oğlu, yol-ərkanı tanı, bil,
Yol-ərkan bilənin yeri dar olmaz.
Sirrini söyləmə qəmu aləmə,
Bivəfa dilbərdən sənə yar olmaz.

İgid odu tənə oxun atmaya,
Halal mayasına haram qatmaya,
Bir oğul ki, ata sözün tutmaya,
O oğulda qeyrət, namus, ar olmaz.

Öz sürümdən qurban verim deyəsən,
Öz yunundan şal toxuyub geyəsən,
Bəslədiyin bağın barın yeyəsən,
Yad bağından sənə heyva, nar olmaz.

Dəllək Murad, çəkmə bir bunca qəmi,
Burda duran olmaz, gedərlər hamı,
Fələk biçinçidi, bu dünya zəmi,
Biçilən zəmidə mürğüzar olmaz.

## NƏDİ?

Mən fələyin şərbətini içmişəm,
Həmdəm olan, gəl halımı gör nədi?
Bu dünyada bostan olur sovulur,
Yemiş nədi, çiçək nədi, bar nədi?

Yığılaq bir yerə beşü onumuz,
Qibləyə çevrilsin bizim yönümüz,
Beşcə arşın bez olacaq donumuz,
Atlas nədi, bafta nədi, zər nədi?

Beyin qaynar, sümük coşar tökülü,
Gəmik zail olub çox bel bükülü.
Məhşər günü bizə bir dam tikili,
Eşik nədi, baca nədi, dər nədi?

Dəllək Murad, gözlər doymaz sürmədən,
Qəbrə girər aşıq yarın görmədən,
Altı torpaq, üstü daşlı hörmədən,
İsti nədi, soyuq nədi, qar nədi?

## YAXŞI DUR

Sən nüdrətən bir məclisə varanda,
Yaxşı əyləş, yaxşı otur, yaxşı dur,
Dindirəndə mərifətdən ver xəbər,
Görən desin bərəkallah yaxşıdı.

İgidin mərfəti gərək dilində,
Qocanın əsası gərək əlində,
Biqeyrət oğulun ata yerində,
Qalmağından heç qalmasa yaxşıdı.

Dəllək Murad, bir vaxt gələr qonağın,
Məsrəf eyləyərsən dügilə yağın,
Cəhd elə ki, tutulmasın qabağın,
Bir şirin dil hamısından yaxşıdı.

# YƏHYA BƏY DİLQƏM
(XVIII əsrin sonu – XIX əsrin I yarısı)

## *GƏRAYLI*

### GÖRDÜM

Gəncənin Şəmkir elində,
Bu gün bir novcavan gördüm.
Gözləri canlar alandı,
Qaşlarını kaman gördüm.

Duruşu gəldi xoşuma,
Yem verdi könlüm quşuma,
Sevdası doldu başıma,
Oldu halım yaman gördüm.

Göldə üzən gözəl sona,
Nə girirsən donnan-dona,
Neçə molla, alim ona,
Verdi əldən iman gördüm.

Gözüm düşdü o dilbərə,
Baxmadı mənə bir kərə,
Elə bil ki, göydən yerə,
Yeni huri, qılman gördüm.

Dilqəmi saydı bir gəda,
Rubənd açdı mələkzada,
Müxtəsər, şəbi-yəldada[1]
Mən onu mahtaban[2] gördüm.

---
[1] İlin ən uzun gecəsi
[2] Parlaq, çox işıqlı ay

## NİYƏ GƏLMƏDİ?

Başına döndüyüm, ay Əziz əmi,
Getdi, bəs alşanım niyə gəlmədi?
Züleyxa camallı, qəddi minalı,
Şövkətli sultanım niyə gəlmədi?

Oldum yar yanında mən baxtı qara,
Gedən yox, gələn yox, kəsildi ara,
Sinəmə vurubdu peykanlı yara,
Töküldü al qanım, niyə gəlmədi?

Tutub zülflərini üzünə pərdə,
Apardı ağlımı, qoymadı sərdə,
Biçarə Dilqəmi salıbdı dərdə,
Həkimü loğmanım niyə gəlmədi?

## GƏZƏN YERLƏRİ

Səkənəm qürbətdi, ismim filankəs,
Bü gün gördüm canan gəzən yerləri.
Halım pərişandı, könlümdü şikəst,
Yenə gəldi mənə eşqin əsəri.

Bir yerdə olmasa güllə gülüstan,
Fəğan eylər ordan bülbül hər zaman,
Behiştdə olmasa huriyi-qılman,
Ləziz olmaz onun abi-kövsəri.

Bildir bu yer idi cənnəti-ələm,
Bu il firəvandı möhnət ilə qəm,
Həqir oldu Dilqəm, görmədi həmdəm,
Ziba sənəm burdan gedəndən bəri.

## HAVALANIBDI

Laçın bərəsindən, şikar evindən,
Bir tülək tərlanım havalanıbdı.
İstədim ki, səyyad olam yetirəm,
Əldən-ələ düşüb banalanıbdı.

Firəng şüşəsindən ağdı qolları,
Göyün ulduzuna bənzər xalları,
Ağ üzündə müsəlsəldi telləri,
Çalıbdı çalmanı, sonalanıbdı.

Canan vəsfi mən Dilqəmin dilində,
Eyib yoxdu nazlı yarın telində,
Dostu Dilbər Ocaqlının elində,
Ağ nazik əlləri hanalanıbdı.

## DÜŞMÜŞƏM

Arif olan, diqqət elə, fəhm elə,
Bir gözəl əlindən belə düşmüşəm.
Ağlaram, tökərəm didəmdən yaşı,
İndi də mən əldən-ələ düşmüşəm.

Adını deməyə mən eylərəm ar,
Üstümü kəsibdi bir bimürvət yar,
Quşların tərlanı, xublara zəvvar,
Səyyad olub çöldən-çölə düşmüşəm.

Mən Dilqəməm, yandım, yandım, kül oldum,
Danışdım, danışdım, mötədil oldum,
Gülşənlər içində mən bülbül oldum,
Danışıqda dildən-dilə düşmüşəm.

## YETİŞİRMOLA?

Ərizə yazaram səba yellənnən,
Ərizəm canana yetişirmola?
Fələk məni tərki-vətən eylədi,
Nazlı yar əhvalım soruşurmola?

Əzəldən aşığam tuti dillərə,
Müsəlsəl saçlara, siyah tellərə,
Axdı eynim yaşı, döndü sellərə,
Yar içən sulara qarışırmola?

O qızıl gülləri dərməyən Dilqəm,
Dərib pünhan yerə sərməyən Dilqəm,
Bu dünyada yarı görməyən Dilqəm,
Yarəb, o dünyada görüşürmola?

## YADIMA DÜŞDÜ

Dilbər ehtiramla, mərhəmət ilə,
Yanıma gəldiyi yadıma düşdü.
Bir şirin söz ilə, qaşü-göz ilə,
Dərdimi bildiyi yadıma düşdü.

Əndəlib gülünnən, kəmər belinnən,
Ülfət qıl qulunnan, danış dilinnən,
Zülfünnən, telinnən, nazik əlinnən,
Göz yaşım sildiyi yadıma düşdü.

Dilqəm tərlanısan, uyma sar ilə,
Qızıl gül bülbülə uymaz xar ilə,
Bir şirin dil ilə, xoş göftar ilə,
Ucadan güldüyü yadıma düşdü.

## VARMOLA?

Gecə-gündüz qaldım zülmət içində,
Mən kimi zülmətdə qalan varmola?
Əvvəldən can deyib, can eşidənlər,
Heç bircə yanıma gələn varmola?

Hayıf oldu əlim əldən üzüldü,
Mənim üçün bircə saat yüz ildi,
Bağlar xəzəl oldu, güllər pozuldu,
Mən kimi gülşəni solan varmola?

Biçarə Dilqəməm, sorram gələndən,
Ağladandan, göz yaşımı siləndən,
İstəkli dostlardan, qədir biləndən,
Yarəb, ola yada salan varmola?

## AZALARMOLA?

Ay ağalar, bəylər, duran qazılar,
Bu dərdlər sinəmdən azalarmola?
Bu gizlin sirrimi aşkar eyləsəm,
Dillərə düşübən söz olarmı ola?

Yar odu ki, öz yarını qandıra,
Uçan könül şikarına mindirə,
Bir çıraq ki, haqqın özü yandıra,
Seyrağıb dəyməkdə qaralarmola?

Əriyibən torpaqlara qatılsam,
Həna olub əllərinə yaxılsam,
Qul oluban bazarında satılsam,
Məni qulluğuna yar alaramola?

Dilqəmi öldürər bu dərd nə isə,
Loğman təbib gər yarımı görüsə,
Zimistan könlümə yar əli dəysə,
Üröyşən tapıban yaz olarmola?

## AĞLARAM

Seyri-gülüstanda, Kür kənarında,
Bu gün bir həsrətkeş qalıb ağlaram.
Ayrılıq cövrünün, dost fərağının,
Sevdası başıma gəlib ağlaram.

Yadıma düşübdü şux mələkzada,
Görən o da məni salırmı yada,
Mənim cismim səməndərdən ziyada,
Hicran atəşinə dolub ağlaram.

Laçın qanadlıdan, tərlan tavardan,
O hüsnü-Yusifdən, mehri-rüxsardan,
Züleyxa camallı, məhcəbin yardan,
Fələk məni cida salıb ağlaram.

Qəddi sənubərdi, üzarı bir gün,
Sevdim camalını, oldum didərgin.
Leylisiz Dilqəməm, mən oldum Məcnun,
Səhralar məskənim olub ağlaram.

## MƏNİ

Leyli camalını görəndə dilbər,
Eylədi Məcnun tək divanə məni.
Eşqin zəncirini açma boynumdan,
Bağışla o əhdi-peymana məni.

Gördüm camalını oldum qələndər,
Laçın tək qiya bax, üz bəri döndər,
Yanaram oduna misli-səməndər,
Görsə qanlar ağlar pərvanə məni.

Qaşların aşiqə nəzakət eylər,
Gözlərin can alar, qiyamət eylər,
Zülflərin sailə hidayət eylər,
Gözlərin gətirər imanə məni.

Kuyində, Dilqəməm, tərsa dağında,
Bülbül fəğan eylər gül budağında,
Könül quşu yar, camalın bağında,
Döndərdin o Şeyxi-Sənanə məni.

## DAĞLAR

Zinəti nərgizdən, tər bənövşədən,
Al-yaşıl geyinib şad olan dağlar.
Ruhu təzələyir gülab suları,
Dəhanları şirin dad olan dağlar.

Qərənfil, şəqayiq, lalə tazə tər,
Baharın gülləri onu al bəzər,
Qara gəlsin süsən, sünbül sərbəsər,
Bülbülü güllərdən yad olan dağlar.

Qızılcadı soyuq bulaq yaylağı,
Bərələri şahin-şahbaz oylağı,
Ab-həyati kövsər, gözəllər sağı[1],
Canlara mötədil bad olan dağlar.

Bir yanda yaylardı Keçili, Dəllər,
Bir yanda yurd salır o ağır ellər,
Açılıb nəstərən, qırmızı güllər,
Laləzar türfəli ad olan dağlar.

## GƏLSİN

Başına döndüyüm qasid xoş qədəm,
Ərzimi get söylə canana, gəlsin.
Gecə-gündüz şama pərvanə kimi,
Oduna alışıb yanana gəlsin.

[1] Saqi

Dilim tutmur yara dərdimi yazam,
Cəlallı canandan artıbdı cəzam,
Saranı Mahmuda verən Mirnizam,
Mənim işim səndən imkana gəlsin.

Görmədim bir belə ləbi piyala,
Buxağı bönövşə, yanağı lala,
Cəlallı canana gələn bir bəla,
Uzaq olsun ondan, bu cana gəlsin.

Hər kəs yarı mənə inayət eylər,
Elə bil Kəbəni ziyarət eylər,
Qafil gedən qasid xəyanət eylər,
Yar özü ilqara, imana gəlsin.

Dilqəmə lütf eylə kərəmin kanı,
Növrəstə nobarı, o novcavanı,
Ya kəs başım, ya da yetir cananı,
Mənim mürği-cismim dərmana gəlsin.

## GÖRMÜŞƏM

Belin nazik, qəddin suca, üzün gül,
Məlahəti sən cananda görmüşəm.
Gülüstani-Rəmdə tək şahipərdə
Nə mələkdə, nə insanda görmüşəm.

Müjganındı peykan, qaşındı kaman,
Gözlərin cadudu, ey afəti-can,
Sən hüsndə, vəcahətdə novcavan,
Nə uqbada, nə cahanda görmüşəm.

Az bilmirsən camalının qədrini,
Görsə hilal elər ayın bədrini,
Necə deyim, o zülfünün ətrini,
Nə bənövşə, nə reyhanda görmüşəm.

Hüsnün zinət verir xüldi-bərinə[1],
Pişivazə gəlir gözəllər yenə,
Zülfünün ətrini müşk ənbərinə,
Nə limuda, nə fincanda görmüşəm.

Dilqəm görsə ləbin, olmaz əfsana,
Ləbin nisbət şəhdə[2], abi-heyvana,
Aqil alim görsə olar divana,
O xal ki, var zənəxdanda görmüşəm.

## GƏLMƏDİ

Laçın bərəsində, Kür kənarında,
Getdi telli sonam gölə, gəlmədi.
İstədim ki, onun tərifin yazam,
Sığışıb qələmə, dilə gəlmədi.

Can verdim cananın yolunda durdum,
O dağı, düyünü sinəmə vurdum.
Bir tərlanın bərəsində tor qurdum,
Dedim bəlkə tora gələ, gəlmədi.

Belə gözəl olmaz xüldi-bərində[3],
Ağıllı, kamallı, huşu sərində.
Məcnun kimi durdum vədə yerində,
Leyli kimi getdi çölə, gəlmədi.

Yenə yada düşdü o səlmi-nazım,
Şəninə qafiyə, qəzəllər yazım,
Havalı ceyranım, şahım, şahbazım,
Qırdı şikar bəndin, ələ gəlmədi.

---

[1] Cənnət, behişt
[2] Şan balı
[3] Cənnət, behişt

Dilqəm ayrı düşdü qönçə dəhandan,
Ətri-bənövşədən, gülü-reyhandan,
Cənnəti-rizvandan, huri-qılmandan,
Əfzəl olan bu müşkülə gəlmədi.

## GƏLMƏDİ

Vədə oldu xilaf, illər dolandı,
Qıza nə üz verdi, nazlım gəlmədi.
Bir neçə qasiddən, badi-səbadən,
Ərzə qulluğuna yazdım gəlmədi.

Əzəldən o, şirin-şirin danışdı,
İndi üzü döndü, cismim alışdı,
Pərivəş cilvəli, laçın baxışlı,
Yüz naz ilə xumar gözlüm gəlmədi.

Bizdən yad olmuşdu peymanələr tək,
İndi üzü döndü biganələr tək,
Leylisiz Məcnunəm divanələr tək,
Düşdüm səhralərə gəzdim gəlmədi.

Bir vədə edərdi mənlə aşnalıq,
Bilməm nədən gördü o bivəfalıq,
Əğyar aralığa salıb cidalıq,
Kəmlütf oldu, şirin sözlüm gəlmədi.

Gözüm qaldı onun hindu xalında,
Hilal qaşlarında, mah camalında,
Onun təki bivəfanın yolunda,
Dilqəməm, canımı üzdüm gəlmədi.

## DÜŞÜBDÜ

Şəmsəddin elində, Tovuz çayında,
Gözüm bu gün bir dildara düşübdü.
İki çeşmi cadu, canım afəti,
Elə bir mehri rüxsara düşübdü.

Yüz nazü-qəmzəynən qəddi payinə,
Müjganından bir çox çəkdi yayinə,
Döşəndim, fərş oldum xaki-payinə,
Onda gördüm can nisara düşübdü.

Gülüstani-Rəmdən gəlmiş ol pəri,
Ayla gün hüsnünə olub müştəri,
Yenicə dolanır şahmar zülfləri,
Mürcümlənib bir kənara düşübdü.

Niqab açdı, nəzər saldı hər yana,
Hüsnünün şəminə oldum pərvana,
Gülzarın gülü, bağü-bostana,
Nə çəmənə, nə gülzara düşübdü.

Ceyranlar gəzərdi çöl bərəsində,
Sona məskənində, göl bərəsində,
Əfşan olan zülfün tel bərəsində,
Laçın könlüm xub şikara düşübdü.

Dünyada xoş olur vüsali-həmdəm,
Fərağında nalə çəkdim dəmadəm,
Vadiyi-heyrətdə Qeys olur Dilğəm,
Leylisindən çün avara düşübdü.

## *DEYİŞMƏ*

### NƏ DEDİ?

D i l ğ ə m

Qasidi-bizəval, ərzi-halımı,
Cəlallı canana dedin, nə dedi?
Mahi-cəbin telli, zülfü-müsəlsəl,
Qaşları kamana dedin, nə dedi?

Q a s i d

Ərzini söylədim mələkmənzərə,
Danışmasın böylə əfsanə dedi.
Olmaz məndən ona yari-vəfadar,
Dolansa yüz çərxi-zamana dedi.

D i l ğ ə m

Əzəldən aşığam mən o dilbərə,
Qəddi sənubərə, sədri mərmərə,
Sinəsi billura, ətri ənbərə,
Ləli bədəxşana dedin, nə dedi?

Q a s i d

Məni gətirməsin heç vaxt dilinə,
Qövsi-qüzeh mən sonanın telinə,
Onun kimi naşı sərraf əlinə,
Düşməz mənim kimi dürdanə dedi.

D i l ğ ə m

Yar yad oldu məndən biganələr tək,
Düşmüşəm çöllərə divanələr tək,
Dolannam şamına pərvanələr tək,
Yanaram mərdana, dedin, nə dedi?

Qasid

Belə cavab verdi o mələkzada,
Əfsanə ömrünü verməsin bada,
Əbəs yandırmasın balların oda,
Nə olar şam dada pərvanə dedi.

Dilğəm

Mənə həyat verir dostun vüsalı,
Üzündə yandırır həbəşi xalı,
İskəndər məsnədli, Hatəm səxalı,
Adil Nuşrəvana dedin, nə dedi?

Qasid

Buyurdu sərdara, neçə sərhəngə,
Əmir-üməraya, pişvazi-cəngə,
Qul adına satın Hində, Firəngə,
Ya atın dəryayi-ümmana dedi.

Dilğəm

Zülfü mürcümlənib, yenib buxağa,
Hüsnü zinət verir qəsrə, otağa,
Calallı canana, o şəbçirağa,
Dilqəmi-xaqana dedin, nə dedi?

Qasid

Buyurdu mahala, neçə diyara,
Qohum-qardaşını çəkdirin dara,
Özü qolubağlı, cismi sədpara[1],
Dilğəmi gətirin zindana dedi.

[1] Yüz parça, parça-parpa

## ŞAİR MƏMMƏDSÖYÜN
(1800–1884)

### *GƏRAYLILAR*

### MƏN OLUM

Gül bağçadan boylanan yar,
Boynuna qurban mən olum.
Özün Gülzar, elin gülzar,
Hüsnünə heyran mən olum.

Ağladarsan, ağlat özün,
Çağladarsan, çağlat özün.
Dağladarsan, dağlat özün,
Sinəsi al qan mən olum.

Məmmədsöyün səndən doymaz,
Özgələrə məhəl qoymaz,
Əzabını əzab saymaz,
Tək sənə mehman mən olum.

### YATIB, OYANMAZ, OYANMAZ

Yönü bəri baxan dağlar,
Yatıb, oyanmaz, oyanmaz.
Üstündəki ağır ellər,
Yatıb, oyanmaz, oyanmaz.

Qurbanam qələm qaşına,
Gör nələr gəldi başına.
Səs verrəm dostum guşuna,
Yatıb, oyanmaz, oyanmaz.

Gəldim yarın xanasına,
Laçın qonmaz binəsinə.
Əlim qoydum sinəsinə,
Yatıb, oyanmaz, oyanmaz.

Yarım yaman yatmış idi,
Mişk-ənbərə batmış idi,
Rubəndini atmış idi,
Yatıb, oyanmaz, oyanmaz.

İgidin dönməsin əhdi.
Yana çevrilməsin taxtı.
Məmmədsöynün qara baxtı,
Yatıb, oyanmaz, oyanmaz.

## *QOŞMALAR*

### AĞRI DAĞI

Bir ərzi-halım var xaki-payına,
Eşit bu ərzimi sən, Ağrı dağı!
Sənə çıxan görər cümlə cahanı,
Göründü gözümə Van, Ağrı dağı!

Aylar, illər təpəsində dumandı,
Dünyayla yaranıb, hələ cavandı.
Dağların sultanı Çopur Sultandı,
Düşübsən araya, xan Ağrı dağı!

Məmmədsöyün, ölən günü al ağı,
Cəhd elə, qalmasın onun calağı.
Nuh gəmisi, peyğəmbərin bulağı,
Saxla qiyamətə sən, Ağrı dağı!

### DEYƏRLƏR

Səxavətdə Hatəm, cəngdə Rüstəm,
Ədalətdə Nüşrəvanı deyərlər.
Dəryadan bac alan səddə İsgəndər,
Hökumətdə Süleymanı deyərlər.

Gecə-gündüz qaldım dadü fəryadda,
Ya ağa, sən bizi qoymaynan odda!
Şücaətdə, səxavətdə, qeyrətdə
Şiri – Yəzdan Mürtəzanı deyərlər.

Kərbəla dəştində badə yetişdi,
Onu içən hər murada yetişdi.
Yoməl ərəsətdə dada yetişdi,
Məhəmməd-əl Mustafanı deyərlər.

Gecə-gündüz çağırdığım ərənlər,
Eşqin badəsini dolu verənlər.
Qohum-qardaş, dost-müsahib olanlar,
Bir gün Məmmədsöyün hanı deyərlər.

## XƏBƏR AL, DEYİM

Qoç igidlər mindi ərəb atını,
Axırı nə oldu, xəbər al, deyim.
Birinci imamım Şahi-Mərdandı,
İkinci imamım xəbər al deyim.

Atını minəndə yel kimi əsən,
Üçgünlük yolunu bir gündə kəsən.
İkinci imamım İmami Həsən,
Üçüncü imamım xəbər al, deyim.

Kərbəla dəştinə gəldi Hüseyin,
Oxudu Qurani, açıldı zehin.
Üçüncü imamım İmami Hüseyn.
Dördüncü imamım xəbər al, deyim.

Səhər-səhər dağlar tökər abidin,
Din bəsləyər din içində abi din.
Dördüncü imamım Zeynalabidin,
Beşinci imamım xəbər al, deyim.

Adları böyükdür, yolları ağır,
Bir dara düşəndə onları çağır.
Beşinci imamım Məhəmmədbağır.
Altıncı imamım xəbər al, deyim.

Üstümüzdən gəldi keçdi hər hadıq,
Dünya malın yığdıq, heç aparmadıq.
Altıncı imamım Cəfəri-Sadıq,
Yeddinci imamım xəbər al, deyim.

Göydən yerə endi əzabi-əzim,
Davat-qələm gətir, dərdimi yazım.
Yeddinci imamım Museyi-Kazım,
Səkkizinci imamım xəbər al, deyim.

Hər səhər namaz qıl, qoymaynan cəza,
Axır məhşər günü verərlər cəza.
Səkkizinci imam – İmami-Rza,
Doqquzuncu imamım xəbər al, deyim.

Səkkizi cənnətdi, səkkizdi bağı,
Dolandırdı getdi onda bir bağı.
Doqquzuncu imamım Məhəmmədtağı,
Onuncu imamım xəbər al, deyim.

Bir neçə hümmətdi, əlində sağı,
Çəksə Zülfüqarı, bölər bu dağı.
Onuncu imamım Əliyyən Nağı,
On birinci imamım xəbər al, deyim.

Səhər-səhər dan yelləri, əs bəri,
Müşkül olan bəndələri kəs bəri.
On birinci imamım Həsən Əsğəri,
On ikinci imamım xəbər al, deyim.

Məmmədsöyün deyər, tamamdı, tamam,
Möminlər könlünə salıbdı güman.
On ikinci imam Sahib əz Zaman,
Onlardan vacibin xəbər al, deyim.

## MƏNİ

Leyli kimi vədə verdin, gəlmədin,
Məcnun kimi saldın dağlara məni.
Bədəsil xoryadı bağban eylədin,
Qoymadı bağçaya, bağlara məni.

Zimistanda, hər payızda, hər yayda,
Hər saatda, hər həftədə, hər ayda,
Hər yas günü, hər şivəndə, hər vayda,
Həmişə qatgilən ağlara məni.

Məmmədsöyün deyər, qurban, yar, sana,
Sağlığımda verrəm ixtiyar sana.
Mən öləndə vəsiyyətim var sana:
Öz əlinlə bükdür ağlara məni.

## YƏNİ NƏ?

Bir mərd ilə ülfət qılsan mərdana,
Namərd ilə ülfət qılmaq yəni nə?
Müxənnətlər yaxşı gündə dost olar,
Yaman gündə keçər gedər yəni nə?

Həqiqət şərtilə baxgınan sözə,
Qiyamət pərdəsin çəkərlər üzə.
İgid odur, qan yatırda, iş düzə,
Hər qovğaya qarışmağın yəni nə?

Ağıl bir qumaşdır, kimsəyə çatmaz,
Əsl mömin olan zikirsiz yatmaz.
Gedən getdi, daha geri qayıtmaz,
Dalısınca peşman olmaq yəni nə?

Məmmədsöyün deyər, söhbət dəmində,
Bərabərin yoxdur ruyi-zəmində.
Ürfan məclisində, dost nəzərində
Hərzə deyib-danışmağın yəni nə?

## *TƏCNİSLƏR*

### AY ANA, ANA

Bir Leyliyə ürcah oldum, nə oldum,
Məcnunam eşqindən, ay ana, ana.

Özü getdi, saldı məni bu oda,
Qalmışam əlində a yana-yana,

Süzdürüb oynatdı ala gözünü,
Ya ölləm, ya canım ala gözünü.
Göz açdım, gəlmədi alagöz ünü,
Zülfün daramışdı a yana-yana.

Məmmədsöyünəm, yön çevirrəm yaracan,
Qibləgahım o qapıdı: yar açan.
Kim söyləməz belə gözəl yara "can",
Qalmışam adını ay ana, ana.

### HA YANA-YANA

Baxışların bir od vurub canıma,
Qalmışam çarəsiz ha yana-yana.

Aşıq deyər ha yana,
Dara zülfün ha yana.
Eşqindən səməndərəm,
Cismim oda ha yana.

Ümidəm, gözlərin baxa üzümə,
Nə isə hey baxır ha yana, yana.

Canan getdi bağçalardan gül üzə,
Güllər baxdı, heyran qalxdı gül üzə.

Mən aşiqəm gül üzə,
Qoyma xoryad gül üzə.

Bülbül fəğan eylədi,
Enli güldən gül üzə.

Kərəm yandı, həsrət qaldı gül üzə,
Əsli də oduna ha yana-yana.

Məmmədsöyün, yar yuxudan oyandı,
Səhər günəş camalından o yandı.

Aşıq deyər: o yandı,
Günəş kimi o yandı.
Mənim qəlbim onadı,
Onun qəlbi o yandı.

Bahar gəldi, ana dağlar oyandı,
Çiçəklər köksündə ha yana-yana.

## YAR, SANA MƏNİ

Dərdü hicran tapdağıdı bu könül,
Bir ara, bir axtar, yar, sana məni.

Mən aşıq, yar sana,
Gəlməz dərdim, yar, sana.
Loğmanımsan bağrımı,
Neştər vurub yarsana?

Sayılınam, dərmanıma yox demə,
Bir arxa, bir kömək yar sana məni.

Duman gələ, çən qovuşa, qarala,
Döndü yoxdu, ha yolumu qar ala.

Mən aşığam, qar ala,
Çatma qaşın qarala.
Sən mənimsən, mən sənin,
Yad çırağı qarala.

Yar uğrunda yüz çovğun, yüz qar ola,
Xudam yetişdirər, yar, sana məni.

Söz vermişdin, vaxtı gəlib yetişdi,
Düz ilqarım, harayıma yetişdi!

Mən aşığam yetişdi,
Əhdə vəfa yetişdi.
Mən gördüyüm şamama,
İl dolandı, yetişdi.

O gün əlim yad əllərə yetişdi,
Al qılıncı, şaqqa yar, Sona, məni.

## ***DİVANİLƏR***

### BAX

Ey könül, qafil olma,
Əliyyi-imrana bax;
Məhəmməd şəninə gələn,
Ayeyi-Qurana bax.

İsmayıl getdi minaya,
Haqqa qurban olmağa;
Cəbrayıl bir qoç gətirdi,
Sürməli qurbana bax.

Şeytan yetirtdi buğdanı
Adəmə, nə etdilər;
Ol xudadan əmr olundu,
Sərəndibə atdılar;
Adəm ilə Həvva ana
Bir-biriylə yatdılar;
Həvva doxsan oğul doğdu,
Gərdişi-dövrana bax.

Gəl, biçara Məmmədsöyün,
Haqqı, mövlanı tanı;
Habil öldürdü Qabili,
Eylədi nahaq qanı.
Ol xudadan əmr olundu,
Qopdu Nuhun tufanı;
Gəmisinə nicat verən
Ol Şahi-Mərdana bax.

## GƏLMƏDİ

İki aləmin günəşi,
Şahi-cahan gəlmədi;
Dolandı kəc irəftar,
Keçdi dövran, gəlmədi.
Mən ki sənin aşiqinəm,
Müştağam didarına:
Halım oldu yen[1] pərişan
Mərdi-meydan gəlmədi.

Aləm olub zimməpərəst,
Heydəri Səfdər hanı?
Xeybərin qalasın alan,
Fəth edən Bərbər hanı?

Düldül, Zülfüqar sahibi
Ağeyi-Qənbər hanı?
Bir adı Şahi-Qəşəmşəm,
Şiri-yazdan gəlmədi.

Gəl biçarə Məmmədsöyün,
Gör sənin halın nədi;
Zəlil qoydun dini-islamı,
Kafərin əlindədi;

[1] Yenə

Mən ki sənin müztərinəm,
Tərifin dilimdədi;
Müşgülləri həll eyləyən
Dərdə dərman gəlmədi.

NEYLƏRƏM?!

Ey cananım, səndən ayrı
Mən bu canı neylərəm?!
Malü mülkü, tacü taxtı –
Süleymanı neylərəm?!
Mən öləndə sən olasan
Başım üstə ağlayan;
Şeyda bülbül fəqan eylər:
Gülüstanı neylərəm?!

Bir vəfalı həmdəm ilə
Ülfət qıl, ilqar elə;
Dedim, könül, dost kuyinə
Sən də bir güzar elə;
Əl götürmə damənindən,
Can ona nisar elə.
Yar özü ziba gərəkdi,
Mən zibanı neylərəm?!

Məmmədsöyün, qətlin üçün
Məclisə sağı gəlir;
Qaşları yay, kirpiyi ox,
Gözləri yağı gəlir.

Bu gün ömür başa yetdi,
Ayrılıq çağı gəlir;
Bir beş arşın ağ lazımdı,
Badilanı neylərəm?!

## OLMASA

Bəzirganlar yük bağlamaz
Gər xiridar olmasa;
Naməşhər qalmaz dünyada,
Zatında zar olmasa;
Səng ilə xanə yapasan
Bir biyaban səhrada;
Tapasan qəflət yuxusu,
Əgər şahmar olmasa.

İki mələk müqərrərdi,
Baxıb əməlin yaza;
Onlar əməlinə baxıb,
Sənə verərlər cəza;
O günündə nə eyləsin
Şahi-Mərdan – Mürtəza;
Məhşərə getmək çətindi,
Əldə tutar olmasa.

Məmmədsöyün ölməklə
Bu dünya xalı olmaz;
Dərdin demə dərdbilməzə,
Dərdindən halı olmaz;
Bu vergi haqq vergisidi,
Kimsəyə qalı olmaz;
Cəhd eləmək bica şeydi,
Baxtın bidar olmasa.

## AŞIQ ALI
(1801-1911)

### *GƏRAYLILAR*

### YALAN OLDU

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım, döndü közə,
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Aşıq Alı sənə qurban,
Gəl eylə dərdimə dərman,
Uçdu getdi tülək tərlan,
Sarda kəklik alan oldu.

### MUSA BƏY

Həm atam, həm qardaşımsan,
Salamat qal, ay Musa bəy!
Sən də ürək sirdaşımsan,
Salamat qal, Mustafa bəy.

Xeyir gördüm əlinizdən,
Qüvvət tapdım dilinizdən,
Yola salın elinizdən,
Salamat qal, Mustafa bəy.

Aşıq Alı gəldi getdi,
Hər cürə mətləbə yetdi,
Qızıl lirə qiymət götdü,
Salamat qal, Mustafa bəy.

## *QOŞMALAR*

### GEDİRƏM

Çox-çox salam-dua qohum-qardaşa,
Biləsiniz al-Osmana gedirəm.
Bir dilək dilədim şahlar şahından,
Sığınmışam o sübhana gedirəm.

Alışır sinəmdə qəmli atəşim,
Düşəndə yadıma dostum, sirdaşım,
Gözləsin yolumu yarım, yoldaşım,
Sizə verib bir nişana gedirəm.

Aşıq Alı gəzir İrani-Turan,
Uğrama açıqdı tamam hər bir yan,
Mənə qardaş oldu Aşıq Duraxan,
Yoldaş olub göhərkana gedirəm.

### QALDI

Canım cida düşdü, gedir vətəndən,
Məkanım, məskənim virana qaldı.
Sanki ayrılıbdı güldən, çəməndən,
Bülbülün əlacı fəğana qaldı.

Yeni gül əkmişdim mən baxtı qara,
Bulunmaz dərdimə kim eylər çara,
Xoryat əli dəydi heyvana, nara,
Sinəmdə dağlarım nişana qaldı.

Alı aşıq olmuş bir əhli-dilə,
Təbibim mövladı, dərdimi bilə.
Bir tərəhhüm[1] eylə sərdə aqilə,
Çünki sərdən getdi divana qaldı.

---

[1] Rəhmetmə, yazığı gəlmə, acıma

## DOLANDIRI

Ay ağalar, gəlin sizə söyləyim,
Dövlətli malını el dolandırı.
Kəsilibdi hörmət, yoxdu məhəbbət,
Yəqin bu dünyanı pul dolandırı.

Bu dünyanın şərabından içməyən,
Karvan olub, haqq yolundan keçməyən,
Evdə arvadına sözü keçməyən,
İndi koxa olub, el dolandırı.

Aşıq Alı deyər: halım pərişan,
Ağ üzündə qoşa xallar hər nişan,
Binamus qohumdan namuslu düşman,
Öldürsə, qəbrimə gül dolandırı.

## DEYƏRSƏN

Həsən əmi, bir Allahın eşqinə,
Mənim ərzim o canana deyərsən,
Sən mənim qasidim, dərddən xəbərdar,
Mən tək dərdi o tüğyana deyərsən.

Gedib o vətənə varandan sora,
Sən bizim elləri görəndən sora,
Götürüb naməni verəndən sora,
Bu cavabı yana-yana deyərsən.

Kamil bağban, pasiban o güllərə,
Vəfadarım, gözünü dik yollara.
Deynən yolu düşdü uzaq ellərə,
Alı keçdi, al-Osmana deyərsən.

## BƏNZƏRSƏN

Süsənli, sünbüllü, tər bənövşəli,
Yaylaq, bizim yaylaqlara bənzərsən.
İçən olmaz abi-kövsər suyunu,
Bulaq, bizim bulaqlara bənzərsən.

Cənnət olur bizim yerin bu çağı,
Ağ lavaşı, kərə yağı, qaymağı,
Qızlar dəstələnib gəzər oylağı,
Oylaq, bizim oylaqlara bənzərsən.

Ket dağı, Əyricə, Daşkənd baxarı,
Ağ sürülər Sarıyaldan yuxarı,
Var bizim suların əcəb axarı,
Çaylaq, bizim çaylaqlara bənzərsən.

Alının gəzdiyi üç gözəl dərə,
Şəqaiq, Çiçəkli xoş gözəl dərə.
Şahdağdan görünür Başgözəldərə,
Üç dağ, bizim o dağlara bənzərsən.

## GETDİ

Ötübdü zimistan, gəlib novbahar,
Yetirdi qərinə, sənələr getdi.
Dəli könül gündə yüz xəyal eylər,
Dolandı ruzigar, havalar getdi.

Mən sənə nə deyim, ey şahi-şonqar,
Ağlımı apardı bir çeşmi-xumar,
Könlümə uymadı bir münasib yar,
Gəldi məlakələr, sonalar getdi.

Yazıq Alı, bu qəm səni bürüdü,
Eynim yaşı sel-sel oldu yeridi,
Qürbət eldə yazıq canım çürüdü,
Neçə çərşənbələr, cumalar getdi!

## GƏRƏK

Aşiqam deyibən girən meydana,
Aşıq deyənlərdə xoş göftar gərək.
Aşıq gərək sözün vəsfə yetirə,
Bəyənə ariflər birbəbir gərək.

İgid zalım bu meydanda durmağa,
Müjgan oxun şirin cana vurmağa,
Bir nəhibəntərə qılınc vurmağa,
Ağam Əli əldə zülfüqar gərək.

Sən məni eylədin yollarında ləng,
Çaylarda balığam, dəryada nəhəng,
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıq Alı mahallarda bir gərək.

## GEDİRƏM

Hər kim dərs alacaq, gəlsin dərs alsın,
Sinəmin dəftərin açıb gedirəm.
Bir quş idim, qalmış idim yuvada,
Daha durmayıban uçub gedirəm.

Necə oldu atam, necoldu anam.
Pozuldu hasarım, yıxıldı qalam.
Yüklənibdi qəflə-qatır, barxanam,
Fənadan üqbaya köçüb gedirəm.

Bu sözlərlə budu demək qəsdimdə,
Əməlimi verib budu dəstimdə,
Qohum-qardaş, ulus tamam üstümdə,
Əcəl şərbətini içib gedirəm.

Aşıq Alı minib səcərdər atı,
Üzümə oxunur canım baratı.
Qıldan da nazikdir, qılıncdan iti,
Sirat körpüsünü keçib gedirəm.

## NƏ QALDI

Gəşt elədim, bu dünyanı dolandım,
Əllini keçirtdim, yüzə nə qaldı.
Ayaq getdi, əl gətirdi, diş yedi,
Baxmaqdan savayı gözə nə qaldı.

Ölüm haqdı, çıxmaq olmaz əmirdən,
İpək tora həlqə salma dəmirdən,
Aydı, gündü gəlib keçər ömürdən,
Tələsirik, görək yaza nə qaldı.

Hər yana baxıram hava məxşuşdu,
Gəzdiyim oylaqlar yadıma düşdü.
Eşidərsiz Aşıq Alı da köçdü,
Sındı telli sazı, təzə nə qaldı.

## DEDİ

Bir nişan istədim gülüzlü yardan,
Dirsəyin göstərdi: Alısan, – dedi.
Dedim: Ay qız küsdüm, səndən əl çəkdim,
Həlbət bir yadına salısan, – dedi.

Dedim: A bəxtəvər, bu nə busatdı?
Dedi: Nəzər eylə, gör nə sufatdı.
Dedim: Çeşmim yaşı yeri islatdı,
Verrəm dəsmalımı silisən, – dedi.

Dedim: Ay qız, qəmdən dəftər bağlaram,
Dedi: Baxma, nişanını saxlaram.
Dedim: Həsrətindən inan ağlaram,
Qorxma yaxın vaxtda gülüsən, – dedi.

Dedim: Ay qız, nə gözəldi şamama,
Dedi: Dəymə, ömrüm yetər tamama,
Dedim: Ay qız, əl uzadım məmənə,
Özünü nüfuzdan salısan, – dedi.

Dedim: Xəstələrin can dərmanısan,
Dedi: Aşıqların kərəm kanısan.
Dedim: Ay qız, mənim adım tanısan,
İrəldən bilirəm, Alısan, – dedi.

## AĞRI DAĞI!

Havalanıb ərş üzünə qalxıbsan,
Dağların sərdarı, nər Ağrı dağı!
Payızın, baharın olur zimistan,
Səndən əskik olmaz qar, Ağrı dağı!

Ətəyində xan atdanır, xun düşür,
Böyük adın mahallara ün düşür,
Hər dağdan irəli sənə gün düşür,
Nə vaxtı açılar dar, Ağrı dağı!

Səkkizi rizvandı cənnətin bağı,
Neçə xanası var, neçə otağı,
Nuh gəmisi, peyğəmbərin bulağı,
Səndə çox nişana var, Ağrı dağı!

Göstərdin cahanı necə sirr idi,
Tozun qalxdı İrəvanı bürüdü,
Axşamüstü hər tərəfdən yeridi,
Batırdı ölkəni pir, Ağrı dağı!

Əvvəl səndə olub Rüstəm pəhləvan,
Gəzib şahi-mərdan nişanbanişan,
Aşıq Alı təəccübdü hər zaman,
Yarın qardı, yarın nar, Ağrı dağı!

## ÇATARMI?

Xanlar bəyə şikayətə gəlirəm,
Sənin ona zor, qüvvətin çatarmı?
Çəksə qılıncını, girsə meydana,
Vuruşmağa cəsarətin çatarmı?

Xanlar bəy əyləşib Ağrı dağında,
Neçə pəhləvanlar solu sağında,
Bu coşqun sinəmin odlu çağında,
Allam canın, heç fürsətin çatarmı?

Niyə boş-boş danışırsan əfsana,
Özündən basırsan çox yekəxana,
Görərlər kim kimi boyalar qana,
Qoçuluğa qabliyyətin çatarmı?

Kürd Məlik tək nə giribsən meydana,
Diqqət elə qarşındakı oğlana,
Gərək qiymət qoysun insan insana,
İnsanlığa xasiyyətin çatarmı?

Alı deyər: eşq ucundan xəstəyəm,
Dava meydanında kəmərbəstəyəm,
Özüm nişanlıyam, murad üstəyəm,
Cavanlığa sədaqətin çatarmı?

## *TƏCNİS*

## ALMASIN

Bimürvət yar məni candan elədi,
Tutubdu dəstində ay ağ almasın.
Yarın bağçasının seyrinə vardım,
Heç görmədim yarın ay ağ almasın.

Bayram ayı demək olmaz hər aya,
Təbib gərək dərman edə haraya,
Şahlar şahı, özün yetir haraya,
Düşmən üstümüzə ayaq almasın.

Aşıq Alı deyər: yar ab ağlaya,
Yaxşı təbib gərək yara bağlaya,
Yar ki meylin qeyri yara bağlaya,
Həftəyə varmasın, aya qalmasın.

## *QIFILBƏND VƏ DEYİŞMƏLƏR*

### MEYDANA GƏL

Aşıq Yığbal

Kəndinə aşığam deyən,
Aşıqsan, meydana gəl.
Namərd girməz meydanıma,
Mərd ol, mərdanə gəl.
İgid olan kəndisini,
Öyməyi layiq deyil,
Al əlinə çunqurunu,
Bu cəngi-dövrana gəl.

Aşıq Alı

Mən dəryayam, sən adasan,
Axır sən ümmana gəl.
Mən danışım, sən qulaq ver,
Mərifət qanana gəl.
Sən satansan, mən alanam,
Açginən dükanını,
Malını nadana satma,
Matahın alana gəl.

Aşıq Yığbal

Ey arif, paşam yanında,
Sənə söylərəm mədhi.
Mərifəti, təriqəti,
Anla, qan həqiqəti.
İsəvisən İncili sev,
Musəvisən Tövratı.
Məhəmmədin hümmətisən,
Boyun qoy, Qurana gəl.

Aşıq Alı

İsəviyəm, Musəviyəm,
Hər nəyəm öz yolumda.
Həqiqətdən xəbər verrəm,
Mərifət kamalında.
İndi paşa qulluğunda,
Sədrəzəm yanında,
Haqqınan divan kəssinlər,
Ədalət divana gəl.

Aşıq Yığbal

Mən Yığbala bir salam ver,
Soruşum halın görüm.
Həqiqət haqq aşığısan,
Söylə kamalın görüm.
İncil, Zəbur, Tövrat, Quran,
Göstər kitabın görüm.
Dostum, əgər bütpərəstsən,
Bu nari pirana gəl.

Aşıq Alı

Adımdı Aşıq Alı,
Fərzü sünnət qılıram,
"Əlif" Allahın adıdı,

“Tey” təbarək, qəni Allah,
Ona səcdə qılıram.
Xilqətim Adəm atadı,
Sən xaki-yeksana gəl.

## ULUDU

Aşıq Yığbal

O nədi ki, otuzunda cavandı?
On beşində çox böyükdü, uludu?
O nədi ki, dili iki, sirri bir?
Hansı dərya hər dəryadan doludu?

Aşıq Alı

O aydı ki, otuzunda cavandı,
On beşində ululardan uludu,
O qələmdi, dili iki, sirri bir,
Elm dəryası hər dəryadan doludu.

Aşıq Yığbal

O nədi ki, üç ay dağlar bürünür?
O nədi ki, əl dəyməmiş hörünür?
O nədi ki, əmanətən verilir?
O nədi ki, o da onun gülüdü?

Aşıq Alı

O qardı ki, üç ay dağlar bürünür,
O könüldü əl dəyməmiş hörünür,
O uruhdu əmanətən verilir,
İlqar, iman diriliyin gülüdü.

Aşıq Yığbal

O nədi ki, haqq yanında nahaqdı?
O nədi ki, yerə, göyə dayaqdı?
O kimdi ki, yatmayıbdı, oyaqdı?
Aşıq Yığbal hər elmdən halıdı.

Aşıq Alı

O böhtandı, haqq yanında nahaqdı,
Haqq nəzəri yerə, göyə dayaqdı,
Haqq özüdü, yatmayıbdı oyaqdı,
Bu sözləri açan Aşıq Alıdı.

## AŞIQ PƏRİ

(XVIII əsrin sonları – XIX əsrin I yarısı)

### *GƏRAYLI*

EYLƏDİN!

Zalım Şəcər, dad əlindən,
Sən ha nahaq qan eylədin!
Zülmilə könlüm şəhrini,
Gör necə viran eylədin!

Saymadın sultanı, xanı,
Eyləyibsən nahaq qanı,
Badam kimi nocavanı,
Yer ilə yeksan eylədin!

Necə qıydın gülzarına,
Pünhan keçən iqrarına,
Saldın yollar kənarına,
Dörd yanın al qan eylədin!

Pərinin dərdi tüğyandı,
Sakin yeri Maralyandı,
Gülün qönçəsində yandı,
Bülbüllər əfqan eylədi!

### *QOŞMALAR*

AĞLARAM

Çanaqçı mülkündən səfər eylədim,
Mənə qədim oldu yollar, ağlaram.
Səcər gəldi, vurdu, şikar eylədi,
Tökər didələrim sellər, ağlaram.

Nagahından düşdüm belə dərdə mən,
Necə çəkim eşq üzünə pərdə mən,
Gözü yaşlı gəldim Tağavurda mən,
Pərişan olubdu tellər, ağlaram.

Bir şah əndaz şux nigarım gəlibdi,
Kəsilibdi ixtiyarım, gəlibdi,
Köysü dağlı bir tavarım gəlibdi,
Quruyub, lal olub dillər, ağlaram.

Bir dilbər pəriyə Pəri qan ağlar,
Çəkilib sinəmə düyünlü dağlar,
Ölübdü bülbülüm, lal olub bağlar,
Saralıb, savılıb güllər, ağlaram.

## SEVDİYİM

*Məhəmməd bəy Aşiqə*

Ruşən gecəsində, xoş bir saatda,
Namə gəldi bu səhrayə, sevdiyim.
Yaxşılıq yazılsa yaman dəftərə,
Nə deyərsən bu binayə, sevdiyim.

Hər qul öz yerinin bünyadı olu,
Oxuyan kəslərin savadı olu,
Dərdlinin fələkdən amadı olu,
Minnət elər bu dünyayə, sevdiyim.

Ərzi tulanidi, bu müxtəsəri,
Çoxları eşqdən olub sərsəri.
Anlayıb əhli-dil olandan bəri,
Ömür baqi getdi zayə, sevdiyim.

Ey Pəri, müxtəsər bir cavab elə,
Şayəstədi rücu edə aqilə,
Rəqiblər danışır inqilab ilə,
Qoşulmaram mən hərcayə, sevdiyim.

# DİLƏ SƏN

*Cəfərqulu xan Nəvaya*

Eşitmişdik qulluğuna yetişdin,
Gördük ki, düşübsən dildən-dilə sən.
Unutmayıb müsəlmanlıq şərtini,
Matəm deyib bir insafa gələsən.

Bu işdə Qədirin vardır xub rayı,
Hər yetən kəslərə deyər sövdayı,
Aralığa düşüb Məhərrəm ayı,
Layiq deyil anda deyib güləsən.

Yaxşı yetər imamın fəryadına,
Belə işin ləzzəti nə, dadı nə?
Adam bildik, biz də gəldik adına,
Adamlığı qanmayıbsan hələ sən.

Ey Pəri, təcil et sualında sən,
Nöqsan yetiribsən kamalında sən,
İndi zurna çalmaq xəyalında sən,
Onu gərək axirətdə çalasan.

Aşıq Pəri, kağız sənə yetişcək,
Durmayuban gərək bura gələsən.
Bir tavus quşusan, ya mürği tuti,
Gəzəcəksən yəqin əldən-ələ sən.

Tökmək üçün zülfə vurma şanəni,
Yola apar görəndə divanəni.
Səpibsən üzünə xaldan danəni,
Qoyubsan üzünə zülfdən tələ sən.

Lənət gəlsin Fərhadın imanına,
Alıb Şirin kimi səni yanına,
Salacaqsan pamoşnikin canına,
Görəcəksən bişübhə vəlvələ sən.

Peşminə saymırsan soltanı, xanı,
Eyləyirsən şahlar kimi divanı,
Sən Qədirdə olan neyi-zurnanı,
Görməyibsən məgər görə, gələsən.

## SƏNƏ

Bitəqsirəm, yoxdu mənim günahım,
İndi belə qalıb ixtiyar sənə.
Sən rəqibin cəmiəti tapıldı,
Qaldım hər tərəfdən bir əğyar sənə.

Mən fəqiri bəsləmisiz arada,
Dadirəsim[1] bunca yetişsin dada,
Vəsfini söylərəm həddən ziyada,
Heç əskik olmasın mülk, tavar sənə.

Heç olmasın rəqib, gəlməsin əğyar,
Gecə-gündüzlü çəkərəm ahu-zar.
Tapmamışam hələ yari-vəfadar,
Vaxtikən eylərəm xəbərdar sənə.

Qasid gəlcək dərdi dilin bilmişəm,
Möhnətilə didəm yaşın silmişəm,
Vara-vara Çanaqçıya gəlmişəm,
Mən necə bağlayım etibar sənə.

Can içində mən bu canı neylərəm,
Ləli-Yəmən, bədəxşanı neylərəm,
Xanı, bəyi, mən paşanı neylərəm,
Pəriyəm, eylərəm dualar sənə.

[1] "Dadrəs" – fəryada yetişən, dada çatan, arxa, kömək

## SƏNİN

*Mirzə Həsənə*

Nə yatıbsan lihaf[1], bəstər[2] içində?
Bimarmısan, nədi bəs halın sənin?
Eşqin mərəzinə mən ki təbibəm,
Bəyan elə mənə əhvalın sənin.

Bu qəm bəstərində, möhnət içində,
Daim fikrimdədi xəyalın sənin.
Dərmansız dərdimə bulunmaz çara,
Müyəssər olmasa vüsalın sənin.

Könül adət ahu-zarə eyləyir,
Eşqi sirrin aşikarə eyləyir,
Qoyma, ruzigarım qarə eyləyir,
O zülfün, o xəttin, o xalın sənin.

Qönçə lətafətli, lalə üzlüsən,
Məstanə baxışlı, xumar gözlüsən,
Şirin hərəkətli, şəkkər sözlüsən,
Yoxdur yer üzündə misalın sənin.

İltifat eləyib alıb canımı,
Odlara salıbsan din-imanımı,
Yəqin bil ölərəm, şəbüstanımı,
Münəvvər etməsə camalın sənin.

Mən Mirzənin qədrini bil naz ilə,
O seyrəqiblərdən ehtiza elə,
Nəcəf bəyə iltifatı az elə,
Həlak elər məni bu halın sənin.

---

[1] Yataq
[2] Yorğan-döşək

İsmi şərifiniz dada yetirsin,
Mətləb alıb hər murada yetirsin,
Xaliq özü bu imdada yetirsin,
Hifzində saxlasın zəvalın sənin.

Bar ilahım gülzarına qıymasın,
Xəstə olan bimarına qıymasın,
Şirin-şirin göftarına qıymasın,
Bağışlasın qaşı hilalın sənin.

Bir məsəldi, bağban olan bar çəkər,
Əndəlibin həm meyli gülzar çəkər,
Allahə-nabəndə ahu-zar çəkər,
Qəm çəkmə, kamildi kamalın sənin.

Mən Pəriyəm, eşqə zaram, neyləyim,
Dərdü-dildən xəbərdaram, neyləyim,
Burdan ora intizaram, neyləyim,
Şəfalansın nuri-vüsalın sənin.

# MÜCRİM KƏRİM
(XIX əsr)

## *GƏRAYLILAR*

### GÜLƏ

Sevdim bir nazlı dilbəri,
Üzü bənzər qızılgülə.
Görcəyin valeh olmuşam,
Ağzındakı şirin dilə.

İncidən aridi dişi,
Yolunda qoymuşam başı,
Ağlamaqdan gözüm yaşı,
Döndü çaya, döndü selə.

Aşığı candan eyləyən,
İşini əfqan eyləyən,
Məni canandan eyləyən,
Sürüləsən eldən-elə.

Yaşır, gül camalın yaşır,
Rəqibin gözü qamaşır,
Zərnişan şəddə yaraşır,
Sənin təki incə belə.

Bir deyən yoxdu canana,
Rəhm elə bu natəvana,
Mən Mücriməm, gəldim cana,
Bir kəs yoxdu qədrim bilə.

### MƏN

Rəhm et mənə gülüzlü yar,
Qəribi-binəvayam mən.
İstərəm hüsnün zəkatın,
Müstəhəqqəm, gədayəm mən.

Cövründən gəldim amana,
Gözüm yaşı döndü qana,
Səninlə oldum bigana,
Qəminlə aşinayam mən.

Başımdı yolunda fəda,
Sənə insaf versin xuda,
Çünki düşdüm səndən cida,
Dəli, həm divanayam mən.

Qurbanam ol şirin dilə,
Rəhm elə mən tək bülbülə,
Çünki düşdüm dildən-dilə,
Qəribə əfsanayam mən.

Kərim, Kərimə gəl dada,
Tez yetir könlümü şada,
Beş gün bu fani dünyada,
Misali-mehmanayam mən.

## *QOŞMALAR*

### MƏNİM

Ey mənimlə həmdəm olan bivəfa,
Dərd əlindən ahu-zarım var mənim.
Təbibimsən, eləməzsən davasın,
Nə sağalmaz yaralarım var mənim.

Əfqanımdan həzər elə, vəhm elə,
Belə olmaz aşinalıq, rəhm elə.
Siyah zülfün həsrərtindən fəhm elə,
Qara günlü ruzigarım var mənim.

Kərimənm, hüsnünə olmuşam mayil,
Qəm dustağı gərdənimdə həmayil,
Başımızda bu sevdadan nə hasil,
Bihudə-bihudə yarım var mənim.

## YETİRRƏM

Könül, səbr et, gəl eyləmə əlaman,
Səni bir gün o dildara yetirrəm.
Ağlayıban növnə etmə şivəni,
Şahqubada, o sərdara yetirrəm.

Bilirəm, qəriblik aldı qərarım,
Çəkəcəksən hələ dərdini yarın.
Kəsilibdi səbri bülbüli-zarın,
Fəsli-bahar, gülüzara yetirrəm.

Kərimən, halımdı çox-çox pərişan,
Əritdi cismimi atəşi-hicran.
Hanı, bu dünyada yoxdu bir insan,
Deyə: səni mən o yara yetirrəm.

## OLDU

Aman fələk, mürvət fələk, dad fələk,
Bidad fələk, zülmün nümayan oldu.
Gecələr əflakə[1] yetişir nalən,
Günbəgündən halım pərişan oldu.

Hicranın evində qalmışam tənha,
Fələk verdi mənə dərdi-bidəva,
Hücumi-qəm etdi könlümü yəğma,
Hal-əhvalım gör bir nə yaman oldu.

Əzəldən taleyim dönüb idbara[2],
Əsirü sərgəştə[3], qaldım avara,
Qan ağla hər zaman Kərim biçara,
Cəfa çəkdim, ciyər dolu qan oldu.

---

[1] "Fələk"in cəmi-fələklər
[2] Bəxtsizlik, talesizlik
[3] Başını itirmiş, çaşmış

## GƏLMƏDİ

Ey ağalar, könlüm çapdı əylənməz,
Sultanım, sərdarım, ağam gəlmədi.
Dərdi-qəm tapdağı olmuşam həmin,
Göz qaldı yollarda, sonam gəlmədi.

Qülbeyi-hicranda[1] qalmışam həmin,
O şahibazımın[2] çəkərəm qəmin,
Bu dərdlə ölməyim olubdu yəqin,
Üstümə gözləri alam[3] gəlmədi.

Həmişə ahü-zar olub əzbərim,
Bilirmi halımı şahi-sərvərim,
Yazıq bu halına, a Mücrim Kərim,
Can çıxınca dedim, halım gəlmədi.

## KİM OLA?

Fələyin əlindən qılan ahü-zar,
Biri mənəm, biri yarəb kim ola?
Gülü-rüxsarına çəkən intizar,
Biri mənəm, biri yarəb kim ola?

Ey gözləri cəllad, qaməti mövzun[4],
Bu qədər bəndəni eyləmə dilxun[5],
Sərkeşteyi-aləm, halı digərgun[6],
Biri mənəm, biri yarəb kim ola?

Kərimin könlünü eləmə viran,
Zülmündən usanıb, halına bir yan,
Hicran ələmindən didəsi giryan,
Biri mənəm, biri yarəb kim ola?

---

[1] "Bu dünyanın hicranında, matəm xanasında qalmışam" mənasındadır
[2] Tərlanımın, şahinimin
[3] Ala gözlüm
[4] Biçimli, yaraşıqlı
[5] Kədərli, qüssəli, ürəyi qana dönmüş
[6] Pozğun, bərbad

## OLMAZ

Fürsət əldə ikən yaxşılıq eylə,
Həmişə əlində ixtiyar olmaz.
Gəl güvənmə dövlətinə, malına,
Mala, mülkə, ömrə etibar olmaz.

Dörd yanımız bağça ola, bağ ola,
Sinəm üstü düyün ola, dağ ola,
Bir kiçik ki, böyüyünə ağ ola,
Düşər el gözündən, bəxtiyar olmaz.

Ululu Kərimi axtaran tapar,
Bir könülü yapan Kəbəni yapar.
Sən çalış işini haqq ilə apar,
Haqdan qeyri kimsə sənə yar olmaz.

## DUL ARVAD

Bəndədən utanmaz, hakimdən qorxmaz,
Nədə baxmaz o movlaya dul arvad.
Gəzər qonşuları xəbər öyrənər,
Onları obaya yaya dul arvad.

İşlərə can verməz, köndələn yatar,
Dolusun yeyibən, boşların atar,
Arpanı, buğdanı gizlincə satar,
Verər əməyini zaya dul arvad.

Dul arvad alanlar bixəyal olur,
Dul arvadda qərib-qərib hal olur,
Gecə-gündüz işi qeylü-qal olur,
Salar səni bir davaya dul arvad.

Eşidin Kərimin bu nəsihətin,
Qız alanlar sürər ömrün ləzzətin,
Götürmək asanddı, saxlamaq çətin,
Vallah, dəyməz bir paraya dul arvad.

## CAHANA

Ey gözəllər şahı, şuxi-nazənin,
Yetişibdi hökmün külli-cahana.
Bilirsən nə qədər yaxşı yaraşır,
Zərəfşan kəmərin incə miyana.

Gəlməyib dünyaya sən kimi dilbər,
Gülrəngi ləblərin yaquta bənzər,
Dolanım başına ey pəripeykər,
Zülfünə hər səhər eyləmə şana.

Pərişan tellərin aldı qərarım,
Mayiləm hüsnünə sevgili yarım.
Çeşmi-siyahimsən, laləüz yarım,
Mən heyran olayım sən kimi cana.

Şahbazi-aləmsən, mən səni billəm,
Düşübən torpağa yolunda ölləm,
Danəyi-xalının qurbanı ollam,
Qəbul elə, sən ey şahi-zamana.

Camalın artıqdı şəmsü-qəmərdən,
Yolunda keçmişəm can ilə sərdən,
Biçarə Kərimi salma nəzərdən,
Əgərçi kafirəm gəldim imana.

## QILMISAN

Eşitmişəm bir neçə əhvalını,
Bir özgəyə əhdü-vəfa qılmısan.
Tərk eləyib yari-vəfadarını,
Rəqib ilə zövqü-səfa qılmısan.

Ayrılalı sənin kimi dildardan,
Yarına heç fərq qoymadın əğyardan,
Canım alıb bu cəsədi-bimardan,
Hər yetənə xeyrü-dua qılmısan.

Zənn elədim bu dostluğun binası,
Tərk olmayıb, kəsilməyə arası,
Ta olasan dərdli könül davası,
Yoxsa gedib qeyrə dəva qılmısan.

Heç yox imiş səndə vəfa, dəyanət,
Belə olmaz dost işinə ləyaqət,
Tərk eləmək min fəqiri nə hacət?
Məlum ki, bir özgə hava qılmısan.

Dedigincə beyətiniz var imiş,
Mətləbiniz bir özgə dildar imiş.
Kərim sənə rəqibü-əğyar imiş,
Axır məni belə cida qılmısan.

## *TƏCNİSLƏR*

### QARŞI

Səhər-səhər günəş pərtöv salanda,
İstər ki, səmadan ay aza qarşı.
Gah münəvvər olur, artırır kamal,
Gah özün yetirir ayaza qarşı.

Eşq bəhrinə daldım, dərdinə qaldım,
Mənsur tək çəkildim, dərində qaldım,
Kəlbin tək yaslandım, dərdinə qaldım,
Gecələr sızlaram ayaza qarşı.

Gir bağa gəşt elə olanda yar hey!
Sözün bülbül kimi olanda yar hey!
Özün Sultan Mahmud olanda yar hey!
Kərimi də oxşat Ayaza qarşı.

## HA BULAR, BULAR

Səhər dost zülfünə şanə çəkəndə,
Yayılar aləmə ha bular, bular.
Hər kəs ki, sidqilə murad istiyə,
Əlbəttə, mətləbin ha bular, bular.

Sərrafın dəstində nə danə dedim,
Xalın can quşuna nə danə dedim,
Sirrin dərdin bilməz nadanə dedim,
Anlamaz, başını ha bular, bular.

Bayqu üçün məskən oldu o diyar,
Qəmzən ilə bağrım başın odduyar,
Evdən çıxdı yalın qılınc odu yar,
Bilirəm qanıma ha bular, bular.

Aşığı kəlbin tək kim dərdə saldı?
Könlünün şəbnəmin kim dərdə saldı?
Bu Mücrim Kərimi kim dərdə saldı?
Ah çəkib gözlərin ha bular, bular.

## *DİVANİ*

### ONA

Munda kim var deyim yari-vəfadarım ona,
Çəkibən xəlvətə bir sir açım əsrarım ona,
Göstərim dağü-dilim, söyləyim azarım ona,
Hanı bir dərdi bilən bir para, yalvarım ona.

Qiblədən qaşları yay kilsəyə döndərdi məni,
Ay kimi əhli-şəhər bir-birə göstərdi məni,
Yay kimi əydi bu bidərdlilərin dərdi məni,
Hanı bir dərdi bilən bir para, yalvarım ona.

Pəri tələtli sənəm çox, vəli adəmliyi yox.
Başadək bir kəs ilən həmrəhü-həmdəmliyi yox,
Eyləsə mehrü-vəfa, zərrəcə möhkəmliyi yox.
Hanı bir dərdi bilən bir para, yalvarım ona.

Haçanadək qəmi-hicrana düşüb, qəmdə ölüm,
Ruzi-vəslinə onun yetməsəm ol dəmdə ölüm,
Dəymə Mücrim Kərəmə, qoy məni ölsəm də ölüm,
Hanı bir dərdi bilən bir para, yalvarım ona.

## *DİVANİ-MÜXƏMMƏS*

### AYRILIQ

Ah, kim könlüm binasın etdi viran ayrılıq,
Qıldı əhvalım yaman, hər vaxtı, hər an ayrılıq,
Çəkdi yüz daği-bəla sinəmdə pünhan ayrılıq,
Qıldı könlüm çeşməsin qan ilə qəltan ayrılıq,
Zülfünə nisbət qılıb, halım pərişan ayrılıq.

Qanə dönmüş könlümü hicrilə mötad[1] eylərəm,
Belə keçsə halımız dünyanı bərbad eylərəm,
Hər zaman yüz təhr ahü-nalə bünyad eylərəm,
Qalmışam nalan[2] qəfəsküncündə fəryad eylərəm,
Gül kimi qıldı məni çaki-giriban ayrılıq.

Dudi-ahim zəxməti əhli-cahanı ağladır,
Yadi-vəslin söhbəti bu binəvanı ağladır,
Küfrü zülfün arzusu dinü imanı ağladır,
Ahi-naləm heybəti ərzi, səmanı ağladır,
Göstərib axır mana yüz daği-hicran ayrılıq.

Olmuşam rəncuri xəstə, səbrilə möhnət çəkib,
Əyləşib qəmxanədə qan ağlaram, zəhmət çəkib,

[1] Adət, vərdiş edilmiş
[2] İnildəyən, ağlayan

Hər yetən adama tutub üz bəsi minnət çəkib,
Bülbüli-şeyda kimi rüxsarına həsrət çəkib,
Qıldı hərdəm zar müztərr[1], didə giryan ayrılıq.

İstərəm dəhri-qəmin hər nə əzabı var olam,
Neyləyim hicran sarıda bikəsəm, qəmxar olam,
Könlümün yanmaqlığından ahi-atəşbar olam.
Kakilin sərriştəsində istərəm züniar olam.
Etdi biçarə Kərimi Şeyx Sənan ayrılıq.

## ***QƏZƏLLƏR***

### TUFANA

Biydad! Çərxi-gərdun saldı bizi əmanə,
Sənsiz dönübdü ey gül, gözüm yaşı tufanə.

Şəhla gözün havası fikrimdədi həmişə,
Çəkib hilalı əbru müjgan oxum kəmanə.

Mən istərəm xudadan hər vaxt gahi-gahi,
Kirpiklərin xədəngi qılsın məni nişanə.

Sevdayi-zülfü qıldı sərkəştə ən dü aləm,
Aldı tamam səbrim dəxl eylədi imanə.

Yarəb, bir gün olaydı bir də görəm camalın,
Şükranələr edəydim məbudi-laməkanə.

Ayrılmışam həbibdən, çatmaz əlim, nə çarə?
Məhbus qılmışam mən, dərdim gəlməz bəyanə.

Vəsl içrə ey Kərima, səbr eyləməzdin axir,
Bəs imdi ayrı düşdün, qan ağla bitəmənna.

---

[1] Naxoş, incimiş

## EYLƏMƏZ

Aşiqin yar istəsə halın pərişan eyləməz,
Aşiqə meyl etməyib xarin fəravan eyləməz.

Yandırıb bimar cismin hər gülün verməz yelə,
Günbəgün halın şikəstə, sinə büryan eyləməz.

Döndərib üz yardən, əğyara qılmaz iltifat,
Hicr əyyamında hərgiz didə giryan eyləməz.

Yara biydad eyləyib, biganə könlün almağa,
Beylə nahaq zülmü heç insana insan eyləməz.

Zülməti-hicrində qaldım ta səhər, gəlməz hənuz,
Könlümü cəm etməyə zülfün pərişan eyləməz.

Çox əcəbdir qəmzə bimarı olan bikəslərə,
Naz ilə cövlan edib şəhdin xuraman eyləməz.

Ey Kərim, incitdi əfğanın qamu aləmləri,
Dəm urarsan eşqidən, aşiqlər əfqan eyləməz.

## ƏLVİDA!

Ey könül, fikrin nədi, çün gəldi hicran, əlvida!
Ölməyim xoşdur, gərəkməz cismi-bican, əlvida!

Neylərəm gülşən tamaşasında nərgis söhbətin,
Çün gedər hər söhbətimdən çeşmi-məstan, əlvida!

Bülbülə gül arzusu, aşiqlərə didari-dust,
Bir bəladır müddəası ahü əfğan, əlvida!

Qalmadı gülşəndə səbzə, guhsarın laləsi,
Görməyə bir daği-hicran çərxi-dövran, əlvida!

Sinəçak oldu qəmindən qönçələr fəsli-bahar,
Qıldı rüxsarın xəyalı bağrını qan, əlvida!

Şövq rüxsarın xəyalı gör nə qıldı bülbülə,
Qəm budağında oxur zarilə hər an, əlvida!

Ayrılıqdandır bənövşə sərnigun olmuş müdam,
Ey Kərim, qıldı anı xak ilə yeksan, əlvida!

# MƏHƏMMƏD BƏY AŞİQ
(XIX əsrin I yarısı)

## *GƏRAYLILAR*

### MƏN

Ey gül, rəhmin kəsmə məndən,
Valehü heyranınam mən.
Bir zaman qovma kuyindən,
Bülbülü xoşxanınam mən,

Müşgül iş dərdi-firqətdi,
Tut əlimdən mürüvvətdi,
Nə desən cana minnətdi,
Bəndeyi-fərmanınam mən.

Dərdin Aşiqə dərmandı,
Zəhər versən nuşi-candı,
Tez öldür, qoyma amandı
Kim, sənin qurbanınam mən.

### ƏLİNDƏN

Qan ağlar can quşu daim,
Rəhmsiz səyyad əlindən.
Öldürməz, eyləməz azad,
Ha çəkər, fəryad əlindən.

Sultani-eşqidir zalım,
Yaman yerə yetib halım,
Dil şəhri ilə xəyalım,
Olubdu bərbad əlindən.

Zülmündən ol sitəmkarın,
Naləsindən dili-zarın,
Bir neçə gün ruzigarın,
Olmadı dildaş əlindən.

Növgi müjganları səf-səf,
Eşq əhlini qılmış hədəf,
Atsa yayınmaz hər tərəf,
Çıxmışlar ustad əlindən.

Gözlərini Aşiqi-zar,
Sevəndən bəridir bimar,
Məni tari, öldür, qurtar,
Ol iki cəllad əlindən.

## BU

Beylə ki, bir könül olmaz,
Acizü binəvadır bu.
Eyləyib zülfündən məskən,
Əcəb günü qaradır bu.

Cəmiyyəti-dərdi aləm,
Ətrafında görənlər həm,
Sorsalar nədir? Deyərəm:
Yardan gələn bəladır bu.

Səri-kuyinin həmdəmi,
Nə dərdi var, nə də qəmi,
İstəməz külli-aləmi,
Özgə zövqü səfadır bu.

Ağzını dərdimə dərman,
Gərçi derlər, yoxdur güman,
Müşkül oldu aman, aman,
Bir dərdi-bidəvadır bu.

Dərdində eyləsən şivən,
Desə kimdir o məh, bilmən,
Bir deyin Allahı sevən,
Aşiqi-binəvadır bu.

## QADASIN ALDIĞIM

Aşiqinəm sənin axı,
Əzəl qadasın aldığım.
Cana vurub məhəbbətin,
Çəngəl, qadasın aldığım.

Can çıxır, könül neyləsin,
Dərdini kimə söyləsin,
İstər sədaqət eyləsin,
Tez gəl, qadasın aldığım.

Salma könlün iztiraba,
Zülfün içrə picü taba[1],
Sataşma xanəxəraba,
Dincəl, qadasın aldığım.

Seyrəqibdən iba qıllam,
Kuyində görmüşəm, ölləm,
Rəşkdən sayəni billəm,
En gəl, qadasın aldığım.

Qulum deyib ey şahzada,
Salmadın Aşiqi yada,
Olurmu sən tək dünyada,
Gözəl, qadasın aldığım?!

## AYRI

Niyə məni dərdi-hicran,
Öldürür ol yardan ayrı.
Qan tökmə mərdumi[2] çeşmim,
Çeşmi-xunxarıdan[3] ayrı.

---

[1] Qarmaqarışıqlıq, pərişanlıq qıvrılmaq
[2] Göz bəbəyi
[3] Qaniçən, zalım, qəddar

Nazilə sallanar o mah,
Yaxıb canım, alır nagah,
Getmənəm behiştə billah,
O xoş göftarından ayrı.

Kəsilibdi ahü-naləm,
Firqətindən yaman haləm,
Əndəlibi-nitqi laləm,
Güli-rüxsarından ayrı.

Qəmindən əl üzə bilmən,
Bir gün onsuz dözə bilmən,
Tutmuşam xu[1], gəzə bilmən,
Naleyi-zarıdan ayrı.

Öləndə Aşiqi-şeyda,
Gəlib üstə edin qovğa,
Desinlər heyif, səd heyfa,
Getdi dildarından ayrı.

## AYRILMIŞ

Mərdümi-çeşmin qan ağlar,
Xali-hindudan ayrılmış.
Sızıldar mürği-dil[2] daim,
Zülfi-xoşbundan[3] ayrılmış.

Qoynunda bağü bostanın,
Barvərdir Gülüstanın,
Sanasan iki büstanın,
Şaxi-limudan ayrılmış.

Qayıdıb baxmağın hər yan,
Görən kimi qalır heyran,
Deyirlər yarəb bu ceyran,
Hansı ahudan ayrılmış.

---
[1] Xasiyyət, qılıq
[2] Könül quşu
[3] Xoş ətirli

Əgər tab etməz hicrana,
Məzəmmət etməyin cana,
Para-para olur şana,
O tari-mudan ayrılmış.

Qaşın şövqilə peyvəstə,
Qaməti olub şikəstə,
Dirilməz Aşiqi-xəstə,
Tağı əbrudan ayrılmış.

## İSTƏR

Mənim divanəvəş[1] könlüm,
Bir zülfi-piçü tab[2] istər,
Öz əlilə aça hər şəb[3],
Ay üzündən niqab istər.

Səfhəsi abü tabından,
Ayəyi-xətt hesabından,
Məshəfi-hüsnü babından,
Hər sənəm bir kitab istər.

Hər gündə göydən məsiha,
Gəlir dərgahına əmba,
Möcüzi-ləbindən guya,
Sual eylər, cavab istər.

Könüllər hayü huyundan,
Dil üzməm tari-muyundan,
Hər səhər mahi-muyundan,
Pərtövin afitab istər.

Aşiqi məstdir gözündən,
Xəbəri yox öz-özündən,
Baxdıqca doymaz üzündən,
Zülfünü bihesab istər.

---

[1] Dəli kimi, dəliyə oxşayan

[2] Qarmaqarışıqlıq, pərişanlıq

[3] Gecə

## GÖZLƏRİN

Ləbin can versə üşşaqə[1],
Yenə tez alı gözlərin.
Bir göz baxmaz xəstəsinə,
Nəzərdən salı gözlərin.

Çəkmiş üzə tiqi-əbru,
Durmuş xəttü xali-hindu,
Dil qəsdinə mudam keysu,
Qurmuş bəlalı gözlərin.

Yüz tərəfdən olsa kömək,
Mümkün olmaz tab eyləmək,
Qayıdıb yorğun maral tək,
Baxanda dalı gözlərin.

Hər yan səfi-müjganıdır,
Aləm onun heyranıdır,
Guya Xütən ceyranıdır,
Ya Çin qəzalı gözlərin.

Gənci-hüsnün pasibanı[2],
Kəc nigahı alır canı,
Aşiqin dini, imanı,
Həm mülkə, malı gözlərin.

## GƏLDİM

Firqətindən ey dilbəra,
Təngə yetib, cana gəldim.
Sənsiz bu xəstə könlümün,
Əlindən amana gəldim.

Məni bu dildəki nalə,
Saldı bir özgə xəyalə,
Getdim yetmədim vüsalə,
Yenə yana-yana gəldim.

---
[1] Aşiqlərə
[2] Gözətçi, qarovulçu

Bir zaman kuyində qalsam,
Qolumu boynuna salsam,
Küfr zülfün ələ alsam,
Elə bil imana gəldim.

Hicrində qaldım avarə,
Rəhm edən yox dili zarə,
Sən özün elə bir çarə,
Kim, sizin divanə gəldim.

Aşıq, yamandır zəmanə,
Etibar olmaz xubanə,
Qoymuşam mərdü-mərdanə,
Bu başı meydana, gəldim.

## *QOŞMALAR*

### OLUBDUR

Səndən ayrı işim mənim, ey dilbər,
Gecə-gündüz ahü-əfqan olubdur.
Təğafül[1] vəhmindən zülmü sitəmin,
Bizim barəsizdə ehsan olubdur.

Ləhzə-ləhzə halın sorduğun könlüm,
Gündə min təsliyət verdiyin könlüm,
Daim şadü-xürrəm gördüyün könlüm,
İndi dərd əlindən viran olubdur.

Nə istərsən zalım, mən binəvadan,
Bir gün əl çəkməzsən cövrü cəfadan,
Sanma indi, bil ki, qalü bəladan,
Gözlərim hüsnünə heyran olubdur.

Haçan almamışdın ağlımı sərdən,
Oxurdum məshəfi-hüsnün əzbərdən,
O gündən ki saldın gözdən, nəzərdən,
Mənim halım çox-çox yaman olubdur.

[1] Özünü bilməzliyə qoyma, yaddan çıxarma, unutma

Heç yada salmazsan mən dilfigarı[1],
Səni nə bimürvət yaradıb tarı,
Dəhanın şövqündən Aşiqi-zarı,
Öldürübən, daği-pünhan olubdur.

## SEVMİŞƏM

Tazədən bir işə düşmüşəm yenə,
Ala gözlü bir şux gəlin sevmişəm.
Mina gərdənini, tər sinəsini,
Rəna qəddin, qulac qolun sevmişəm.

Qədrü-qiymət bilən bir əsilzada,
Namü nişanını demənəm yada,
Sərasər əndamı oxşar şimşada,
Nazik ayaqların, əlin sevmişəm.

Bəyənmişəm onun məcnun karın,
Şövqündə var idim bir belə yarın,
Xoş ədasın, xoş rəftarü göftarın,
Danışanda şirin dilin sevmişəm.

Görməmişəm belə zülfü dəhan tək,
Yüz min əsiri var əlbəttə, mən tək,
Gülüstana düşmüş zağü-zəğən[2] tək,
Ay qabaqda siyah telin sevmişəm.

Mişkin[3] kakilinin sərgəştəsiyəm,
Növgi-müjganının dil xəstəsiyəm.
Aşiqəm, zülfünün pabəstəsiyəm[4],
Uzun saçın, incə belin sevmişəm.

---

[1] Ürəyi yaralı
[2] Qara qarğa
[3] Müşk qoxulu
[4] Əsiriyəm, dustağıyam

## GƏZƏR

Bilirsənmi könlüm, yar, səndən ayrı,
Necə miskin-miskin, natəvan gəzər.
Düşüb səhralara şeydalar kimi,
Gecə-gündüz bilməz, hər zaman gəzər.

Bir dilbəri-əla, çeşmi-məstanə,
Qüssəsindən könül oldu viranə,
Bilmirəm ki, neyləmişəm cananə,
Hər görəndə məndən belə yan gəzər.

Firqətindən qara bağrım olub su,
Alıbdı qərarım ol zülfü keysu,
Mən olmuşam ləli-ləbindən ayru,
Deyərlər ki, cismində bəs can gəzər.

Niyə Aşiq unudubdu hər karı,
Sevibdi bir şxui-çeşmi-xunxarı,
Ol yanağı mahı, lalə ruxsarı,
Necə qıyar zülfü-pərişan gəzər.

## SƏN-SƏN

Səni tarı, məndən olma mükəddər,
İncitmə bu dili-viranı sən, sən!
Neylərəm dünyanı əzizim, sənsiz,
Bilirəm dərdimin dərmanı sənsən.

Gözəldi camalın, hüsnündü cəmil,
Öldüm hicranından, qalmışam xəcil,
Başın üçün ey gül, dolansam yüz il,
Könlümün mülkünün sultanı sənsən.

Vamiqin Əzraya var idi meyli,
Onunçün axardı gözündən seyli,
Yusifin Züleyxa, Məcnunun Leyli,
Mənim də canımın cananı sənsən.

Hər nə ki ərz etdim, ona bitmədin,
Şad eləyib, bizə gəlib-getmədin,
Könlüm alıb, bir yol qəbul etmədin,
Bu qədər ki çəkdin amanı, sən, sən!

O gizli baxışın alıbdı canı,
Cadu qəmzələrin verməz amanı,
Tarı hifz eyləsin növgi-müjganı,
Aşiqin qatili-pünhanı sənsən!

## *TƏCNİS*

### SƏNƏM!

Nə müddətdi həsrətini çəkirəm,
Bircə üzün görüm ay ağa Sənəm!
Hicranın əlindən xəstə düşmüşəm,
Daha dura bilməm ayağa, Sənəm!

Cavan ömrüm necə verdin bada gör,
Firqətindən nə xətt, qəddim bada gör,
Ləlin ilə bəhs eləmiş bada gör,
Onunçün tez düşər ayağa, Sənəm!

Cadu gözlü, oxşar üzün sər aya,
Xalü-xəttü-zülfü-ruyin, sar aya,
Yüz naz ilə sən çıxanda səhraya,
Gün gizlənir, olur Ay ağa, Sənəm!

Gör nələr xəlq edib tarı zülfündə,
Görməyibdi eyni, tarı zülfündə,
Mürği-dil bağlanıb tari-zülfündə,
Qoymagilən düşsün a yağa, Sənəm!

Aşiqəm hüsnünə ay aman, gözəl!
Baxmaram zərrəcə aya mən, gözəl!
Ləblərin şəhdindən ay əmən gözəl,
Meyl eləməz qəndə, bal, yağa, Sənəm!

## QASIM BƏY ZAKİRƏ

Mat qalmışam bu dövranın işinə,
Heyranam vallahı, billahı, Qasım!
Gah saz ilə nasaz, nasaz ilə saz,
Gah olur naəhlin həmrahı, Qasım!

Gah görürsən birin sərəfraz eylər,
Gah birilə çəm-xəm qılar, naz eylər,
Gah birin götürüb biniyaz eylər,
Gah dönür, tez olur bədxahı, Qasım!

Görürsən ki, gahi acı tox eylər,
Məhvəşlər zülfü tək azı çox eylər,
Bir ağız ucuya varı yox eylər,
Yoluna gətirər gəmrahı, Qasım!

Neylərik biz onu çox axtarmağı,
Çünki varıq beh on günün qonağı,
Gəl oturaq, duraq bu baharçağı,
Qüdrətə eyləyək nigahı, Qasım!

Aşiqi zar etmiş bir ənbərgeysu,
Salıbdı canına bir qara qayğu,
Yandırır, öldürür bir gözü cadu,
Heç bilməz ki, nədi günahı, Qasım!

## AŞIQ PƏRİYƏ

Təxəllüs nə lazım ey Aşıq Pəri,
Bir kəs ki, mehrdən xəbərdar ola.
Könüldən-könülə yollar görünür,
Əlavə nə hacət aşikar ola.

Xoş yaradıb səni ustadi-əzəl,
Hüsnü vəcahətdə yektayi-bədəl,
Dizaq malahında sənin tək gözəl,
Haqdan istəmişəm bərqərar ola.

Əhli-halı görmək istər əhli-hal,
Müzayiqə etmə gər olsa məcal,
Sənin tək dərdimənd olmayan mahal,
Görüm ki, dağılıb tarimar ola.

Belə işin nə ləzzəti, nə dadı,
Xublar bilə gərək aşnaşı, yadı,
Çəkəsən ağuşa bala Fərhadı,
Bir şirin didar ki intizar ola.

Ağlını cəm elə, olma sərsəri,
Səndə yoxdu eşqibazlıq əsəri,
Fəhmü fərasətdə yüz sən tək Pəri.
Gərək Məhəmmədə xidmətkar ola.

## SEVDİYİM

*Aşıq Pəriyə*

Sizin yerdə nə adətdi Fərhada,
Böhtan deyən aşinaya, sevdiyim.
Qonaq ilə ev sahibin tanımaz,
Oxuyasan yuz min ayə, sevdiyim.

Dizaq mahalının Fərhadı olub,
Xosrovu Şirinin fəsadı olub,
Hiylə bazarının ustadı olub,
Nə deyərsən bu sevdaya, sevdiyim.

Aşığınam canü dildən, ey Pəri!
Dərdi-fərağından oldum sərsəri,
Eşq əhlinin yarı, nazlı dilbəri,
Şikayət verən gün, ayə, sevdiyim.

Bilməzsən ki, ey məhbubi kamilə,
Nəsihət etməzsən neçin cahilə,
Belə iş yaraşmaz hərgiz aqilə,
Qulaq asma hər ədnayə, sevdiyim.

Özün bir dərd əhli, bir qədirbilən,
Danışıban deyən, oynayıb gülən,
Aşiqin kuyuna durmayıb gələn,
Dərdindən düşmüşəm payə, sevdiyim.

## AŞIQ PƏRİYƏ

Ustadı-əzəldən dərsim almışam,
Mayiləm hər yerdə qovğaya, Pəri!
Ziddü cinsü rədif sözün danışma,
Mən desəm düşərsən ah-vayə, Pəri!

Əlindəki badə olsun, saz olsun,
Hərəkətin işvə olsun, naz olsun,
Yekə yerdən danışmağın az olsun,
Düşərsən bir dərin dəryayə, Pəri!

Müəşşərin hər bəndində naçarsan,
Mən açmaram, yenə özün açarsan,
Bu işindən yəqinimdi qaçarsan,
Axırda məlikə, mirzəyə, Pəri!

Qafiyə gərəkdi ola dilməsənd[1],
Nəki belə məğşuş ola, dərdimənd!
Bilmirəm ki, sənə eyləyim rişxənd,
Yoxsa onu yazan mollaya, Pəri!

Ləblərinin müsəffası Aşiqi,
Dəhanının müəmması Aşiqi,
Siyah zülfün təmənnası Aşiqi,
Salıbdı bir uzun sevdayə, Pəri!

---

[1] Könül bəyənən, ürəyə yatan

# OĞLANA

*Aşıq Pəriyə*

Aşıq Pəri, bir göftügu[1] eşitdim,
Namizəd olmusan bir şux oğlana.
Əgər doğru isə gözümüz aydın,
Barı gəlməyəydin çeşmi-yamana.

Əhli-haldan yəqin kəsmisən ülfət,
Nadan ilə tutdun rəsmi-məhəbbət,
Sifariş qıl mənə ey bimürüvvət,
Deyən varmı görüm bu sözü xana.

Hər kəs ki yolunda çəkdi çox cəfa,
Bir gün vüsalından görmədi səfa,
Nə dilin var ey Pəriyi-bivəfa,
Fərhadi-şirinər, Məlik Aslana.

Aşiq seyr eylədi, gəzdi cahanı,
Görmədi sən təki bir bivəfanı,
Qoynun içindəki bağü bostanı,
Nə hasil tapşırdın naşı bağbana.

[1] Söhbət, danışıq

# PADARLI ABDULLA
(XIX əsr)

## *BAYATILAR*

Köynəyim dardı mənim,
İşim ah-zardı mənim,
Abdulla yalan deməz,
Kəbəm Padardı mənim.

Kür üstündə kənd olu,
Dörd tərəfi bənd olu,
Yarın acı sözləri
Abdullaha qənd olu.

Qaranquş yuva bağlar,
Yurd salar, yuva bağlar,
Abdullah ah çəkmədən
Axırda hava bağlar.

Abdullah, apar indi,
Düşmanlar tapar indi,
Sən öldün, mən də öldüm.
Qiyamət qopar indi.

Abdullah, məzə dərdə,
Can gərək dözə dərdə.
Həkim ona deyərəm,
Dərman görkəzə dərdə.

Bu dağları qarısın,
El-obaya yarısın,
Abdullah, yaxşı dostu,
Nə ölsun, nə qarısın.

## *GƏRAYLI*

### GETDİ MƏNİM

Ay ağalar, ay qazılar,
Yar əlimdən getdi mənim.
Yar üzünə tamarzılar,
Yar əlimdən getdi mənim.

Özünün var idi meyli,
Məcnun idim, o da Leyli,
Gözündən tökübən seyli,
Yar əlimdən getdi mənim.

Heç kimdə olmaz belə dərd,
Həmişə mən deyərəm fərd,
Atası çıxdı çox namərd,
Yar əlimdən getdi mənim.

Aldandılar mala, pula,
Leylimi verdilər dula,
Bu gecə saldılar yola,
Yar əlimdən getdi mənim.

Abdullahın yoxdu varı,
Əldən gedib nazlı yarı,
Kömək edin, sizi tarı,
Yar əlimdən getdi mənim.

## *QOŞMALAR*

### BƏYƏNMƏZ

Ay ağalar, bir zəmanə gəlibdir,
Həmtay olan heç həmtayı bəyənməz.
Qara qızlar sürmə çəkib gözünə,
Gözəllikdə Züleyxanı bəyənməz.

Müqəddəm bəylərə verirdi qəlyan,
Xəlayiqi quduz kimi dalayan,
Ayaq üstə sini dibi yalayan,
Qohum-qardaş, əmi-dayı bəyənməz.

Namərdlərin dolu olur torbası,
Deyir: mənəm tacirlərin zorbası,
Ya bunların artıq düşüb arpası,
Düldül kimi badi-payı bəyənməz.

Kor bəyənməz mütləq gözü görəni,
Kar da qulaqları darı dələni,
Hampalar incidir çörək verəni,
İt qudurub, qaysavayı bəyənməz.

Yəqin gündüz gözə bilməz yarasan,
Gecələr də deyər: mənimdi dövran.
Cib-cib ilə alacəhrə, bitdiyan,
Oxumaqda torağayı bəyənməz.

## OLDUN?

Başına döndüyüm xubların şahı,
Bir de görüm, indi kimə yar oldun?
Kim öyrətdi səni, kimlər ayırdı.
Hansı eşqə düşüb biilqar oldun?

Mən çəkdim yolunda cövrü-cəfanı,
Sən sürdün qeyrilə zövqü-səfanı,
Yenə üzdün məndən əhdü-vəfanı,
Kimlərin sözüylə məndən zar oldun?

Haçan, dilbər, iki kəlmə danışdıq?
Bir xəlvətdə bir-birmizə sarışdıq?
Haçan görüm öpüb, qucub, barışdıq?
Haçan dövran sürüb bəxtiyar oldun?

O şeytanın, görüm işi zar olsun,
Doğranıb, tökülüb, xəlqə car olsun,
Bir yara can ver ki, sənə yar olsun,
Sən ki, gedib özgələrə yar oldun?!

Qəm çəkməkdən canım üzüldü, billah,
Dilbəri görsəniz deyərsiz: Allah,
Neyləmişdi sənə fəqir Abdullah,
Əğyarə gül olub, ona xar oldun?!

## GÖRMƏDİM

Va həsrəta, çərxi-fələk əlindən,
Çünki dostu-mehribanı görmədim.
Camali-kamalın dildən eşitdim,
Nə fayıda zənəxdanı görmədim.

Neçə müddət könül intizar idi.
Fikrim, zikrim xəyalımda yar idi,
Dedilər ki, yaxşı dövran var idi,
Mən çox gəzdim o dövranı görmədim.

Devreyi-ruyunu almış təravət,
Yandırdı ciyərim nari-fəraqət,
Əzrayıl tək gəldi ruzi-qiyamət,
Getdim sidri-müntəhanı görmədim.

Səndən ayrı ahü-fəğan edirdim,
Bu sirrimi xalqa nəhan edirdim,
Könül məclisində seyran edirdim,
Baxdım şəmi-şəbistanı görmədim.

Abdullayam, baş açmadım bu sirdən,
Fələk üz döndərdi mən tək fəqirdən,
Möcüzləri xəbər aldım səfirdən,
Cavab verdi: “Məsihanı görmədim”.

## BU NİŞANDADIR

Ey ağalar, həsrətini çəkərəm,
Bu mələkmənzərin nə zamandadır.
Onun gözəllikdə yoxdu həmtayı,
Nə Rumu əcəmdə, nə İrandadır.

Ənbər muyun həm pərişan edəndə,
Rəna yeriyibən, sərxoş gedəndə,
Ağıl başda qalmaz, həm ruh bədəndə,
Sevdası sərimdə, eşqi candadır,

Günəşdir uruyu, mahi-müşəkkəl,
Bu əsridə gözəlliyi bibədəl,
Gərdəni sürahi, zülfü müsəlsəl,
Abdullahın yarı bu nişandadır.

## QAYITDI

Bir nazənin huri, mələk simalı,
Gəldi, məni gördü, güldü, qayıtdı.
Punhani göstərib gül yanağını,
Tər üzünə şəbnəm doldu qayıtdı.

Vəsf eyləmək olmaz xəttü-xalını,
Soruşmadı şikəstənin halını,
Nagahan göstərdi gül camalını,
Biçarənin canın aldı qayıtdı.

Mən görmüşəm gözəllərin çoxunu,
Belə olmaz amma boyu, buxunu,
Müjganından çəkdi xədəng oxunu,
Yaralı canıma çaldı, qayıtdı.

Gözləri ki, gözlərimə yetişdi,
Mürdə cismim eşq oduna tutuşdu,
Şahirahdan qıya baxdı, ötüşdü,
Yollarında gözüm qaldı, qayıtdı.

Biçarə Abdullah, gəşt etdi bağı,
Zülmətlərin nuru, aləm çırağı,
Çaharşənbə günü, ilkindi çağı,
Gəldi, səni dərdə saldı, qayıtdı.

## OLSUN

Bulud göydə düzüm-düzüm düzülür,
Get gözəl, səfərin mübarək olsun.
Gözlərimdən abi-neysan süzülür,
Get gözəl, səfərin mübarək olsun.

Nə tutmusan qızıl yəhər qamışdan,
Qəm çəkmə sən, gözdən axan yaşımdan.
Sən ki getdin, ağlım gedər başımdan,
Get gözəl, səfərin mübarək olsun.

Sən ki varsan, bu aləmin alısan,
Cümlə bu dünyaya şəfəq salısan.
Yüz il getsən Abdullahın yarısan,
Get gözəl, səfərin mübarək olsun.

## ***TƏCNİSLƏR***

### A SAYƏLƏNDİ

Təşrifi-yarımın sədası gəldi,
Şikəstə çırağım a sayələndi.
Fuladi-qəm idim var içindəykən,
Külli-şərarım a sayələndi,

Məst oluban durub ayağa, gedər,
Şərabi-nabdan ayağa gedər,
Vaxt olu ki, bir gün ay ağa gedər,
O kimdir ki, haqdan a sayələndi?

Firqət dəryasında Tanrı dağıtdı,
Fəzlət meydanında Tanrı dağıtdı.
Nagəhan qəzadan Tanrı dağıtdı,
Ol dəm ki, səmadan a sayələndi.

Dedilər: yarımdan yox müşabehi[1],
Dedim ki, yalandır, yoxmuş a behi,
Görəydim aləmdə yoxmu şabehi,
Abdullah, gülşənin a sayələndi.

## BAX!

Ey sevdiyim, məni asitanəndən
Ayrı saldı səg sifətli, Qara bax.
Dedim: qəmə qərqəm, gəl əlimdən tut
Demədim ki, gəl başıma qara, bax!

Gəştə çıxıb süsən, sünbül dərin də,
Gül üzünə inci düzmüş tərin də,
Kəlbin olub bağlanmışam dərində,
İnanmırsan, sal boynuma qara bağ.

Görün, dövran bizi aya tən eylər,
Alim olan oxur, aya tən eylər,
Münəvvər camalın aya tən eylər,
Ağ sinən istisna qılar qara, bax!

Sərrafam, istərəm gərək dür mənə,
Lütf eylə bürqəni, gərəkdir mənə.
Yar səndən ayrılsam gərəkdir mənə
Bir molla, bir tabut, bir də qara, bax!

Eşqin mənə verər hey, ağlar gözüm,
Dərdü-qəmin gəlib ayaqlar gözüm,
Abdullah der: durmaz, ay ağlar gözüm,
Xəyalıma hər düşəndə Qarabağ.

---

[1] Bənzəyişi, oxşarı

## AŞIQ BƏSTİ

(XIX əsrin II yarısı)

### *GƏRAYLILAR*

### GƏLDİ

Göz dikmişdim ağ buluda,
Yağa-yağa qara gəldi.
Səhər burdan qalxan duman
Qayıtdı, dağlara gəldi.

Ey xudaya, nə gərdişdi,
Uzaqlara şimşək düşdü.
Can üşüdü, tük ürpəşdi,
Könül ahü-zara gəldi.

Ağçınqıldan endi sürü,
Boş qaldı dağların səri,
Bəsti deyir: bir bax bəri,
Xançobanım hara gəldi?

### DÜŞDÜ

Başım üstdən bulud keçdi,
Göz yaşı çəmənə düşdü.
Xəbər aldı Xançobanı,
Şivən qurmaq mənə düşdü.

Ağı deyib çox ağladım,
Göydə buludu saxladım,
Daş-torpağı qucaqladım,
Ah-naləm vətənə düşdü.

Bəsti neylər daha Löyü,
Bay olmasın bəylər bəyi.
Ünüm tutdu yeri-göyü,
Dağ dumana, çənə düşdü.

## DAŞA DƏYDİ

Məhəbbətim daşa dəydi,
Könlümün çırağı söndü.
Gəşt edirdi ərş-əlada,
Tərlan quşum yerə endi.

Mənim işim ahü-zardı,
Can verən yaralı yardı.
A dağlar, cəlalım vardı,
Bu dünyam tərsinə döndü.

Məni şahmar ilan çaldı,
Dərdsiz canım dərdə saldı.
Desələr Bəsti necoldu,
Deyin atəşlərə yandı.

## LALƏ

Yarın qanlı köynəyitək
Qızarır yol üstə lalə?
Xançobanı gətir dilə,
Bir şirin can istə, lalə!

Dərdim dönüb hekayətə,
Canmı dözər bu zillətə?
Yar məzarın ziyarətə
Gəlib dəstə-dəstə lalə!

Hara getsəm gələrəm mən,
Ahu kimi mələrəm mən,
Bəsti deyər, ölərəm mən
Bu dağlardan getsə lalə.

## DÜŞSÜN

Müxənnətə can deyənin
Dili düşsün, dili düşsün.
Vədəsiz göy zəmisinə
Dolu düşsün, dolu düşsün.

Dil dedim, ağladı cahan,
Bir sirrim qalmadı pünhan,
Yurdu olsun yerlə-yeksan,
Üstdən elin yolu düşsün.

Düşmənlə kim peyman bağlar?
Sinəmdən getməyib dağlar,
Bu Bəstini qoyub ağlar –
Zalım bəyin qolu düşsün!

## OLDUM

Gecə-gündüz ağlamaqdan
Qəm evində dustaq oldum.
Bu dünyanın dərdi-qəmin
Yarı böldüm, ortaq oldum.

Bağ saldım, barın dərmədim,
Dolandım, bağa girmədim.
Ləl idim, sərraf görmədim.
Can çürüdü, torpaq oldum.

Bəsti, dünya olmayaydı,
Səni dərdə salmayaydı,
Bina tutub qalmayaydı,
Xoş günümdən iraq oldum.

## AĞLADIM

Qara bağrım şan-şan olub,
Fərz elə ki, arı şanı.
Ağlamaqdan bu bəstinin
Qalmayıbdı yarı canı.

Ağlamaq da bir peşədi,
Bir gün deyil, həmişədi.
Çalçarpazdı, dördguşədi,
Sinəmdə dağları tanı.

Leysan kimi yaş tökərəm,
Könül sarayın sökərəm,
Canı-dildən ah çəkərəm,
Ağladaram, bu dünyanı.

## DAĞLAR

Dağ üstündən çəkdim dağı,
De, nəydi günahım, dağlar?!
Sən mənə kəsildin yağı,
Tutsun səni ahım, dağlar.

Qara gəlibdir dövranım,
Əl vurma tökülər qanım.
Hanı mənim Xançobanım,
Oydu qibləgahım, dağlar.

Niyə belə yazdı fələk,
Ayrılığa dözmür ürək.
Bəsti kimi sən də qal tək,
Olmasın pənahın, dağlar.

## OYAN, DAĞLAR

Bəstinin ah–naləsindən
Oyan, dağlar, oyan, dağlar.
Qan damır dağ laləsindən,
Sən də qana boyan, dağlar.

Kəkliklərin qaqqıldaşı,
Ayağı qan eylər daşı,
Sel–sel oldu gözüm yaşı,
Hünərin var dayan, dağlar.

Bəylər bizi gətdi cana,
İgidləri saldı qana,
Ayrı eli zülmətxana,
Bəs necədir o yan, dağlar?

## SƏNİN

Dağlar səndən xəbər alım,
Hanı o büsatın sənin?
Söylə, hanı etibarsız,
Əziz mehmanatın sənin?

Samavor niyə qaynamır,
Ulduz stəkan oynamır.
Çoban qonağı taylamır,
Çıxıb qiyamətin sənin.

Bəsti bir gülmədi haşa,
Sinəndə gəzmədi qoşa.
Nəsib olmadın sirdaşa,
Hanı etiqadın sənin?

## AYRI

Əlbət yarım yada düşüb,
Ölürəm dağlardan ayrı.
Bu el mənim, o el sənin,
Ölürəm dağlardan ayrı.

Məzarına gül bağlayan,
Dumanlı-çəni ağlayan.
Xançobana yas saxlayan,
Ölürəm dağlardan ayrı.

Accınqıldı mənim dağım,
Bəsti, hanı öz oylağım?!
Dil deyir, getmir ayağım,
Ölürəm dağlardan ayrı.

## YERİ

Tala-tala ağ buludlar,
Karvan bağla, Löyə yeri.
Sən ağlama, mən ağlaram,
Ağı deyə-deyə yeri.

Accınqıla çatar ağla,
Düzül qatar-qatar ağla.
Oyanmaz, yar yatar ağla,
Ahım qalxdı göyə, yeri.

Çox ağlar, Bəsti qəribdi,
Fələkdən zülüm görübdü,
Meylini saza veribdi,
Bir də qəmli neyə, yeri.

## HEÇ

Gah ağladım, gah sızladım,
Şad olmadım, gülmədim heç.
Qara gəldi, ayım, ilim,
Ömür getdi, bilmədim heç.

Ağçınqılda gözüm qaldı,
Sinələrdə sözüm qaldı.
Güllər düzüm-düzüm qaldı,
Yara gül də dərmədim heç.

Ayrılıq mənə dərd oldu,
Zamana çox namərd oldu,
Ev-eşiyim yer-yurd oldu,
Bəsti, Löyü görmədim heç.

## ÇOBANDAĞI

Səndən axır abı-gövsər,
Suyun baldır, Çobandağı,
Bəzənmisən gəlin kimi,
Nə cəlaldı, Çobandağı?!

Kəkliklərin qonur daşa,
Qaqqıldaşa-qaqqıldaşa,
Hər görən eylər tamaşa,
Bir xəyaldı, Çobandağı.

Hər dürlü çiçək sinəndə...
Tapılmaz qeyri çəməndə.
Bahar fəsli Bəsti səndə,
Qonaq qaldı, Çobandağı.

## AYRIM EYLİNDƏDİ

Aşıqların dastanları,
Sözü ayrım elindədi.
Alagözlü gözəllərin
Gözü ayrım elindədi.

Şirin-şirin xəyalların,
Gözəl mixəyi xalların,
Ceyranların, maralların
İzi ayrım elindədi.

Mərcan-mərcan bulaqların,
Mənzərəli oylaqların.
Sərin sulu yaylaqların
Özü ayrım elindədi.

Xəzan tökdürməsin barın,
Əhdinə düz olan yarın,
Bəsti deyər: hər ilqarın
Düzü ayrım elindədi.

## AYRIMIN GÖZƏLLƏRİ

Yaylaq yolları yoxuşlu,
Əlləri dərmə naxışlı,
Hamısı maral baxışlı,
Bu ayrımın gözəlləri.

Əllərində kirkid, həvə,
Xanalarda xallı kəbə,
Lampatək şox salır evə
Bu ayrımın gözəlləri.

Bəsti deyər, alma yaşmaq,
Eyibdir kişidən qaşmaq,
Lazımdır çarçovu açmaq,
Ay ayrımın gözəlləri!

## BƏZƏNİR

Maşallah, ay Qabaqtəpə,
Hər eldən mərdan bəzənir.
Üç ay bahar, yaz olanda,
Deyirsən sultan bəzənir.

Cahalların hamsı qoçu,
Tərpənəni gözəl seçi.
Yaylağa yerişdi köçü,
Hər yan al-əlvan bəzənir.

Bəsti gəldi bu yaylağa,
Səda saldı hər oylağa.
Ənam verirlər qonağa,
Şal geyir, mehman bəzənir.

## *QOŞMALAR*

### A BƏY

A bəy, nə gəzirsən hallı-havalı,
Süleyman mülkünün yiyəsi kimi?
Nədəndir yaxşının başın kəsməyə
Hazırsan xəncərin tiyəsi kimi?!

Güvənmə sən dövlətinə, varına,
Lənət olsun qeyrətinə, arına.
Haqdan zəfər dəysin bürcü-barına,
Lüt qalginən palaz iynəsi kimi.

Ağladım doyunca, gülmədim haşa,
Bir ah çəksəm, dağlar gələr baş-başa.
Bəsti deyər: səni də düş ataşa,
Yan novruz şamının piltəsi kimi.

## TAPILMAZ

Üzülübdür canım el tənəsindən,
Hamı deyər, Bəsti evdə tapılmaz.
Bir sahıdı, bir sözüdü, bir özü,
Bir beləsi daha Löydə tapılmaz.

Bu qınağa vallah, mənəm dözürəm,
Usanmışam, ölməyə də hazıram,
Dərdimi deməyə divan gəzirəm,
Yerdə axtarıram, göydə tapılmaz.

Hanı Xançobanım, o qoca dağlar,
Tutulub gözlərim, görməyir, ağlar,
Nə tez viran oldu bağçalar, bağlar,
Barlı kollarımda meyvə tapılmaz.

## DƏYMƏMİŞ

Varmı ürəyinə zalım dövranda,
Fələyin əlindən zədə dəyməmiş.
Namərdin ucundan, nadan dilindən,
Çatıb qulağına hədə dəyməmiş.

Demirəm mələyəm, nə də ki, göyçək,
Sözümdə yalan yox, gerçəyəm, gerçək.
Ötməyib böyrümdən bir erkək milçək,
Astanama sultan, gədə dəyməmiş.

Bəstiyəm, odlara qalandı canım,
Bu tənəyə necə dözüm, dayanım.
Gəlmədi ağ günüm, təzə dövranım,
Düşmən yummaz ağzın pedə1 dəyməmiş.

[1] Pedə – dəyənək

## NECOLDU?

Başına döndüyüm, ay uca dağlar,
Səndə gəzən ağır ellər necoldu?
Ala çayvan-çadır, dəyə quranlar,
O polad biləklər, qollar necoldu?

Söylə bir, növrağım niyə pozuldu?
Ay günüm üstünə qara yazıldı,
Cəfa gördüm, əlim-əldən üzüldü,
Su üstünə gələn yollar necoldu?

Canım ola hilal qaşın əyrisi,
Dərdin çəkən varmı, məndən qeyrisi?
Vur başına, ağla illər ayrısı,
Bəsti, soldu çəmən, güllər necoldu?

## BU DUNYA

Məleykə boyludur, şirin ləhcəli,
Əzəldən tamaşa olan bu dünya.
Qoca cadugərdi aldadar səni
Cavanlıq donunda qalan bu dünya.

Qananı eyləyib talesiz, baxtsız,
Əyibdi qəddini, qocaldıb vaxtsız,
Çoxlarını qoyub eyvan-otaqsız,
Varlının dərdinə qalan bu dünya.

Qəmdən pay götürdüm, nalədən qismət,
Görmədim bir ləzzət, çəkdim əziyyət,
Canda eşq atəşi, dildə məhəbbət,
Bəstini odlara salan bu dünya.

## BİLMİRƏM

Uçubdu könlümün bürcü-barısı,
Neçə bənna ilə hörə bilmirəm.
Ağlamaqdan tor gəlibdi gözümə,
İşıqlı dünyanı görə bilmirəm.

Əyibdi qəddimi çərxi-zamana,
Qiymət qoyan yoxdu yaxşı-yamana,
Gədələr bəy olub girib meydana,
Bəs kim dözər bu dağlara, bilmirəm?!

Əzəl gündən qara gəlib ruzgarım,
Bu qəmü möhnətdən artıb azarım,
Qəlp çıxıb mətahım, yoxdu bazarım,
Bəstiyəm dərdimə çara bilmirəm.

## OLMAZ, AY OLMAZ

Zülmü – şəqaətdə bəylərin tayı,
Olmaz, bu dünyada, olmaz, ay olmaz!
Nə yar yara yetər, bir murad alar,
Bir kimsə bay olmaz, olmaz, ay olmaz!

Hər nə görsə deyər: külli var mənim,
Alma mənim, heyva mənim, nar mənim,
Söndürdü çırağım biilqar, mənim,
Çeşmim kimi bir çay olmaz, ay olmaz!

Çox axtardıq, tapammadıq bir çara,
Bəylər günümüzü eylədi qara.
Bunlar ki var, Bəsti daha dağlara
Nə yaz gəlməz, nə yay olmaz, ay olmaz!

## A QURBAN!

Acı ruzgar döydü ömür qapımı,
Qara döndü ağ dövranım, a Qurban!
Dağlarımı duman aldı, çən aldı,
Zülmət oldu asimanım, a Qurban!

Bu yazıq canımı gətirdi cana,
Ədalətsiz divan, zalım zamana,
Atəşə pərvanə, oxa nişanə,
Piltəyə şam oldu canım, a Qurban!

Tər şamama bu tağlardan kəsildi,
Ömr ağacı budaqlardan kəsildi.
Tütək səsi bu dağlardan kəsildi,
Hayıf oldu Xançobanım, a Qurban!

Aylarım bəd gəlib, illərim nəsdi,
O azca ülfəti fələk də kəsdi,
Dünya zindan oldu, məhbusu Bəsti,
Yaşamağa yox gümanım, a Qurban!

## GETDİ

Kəpəzə, Qoşqara nəğmə qoşardı,
Bizim bu dağların Qurbanı getdi.
Daha gəlməz səsi eldən, obadan,
Getdi, aşıqların sultanı getdi.

Aşıqların ürəyiydi, gözüydü,
Məclislərin söhbətiydi, sözüydü.
Elə bil ki, Ələsgərin özüydü,
Axtarma gözlərim, cahanı getdi.

Biz sayanlar qaldı, fələk nə saydı,
Aləm deyər: Bəsti kiri, nə vaydı.
Kəlmələri dərdimizə davaydı,
Dərdli ürəklərin loğmanı getdi.

## BİLGİNƏN

Yaxşı tanı Ələsgəri, Qurbanı
Neçə belə nər aşığı bilginən,
Qiymət qoysan gəraylıya, qoşmaya,
Nəzmimdəki yaraşığı bilginən,

Vaxtsız daşım qürbət elə atıldı,
Nə dərd desən mənim üçün tapıldı,
Ağlamaqdan gözlərim də tutuldu,
Getdi gözün nur-işığı bilginən.

Heç bilmirsən nələr yatır sinəmdə,
Mən çəkəni çəkməz Əsli-Kərəm də!
Şirin can çürüdü möhtətü qəmdə,
Bəsti görüb Sənan dağı bilginən!

## GÖRDÜNMÜ?

Gedən karvan, əylə görüm köçünü,
O yollarda Xançobanı gördünmü?
Söylə, nə buyurdu, söylə, nə dedi?
Ver bir nişan, o cavanı gördünmü?

Söylə, dumandımı dağların başı,
Buludlar tökürmü leysan göz yaşı?
Baxırmı yollara qərib başdaşı,
O dağlarda pərişanı gördünmü?

Qara gəldi bu Bəstinin dünyası,
Çatdı bülbüllərə qəmi, naləsi,
Kəsildi dağlardan tütək, ney səsi,
Necə susdu, o tərlanı gördünmü?

## DÜŞMÜŞƏM

Məcnunsuz çöllərin Leylisiyəm mən,
İtkin yarın sorağına düşmüşəm.
Yaxşı Aşiqilə gəzir çəməndə[1],
Həkərinin qırağına düşmüşəm.

Şirinin beynində eşqin əsəri,
Fərhad qayalara vurar düsəri.
Kirpik qatlamıram o gündən bəri,
Yata bilməm, qəm dağına düşmüşəm.

Əslini yandırıb, gözləyən fələk,
Namərdlik məqamın gözləyən fələk.
Bəstini ölüncə izləyən fələk,
Öldür qurtar, ayağına düşmüşəm.

## ƏRLƏ ARVADIN DEYİŞMƏSİ

Kişi, mənə yaxşı paltar al gətir,
Boşanaram günü qara düşərsən.
Məndən yaxşı eldə səni kim saxlar,
Burdan gedər qeyri hala düşərsən.

Məndən yaxşı kimdi qızda, gəlində,
Löy kəndində, gəzsən ayrım elində?
Yaxanı qoyaram yetim əlində,
Ah-vay çəkib, ahı-zara düşərsən.

Arvad, səndən gözəl birin alaram,
Bir qul olub qulluğunda qalaram.
Yəqin bil ki, səni gözdən salaram,
Filan kimi qapılara düşərsən.

---
[1] Burada Yaxşı ilə sevgilisi Sarı Aşıq nəzərdə tutulur.

# MƏLİKBALLI QURBAN
(XIX əsrin ortaları)

***QOŞMALAR***

## QURBAN OLDUĞUM

Yenə saldı məni eşqi-cünuna,
Lalə üzarına[1] qurban olduğum.
Hərdən baxıb işvə verər nazilə,
Çeşmi-xumarına qurban olduğum.

Zülfi-pərişanın töküb dalına,
Canım qurban ağ üzündə xalına,
Yaxşı həyasına, xoş məqalına[2],
Şirin göftarına qurban olduğum.

Məlikballı Qurban mayili şinə,
Xəlvət xanasına, əlvan eyşinə,
Cənnət heyvasını qoyub döşünə,
Tazaca narına qurban olduğum.

## BİLİRMİ?

Ərzi-halım qasid, söylə dildara,
Gör ki, mənim ahü-zarım bilirmi?
Dolanıb başına, öp ayağını,
Üzülübdü ixtiyarım bilirmi?

Saxlaram hicranda qəmgin başımı,
Axtarıb tapmanam ol sirdaşımı,
Gözlərindən axan qanlı yaşımı,
Ala gözlü nazlı yarım bilirmi?

---
[1] Yanaq, üz
[2] Sözünə

Yandım hicr oduna, yoxdu yalanı,
Cabəca[1] ərz elə gedib filanı,
Məlikballı Qurban çəkən bəlanı,
Bimürüvvət, biiqrarım bilirmi?

## ƏRƏRDİR

Bir gözəl sevmişəm günəş camallı,
Gərdəni minadır, qəddi ərərdir.
Gözləri cəlladdır, kirpik xunfəşan[2],
Cümlə gözəllərə o bir sərvərdir.

Qolları şimşaddır, əlindən nazik,
Xəndanı şəkərdir, telindən nazik,
Zülfü yasəməndir, telindən nazik,
Xətti bir bənövşə müşkü ənbərdir.

Vaizin kəlamı göstərir camı,
Mütrübün məqamı ləzizdir hamı,
Titrəyir tamamən mərmər əndamı,
Məlikballı Qurban, bu nə gövhərdir?..

## GƏZƏR

Şəkərsən, şəhdsən, şəkərxasən sən,
Sənin yanağında laləzar gəzər.
Saçın gərdənində səllasil təki,
Reyhan tellərindən intizar gəzər.

Dəhanın hoqqadır[3], inci dəndanın,
Nə şirindi dilin, ləziz xəndanın,
Aşıqlar ayağı sənin zindanın,
Axır ki, canında ixtiyar gəzər.

---

[1] Yerbəyer, yerli-yerində
[2] Qantökən
[3] "Kiçik, balaca" mənasındadır

Dəryadan təşnəni atdım kənara,
Hicran atəşinə sən elə çara,
Səndən ayrı getsə hansı diyara,
Məlikballı Qurban xakisar[1] gəzər.

## AĞLASIN

Əzrayıl gəlibən canım alanda,
Anam, bacım qara geyib ağlasın.
Baş yastıqda, gözüm giryan qalanda,
Əyin-başın tamam soyub ağlasın.

Sinəm üstə cəllad əyləşir birdən,
Yığılsın yas tutsun bir neçə adəm,
Gəlsin qohum-qardaş görsün dəmadəm,
Qəmlər çəkib, qüssə yeyib ağlasın.

Çıxanda əflakə naleyi-zarım,
Töksünlər üstümə sovxa paltarım,
Başım üstə əlim tutsun öz yarım,
Məlikballı Qurban deyib ağlasın.

## QILMANDAN

Ey ağalar, sizə bir ərz eyləyim,
Rovzeyi-rizvandan, huri-qılmandan.
Türrəyi-tərrari şahmara bənzər,
Bu tövr insandan, belə canandan.

Sinəsi mərmərdən, qəddi ərərdən,
Bir müşkü ənbərdən, mahi-ənvərdən,
Qəndi mükərrərdən, dili şəkərdən,
Zülfü pərişandan, qaşı kamandan.

---

[1] Zəlil, xar, həqir

Məhbubül məhbubdan, xosrüvi-xuban,
Zalımi-cansitan, telləri reyhan,
Məlikballı Qurban, yoxdur belə can,
Bir yan İsfahandan, ya Xorasandan.

## OLSUN

Bir gözəl istərəm Beytüssəfada,
Gözəllər içində xubitər[1] olsun.
Qaşı qövsi-qüzeh, kirpiyi xunriz[2],
Gözləri nərgiz tək xoş nəzər olsun.

Telləri xurmayı, zülfü siyahı,
Camalı məhv edə şəmslə mahı,
Gərdəni çəkilmiş sanki sürahı,
Məlaik kuyunda sərbəsər olsun.

Cəbhəsi münəvvər[3], bədr tək bəyaz,
Cəfasında işvə, səfasında naz,
Canımı almağa baxa sərəndaz,
Cəlladi-xunəfşan əlhəzər olsun.

Yanağı innabı, buxağı hübab,
Teli çöhrəsində edə iztirab,
Sibi-zənəx, püstə dəhan, ləli nab,
Nəfəsi gül kimi müşgənbər olsun.

Sinəsi ağ ola, üzü meydanlı,
Qübbə tək məmələr zər giribanlı,
Beli nazik ola, sağrısı canlı,
Qəddü qamət sərvü sənubər olsun.

Sümükləri xırda, əndamı sadə,
Əl, ayağı bənzər ola şimşadə.

---
[1] Göyçək, yaxşı
[2] Qantökən
[3] İşıqlı, nurlu, parlaq

Ələ düşsə bir beləsi dünyadə,
O kəsin iqbalı sərasər olsun.

Yaşı on beş ola, danışan əhval,
Söhbətində huşuməndü pürkamal.
Yaşadıqca gözəllikdə bizaval,
Əvvəl-axır hüsnü bərabər olsun.

Ləhcəsi ahəstə, üzü xoş gülən,
Nüktəşünas[1] əhli-kamal, dərd bilən.
Aşina olmaya ona hər gələn,
Məlikballı kimi mötəbər olsun.

## *TƏCNİSLƏR*

### GÖR

Məcnun olub səhralara düşmüşəm,
Zeydsən, Leylinin sorağını gör.
Dağdan-dağa səngixarə[2] çəkmişəm,
Şikəstə əndamın sor ağını gör.

Hicran gəldi, ver sevdiyim bustana,
Qoynun içi əcəb dönüb bustana,
Abi-zülal bulanıbdı büstana,
Təşnəsən durma gəl, sor ağını gör.

İstəsən ki, eşq içində üzəsən,
Nəzər etmə nakəs olan üzə sən.
Qəsdin olsa iqrarını üzəsən,
Məlikballı Qurban sorağını gör.

---

[1] İncə və dərin mənalı sözlər bilən
[2] Çaxmaq daşı

## GƏRƏK

Gözəl olan verir özünə bəzək,
Gözü nərgiz, şimşad ayağı gərək.
Giribani hər tərəfdən ola çak,
Görünə sinənin ay ağı gərək.

Gəl, gir bu bağçaya laləsin bilək[1],
Görək qönçələrin, laləsin bilək[2],
Gəlməz təkəllümə[3] laləsin bilək,
Gər olmuş əğyara a yağı gərək.

Geyin al yaşılı, gəl olma binəng[4],
Gəşq eylə səhranı, gəl olma binəng,
Məlikballı Qurban, gəl olma binəng,
Kababın yanmağa a yağı gərək.

## *DİVANİ-MÜXƏMMƏSLƏR*

### GƏLİB

Ey könül, qəm çəkmə kim, dildar tək canan gəlib,
Dur ayağa, et təvazö huriyi-qılman gəlib,
Saçı sünbül, xalı filfil, telləri reyhan gəlib,
Bülbüli-divanədur, gül açılıb gülşad gəlib.
Ağlama ey gözlərim, sirri-dili pünhan gəlib.

Gül yanaq, ləldən ağ, şəmi çiraq, şimşad ayağ,
Tər buxağ, əlvan olağ, çağ damağ, gözləri zağ,
Sinəsi ağ, əsdiri sağ, bir bu sayağ bağrına dağ,
Yox fərağ, durmaz qırağ, açmış qucağ, əymiş budağ,
Sərvi bağ, eylər nəsağ, bir mürşidi-xuban gəlib.

---

[1] "Lalə, sünbül ək" oxunmalıdır
[2] "Tanıyaq" mənasındadır
[3] Danışma, söyləmə
[4] Arsız, lovğa, alçaq

Xoş məqal, müşgü hilal, abi zülal, düşmüş bihal,
Rəngi al, sahibcəmal, əhli-kamal, ağ üzdə xal,
Xub xəyal, qədd etidal, ləbində bal, bir xırda xal,
Yox məlal, rasti-nihal, etdi fəal, həm infəal,
İsmi hal, verir zəval, ol qəddi-dal kaman gəlib.

Bir ziya, sahib dila, eylər nida, bülbül səda,
Yox cəfa, zülmü əda, pəh-pəh ziya, sərtabe-pa,
Tutiya, hüsnü liqa, həm bir sona, məhbub fəda,
Xəstəma, ərzü səma, maürği həm maəda, eylər qəza,
Xoş nəva, dərdə dəva, bir hakimi-loğman gəlib.

Bir cavan, tuti zəban, qamət kəman, qönçə dəhan,
Mumyan, qəmzəsi qan, qürbi-cahan, bir novcavan,
Can alan, qanlar salan, gülü reyhan, bir taza can,
Nüktədən, könül sıxan, eylər bəyan, sərvi rəvan,
Ey Qurban, etmə fəğan, axtardığın insan gəlib.

## BU QIZIN

Nə əcəb xub yaradıb hüsnünü tarı bu qızın!
Nə əcəb gülşənə bənzər gülüzarı bu qızın!
Nə əcəb məstlənib çeşmi-xumarı bu qızın!
Nə əcəb tazə bitib heyvası, narı bu qızın!
Nə əcəb çiçəklənib fəsli-baharı bu qızın!

Nə əcəb taği-müqəvvəs[1] çəkilib qaşı kəman,
Nə əcəb xoş danışır ləzzətilən tuti zəban,
Nə əcəb xətləri reyhandı və həm püstə dəhan,
Nə əcəb gərdəni mina, nə əcəb incə miyan,
Nə əcəb bal ləbindən olu carı bu qızın!

Nə əcəb inciyi-dürdanə kimi ağ dişi var,
Nə əcəb badi-səbadən telinin cünbişi var,
Nə əcəb naz edibən işvə ilə gərdişi var,

[1] Tağşəkilli, qövşəkilli

Nə əcəb əhd ilə peymanə müvafiq işi var,
Nə əcəb göyçək imiş tutduğu karı bu qızın!

Nə əcəb əhməri gül, lalə yanağın gördüm,
Nə əcəb cənnət içində belə bağın gördüm,
Nə əcəb fürsət ilə xəlvət otağın gördüm!
Nə əcəb dişləməli, öpməli çağın gördüm!
Nə əcəb eyləyib Allah məni yarı bu qızın!

Nə əcəb söhbəti var, xırda məqalət, nə əcəb,
Nə əcəb dərdi-dilə verdi kifayət, nə əcəb,
Nə əcəb düşmüş imiş nəqşi-xəyalət, nə əcəb,
Nə əcəb istər imiş busə, vüsalət, nə əcəb,
Nə əcəb Qurbana rast gəldi bazarı bu qızın!

## *BAYATILAR*

Bağrım başı ağ yara,
Tiğ[1] alıban ağ yara,
Məhşəridi Qurbanın,
Yar qalanda ağ yara.

Tərlan avın sar alı,
Mənzil gedən sar alı,
Qəm çəkməkdən Qurbanın,
Rəngi-ruyi saralı.

Qurban, mənzil ox alı,
Döşənibdi o xalı,
Zülfün əcəb xaindi,
Gizliyibdi o xalı.

Dərsim gəldi üqb ayə,
Fəqir çatmaz üq bayə,
Qan-yaş tökübən ağlar,
Qurban, getmə üqbayə.

[1] Qılınc, xəncər

## ŞƏMKİRLİ AŞIQ HÜSEYN
(1811-1891)

### *GƏRAYLILAR*

#### ÜSTÜNƏ

Nazlı yarın gül yanağı,
Yaraşıbdı xal üstünə.
İncə beldə gümüş kəmər,
Düzülübdü pul üstünə.

Gördün ki, yarın yar deyil,
Tərkini qılmaq ar deyil,
Gen dünya sana dar deyil.
Get birini al üstünə.

Hüseyn ağlar zarı-zarı,
Getməz könlünün qubarı,
İtirmişəm nazlı yarrı,
Durum çıxım yol üstünə.

#### LAYIQDI

Sallanıb gedən salatın,
Qaşın kamana layıqdı.
Aşıqlar sənin əlindən,
Çəksə amana layıqdı.

Öldürməz sevən sevəni,
Bağdan qovmaz gül dərəni,
Yolunda canın verəni,
Saxla mehmana layıqdı.

Söyün deyərlər adıma,
Qırxlar yetişsin dadıma,
Yarım düşəndə yadıma,
Yana pərvana layıqdı.

## BU QIZ MƏNİ

Gedirdim, yoldan eylədi,
O qız məni, bu qız məni,
Ulusdan, eldən eylədi,
O qız məni, bu qız məni.

Dindirirəm, dinməz, küsər,
Dərdi sinəmdə sərbəsər,
Öpər, sinəsinə basar,
O qız məni, bu qız məni.

Hüseyni salma gözündən,
Bir maç istərəm üzündən,
Hərgiz eləməz özündən,
O qız məni, bu qız məni.

## QOYNUNDA

Xəbər almaq ayıb olmaz,
O nədi, pəri, qoynunda?
Öldürürsən mən yazığı,
Saxlarsan narı qoynunda.

Otağına qədəm basdıq,
Söhbətinə qulaq asdıq,
Sinən döşək, məmən yasdıq,
Sal, yataq, yeri qoynunda.

Sən ki yarından doyubsan,
Bağrımın başın oyubsan,
Hüseyni yetim qoyubsan,
Qalıb əlləri qoynunda.

## AY QIZ!

Boyun sənin tuba kimi,
Qaşlarındı kaman, ay qız!
Görmüşəm mən camalını,
İtirmişəm iman, ay qız!

Xınalı nazik əllərin,
Fəsih-zəbandı dillərin,
Ağ üzdə siyah tellərin,
Qoxusu yasəmən, ay qız!

Ağladırsan, güldürürsən,
Çeşmin yaşın sildirirsən,
Bimürvətsən, öldürürsən,
Dad əlindən aman, ay qız!

Aşıq Söynün ibadəti,
Dilində fərzü sünnəti,
Neyləyir sənsiz cənnəti,
Məmələrin əmən, ay qız!

## BAYAZ!

Durum dolanım başına,
Bir bəri bax, bəri, Bayaz!
Camalındı mahi-taban[1],
Xurşidin[2] xavəri[3], Bayaz!

Ağ üzdə siyah tellərin,
Şəkərdən şirin dillərin,
Yanaqda qızıl güllərin,
Kənar elə xari, Bayaz!

---

[1] Parlaq, işıqlı ay
[2] Günəş
[3] Şərq, günçıxan

Qaşların ərər kimidi,
Buxağın mərmər kimidi,
Sədrin[1] qələmkar kimidi,
Dişlərin mirvari, Bayaz!

Cuna salıbdı başına,
Qızıl tanalar guşuna,
Aşiqi salmaz huşuna,
Yox imiş xəbəri, Bayaz!

Aşıq Hüseynin havası,
Kəmbəmdi sazının səsi,
Geyinibdi zər libası,
Üstündən kəməri, Bayaz!

## *QOŞMALAR*

### YÜZ OLU

Mərd igidlər vətənində gürz olu,
Həmdəmsiz kəslərin dərdi yüz olu,
Qoç igidə onda ölüm fərz olu,
Desələr yar əlin verib yad ələ.

Qohum gərək qohum üstə hovlaya,
Qardaş gərək qardaş qanın dovlaya,
Ovçu yoxdu bu maralı ovlaya,
Otlar, otlar, aşar gedər yad elə.

Aləm bilir sən Hüseynin gözüsən,
Yaxşı saxla yaşmaq altda sözü sən,
Necə qoydun sinəm üstə közü sən,
Demirsənmi ya yandıra, ya dələ.

[1] Sinən, döşün

## KİMİ

Gözəldi qılığın, nə xoşdu soyun,
Suyun şirin abi-həyatı kimi,
Şəkərdi dəhanın, məzədi dilin,
Dodaqların Misir nabatı kimi.

Altından zər geyib, üstdən qələmkar,
Böyür düymə, gen küləçə, yaxa dar,
Sevdiyimin əcəb gül camalı var,
Bədirlənmiş ayın savatı kimi.

Başında örpəyin bağı ipəkdən,
Qızıl qotaz çal keçirdir dirsəkdən,
Aylar, illər həsrətini çəkməkdən,
Hüseynəm, incəldim xəyatı kimi.

## BAŞIMA

Zalım fələk, səndən şikayətim var,
Aman fələk, nə gətirdin başıma.
Məni cida saldın sən tay-tuşumdan,
Niyə zəhər qatdın şirin aşıma.

Belə yerlər qalsın görüm virana,
Əlim çatmır indi dağa, arana,
Bir atımı verdim tipi borana,
Bir baxın yox gözdən axan yaşıma.

Mən Hüseynəm, yada saldım elimi,
Soyuq tutdu dəhanımı, dilimi,
Bir bülbüləm, cida salıdm gülümü,
Dost sözün almadım əbəs guşuma.

## OLAR

Hər yetən gözələ gözəl demərəm,
Gözələ özgə bir əlamət olar.
Zülf dağılar, çin-çin düşər gərdənə,
Qaşınnan, gözünnən işarət olar.

Əl dəyəndə fəryad edər nimtənə,
Tel tökülər, üzü dönər gülşənə,
Sərəndazı başdan salar gərdənə,
Görünsə məmələr qiyamət olar.

Hüseynin butası tərlan cilvəli,
Bir şirin ədalı, bir naz-qəmzəli,
Hər kəsin olarsa belə dilbəri,
Bu dünya qəmindən salamat olar.

## MƏNDƏN

Yeri dağlar, sənlə həmdəm olmaram,
Dağlar, əsirgədin qarı da məndən,
Seyrağıbın tənə-tənə sözləri,
Bir gün ayrı salar yarı da məndən.

O köynəyin, o çarpazın, bu bağın,
O süsənin, o sünbülün, bu bağın,
Nə müddətdi bağbanıydım bu bağın,
Bağban, əsirgədin barı da məndən.

Boylanırsan oğrun, baxırsan qıyqac,
Dodağın şərbəti dərdimə əlac,
Hüseyni elədin zəlili möhtac,
Aldı bu dövləti, varı da məndən.

## SARI GÜL

Yarın bağçasında üç gül açılıb,
Ağ gül, qırmızı gül, bir də sarı gül.
Hər üçü də bir-birindən öyməli,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

O ağ gülün qapısından baxmalı,
Qızılgülü al yanağa taxmalı,
Sarı gülü dəstə tutub qoxmalı,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

Ağ gülü bənzətdim göy göyərçinə,
Şəkər əzib dəhanının içinə,
Hüseyn müştaq olub gülün üçünə,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

## YAXŞIDI

Bir adam ki, sənlə ülfət eyləsə,
Yəqin onun əsil-zatı yaxşıdı.
Namərd sənə quzupilov yedirsə,
Mərdin quru məhəbbəti yaxşıdı.

Dad, hazır çəkərəm pərkarsız sazdan,
Ver, qurtar əlindən nəzir-niyazdan,
Söyləgən qarıdan, gəzəyən qızdan,
Güləyən gəlindən lotu yaxşıdı.

Aşıq olan sözün söyləyər başdan,
Sallabaş adamdan, ürəyi daşdan,
Bədnəzər qonşudan, bədcins yoldaşdan,
Qədirbilənlərin iti yaxşıdı.

Aşıq Söyün söylər kəlməni "tey"dən,
Dərsimi almışam "əlif"dən, "bey"dən,
Çörəksiz otaqdan, gözəlsiz evdən,
Çölün, biyabanın otu yaxşıdı.

## DANIŞMA

Qafil könül, bir məclisə varanda,
Ver qadağa acı dilə, danışma.
Hərcayı söyləmə, hərcayı demə,
Laf eyləyib gülə-gülə danışma.

Aşıq gərək hər məclisdə sayılsın,
Sözünü eşidən qansın, ayılsın,
Kəlmə çıxart, şirin cana yayılsın,
Aşırıb sözünü zilə danışma.

Sözün mana tutma azğın axmağın,
Xoşlanılmaz aralıqdan çıxmağın,
Layiq deyil başa qaxıc qaxmağın,
Öz eybini bilə-bilə danışma.

Yazıq Söyün, əhdin yetər yerinə,
Könül bağla aşıqların pirinə,
Çək sözünü həqiqətə, dərinə,
Hər qədirbilməzə belə danışma.

## OYNASIN

Başına döndüyüm toy adamları,
Siz də deyin, təzə gəlin oynasın.
Adını demirəm, eldən ayıbdı,
Qəmzəsi bağrımı dələn oynasın.

Bir tuba boyludu, zülfləri dəstə,
Dərdini çəkməkdən olmuşam xəstə,
İşarət eylərəm anlayan kəsdə,
Dostunun qədrini bilən oynasın.

Duman gəldi, uca dağı bürüdü,
Yar qəhri çəkməkdən canım çürüdü,
Bu məclisdə əyləşənin biridi,
Yaşmağın altından gülən oynasın.

Dostlar arasında hey ola düzlük,
Olmaya xayınlıq, həm ikiüzlük,
Hər əlində vardı, bir ala yüzlük,
Yüzlüyü əlinə alan oynasın.

Şəmkirli Söyünəm, elərəm fəğan,
Yaş yerinə didələrim tökər qan,
Həm gəlindi, həm gözəldi, həm cavan,
Məni bu dərdlərə salan oynasın.

## GÖRMÜŞƏM

Şəmşəd mahalında, Morul elində,
Ellər, huri-məhliqanı görmüşəm.
Cəvahirdi gövhər nişan telində,
Gözəllikdə canlar canı görmüşəm.

Badi-səba dəydi, açıldı çarqat,
Görcək camalını ağıl qaldı mat,
Belə gözəl hanı dünyada, heyhat!
Dərdə salan zənəxdanı görmüşəm.

Boyuna atlası xara yaraşır,
Siyah zülfü qəddi dala yaraşır,
Şəhla gözə gözün baxsa qamaşır,
O qaşi göz can alanı görmüşəm.

Geyinibdi zər-zibanın içində,
Cəvahir qərq olub kanın içində,
Hindu xalı gül camalın içində,
Görən deyər Hindistanı görmüşəm.

Aşıq Söyün, dərdin budu əlacı,
Hidayət ol, sözün söyləmə acı,
Cəvahir Göhərlə olsunlar bacı,
İki püri-nur cahanı görmüşəm.

## FATMANIN

Başına döndüyüm ay duran canlar,
Gör necə siyahdı teli, Fatmanın.
Bədirlənmiş aya bənzər camalı,
Düzülüb üzünə xalı Fatmanın.

Duruşu tovuzdu, baxışı tərlan,
Sərində bəzəyi, qəmzələri qan,
Canını yolunda edəsən qurban,
Gör necə göyçəkdi alı Fatmanın.

Geymişdi əyninə yaşıldan, aldan,
Ləbləri qönçədan, yanağı güldan,
Zənəxdan çövrəsi düzülüb xaldan,
Axır ləblərinin balı Fatmanın.

Özünə bərabər olurmu yarı,
Murazını versin pərvərdiyarı,
Qolunda qolbağı, qızıl qatarı,
Heyif, heyif, yoxdu ləli Fatmanın.

Aşıq Söyünü tez yada salmağı,
Yaxşı olur qərib könlün almağı,
Xubların toyunda mehman olmağı,
Qədəmi mübarək olu Fatmanın.

## OLACAQDI

Könül, talib olub uyma şeytana,
Fitnə şəmatəti[1] şər olacaqdı.
Bu dünya bir bağdı, bağbanı iblis,
Alması, heyvası nar olacaqdı.

[1] Birinin başına gələn bəla və müsibətdən başqasının sevinib kam alması, bədxahlıq.

Gözəllər təşbehdi dağın gülünə,
Müştaq olma şirin ləhcə, dilinə,
Həvəslənib sığal vermə telinə,
Məhşərdə hər biri mar olacaqdı.

Əməl bir parçadı, mələklər dərzi,
Dərk eylə doğrunu, sünnəti, fərzi,
Nəkrayıl hirslənib çalanda gürzi,
O rövşən gözlərin tar olacaqdı.

Aldanma cüfəyə, uyma fənayə,
Güvənmə dövlətə, simi tilayə,
Bir gün köçürərlər dari-üqbayə,
Simü-zərdən əlin car olacaqdı.

Nütfədən pak olan siratdan keçər,
Müxənnət münkiri almasdı, biçər,
Səxavət əhlini mələklər seçər,
Kövsəri-rizvanda yar olacaqdı.

Söyün, zayiqətül-mövti yazanda,
Şərm ilə sal yada fəhmin azanda,
Gün hərarət edib, yer də qızanda,
Şahlar şahı şəfakar olacaqdı.

### *TƏCNİS*

### ON BEŞ İL

Bəlkə məni nəzərindən salan var,
Yada salmaz üç il, beş il, on beş il.
Heç deməzmi mənim dərdim çəkən var,
Həsrət qalar üç il, beş il, on beş il.

Dərya elmim vermək olmaz ay ada,
Təbib olan, çağır gəlsin aya da,
Göz görməsə, ağıl salmaz a yada,
Gəl görməyə üç il, beş il, on beş il.

Aşıq Söyün qalıb dərd ayağında,
Xəstə şəfa bular dərd ayağında,
Ahu seyr eləyər dərd ayağında,
Ovçu gözlər üç il, beş il, on beş il.

## ***DEYİŞMƏLƏR***

### QARI İLƏ DEYİŞMƏ

Aşıq Hüseyn

Sənə qurban olum nənə,
De görüm nə xəbərin var?
Reyhandan nə gətirmisən?
De görüm nə xəbərin var?

Qarı

Sənə qurban olum oğul,
Reyhanı mən qorxutmuşam,
Tərifini car eyləyib,
Ürəyini ürkütmüşəm.

Aşıq Hüseyn

Özü məndən söz açdımı?
Əli ələ dolaşdımı?
Yoxsa sənlə dalaşdımı?
De görüm nə xəbərin var?

Qarı

Mətəl qalma gəl bu işə,
Düşmə bir özgə təşvişə,
Poladı çaxmışam daşa,
Dörd bir yanın bərkitmişəm.

A ş ı q  H ü s e y n

Aşıq Hüseyn əcəm elli,
Reyhan əcəb şirin dilli,
Tuba qamət, incə belli,
De görüm nə xəbərin var?

Q a r ı

Nə deyirsən mənə, nənə?
Cahan qurban olsun sənə,
Bircə müjdə ver sən mənə,
İşini möhkəmlətmişəm.

## CAHAN QARI İLƏ DEYİŞMƏ

C a h a n

Söylə görüm haralısan?
Danış indi sözün oğlan,
Ağlı, göylü, qaralısan,
Çıxart baxım sazın oğlan.

A ş ı q  H ü s e y n

Mənim əslim gəncəlidi,
Şəmkirbasan elim mənim.
Səyasətlər çəkib başım,
Düşüb bura yolum mənim.

C a h a n

Danışıqda naçar olsan,
Bağlamalar açar olsan,
Gecə durub qaçar olsan,
İzlədərəm izin oğlan.

A ş ı q   H ü s e y n

Dostun yolunda naçaram,
Çox bağlamalar açaram,
Ölüncə çətin qaçaram,
Kəssələr də dilim mənim.

C a h a n

Reyhan sinəni dağladar,
Qollarını dar bağladar,
Anacığını ağladar,
Çəkən olmaz nazın oğlan.

A ş ı q   H ü s e y n

Dəryalara dalaram mən,
Canım oda salaram mən,
O reyhanı alaram mən,
Ona çatsa əlim mənim.

C a h a n

Xoş gəlibsən Naxçıvana,
Dərdini söylə Cahana,
Səni yetirrəm Reyhana,
Onu görər gözün oğlan.

A ş ı q   H ü s e y n

Aşıq Söyün, aç meydanı,
Gəldim görüm Naxçıvanı,
Bircə qucsaydım Reyhanı,
Dərdim yoxdu, ölüm mənim.

## XASO XANIMLA DEYİŞMƏ

Xaso xanım

Başına döndüyüm, ay Aşıq Hüseyn,
Gəl getmə, gəl getmə, böylə yola sən.
On səkkiz aşığı bəndə salıbdı,
Öz başına özün açma bəla sən.

Aşıq Hüseyn

Başına döndüyüm, ay Xaso xanım,
Vətənimdən durdum düşdüm yola mən.
Bu yolların yolçusuyam əzəldən,
Tifil ikən gəzdim eldən-elə mən.

Xaso xanım

Cəzana gəlirsən gədikdə, düzdə,
Məsləhətin nədi bu doğru sözdə.
Yeddi qaçaq durub Dərələyəzdə,
Qorxuram düşəsən əldən-ələ sən.

Aşıq Hüseyn

Xançalam, olmadı bıçaqdan qorxum,
Uçubdu başımdan haçandan qorxum,
Bəzirgan döyüləm, qaçaqdan qorxum,
Tutaram onları şirin dilə mən.

Xaso xanım

İstəsən söyləyim sözün düzünü,
Yaraya səpməzlər göydaş duzunu,
Xaso xanım Haso bəyin qızını,
Alıban da bizim eldə qalasan.

Aşıq Hüseyn

A gözəl kürd qızı, başımın tacı,
Ərəbzəngi kimi baxma qıyqacı,
Aşıq Hüseyn sənə deyibdi bacı,
Əlimi vermişəm özgə ələ mən.

## AŞIQ ƏLƏSGƏR İLƏ DEYİŞMƏ

Aşıq Ələsgər

Hərcayının, dilbilməzin ucundan,
Dönə-dönə mən ziyana düşmüşəm.
Doymaq olmaz gözəllərin buyundan,
Pərvanə tək yana-yana düşmüşəm.

Aşıq Hüseyn

Qırxlar piri özü verib dərsimi,
Şair cərgəsində sana düşmüşəm.
Arif məclisində, alim yanında,
Neçə dəfə imtahana düşmüşəm.

Aşıq Ələsgər

Dövlətim çox oldu, qıymadım pula,
Kor oldu gözlərim, yapışdım dula,
Nə ölür, nə itir canım qurtula,
Məcnun təki biyabana düşmüşəm.

Aşıq Hüseyn

Bir zaman əlimdə zil, bəm saz oldu,
Gözəllər mənimlə üzbəüz oldu,
Suyum artıq gəldi, tozhatoz oldu,
İndi də yumşalıb una düşmüşəm.

Aşıq Ələsgər

Ələsgər keçibdi namus, arından,
Aləm yata bilməz ahü-zarımdan,
Boşasam, qorxuram oğlanlarımdan,
Boşaya bilmərəm, qana düşmüşəm.

Aşıq Hüseyn

Özüm aşıq olub gəzirəm eldə,
Qaldı həsrət gözüm əbrişim teldə,
Ələsgər danışam təşbih timsalda,
Hüseyn deyər: yaman dona düşmüşəm.

## REYHAN İLƏ DEYİŞMƏ

Reyhan

İki aşıq bir meydanda tapılsa,
Əyləşib sazların düzəldər bir-bir.
Sual verib, cavabını alanda,
Duruban meydanı gözəllər bir-bir.

Hüseyn

Aşıqlıq elmindən mən xəbərdaram,
Aşmışam hər yerdə meydanı bir-bir,
Yüz on dörd kitabdan almışam dərsim,
Gəl sənə göstərim ayəni bir-bir.

Reyhan

Müxənnəs gözlərə mənəm bir pıçaq,
Çoxların salmışam meydandan qaçaq,
Hanı mənim kimi bir gəndi qoçaq,
Gələnlər yolların azallar bir-bir,

Hüseyn

Sona kimi sığal verib telinə,
Nə cumubsan sən bu eşqin gölünə,
Düşməyibsən kamil ustad əlinə,
Sənə dar elərəm dünyanı bir-bir.

Reyhan

Mən Reyhanam, tapmamışam tayımı,
Mərdlər itirməsin haqqı-sayımı,
Götürmüşəm ərənlərdən payımı,
Dediyim sözləri yazallar bir-bir.

Hüseyn

Yetmək olmaz Aşıq Söyün işinə,
Belə sözlər çətin girər guşuna,
Alım qucağıma, basım döşümə,
Dərim ağ sinəndən püstanı bir-bir.

## BƏYÇOBAN İLƏ DEYİŞMƏ

Aşıq Hüseyn

Məndən salam olsun duran çobana,
Gəl ikimiz bu cahandan danışaq.
Hansı gündə dünya bərqərar oldu?
Yerdən, göydən, asimandan danışaq.

Bəyçoban

Məndən salam olsun Aşıq Söyünə,
Gəl ikimiz bu qoyundan danışaq.
Beş yüz qoyun bir yatağa sığışar,
Şorakətdən, biyabandan danışaq.

Aşıq Hüseyn

Haqqın dərgahından kim qaçaq oldu?
Kimi hündür oldu, kim alçaq oldu?
Kəmərbəstələrdən kim qoçaq oldu?
Rüstəm Zaldan, qəhrəmandan danışaq.

Bəyçoban

Mənim pəhləvanım qoçdu, qoyundu,
Qara qoyun südü yaxşı öyündü.
Axsağın dərmanı dağdı, düyündü,
Sağaltmasa o qətrandan danışaq.

Aşıq Hüseyn

Kim idi dünyanı beşəlli tutdu?
Kim kimi cənnətdən atıb qovlatdı?
Kim idi dinini dinara satdı?
Mərifətdən, gövhər-kandan danışaq.

Bəyçoban

Çox bəd olar ağ qoyunun kürəsi,
Ovşar verməz tərs qomralın məməsi,
Olmaz qaçaq qoyun çoban görəsi,
Quzusunu almayandan danışaq.

Aşıq Hüseyn

Aşıq Söyün adı dilə gəlmədi,
Getdi gözəl sonam, gölə gəlmədi,
Çox çalışdım, Çoban ələ gəlmədi.
Dedim, bəlkə yol-ərkandan danışaq,

Bəyçoban

Əcəl quşu gəldi, keçdi qarşımdan,
Abi-neysan car oldu göz yaşımdan,
Bəyçoban de: gəl açıl sən başımdan,
Nə istərsən verim, ondan danışaq.

## ƏCƏM QIZI

Ahu gözlü, şux baxışlı, qəddi dal əcəm qızı,
Ləbi qönçə, yanağı gül, siyah tel əcəm qızı,
Zənəxdanın çöhrəsi xal, necə qoyum qiyməti,
Boyu uzun, gərdən uca, nazik bel əcəm qızı.

Zülfün kəmənd, sal boynuma, özün çıxar bazara,
Ovçuların şikarısan, səni sallam güzara,
Səni görən yəqin bil ki, tez-gec düşər azara,
Danışıban canım alma, şirin dil əcəm qızı.

Mənəm Söyün, yəqin bil ki, çoxdu mənim azarım,
Dostlarım xain çıxıbdı, bağlanıbdı bazarım,
Səni gördüm dərdim artdı, badə düşdü güzarım,
Gülüstanda ötən mənəm, yəqin bil, əcəm qızı.

## GÜLLÜNÜN

Ay həzarat, tərif edin, nə xoşdu çağı Güllünün,
Əmməyə də ləzzət verir zülal dodağı Güllünün,
Süddən ağ, baldan şirin büllur buxağı Güllünün,
Ay kimi şölə verir ayna qabağı Güllünün.

Ağ üzündə, buxağında tamam qoşa xal bəzənib,
Əynində zərdən küləcə, onu üstdən şal bəzənib,
Müxtəsər nəyin deyim, bir xonçalıq mal bəzənib,
Məscidi mehraba dönüb, qaşının tağı Güllünün.

Biçarə Aşıq Söyünün görün necə gəlir səsi,
Danışıban söylətməyə bu gözəli, var həvəsi,
Xəstələrə dərman olub yeni baş verib məməsi,
Aşığının canın alır süzgün baxmağı Güllünün.

## İÇİNDƏ

Çox gözəllər görmüşəm huri-qılman içində,
Morulun xalqındadı, yoxdu cahan içində,
Cəmisi hörmətlidi, yoxdu güman içində,
Çox gəzmişəm, görməmişəm, cəmi insan içində.

Haqq veribdi Morula allı-güllü göyçəklər,
Bahar, yaz fəsli gəlib, açılıbdı çiçəklər,
Tökülübdü üzlərinə top qara birçəklər,
Sözümdə yoxdu yalan, tamam əlvan içində,

Adamın canın alır şivə ilən nazları,
Tamamı mədhə layiq gəlinləri, qızları,
Alışıban gün kimi şəfəq saçır gözləri,
Əylənib aşıq, xanəndə söhbəti san içində.

Kimisi söz söyləyir, sinəsinin halı var,
Kimisinin üzündə hindi qara xalı var,
Kimisi mələkzadə, ləblərinin balı var,
Amanın əldən alıb qalmaz iman içində.

Fatma xanım şeydadı, Nabat bir can alandı,
Gövhər ilə Cəvahir, Bayaz təzə cavandı,
Həyat xanım huridi, Mələk xanım qılmandı,
Əyləşib o gözəllər qaşı kaman içində.

Toyda bu Aşıq Söyün gör nə fəğan eylədi,
Mən tərifi deyəndə, hamı can-can eylədi,
Onlara səbəbkarlıq bircə canan eylədi,
Əlləşib göylə-göylə, olub düxan içində.

## BƏSTİ!

Gəlməyib bərabərin küllühüm, cahana, Bəsti!
Ləblərini bənzətmişəm gülə, ireyhana, Bəsti!
Dişlərini oxşatmışam ləli-bədəxşana, Bəsti!

Yer üzündə gözəl sənsən, qalanı əfsana, Bəsti!
Qatılsa yüz gözələ ay içində tək görünür,
Nütfə deyil halalzada bilin özü pak görünür,
Səndən qeyri gözəllərin yaxaları çak görünür,
Geyinibdi zər qırmızı, bənzəyir tərlana Bəsti!

Gəşt edib mən görmüşəm, yoxdu tayın Gürcüstanda,
İrəvan, Gəncə, Bakı, yeddi kral Dağıstanda,
Bundan bir ətir gəlir, bəlkə yox baği-rizvanda,
Ya huridi, ya pəridi, bənzəyir insana Bəsti!

Belə gözəl bu nişanda şəhər, çöldə görməmişəm,
Yanağın gözəlliyini lalə, güldə görməmişəm,
Belə ləfzü nə qumruda, nə bülbüldə görməmişəm,
Şəmkir üstə xəlq olunub, qeyri eldə görməmişəm.
Aşıq Söynü güzəşt elə, getsin Naxçıvana, Bəsti!

## YÜYÜR!

Qıs vurun qoçaqlarım iti canavara, yüyür!
A gədə, Novruzalı çıx kəndə, xəbərə yüyür!
A gədə Mırdışalı, sən də bulaqlara yüyür!
Ağrın alım uzun Bayram, günüm oldu qara, yüyür!

Subayların amanatı bozdarı beldən qoygunan,
Açgılan zəncirini, toplanı əldən qoygunan,
Ot gətir, alaf gətir, pələşi gendən qoygunan,
Amandı daqqa Xəlil, sən də bir kənara yüyür!

Quduz dəymiş canavarlar görün nə tufan elədi,
Öldürdü yeddi qoyun, qanına qəltan elədi,
Dağıtdı qomral qoçu, bilin yəqin qan elədi,
Topal tutdu canavarı dərisin şan-şan elədi,
A gədə Əhmədalı, çöllərə, çallara yüyür!

Yağış yağar, şimşək oynar, görün göy necə guruldar,
Yatıbdı tənbəl Qulu, axşamdan bəri xoruldar,
Bir kərə qoçdan ötrü bax Məhəmməd nə zarıldar,
Ağlamaqdan fayda yoxdu uzun qulaqlara, yüyür!

Quduz dəymiş canavar qoyunlara saldı talan,
A gədələr, düz danışın, sözünüzdə vardı yalan,
İt uşağı qudurubsuz, yuxluyarmı çoban olan?
Şahqulu çox yaxşı qalxdı, boğazına keçdi palan,
A gədə Şahqulu, aman döşlərə dübara yüyür!

Erkəcləri yoxlayın, ala şimşək xarı gedib,
Ağ seyiz, qara seyiz, göy təpəl yuxarı gedib,
Göy Sadıx zehinlidi, deyir qoyun yarı gedib,
A gədə, göy Sadıq, sən də bu yanlara yüyür!

Beş keçi, on beş qoyun, kənddə bir evdən tapılıb,
Yeddi toğlulu qoyun da yağlı güneydən tapılıb,
On beş toğlulu qoyun qarlı qüzeydən tapılıb,
Vəsf elər Aşıq Söyün belə Bəyçoban tapılıb,
Yüz manat nəmər verdi min atı, Dilbara yüyür!

## SƏNƏ NƏ?

Lotuyam, bambılıyam, talibi-bəngəm, sənə nə?
Çox gülüb, çox danışan, çox da cəfəngəm, sənə nə?
Ataram düşmən üçün topu tüfəngəm, sənə nə?
Dərdü qəm barkeşiyəm[1], köhnə peşəngəm, sənə nə?

[1] Yükdaşıyan, yükçəkən

Şairəm, söz deyərəm hamıdan başam, geri dur!
Ağzımdan od tökülür, naram, ataşam, geri dur!
Bez, qədək müştərisi, alam, qumaşam, geri dur!
İstəsən tərpədəsən, tərpənməz daşam, geri dur!
Tərpənsəm ev yıxaram, bir ağır səngəm[1], sənə nə?

Get atlasın yaxşısından, yaşılından da al, gətir,
Mən özüm alıb-satanam, mənə sən tirmə şal gətir,
Sərrafam, tez seçərəm, gövhər ilə ləl gətir,
Girmişəm meydanına, meydanıma kəl gətir,
Dəryalar boylanmışam, mən bir nəhəngəm, sənə nə?

Dəryaya tək gəlmişəm, dal ibni-Dal kimi,
Aləmə adım düşüb, ol Rüstəmi-Zal kimi,
Sözdən qala yapmışam, qələyi-Səlsal kimi,
Əridib saf etmişəm, qumriyə misal kimi,
Oxumuşam min bir dili, çox da firəngəm, sənə nə?

Şəmkirli Aşıq Söyünəm, mən burada yar eylədim,
Urmu, Salmas, Marağa, İsfahanı zar eylədim,
Gəzdim Çəçən, Çərkəzi, nə qorxdum, nə ar eylədim,
Dəmir qapı Dərbənd, Quba, Gürcüstanı xar eylədim,
Tülküsən, geridə dur, şiri pələngəm, sənə nə?

## MOLLALAR

Bilmirəm nə istəyir bizdən ruhani mollalar,
Miras paltarları geyib, artırır şanı mollalar,
Beş şahı pul görəndə, satır imanı mollalar,
Talayıb xalqı çapıb, sürür dövranı mollalar.

Harda bir gözəl görür, dostluq qatır, al eləyir,
Tellərinə cadu yazır, özünə tez mal eləyir,
Səqirlərin var-yoxunu çəkib çalhaçal eləyir,
Haraya yönü düşsə, yıxır oranı mollalar.

[1] Daş

Hər kimin müşkülü var, mollaya tərəf yol alır,
Molla görür nəzir yoxdu, onu məlul yola salır,
Sələminə pul götürüb o biçarə bir də gəlir,
Toplayıb rüşvət yeyər, eylər tufanı mollalar.

Doğrusu, bu mollalar bu dünyanı qarışdırır,
Arpaya ism oxuyub, divarlara yerişdirir,
Ocağa nal basdırıb, zinakarlar barışdırır,
Yazır kaftar dərisin, bir-birilə görüşdürür,
Mən sirr açan deyiləm, qatır hər yanı mollalar.

Küpəyə tilsim düzmək, bilməm nə işdi, camahat,
Sərçənin qanın gəzməz, bilməm nə işdi, camahat,
Hophop ilə dua yazmaq, bilməm nə işdi, camahat,
Nə qədər xalqı soyur, heç olmur qani mollalar,

Bizlərdə bir molla var, sehr edir, əfsanə yazır,
Göy göyərçinin qanın tökür qələmdana, yazır,
Arvadlara saç gətirdir, eləyir divanə, yazır,
Eybin elə yayaram, məni bir tanı, mollalar.

Ağ başlı şeytan mollalar, gərək mənlə düz dolana,
Sataşmaya göhərkana, dura üzbəüz dolana,
Oturalar məclisimdə, ortalıqda söz dolana,
Mənimlə düz dolana, qurtara canı mollalar.

Şəmkirli Aşıq Söyünəm, bilin, taqsır yoxdu məndə,
Gərəkdi ki, sataşmasın, molla olan dərdi məndə,
Yetmiş beş mollanın başı üyünər bir dəyirmanda,
Söylərəm, əməllərin tutsun dünyanı, mollalar!

## *ZƏNCİRLİ-CIĞALI MÜSƏDDƏS*

### KÖNÜL

Ay həzarat, qulaq asın,
Bir təzə yar istər könül.
Gözləri şəhla kimi,
Zülfü ənbər istər könül.
Yanağı gül yarpağı,
Ləbi əhmər[1] istər könül.
Tər əndamı güldən nazik,
Sinəsi qar istər könül.
Qoyunu cənnətin bağı,
Məməsi nar istər könül.
    Qoyun rizvan,
    Huriyi-qılman,
    Can sənə qurban,
    Öldüm ay aman,
    Qaşları kaman.
Qaşları qövsi-qüzeh,
Belə düxtər[2] istər könül.
Düxtərin gül sifəti,
İrəngi lalə qırmızı.
Tikilib qullabdan,
Sərində şalı qırmızı.
Qoyubdu tər xınanı,
Ağ, nazik ələ qırmızı.
Məclis içində saqi,
Əldə piyala qırmızı.
    Dodağından öpəsən,
    Yanağından öpəsən,
    Buxağından öpəsən,
    Ayağından öpəsən.
Çünki qədəm götürüb,
Belə nigar istər könül.

---

[1] Qırmızı
[2] Qız

Nigarın barmağında,
Üzüklərin qaşı yaşıl.
Sən ala gözlü sona,
Çalxan göldə başı yaşıl.
Salıbsan bu canıma,
Eşqinin atəşi yaşıl.
Yanağı gül yarpağı,
Sırğalar da guşi yaşıl.
Geyinib al qəddinə,
Libasın qumaşı yaşıl,
        Geyib qumaş xasından,
        Döşündə düyməsindən,
        Qayım tut yaxasından,
        Xışmala məməsindən,
        Belə məmə əmən kəs,
        Necə nübar istər könül.

Nübar olmuş bu qızın,
Başmağının nalı qara,
Yanları işləməli,
Üstü sarı, dalı qara.
Ayağında xoy corabı,
Eşməsinin külü qara.
Düzülübdü üzərinə,
Siyah, qoşa xalı qara.
Tökülübdü gül üzünə,
Ağ üzündə teli qara.
Telləri şahmarısan,
        Söylə kimin yarısan,
        Oxladın aşkarı sən,
        Əcəb kamandarısan,
        Ağ sinəsi qarısan.
Sinəsi mərmər kimi,
Belə ülkər istər könül.

Əlkər zalım geyinib,
Çəkməsi innabı, sarı.

Yaxası gülabatın,
Üstündən qolları sarı.
Geyinib xəz küləcə,
Haşyaların bağı sarı.
Əlində tel qayçısı,
Güzgüsünün qabı sarı.
Götürüb gülabdanı,
İçinin gülabı sarı.
Gülab gülün al olu,
Gözəllərdə qal olu,
Üstə qalmaqal olu,
Əlif qəddi dal olu,
Hərdəm min xiyal olu.
Şəmkirli Aşıq Söyün,
Çeşmi-xumar istər könül.

## BU GƏLƏN

*Cığalı müxəmməs*

Həzarat, bircə baxın,
Canlar alandı bu gələn.
Gözlər cəllada dönüb,
İsmi Qaytandı bu gələn.
Özü bir səxa kanı,
Adil divandı bu gələn.
Özü gül, saçı sünbül.
Yaqut-Yəməndi bu gələn.
Yaquta bənzər yanağı,
Mərmərə bənzər buxağı,
Bir aya bənzər qabağı,
Kövsərə bənzər dodağı,
Ağ gülə bənzər ayağı,
Qoy bassın gözüm üstə,
Qucmalı candı bu gələn.

Bağlayıb gümüş kəmər,
Üstü tamam danə nişan.
Geyinib qəddi-dala,
Tər libası, tər yaraşan.
Ağ əndam başdan-başa,
Ətiri gül, müşk-fəşan.
Al yanaq, ayna qabaq,
Siyah zülfü ənbər əfşan.
Həm didarı şirindi,
Həm göftarı şirindi,
Bağça barı şirindi,
Qoşa narı şirindi.
Bir belə bəşər olmaz,
Huri-qılmandı bu gələn.

Axşam, sabah mən dolandım,
Belə gözəlin başına.
Vəsməni çəkib gözünə,
Sürməni yaxıb qaşına.
Keçirib qızıl tana,
Nazik əliynən guşuna.
Canı qurban edəsən,
Bir belə cənnət quşuna.
Götürüb sitarəni,
Mərməri basıb döşünə.
Döşündə məməsi var,
Qızıldan düyməsi var,
Nə şirin həvəsi var,
Kəklik kimi səsi var,
Bir ağır ölkəsi var,
Ölkəsinə qurban olum,
Misrə sultandı bu gələn.

Gecə-gündüz əməsən,
Ləblərindən misli-gülab.
Eşqinə düşənlərin,
Canında qalmayıbdı tab.

Nə yatım, nə dincəlim,
Gözlərimdə olmayıb xab.
Bir miskin gəda ola,
Mənim kimi xanəxərab.
Zəhər versən içərəm,
Nə ki əllərinlə şərab.
Nazik əlinə qurban,
Qara telinə qurban,
İncə belinə qurban,
Danış, dilinə qurban,
Gələn yoluna qurban,
Bu gəlişdə insan olmaz,
Nuşirəvandı bu gələn.

Biçarə Aşıq Söyün,
Bax yar nə nazınan gəlir.
Geyinib qəddi-dala,
Küləcə xəzinən gəlir.
Yığıbdı gözəlləri,
Qırx incə qızınan gəlir.
Götürüb setarəni,
Söhbəti sazınan gəlir.
Deyəsən, şeyda bülbül,
Baharü yazınan gəlir.
İçməmişəm, ayılam,
Ağıl gedib zayılam,
Comalına mayılam,
Hər nə desən qayılam,
Qapınızda sayılam,
Mənə inayət eləsin,
Dərdə dərmandı bu gələn

## *BAYATILAR*

Söyünü yara bağlar,
Bayqular yara bağlar,
Yaramı yar bağlasın,
Yar yaxşı yara bağlar.

Söyünü belə bağlar,
Kəmərin belə bağlar.
Üzmədik gül qonçasın,
Göy geysin belə bağlar.

## MÜNDƏRİCAT


Aşıq yaradıcılığı . . . . . . . . . . . . . . .4

OZAN HEYDƏR

***Gəraylılar***
Yetər . . . . . . . . . . . . . . . . . . . . . . .17
Gəlməz . . . . . . . . . . . . . . . . . . . . .17

OZAN İBRAHİM

***Gəraylılar***
Üstündə . . . . . . . . . . . . . . . . . . . .18
Yetməz . . . . . . . . . . . . . . . . . . . . .18

***Qoşmalar***
Deyərlər . . . . . . . . . . . . . . . . . . . .19
Gəlməzmi? . . . . . . . . . . . . . . . . . .20

MİSKİN ABDAL

***Gəraylılar***
Nədi? . . . . . . . . . . . . . . . . . . . . . .21
Dönər . . . . . . . . . . . . . . . . . . . . . .21
Başın . . . . . . . . . . . . . . . . . . . . . . .22
Düşərsən . . . . . . . . . . . . . . . . . . . .22
Fələk . . . . . . . . . . . . . . . . . . . . . . .23
Allah, ölümüm haqdı! . . . . . . . . .23
Gedin deyin Lələ bəyə . . . . . . . . .24
Yarım . . . . . . . . . . . . . . . . . . . . . .24

***Qoşmalar***
Ya Əli . . . . . . . . . . . . . . . . . . . . . .25
Unutma . . . . . . . . . . . . . . . . . . . . .25
Dağlar . . . . . . . . . . . . . . . . . . . . . .26
A dağlar . . . . . . . . . . . . . . . . . . . .26
Dağların . . . . . . . . . . . . . . . . . . . .27
A yaz ayları . . . . . . . . . . . . . . . . .27
Gedər . . . . . . . . . . . . . . . . . . . . . .28
Məni . . . . . . . . . . . . . . . . . . . . . . .28
Qaldı . . . . . . . . . . . . . . . . . . . . . . .29
Piriydi . . . . . . . . . . . . . . . . . . . . . .29
Bundan sənə nə? . . . . . . . . . . . . .29
Ağlaram . . . . . . . . . . . . . . . . . . . .30
Əlif-Lam . . . . . . . . . . . . . . . . . . .30
Dönərmi . . . . . . . . . . . . . . . . . . . .31
Qocaldım . . . . . . . . . . . . . . . . . . .31
Nökərəm . . . . . . . . . . . . . . . . . . . .32
Ağlaram . . . . . . . . . . . . . . . . . . . .33
Ayaq istədi . . . . . . . . . . . . . . . . . .33
Olmaz . . . . . . . . . . . . . . . . . . . . . .34

***Təcnislər***
El ata . . . . . . . . . . . . . . . . . . . . . .34
Məni . . . . . . . . . . . . . . . . . . . . . . .35

***Divanilər***
Ya Əli . . . . . . . . . . . . . . . . . . . . . .35
Qoymaram . . . . . . . . . . . . . . . . . .36
Məni . . . . . . . . . . . . . . . . . . . . . . .36
Yol vermədim . . . . . . . . . . . . . . .37
Narın üzə bilmərəm . . . . . . . . . . .37
Zay olmusan . . . . . . . . . . . . . . . . .38

QURBANİ

***Gəraylılar***
Dolana-dolana . . . . . . . . . . . . . . .39
Gülə, gülə . . . . . . . . . . . . . . . . . .39
Tez-tez . . . . . . . . . . . . . . . . . . . . .40
Olmaz . . . . . . . . . . . . . . . . . . . . . .40
Aldatdı məni . . . . . . . . . . . . . . . .41
Gəldim . . . . . . . . . . . . . . . . . . . . .41
Aldığım . . . . . . . . . . . . . . . . . . . .42
Gəlirəm mən . . . . . . . . . . . . . . . .42
Pərim gəlsin . . . . . . . . . . . . . . . .43
Yetirməsin . . . . . . . . . . . . . . . . . .43

Dilbər ......................44
***Qoşmalar***
Kənarında ..................45
Dördünə ....................45
Ürəyimdə ...................46
Bu işə .....................46
Pərinə .....................47
Dərər sənə .................47
Olmaz ......................48
Məni .......................48
Selləni ....................49
Qal indi ...................49
İndi .......................50
Eylədi .....................51
Bənövşəni ..................51
Pəri .......................52
Səni .......................52
Nədəndi? ...................53
Gətiri .....................53
Yeridi .....................54
Namidarıdı .................54
Ayrı .......................55
Gəncə hey ..................55
Yarı görmüşəm ..............56
Yetişdim ...................56
İstərəm ....................57
Pərim ......................57
Gəlmişəm ...................58
Mənim ......................58
Eylədim ....................59
Gedirəm ....................59
Deyiləm ....................60
Almağa gəlmişəm ............60
Gəlmişəm ...................61
Rast gəldim ................61
Gül üzə ....................62
Görməsin ...................62
Deyərsən ...................63
Saqinin ....................63
Məndən .....................64
Gəzə-gəzə mən ..............64
Xoş gəldin .................65
Bilmədinmi sən? ............65
Qızların ...................66
Bağlasın ...................66
Sevinsin ...................67
Sənə qurban ................67
Ləblərin ...................68
Ondan öldür! ...............69
Qal olur ...................69
Bəhanədi bu! ...............70
Ellərə doğru ...............70
Dönübdü ....................71
Gülərmiş ...................72
Açılmış ....................72
Bir dala ...................73
Yetincə ....................73
Bir də yaz .................74
Yara üz ....................74
Tapılmaz ...................75
İndi .......................75
Əsər indi! .................76
Oyada məni ................76
Canım hey! .................77

LƏLƏ

***Bayatılar*** ..................78

BAYAT ABBAS

***Gəraylı***
Söylə ......................91

***Qoşma***
Gəlir ......................92

DƏRDLİ NƏSİB

Geriyə .....................93
Haqq divanı ................93
Obası çiçəkli, eli Göyçədi .....94
Çatıb-çatmayıb?! ...........94

AŞIQ ABBAS TUFARQANLI

***Gəraylılar***

Gəz buralarda ................95
Olmaz ......................95
Əylənməz ...................96
Məni ........................96
Getdi .......................97
Yar gəldi! ...................97
Ah-zarınandı ...............98
Məzə dağı ...................98
Natavanı ....................99
Vaxtıdı .....................99
Çağladı ....................100
Mənim ....................100
Gedirəm ...................101
Bilmərəm ..................101
Könlüm! ...................102
Eyləsin ....................102
Neylər? ....................103
Dilbər .....................103
Yar gəlmir ................104

***Qoşmalar***

Ayağına ...................104
Göz ala ....................105
Bab ola ....................106
Yüz ilə ....................106
Zülümdü mənə .............107
Olmaz .....................107
Bəyənməz .................108
Yara yüz ...................109
Gülgəz! ....................109
İndi .......................110
Yada sal məni ..............110
Var mənim .................111
Ayrıldım ...................111
Belə gedərəm ..............112
Deyiləm! ..................112
Gəlsin .....................113
Dərbəndin .................113
Qaşların ..................114
Dərd ayağından ............114
Gəlmədi ...................115
Kərimdi ...................115
Neçədi? ...................116
Bilmədim ..................116
Pəri! ......................117
Buradan səni ..............117
Bu sabahları ...............118
Yarım apardı! ..............118
Bu yandadı ................119
Sarı gəl, sarı ..............119
Ayrıl! .....................120
Əzizim! ...................120
Görmüşəm .................121
Pərim! ....................121
Ayrı salmasın .............122
Xoş gəldin ................122
Aydın olsun! ..............123
İncimәsin! ................123
Sənə qurban! ..............124
Gəlin! ....................124
Öp! ......................125
Yandırar ..................126
Ay bu yanda dur! ...........126
Yar ......................127
Yetişər ...................127
Bar gəli ...................128
Sudan gəlir ................128
Oynar ....................129
Məni gör! .................129
Getdilər ...................130
Mahi-ənvərdi ..............130
Nə gözəl imiş .............131

SARI AŞIQ

***Qoşmalar***

Yetişdi ...................132
A yaxşı! ..................132
Görsəydim ................133

Gözlərin . . . . . . . . . . . . . . . . . . .134
Gəlmədin . . . . . . . . . . . . . . . . . . .134
Var . . . . . . . . . . . . . . . . . . . . . . .135

***Bayatılar*** . . . . . . . . . . . . . . . . . . .136

XƏSTƏ QASIM

***Gəraylılar***
Dünya . . . . . . . . . . . . . . . . . . . . .153
Kimi . . . . . . . . . . . . . . . . . . . . . .153
Gördüm . . . . . . . . . . . . . . . . . . . .154
Başına dolandığım . . . . . . . . . . .155
Yoldan eylərsən . . . . . . . . . . . . .155
Yoxdu? . . . . . . . . . . . . . . . . . . . .156
Çıxarır . . . . . . . . . . . . . . . . . . . .156
Eylərlər . . . . . . . . . . . . . . . . . . .157
Düşdü, qar düşdü . . . . . . . . . . . .158

***Qoşmalar***
Necola? . . . . . . . . . . . . . . . . . . . .158
Alınca . . . . . . . . . . . . . . . . . . . . .159
Ola . . . . . . . . . . . . . . . . . . . . . . .159
Saz ola! . . . . . . . . . . . . . . . . . . . .160
Görüncə . . . . . . . . . . . . . . . . . . .160
Əlimdə . . . . . . . . . . . . . . . . . . . .161
Olmaz . . . . . . . . . . . . . . . . . . . . .162
Yar olmaz . . . . . . . . . . . . . . . . . .162
Üzhaüz . . . . . . . . . . . . . . . . . . . .163
Getdi . . . . . . . . . . . . . . . . . . . . . .164
Ahular məni . . . . . . . . . . . . . . . .164
Naməni . . . . . . . . . . . . . . . . . . . .165
Al indi . . . . . . . . . . . . . . . . . . . . .165
İndi . . . . . . . . . . . . . . . . . . . . . . .166
Qal indi . . . . . . . . . . . . . . . . . . . .167
Yaxşıdı . . . . . . . . . . . . . . . . . . . .168
Divanəsidi . . . . . . . . . . . . . . . . .168
Qurbanı! . . . . . . . . . . . . . . . . . . .169
Aşnalığı . . . . . . . . . . . . . . . . . . .169
Qalıbdı . . . . . . . . . . . . . . . . . . . .170
Sənəm, gəl! . . . . . . . . . . . . . . . .170
Sevdiyim! . . . . . . . . . . . . . . . . . .171
Tər gülər sənəm . . . . . . . . . . . . .171
İnsan! . . . . . . . . . . . . . . . . . . . . .172
Olsun . . . . . . . . . . . . . . . . . . . . .173
Çaphaçap . . . . . . . . . . . . . . . . . .173
Deyərlər . . . . . . . . . . . . . . . . . . .174
Eylər-eylər . . . . . . . . . . . . . . . . .175
Yayınur . . . . . . . . . . . . . . . . . . . .175
Dağa . . . . . . . . . . . . . . . . . . . . . .176
Kəkliklər . . . . . . . . . . . . . . . . . .176
Ha mayıl oldu . . . . . . . . . . . . . . .177
Oxurdu . . . . . . . . . . . . . . . . . . . .178
Ay hayıf-hayıf . . . . . . . . . . . . . .178

QUL MAHMUD

***Qoşmalar***
Yetir . . . . . . . . . . . . . . . . . . . . . .180
Ağlaram . . . . . . . . . . . . . . . . . . .180
Mənim . . . . . . . . . . . . . . . . . . . . .181
Qovuşdu . . . . . . . . . . . . . . . . . . .181
Tapmadım . . . . . . . . . . . . . . . . . .182
Gecələr . . . . . . . . . . . . . . . . . . . .182
Gəlmişəm . . . . . . . . . . . . . . . . . .183

***Gəraylı***
Görmüşəm . . . . . . . . . . . . . . . . .183

ŞIMPIRLI SEVGİLİ

Yarı mən . . . . . . . . . . . . . . . . . . .185
Mahmudum . . . . . . . . . . . . . . . .185
Eylədi . . . . . . . . . . . . . . . . . . . . .186
Yollar, hey! . . . . . . . . . . . . . . . . .186
Mənim . . . . . . . . . . . . . . . . . . . . .187
Oğlan . . . . . . . . . . . . . . . . . . . . .187

XƏSTƏ HƏSƏN

Üstündədir . . . . . . . . . . . . . . . .188
Gözəllər . . . . . . . . . . . . . . . . . . .189
Dırqınada . . . . . . . . . . . . . . . . . .189
Bir günəş . . . . . . . . . . . . . . . . . .190
Mənim . . . . . . . . . . . . . . . . . . . . .190

AŞIQ VALEH

***Gəraylılar***


Eylə .....................191
Səri .....................191
Kağızı .....................192
Gəldim .....................192


***Qoşmalar***


Dünya! .....................193
Bəyənməz .....................193
Gəlmisiz .....................194
Deyilmi? .....................195
Məndədi .....................195
Nə dedi? .....................196
Yaxşıdı .....................196
Hardadı? .....................197
Sevdiyim! .....................197
İstərəm .....................198
Düşmüşəm .....................199
Görəsən .....................199
Olsun .....................200
Var olsun .....................200
Mən .....................201
Bir gün! .....................201
Çəkər .....................202
Adı var .....................202
Dardadır .....................203
Keçibdir .....................204
Sambur .....................204
Söhbət aç .....................204
Yavaş-yavaş .....................205
Bükülmüş .....................205


***Müxəmməs***


Mollalar .....................206


VARXİYANLI AŞIQ MƏHƏMMƏD

***Gəraylılar***


Yavaş get .....................208
Tellərin .....................208
Yoxdu .....................209
Saldın .....................209
Qoyun içində .....................210


***Qoşmalar***


Söz səndən .....................211
İnciməsin .....................211
Başına dolandı .....................212
Yamandı .....................212
Novcavan .....................213
Gəlin! .....................213
Dedin, nə dedi? .....................214
Tükəzban! .....................214
Yada düşən yar .....................215
Olmağına .....................215
Tən edər .....................216
Yara mən .....................216
Hay gəlməz .....................217
Yaraşığı .....................217
Bu qız .....................218
Günüdü .....................218
Ariflər! .....................219
Canım .....................219
Könül! .....................220
Qəriblik .....................220
Ağlaram .....................221
Bir cam az .....................221
Olsun .....................222


***Təcnislər***


Bağları .....................223
Ya “dal”a .....................223


***Müxəmməslər***


Gəlir .....................224
Qurban olasan .....................225


***Cığalı-zəncirli müsəddəslər***


Yarıdı bu .....................226
Ölürəm .....................228

***Divanilər***
Əziz .......................231
Neyləyim? .................231
Naləvü-əfğan eylə ...........232
Deyər .....................232
Yüküm ....................233
Qadasın aldığım ............233

DƏLLƏK MURAD

***Gəraylılar***
Olmaz ......................234
Gen gəz ...................234

***Qoşmalar***
Eyləmə ....................235
Olmaz ......................236
Nədi? .....................236
Yaxşı dur ..................237

YƏHYA BƏY DİLQƏM

***Gəraylı***
Gördüm ....................238

***Qoşmalar***
Niyə gəlmədi? ..............239
Gəzən yerləri ...............239
Havalanıbdı ................240
Düşmüşəm ................240
Yetişirmola? ...............241
Yadıma düşdü ..............241
Varmola? ..................242
Azalarmola? ...............242
Ağlaram ..................243
Məni ......................243
Dağlar ....................244
Gəlsin ....................244
Görmüşəm ................245
Gəlmədi ..................246
Gəlmədi ..................247
Düşübdü ..................248

***Deyişmə***
Nə dedi? ..................249

ŞAİR MƏMMƏDSÖYÜN

***Gəraylılar***
Mən olum .................251
Yatıb, oyanmaz, oyanmaz .....251

***Qoşmalar***
Ağrı dağı ..................252
Deyərlər ..................252
Xəbər al, deyim .............253
Məni .....................255
Yəni nə? ..................255

***Təcnislər***
Ay ana, ana ................256
Ha yana-yana ..............256
Yar, sana məni .............257

***Divanilər***
Bax ......................258
Gəlmədi ..................259
Neylərəm?! ................260
Olmasa ...................261

AŞIQ ALI

***Gəraylılar***
Yalan oldu ................262
Musa bəy .................262

***Qoşmalar***
Gedirəm ..................263
Qaldı .....................263
Dolandırı ..................264
Deyərsən .................264
Bənzərsən .................265
Getdi .....................265
Gərək ....................266
Gedirəm ..................266

Nə qaldı ...................267
Dedi ......................267
Ağrı dağı! .................268
Çatarmı? ..................269

***Təcnis***
Almasın ...................269

***Qıfılbənd və deyişmələr***
Meydana gəl ...............270
Uludu .....................272

AŞIQ PƏRİ

***Gəraylı***
Eylədin! ...................274

***Qoşmalar***
Ağlaram ...................274
Sevdiyim ..................275
Dilə sən ...................276
Sənə ......................277
Sənin .....................278

MÜCRİM KƏRİM

***Gəraylılar***
Gülə ......................280
Mən ......................280

***Qoşmalar***
Mənim ....................281
Yetirrəm ..................282
Oldu ......................282
Gəlmədi ...................283
Kim ola? ..................283
Olmaz ....................284
Dul arvad .................284
Cahana ...................285
Qılmısan ..................285

***Təcnislər***
Qarşı .....................286
Ha bular, bular .............287

***Divani***
Ona ......................287

***Divani-müxəmməs***
Ayrılıq ...................298

***Qəzəllər***
Tufana ....................299
Eyləməz ..................290
Əlvida! ...................290

MƏHƏMMƏD BƏY AŞIQ

***Gəraylılar***
Mən ......................292
Əlindən ...................292
Bu .......................293
Qadasın aldığım ............294
Ayrı ......................294
Ayrılmış ..................295
İstər ......................296
Gözlərin ..................297
Gəldim ...................297

***Qoşmalar***
Olubdur ...................298
Sevmişəm .................299
Gəzər ....................300
Sən-sən ..................300

***Təcnis***
Sənəm! ...................301

***Yazışmalar***
Qasım bəy Zakirə ...........302
Aşıq Pəriyə ................302

Sevdiyim . . . . . . . . . . . . . . . . . . .303
Aşıq Pəriyə . . . . . . . . . . . . . . . . .304
Oğlana . . . . . . . . . . . . . . . . . . . .305

PADARLI ABDULLA

***Bayatılar*** . . . . . . . . . . . . . . . . . . .306

***Gəraylı***
Getdi mənim . . . . . . . . . . . . . . . .307

***Qoşmalar***
Bəyənməz . . . . . . . . . . . . . . . .307
Oldun? . . . . . . . . . . . . . . . . . . . .308
Görmədim . . . . . . . . . . . . . . . .309
Bu nişandadır . . . . . . . . . . . . . .310
Qayıtdı . . . . . . . . . . . . . . . . . . .310
Olsun . . . . . . . . . . . . . . . . . . . .311

***Təcnislər***
A sayələndi . . . . . . . . . . . . . . .311
Bax! . . . . . . . . . . . . . . . . . . . . . .312

AŞIQ BƏSTİ

***Gəraylılar***
Gəldi . . . . . . . . . . . . . . . . . . . . .313
Düşdü . . . . . . . . . . . . . . . . . . . .313
Daşa dəydi . . . . . . . . . . . . . . . .314
Lalə . . . . . . . . . . . . . . . . . . . . . .314
Düşsün . . . . . . . . . . . . . . . . . . .315
Oldum . . . . . . . . . . . . . . . . . . . .315
Ağladım . . . . . . . . . . . . . . . . . .316
Dağlar . . . . . . . . . . . . . . . . . . . .316
Oyan, dağlar . . . . . . . . . . . . . . .317
Sənin . . . . . . . . . . . . . . . . . . . . .317
Ayrı . . . . . . . . . . . . . . . . . . . . . .318
Yeri . . . . . . . . . . . . . . . . . . . . . .318
Heç . . . . . . . . . . . . . . . . . . . . . .319
Çobandağı . . . . . . . . . . . . . . . . .319
Ayrım eylindədi . . . . . . . . . . . .320
Ayrımın gözəlləri . . . . . . . . . . .320
Bəzənir . . . . . . . . . . . . . . . . . . .321

***Qoşmalar***
A bəy . . . . . . . . . . . . . . . . . . . . .321
Tapılmaz . . . . . . . . . . . . . . . . . .322
Dəyməmiş . . . . . . . . . . . . . . . .322
Necoldu? . . . . . . . . . . . . . . . . . .323
Bu dunya . . . . . . . . . . . . . . . . .323
Bilmirəm . . . . . . . . . . . . . . . . .324
Olmaz, ay olmaz . . . . . . . . . . . .324
A Qurban! . . . . . . . . . . . . . . . . .325
Getdi . . . . . . . . . . . . . . . . . . . . .325
Bilginən . . . . . . . . . . . . . . . . . .326
Gördünmü? . . . . . . . . . . . . . . . .326
Düşmüşəm . . . . . . . . . . . . . . . .327
Ərlə arvadın deyişməsi . . . . . .327

MƏLİKBALLI QURBAN

***Qoşmalar***
Qurban olduğum . . . . . . . . . . . .328
Bilirmi? . . . . . . . . . . . . . . . . . . .328
Ərərdir . . . . . . . . . . . . . . . . . . .329
Gəzər . . . . . . . . . . . . . . . . . . . .329
Ağlasın . . . . . . . . . . . . . . . . . . .330
Qılmandan . . . . . . . . . . . . . . . .330
Olsun . . . . . . . . . . . . . . . . . . . . .331

***Təcnislər***
Gör . . . . . . . . . . . . . . . . . . . . . .332
Gərək . . . . . . . . . . . . . . . . . . . .333

***Divani-müxəmməslər***
Gəlib . . . . . . . . . . . . . . . . . . . . .333
Bu qızın . . . . . . . . . . . . . . . . . .334

***Bayatılar*** . . . . . . . . . . . . . . . . . . .335

ŞƏMKİRLİ AŞIQ HÜSEYN

***Gəraylılar***

Üstünə ....................336
Layıqdı ....................336
Bu qız məni ................337
Qoynunda ..................337
Ay qız! ....................338
Bayaz! .....................338

***Qoşmalar***

Yüz olu ....................339
Kimi .......................340
Başıma ....................340
Olar .......................341
Məndən ...................341
Sarı gül ....................342
Yaxşıdı ....................342
Danışma ...................343
Oynasın ....................343
Görmüşəm .................344
Fatmanın ...................345
Olacaqdı ...................345

***Təcnis***

On beş il ..................346

***Deyişmələr***

Qarı ilə deyişmə .............347
Cahan qarı ilə deyişmə ........348
Xaso xanımla deyişmə ........350
Aşıq Ələsgər ilə deyişmə ......351
Reyhan ilə deyişmə ..........352
Bəyçoban ilə deyişmə ........353

***Divanilər***

Əcəm qızı ..................355
Güllünün ...................355
İçində .....................356

***Divani-müxəmməslər***

Bəsti! .....................357
Yüyür! ....................357
Sənə nə? ...................358
Mollalar ...................359

***Zəncirli-ciğalı müsəddəs***

Könül .....................361
Bu gələn ...................363

***Bayatılar*** ..................366

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektorlar: | *Pərinaz Səmədova*<br>*Ceyran Abbasova* |

Yığılmağa verilmişdir 12.08.2004. Çapa imzalanmışdır 31.01.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 23,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 17.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.